AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

214 NÖMRƏLİ TAM ORTA MƏKTƏB

# Müəllimin əl kitabı:

# SİNFİN İDARƏ OLUNMASI


**ELMİ REDAKTORLAR:**
Qoşqar Məhərrəmov
Fəttah Fəttayev

**MÜƏLLİFLƏR:**
Qoşqar Məhərrəmov
Fəttah Fəttayev
Könül Pirverdiyeva
Rza Məmmədov
Cəfər Mənsimi




**LİNKƏ DAXİL OLARAQ**

**VƏSAİT HAQQINDA FİKİRLƏRİNİZİ BİLDİRMƏYİNİZİ**

**XAHİŞ EDİRİK:**

**https://forms.gle/ufzxkVKFR5h5Wj6k8**

Qoşqar Məhərrəmov, Fəttah Fəttayev, Könül Pirverdiyeva,

Rza Məmmədov, Cəfər Mənsimi.

# MÜƏLLİMİN ƏL KİTABI

# SİNFİN İDARƏ OLUNMASI

**Bakı şəhəri, 214 nömrəli tam orta məktəbin layihəsi**

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsi» çərçivəsində Bakı şəhəri, 214 nömrəli tam orta məktəb tərəfindən həyata keçirilən "Müəllimin əl kitabı: sinfin idarə olunması" layihəsi əsasında hazırlanmışdır. Təhsil Nazirliyi nəşrin məzmununa görə məsuliyyət daşımır.**

**BAKI – 2022**

**Layihə rəhbəri:** Fəttah Fəttayev

**Müəlliflər:**

**Qoşqar Məhərrəmov**
T-network təhsil platformasının tədqiqat və inkişaf üzrə baş mütəxəssisi

**Fəttah Fəttayev**
Bakı şəhəri, 214 nömrəli tam orta məktəbin direktoru

**Könül Pirverdiyeva**
ADPU-nun strateji inkişaf məsələləri üzrə prorektoru, qabaqcıl təhsil işçisi

**Rza Məmmədov**
Naxçıvan Dövlət Universitetinin dosenti

**Cəfər Mənsimi**
T-network təhsil platformasının rəhbəri

**Elmi redaktorlar:**

**Qoşqar Məhərrəmov**

**Fəttah Fəttayev**

**Layihənin tərəfdaşı:**

**T-network –** təhsil işçilərinin təcrübə və kommunikasiya platforması

Vəsaitin hazırlanmasında məqsəd müəllimlərə peşəkar inkişaf dəstəyi göstərmək, onları sinif idarəetməsi nəzəriyyələri, strategiyaları ilə tanış etmək, bu və ya digər situasiyanın motivlərini düzgün müəyyənləşdirmək və həmin situasiyada necə davranmaq lazım olduğunu izah etməkdir. Vəsaitdə müxtəlif tədqiqatların nəticəsində uğurlu hesab edilən sinif idarəetmə nəzəriyyələri və metodları şərh olunur, dərsin planlaşdırılması, mənfi davranışların qarşısının alınması, vaxtın idarə olunması, şagirdlərlə ünsiyyət qaydaları, sinfin idarə olunmasında qaydalar və prosedurlar haqqında məlumat verilir.

Vəsait Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsi» çərçivəsində Bakı şəhəri, 214 nömrəli tam orta məktəb tərəfindən həyata keçirilən "Müəllimin əl kitabı: sinfin idarə olunması" layihəsi əsasında hazırlanmışdır. Vəsait ümumi təhsil müəssisələrində çalışan müəllimlər və pedaqoji ixtisaslar üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

**BAKI – 2022**

# MÜNDƏRİCAT

**Ön söz** . . . . . 6
**Sinfin idarə olunması və intizam modelləri** (*Könül Pirverdiyeva*) . . . . . 8
**Sosial öyrənmə nəzəriyyələri** (*Rza Məmmədov*) . . . . . 26
**Sinfin idarə olunmasında qaydalar və prosedurlar** (*Fəttah Fəttayev*) . . . . . 39
**Peşəkar həyatın başlanğıcı – gənc müəllimlərə məsləhətlər** (*Fəttah Fəttayev*) . . . . 55
**Dərsin planlaşdırılması** (*Qoşqar Məhərrəmov*) . . . . . 76
**Mənfi davranışların qarşısının alınması** (*Fəttah Fəttayev*) . . . . . 85
**Vaxtın idarə olunması** (*Rza Məmmədov*) . . . . . 109
**Şagirdlərlə ünsiyyət qaydaları** (*Cəfər Mənsimi*) . . . . . 123
**Sinfin idarə olunmasında sinif otağının strukturu** (*Qoşqar Məhərrəmov*) . . . . . . . 129
**Müəllim bir lider kimi** (*Qoşqar Məhərrəmov*) . . . . . 137
**Sinfin idarə olunmasında valideynlərlə əməkdaşlıq** (*Qoşqar Məhərrəmov*) . . . . . . 145
**Onlayn dərslərin idarə olunması** (*Fəttah Fəttayev*) . . . . . 154
**Praktikada sinif idarə edilməsi üsulları** (*Fəttah Fəttayev*) . . . . . 163
**Təhsilalanların, təhsilverənlərin, valideyn və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri** . . . . . 172
**Müəllimin hüquq və vəzifələri** (*Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçasından*) . . . . . 177
**Sinif rəhbəri haqqında əsasnamə** . . . . . 179
**Müəllimlərin etik davranış qaydaları** . . . . . 185
**İstifadə olunmuş ədəbiyyat** . . . . . 193

# ÖN SÖZ

Kağızdan düzəldilmiş təyyarələr havada uçur. Şagirdlər partalar arasında qaçırlar. Müəllim səsini nə qədər ucaltsa da şagirdlər qulaq asmırlar...

Dərs dediyiniz siniflərdə şagirdlərinizin davranışları filmdə təsvir olunmuş bu epizod qədər dramatik olmasa da, sinfi düzgün idarə edə bilməsəniz, əsəbləriniz buna uzun müddət davam gətirə bilməyəcək, daim stress içərisində olacaq, dərsə başlayan andan etibarən zəngin vurulmasını gözləyəcəksiniz.

Müəllim dərs izah edir, şagirdlər əllərini partanın üzərində çarpazlayaraq, dimdik oturub gözlərini müəllimə dikmişlər. Müəllimin verəcəyi sərt reaksiyanı əvvəlcədən bildiklərindən, sual verməyə belə cəsarət edə bilmirlər. Gözləri müəllimə baxsa da, fikirləri tamamilə başqa yerdədir, özlərini müəllimə qulaq asmağa məcbur etsələr də, bunu bacarmırlar. Arxada əyləşən şagird özündən qabaqda əyləşən sinif yoldaşının arxasında "gizlənib" mürgüləyir, səbirsizliklə zəngin vurulmasını gözləyir.

Başqa bir sinfə nəzər salaq: müəllim dərs zamanı jurnal yazır, şagirdlərin yazı işlərini yoxlayır və ya test tərtib edir. Şagirdlərdən biri lövhədə dərs danışır və ya tapşırıq həll edir, digər şagirdlər ən yaxşı halda sinif yoldaşlarına qulaq asır və ya lövhədə yazdıqlarını dəftərə köçürürlər. 10-15 dəqiqədən sonra müəllim yeni dərsi tez-tələsik "izah edib", sonra şagirdlərə "tapşırıq" verərək, yenə öz "işini" davam etdirir. Dərs bitdikdə, "filan mövzunu öyrənərsiniz" və ya "filan tapşırıqları həll edərsiniz" deməklə dərsi yekunlaşdırır, əksər hallarda "gələn dərs yoxlayacam, kim öyrənməsə özündən küssün!" kimi ifadələrlə şagirdlərə hədə-qorxu gəlir.

Buna bənzər daha bir neçə dərsi nümunə göstərə bilərik, lakin bu nümunələr fikrimizi ifadə edə bilmək üçün kifayət edər deyə düşünürük. Hər üç halda təşkil olunmuş dərsin effektindən danışmaq mümkünsüzdür. Düzgün idarə olunmayan sinif şagird üçün heç bir əlavə dəyər yaratmır, adətən ya şagird, ya da müəllim üçün, bəzən hər ikisi üçün dözülməz olur, ikisindən biri dərsin başa çatmasını səbirsizliklə gözləyir.

Birinci nümunədə müəllim sinfi idarə etməyi bacarmır və bundan əziyyət çəkir, dərsi düzgün təşkil etməyin yollarını bilmir. İkinci halda müəllim sinifdə "dəmir intizam" yaradıb, şagirdləri öyrənməyə məcbur etdiyini düşünür, "biz də belə öyrənmişik" düşüncəsi ilə bu dərs metodunun düzgün olduğunu hesab edir. Üçüncü halda isə müəllim "mən dərsimi keçdim – əvvəlki dərsi soruşdum, yeni dərsi izah etdim, möhkəmləndirmə tapşırıqlarını yerinə yetirdik, şagird öyrənmirsə, öz günahıdır" düşüncəsi ilə öz vəzifəsini yerinə yetirdiyini iddia edir.

Üçüncü hal müəllim məsuliyyətsizliyi ilə bağlıdırsa (müəllim istəsə, bəlkə də dərsi düzgün təşkil edə bilərdi, lakin buna cəhd etmədi), 1-ci və 2-ci hal müəllimin dərsi düzgün təşkil edə bilməməsi, sinfi düzgün idarə etməməsi ilə bağlıdır.

Təəssüf ki, bu cür hallara heç də az təsadüf etmirik. Araşdırmalarımız zamanı bu cür hallarda müəllimlərin sinfin idarə olunması, dərsin düzgün təşkili qaydalarını bilməməsi və ya onları düzgün tətbiq edə bilməməsi məlum olmuşdur. Sorğular zamanı həm də müəllimlərin əksəriyyəti sinif idarəçiliyinin təkmilləşdirilməsində peşəkar inkişaf dəstəyinin olmadığından şikayətlənmişlər.

Vəsaitin hazırlanmasında məqsəd müəllimlərə peşəkar dəstək göstərmək, onları sinif idarəetməsi nəzəriyyələri, strategiyaları ilə tanış etmək, bu və ya digər situasiyanın motivlərini düzgün müəyyənləşdirmək və həmin situasiyada necə davranmaq lazım olduğunu izah etməkdir. Bu vəsaitdə Sizə müxtəlif tədqiqatların nəticəsində uğurlu hesab edilən sinif idarəetmə metodları təqdim edəcəyik. Vəziyyətə və tədris tərzinizə uyğun olanları seçib istifadə etsəniz, dərsləriniz həm özünüzə zövq verər, həm də şagirdləriniz tədris etdiyiniz fənni sevə-sevə oxuyar. Müəllim əvvəlcə şagirdin qəlbinə yol tapmalı, özünü sevdirə bilməlidir. Şagird müəllimi sevməlidir ki, onun dərsini həvəslə öyrənməyə cəhd etsin. Unutmayın: dərsin keyfiyyətinə ən güclü təsir edən faktor müəllim faktorudur.

***Fəttah Fəttayev,***

*layihə rəhbəri*

## Sinfin idarə olunması  və intizam modelləri

- Könül Pirverdiyeva -

Sinfin idarə olunması tədrisi dəstəkləyən və şagirdlərin təlim nailiyyətlərini artıran öyrənmə mühitinin yaradılması kimi müəyyən edilir (McLeod et al., 2003). Sinif idarəçiliyi sinif qaydalarının müəyyən edilməsi, sinfin təşkil edilməsi, tədrisin və vaxtın səmərəli idarə olunması və şagird davranışlarına nəzarət etməklə müsbət öyrənmə mühitinin formalaşdırılması prosesidir (Çelik, 2005). Sinif idarəçiliyinin əsas elementlərindən birincisi sinifə nəzarəti təmin etmək, ikincisi isə tədrisdə istifadə olunan fəaliyyətləri və materialları səmərəli təşkil edərək idarə etməkdir (Kellough & Kellough, 1996).

Hər sahədə müşahidə olunan sürətli inkişaf sinif idarəçiliyi sahəsində də özünü göstərir. Bu inkişaf sinif idarəetmə modellərinə də təsir etdi və bir çox yeni modellər formalaşır. "Bu gün sinif idarəetmə modelləri "təyziq etməkdən" demokratikliyə, forma yönümlülükdən məqsədyönümlüyə, müəllimyönümlülükdən şagird/tələbəyönümlülüyə doğru irəliləmişdir" (Başar, 2001). Bu səbəbdən müəllim səmərəli təhsil və təlim fəaliyyətini həyata keçirmək üçün özünə və sinfinə uyğun model və yanaşmaları müəyyənləşdirib tətbiq etməlidir.

Hər mühitdə keçərli ola biləcək bir sinif idarəetmə modelinin olduğunu söyləmək çətindir. Sinif idarəçiliyində seçiləcək model zamana, tələbələrə, mühitə, sinif xüsusiyyətlərinə, məktəb rəhbərliyinə və müəllim xüsusiyyətlərinə görə dəyişir. Sinif idarəçiliyində vacib olan odur ki, müəllim hansı modeli və niyə seçdiyi şüurlu şəkildə bilsin.

Ümumilikdə ədəbiyyata nəzər saldıqda sinif idarəetmə modelləri aşağıdakılardır (Başar, 2001; Çelik, 2003; Ağaoğlu, 2007):

1. Reaktiv Model
2. Ehtiyat (Qabaqlayıcı tədbir almaq) Modeli
3. Avtoritar Model
4. İnkişaf Modeli
5. Holistik (Qarışıq) Model

***Reaktiv Model***

Reaktiv model ənənəvi yanaşmalardan biridir. O, sinif idarəetməsinin ən klassik modeli kimi qəbul edir. Sinifdə hər zaman arzuolunmaz davranışlarla rastlaşmaq mümkündür. Bəzi müəllimlər bu vəziyyətlərlə qarşılaşdıqda dərhal müdaxilə edə bilirlər. Bu, həmin müəllimin reaktiv sinif idarəetmə modelinə üstünlük verdiyinin göstəricisi kimi qəbul edilə bilər. Bu modeldə arzuolunmaz vəziyyətin və ya davranışın dəyişdirilməsinə dərhal reaksiya verilir.

Reaktiv model müəllimin şagirdlərin sinifdəki davranışlarına uyğun reaksiya verməsi nəticəsində ortaya çıxan sinif idarəetmə modelidir. Cavab şagird üçün mükafat və cəza kimi baş verə bilər. Lakin müəllim şagirdin hər etdiyinə, xüsusən də mənfi davranışlarına dərhal reaksiya verməməlidir. Çünki reaksiya reaksiyaya səbəb ola bilər (Boz, 2003). Buna misal ola olaraq, yerindən icazəsiz danışan şagirdə dərs zamanı danışmaq hüququ verilmir. Ancaq bu vəziyyətin sinif idarəçiliyi baxımından müxtəlif dəyişiklikləri var (Ağaoğlu, 2007).

Dərsdə cəzadan tez-tez istifadə etmək arzuolunmaz olduğu kimi, tez-tez mükafatlandırmaq da arzuolunmazdır. Mükafat-cəza reaktiv modelə uyğun davranış olacaq. Bu cür təcrübələr sinifdə ünsiyyətə mənfi təsir göstərəcəkdir. Müəllimin reaktiv olması şagirdlərə örnək ola bilər və onlar hər şeyə reaktiv yanaşa bilirlər. Daha da pisi, şagirdlər müəllimin daimi və həddindən artıq reaksiyaları ilə lağ edə bilərlər (Boz, 2003). Təkmil siniflərdə reaktiv modeldən istifadə daha böyük problemlərə səbəb ola bilər (Çelik, 2003). Buna görə də, reaktiv model effektiv sinif idarəetmə təcrübəsi üçün uyğun hesab edilmir. Ancaq müxtəlif səbəblərdən müəllimlər tərəfindən üstünlük verilən və tətbiq edilən bir modeldir.

***Ehtiyat Modeli***

Harris (1991) və Jacobsen və başqalarının (1985) fikrincə, bu yanaşma sinifdə baş verə biləcək hadisə və davranışları proqnozlaşdırmağa və buna uyğun olaraq planlaşdırmağa əsaslanır. Bu modelin məqsədi reaktiv modelə ehtiyacı azaltmaq və problemlərin əvvəlcədən meydana gəlməsinin qarşısını alaraq vaxt itkisini minimuma endirməkdir. Ehtiyat modelində sinif fəaliyyətləri "mədəni sosiallaşma prosesi" kimi düşünülən sosial sistem yaratmağa çalışılır.

Bu model həm də müəllimə vaxtı səmərəli idarə etmək imkanı verir. Ehtiyat modelində qrupyönümlü fəaliyyətlərə daha çox yer verilir. Ancaq ehtiyat tədbirləri, qaydalar çox olarsa, bu dəfə şagirdlər üçün sinfin darıxdırıcı olma riski yarana bilər. Müəllimlərin bu tarazlığı nəzərə alaraq müxtəlif ehtiyat tədbirləri görməsi faydalıdır (Ağaoğlu, 2007).

Bu modeldə müəllim yarana biləcək problemləri qabaqlayıcı tədbirlər görərək azaldır. Bu, müəllimdən sinfə yaxşı bələd olmağı tələb edir.

***Avtoritar Model***

Bu modeldə müəllim sinifdə yeganə qərarverici şəxs kimi görünür. Burada müəllimin hazırladığı qaydalar hakimdir, hər kəs bu qaydalara qeyd-şərtsiz tabeçilik göstərir. Şagirdlərin sinifdə asayişi pozmasının qarşısı müəllim tərəfindən alınır.

***İnkişaf Modeli***

İnkişaf modelində müəllim şagirdlərin fiziki və mənəvi inkişaf səviyyələrini nəzərə alaraq sinfi idarə edir. Bu məqsədlə müəllim sinif fəaliyyətini və qaydaları şagirdlərlə birlikdə tərtib edir. Sinifdaxili fəaliyyət və qaydaların yaradılması və həyata keçirilməsində şagirdlərin inkişaf mərhələlərinə uyğun seçimlər aparılır (Ağaoğlu, 2007; Aslan, 2011).

***Holistik (Qarışıq) Model***

Qarışıq model də adlandırılan holistik modeldə bir çox modellər birlikdə istifadə olunur. Bu zaman müəllimin üzərinə mühüm vəzifə düşür. Çünki müəllim bütün bu modelləri adekvat bilməlidir. Müəllim tədris etdiyi sinfi yaxşı müşahidə edərsə, hansı modeldən nə vaxt istifadə edəcəyini müəyyənləşdirmək o qədər də çətin olmayacaq.

Sinif idarəetməsi mövzusunda xüsusilə inkişaf etmiş ölkələrdə aparılan araşdırmalara bağlı olaraq sinifdə nizam-intizamı təmin etmək, şagird davranışlarının idarə edilməsi və nəzarəti ilə bağlı müxtəlif modellər inkişaf etdirilmişdir. Sinifin idarə edilməsivə sinifdə nəzarəti təmin etmə mövzusunda inkişaf etdirilən müasir yanaşmaların bir çoxu humanist və idraki psixologiyanın izlərini daşıyır. Bu modellər sinif idarəetməsi ilə bağlı bəzi yanaşmalarla əlaqəlidir. Aşağıda bir neçə modeldən bəhs edəcəyik: *Dreikurs Modeli, Glasser Modeli, Kounin Modeli, Skinner Modeli, Canter Modeli, Ginnot Modeli, Jones Modeli, Redl və Wattenberg Modeli, Gordon Modeli* kimi modellərdir.

**Rudolf Dreikurs Modeli (Sosial İntizam Modeli)**

Şagird seçimi modeli, rasional nəticələr modeli olaraq da təsvir edilən bu model bütün insanlarda ortaq başlıca ehtiyacın, bir qrupa aid olma və qəbul edilmə ehtiyacı olduğundan yola çıxılaraq yaradılmışdır. Şagirdlər tərəfindən nümayiş etdirilən arzuolunmaz bəzi davranışların təməlində onların bəzi ehtiyaclarının (tanınmaq, diqqət çəkmək, güc axtarmaq və s.) qarşılanması arzusunun gizləndiyinə diqqət yönəldilmişdir. Bu modeldə müəllimin bu ehtiyacları anlayaraq arzuolunmaz şagird davranışlarının öhdəsindən gəlmə yolları tapmasının vacibliyi üzərində durulur. Modelə görə bütün insan davranışları məqsədli olub yuxarıda qeyd olunan məqsədlər davranış vasitəsilə ortaya çıxır. Bu modeldə üzərində dayanılan dörd əsas məqsəd – diqqət, güc, intiqam və çəkinmə olaraq müəyyənləşdirilmişdir. Bunların mümkün nəticələri isə belə sıralanmışdır:

- Şagirddə diqqət ehtiyacı ödənməzsə o güc axtaracaq.
- Bunu əldə edə bilmədikdə intiqam axtaracaq.

- Bunu da təmin edə bilmədikdə ünsiyyət qurmaqdan qaçacaq və beləcə cəsarətini bütövlükdə itirəcək.

Modelə görə sinifdə arzuolunmaz şagird davranışlarının 90%-i diqqət əskikliyi ilə bağlıdır. Müəllim bunu müəyyən etməli və şagirdlərə köməklik göstərməli, onların şəxsi intizam yaratmalarına diqqətlə yanaşmalı, bunun üçün yönləndirici bəzi strategiyalar müəyyənləşdirməlidir.

Bu modelə görə intizam bir cəzalandırmaq deyil, şagirdlərə öz sərhədlərini müəyyən etməyi öyrətməkdir. Demokratik müəllimlər rəhbərlik və liderliyə daha çox yönəlir, sinif qaydalarını şagirdlərlə birlikdə müəyyənləşdirirlər. Hər şagird müəyyən qrupa aid olmaq hissi keçirir, müəllim və yoldaşlarının nəzərində bir statusa sahib olmaq, diqqət çəkmək istəyir. Şagirdlərin davranışı bu aidiyyət duyğusu vasitəsi ilə formalaşır. Arzuolunmaz davranışlar diqqət çəkmək, güc əldə etmək və ünsiyyət kimi ehtiyacların qarşılanmaması nəticəsində yarana bilər. Müəllimlərin üzərinə düşən vəzifə arzuolunmaz davranışları müəyyən etmək və şagirdləri bu mövzuda yönləndirməkdir. Müəllimlər şagirdlərin etdikləri hərəkətləri və onların xarakterini tərifləmədən yalnız onların səylərini dəstəkləmək yolunda irəliləməlidirlər. Bundan əlavə şagirdlərə mənfi nəticələrin əsasən arzuolunmaz davranışlardan qaynaqlandığı fikri mənimsədilməlidir. Dreikursa görə üç tipdə müəllim var:

***Avtoritar müəllim:*** sinfə nəzarət etmək üçün öz istəklərini şagirdlərə qəbul etdirməyə çalışır. Şagirdlərin daxili motivasiyasını yüksəltmək əvəzinə xarici təzyiqlərlə motivə edir. Bu yanaşma problemli davranışların davam etməsinə səbəb olur. Avtoritar müəllim əsasən şagirdlər tərəfindən sevilməzlər. Şagirdlər onlara ədalətli davranılan demokratik sinif mühiti axtarar və avtoritar müəllimə düşmən münasibəti göstərər.

***Həddindən artıq tolerant müəllim:*** sinfə nəzarət etməkdə çox çətinliklərlə qarşılaşır, çünki yaratdığı sinif mühiti gündəlik həyatın həqiqətlərini əks etdirə bilmir. Həddindən artıq tolerantlığa əsaslanan sinif mühiti gerçək sosial həyatda riayət edilməli olunan qaydaların öyrənilməsini əngəlləyir və şagirdlər şəxsi intizam üçün lazımi davranışları öyrənməkdə çətinlik çəkirlər. Sərbəst olduqları və hər istədiklərini edə biləcəkləri fikrinə düşən şagirdlər sonradan sosial mühitin qaydaları ilə qarşılaşdıqda ziddiyyət yaşayırlar. Sinifdə təsirli bir müəllimin formalaşması üçün lazım olan intizam və nəzarətə ehtiyac vardır. Bu mövzuda şagirdlərin yönləndirilməyə və liderliyə ehtiyacları var.

***Demokratik müəllim:*** demokratik müəllimlər nə çox avtoritar, nə də çox tolerant olurlar. Sinifdə qaydaların yaradılmasına rəhbərlik edirlər və şagirdlərin fikirlərini dinləyirlər. Azadlıq intizamdan yaranır, şagirdlər ehtiyaclarını qarşılamaq üçün davranış formalarını seçməkdə sərbəstdirlər. İntizam yaratmaq, şagirdlərin özlərinə uyğun davranış formasını seçməklərinə fürsət verən daxili nəzarətin necə təmin ediləcəyinin öyrədilməsini təmin edir. Müəllim tərəfindən özünü idarə etmənin necə qazanılacağı öyrədilir. Dreikursa görə demokratik bir sinif aşağıdakı xüsusiyyətləri ilə xarakterizə edilir:

- *Müntəzəm bir sinif mühiti var.*
- *Sinifdə sərhədlər müəyyənləşib.*
- *Müəllim özünə güvənir və ətrafdakılara hörmətlə yanaşır.*
- *Sinif qaydaları ortaq şəkildə müəyyənləşdirilir.*
- *Liderlik edilir.*
- *Əməkdaşlıq təşviq olunur, zərər verən rəqabətdən uzaqlaşdırılır.*
- *Qrupa mənsubiyyət hissi aşılanır.*
- *Araşdırma, kəşf etmə və uyğun davranış tərzinin seçilməsi üçün məsuliyyəti üzərinə götürməkdə müstəqil mühit yaradılır.*

Dreikursun fikrinə görə effektiv intizam; müəllimin şagirdlərin daxili nəzarətlərini inkişaf etdirmələrinə köməklik göstərməsini əhatə edir. İntizam sadəcə məhdudiyyətləri və münaqişələri əhatə etmir, sinif daxilindəki əməkdaşlığı və komanda hissini də dəstəkləyicidir. Dreikursa görə uğurlu intizam əldə etmək üçün müəllimdən tələb olunan əsas davranışlar bunlardır:

- Şagirdlərdən gözlənilən davranışlar üçün anlaşıqlı təlimatlar verməlidir.
- Hər şagirdlə güvən və hörmətə əsaslanan münasibət qurmalıdır.
- Ənənəvi cəzalandırmalar əvəzinə məntiqli həll yollarından istifadə etməlidir.
- Həll yolları davranışlarla bilavasitə əlaqəli olmalı və şagirdlər tərəfindən anlaşılmalıdır.
- Hər davranış baş vermiş hadisənin kontekstində dəyərləndirilməlidir.
- Şagirdlərə davranışları və təhsilləri barədə məsuliyyət hissi aşılanmalıdır.
- Şagirdlərə sosial istiqamətdə bərabər münasibət göstərilməlidir.
- Səbr və mərhəməti birləşdirib hörmətlə yanaşmalıdır.
- Sərhədləri öncədən müəyyənləşdirməlidir.
- Nə demək istədiyini açıq şəkildə ifadə etməli, tələblərini sadə dillə bildirməli və şagirdlərin məsuliyyəti üzərinə götürdüyündən əmin olmalıdır.
- Səhvlərin düzəldilə bildiyi, bağışlana bildiyi və unudula bildiyini şagirdlərə bildirməlidir.

**William Glasser Modeli (Reallıq Terapiyası nəzəriyyəsi)**

İştirakçı modeli, nəzarət və üstünlük nəzəriyyəsi olaraq da adlandırılan bu modeldə Glasser daha öncədən inkişaf etdirdiyi “qaydalar  və görüşlər vasitəsilə intizam yaratma” tezisindən fərqli olaraq daha çox təhsilin keyfiyyəti üzərində dayanmaqla şagirdlərin ... tam olaraq istifadə etmədiklərinə diqqət çəkmək istəyir. Nəzarət yaratma mövzusunda ən çox müəllimlə əlaqəli hissə vurğulanaraq müəllimlərin ənənəvi öyrətmə üsullarını dəyişdirmələrinin bir çox problemləri həll edəcəyi bildirilir. Glasserə görə bütün insanların

psixoloji tarazlığı üçün sevgi, nəzarət, muxtariyyət və əylənmə olmaqla dörd əsas ehtiyacı var. Ona görə də müəllim şagirdlərin həyatına davam etmə, aidiyyət, güc əldə etmə, muxtariyyət və əylənmə kimi ehtiyaclarını anlamağa və bu ehtiyaclarını qarşılamağa çalışmalıdır. Şagirdlər əvvəlcə özlərini təhlükəsizlikdə və sinfə aid hiss etməli, sinifdəki bütün fəaliyyətlərin öyrənmək üçün olduğuna inanmalıdır.

Problem həll etmə modeli olaraq da bilinən bu modelə görə əvvəlcə şagirdin davranışında olan problem müəyyən edilməli, bunu düzəltmək üçün şagirdin məsuliyyətinə uyğun strategiyalar inkişaf etdirilməlidir. Müəllimin əsas vəzifəsi şagirdlərin düzgün seçimlər etmələrinə kömək etməkdir. Skinner modeli Nyutonçu (mexaniki) bir ideyaya əsaslanırsa, Glasser modeli post-Nyutonçu (qeyri-mexaniki) ideyaya əsaslanır. Glasserin məktəb intizamı sahəsində gördüyü işlər ümumilikdə iki məqama diqqət yönəldir. Birincisi şagirdləri motivasiya edən, aidiyyat, güc, əylənmə və azadlıq kimi başlıca ehtiyaclarını qarşılamağa yönələn arzuolunmaz davranışları azaldan bir sinif mühiti və öyrənmə proqramı yaratmaqdır. Digəri isə şagirdlərin şəxsi uğurları üçün uyğun davranış seçmələrinəköməklik göstərməkdir. Glasserin intizam mövzusundakı fikirləri 1985-ci ildən əvvəl və sonra olmaqla iki başlıq altında ələ alınır. Glasserin 1985-ci ildən əvvəlki fikirləri ümumilikdə aşağıdakı kimidir:

- Şagirdlər rasional varlıqlardır, öz davranışlarına nəzarət edə bilərlər.
- Düzgün seçimlər düzgün davranışlar, səhv seçimlər yanlış davranışlarla nəticələnir.
- Müəllimlər şagirdlərin düzgün seçimlər etmələrinə kömək etməyə məcburdurlar.
- Şagirdinə qayğı ilə yanaşan müəllim yanlış davranışa görə heç bir bəhanəni qəbul etməz.
- Sinif qaydaları önəmlidir, şagird bu qaydalara əməl etməyə məcbur edilməlidir.
- Sinif görüşləri sinif qaydalarını müəyyən etmək və davranışları nəzarətdə saxlamaq üçün önəmli bir vasitədir.

Psixoloqlar və müəllimlər şagirdlərin arzuolunmaz davranışlarının təməlində onların əvvəllər yaşadıqları hadisələrin təsiri olduğunu və bunun sözügedən davranışın önəmli bir səbəbi olduğu fikrini irəli sürürlər. Glasser belə halların olduğunu və ya təsirlərini inkar etməməklə yanaşı, həmçinin insanların ağlının olduğu və məntiqli seçimlər edə biləcəkləri fikrini irəli sürür. Şagirdlər hansı davranışların qəbul olunan davranışlar olduğunu anlaya bilər və düzgün davranışı seçə bilərlər. Lakin şagirdlər düzgün seçim etmək üçün düzgün seçimlərin nəticələrinin arzu edilən çıxışlara səbəb olacağını anlamalıdırlar. Müəllimin vəzifəsi şagirdin düzgün seçim etməsinə yardımçı olmaq, şagirdin diqqətini alternativ, qəbul edilə bilən davranışlara yönləndirməkdir.

Glasserə görə sinifdə istənilən intizamı yaratmaq müəllimlərin əlindədir. Təsirli intizam yaratmada müəllim və şagird önəmli rol oynayır. Lakin müəllimlər bu mövzuda

daha çox məsuliyyət daşıyır. Sinifdə yaxşı intizam yaradılması üçün müəllim aşağıdakıları etməlidir:

- Şagirdlərə məsuliyyət vermək
- Qaydaları şagirdlərlə birgə müəyyən etmək
- Bəhanə qəbul etməmək
- Dəyərləri müəyyənləşdirmək
- Uyğun alternativlər təklif etmək
- Məntiqli seçimlər təqdim etmək
- Səbrli və dözümlü olmaq
- İclaslar təşkil etmək.

Glasser sinif toplantılarının yaxşı intizam yaratma sistemi üçün vacib olduğunu ifadə edərək toplantıları sosial problemləri həll etmək üçün toplantılar, təhsil məqsədli toplantılar və açıq görüşlər olmaqla üç başlıq altında toplanmışdır. Glasserin 1985-ci ildən sonrakı düşüncələri isə aşağıdakıları əhatə edir:

- Bütün davranışlar fərdin ehtiyaclarını qarşılamaq üçün özünü idarə etməsindən irəli gəlir.
- Fərd hər zaman özünə ən uyğun davranışı nümayiş etdirir.
- Aidiyyat, güc əldə etmək, azad olmaq, əylənmək kimi təbii ehtiyaclar vardır.
- Bu ehtiyaclar qarşılandıqca zövq alınır, qarşılanmadıqda ruh düşkünlüyü yaşanır.
- Yaxşı intizama malik məktəblər daha az sayda ruh düşkünlüyü yaşamış şagird və müəllimlər olan məktəblərdir.
- Sinfin təsdiq etdiyi intizam proqramları hazırlanmalıdır.
- Şagirdlər öyrənmə prosesində gücə sahib və azad olduqlarını hiss etməli , əylənərək öyrənməlidirlər.

Glasserə görə məktəblərdəki şagird davranışlarında önəmli rol oynayan bu dörd ehtiyaca diqqət edilməlidir. Ənənəvi sinif mühitindən uzaqlaşıb şagirdlərin birlikdə işləyə biləcəkləri kiçik öyrənmə qrupları yaradılaraq şagirdlər üçün yetərsiz olan siniflər daha yaxşı vəziyyətə gətirilə bilər. Glasser bu məqsədlə dörd nəfərdən ibarət olacaq kiçik öyrənmə qruplarının üstünlüklərini aşağıdakı kimi sıralayır:

- Bütün şagirdlərdə aidiyyat hissi inkişaf edir.
- Motivasiya artır.
- Güclü şagirdlər güc əldə etmək və dostluq ehtiyaclarını zəif şakirdlərə yardım edərək təmin edirlər.
- Şagirdlər müəllimlərdən asılı olmadıqları üçün özlərini azad hiss edirlər.

**Jacob S. Kounin modeli (dalğa təsiri)**

Bu modeldə sinifdə intizamı təmin etməkdə, sosial öyrənmə yanaşmasında irəli sürüldüyü kimi bir şagirdin arzuolunmaz davranışının müəllim tərəfindən düzəldilməsinin xaos nəzəriyyəsində bəhs edilən dalğa təsiri ilə digər şagirdlər üzərində də təsirli olacağını, sözügedən davranışı göstərməkdən onların fikrini dəyişdirməyi irəli sürür. Bu mövzuda müəllimin prinsipial və qətiyyətli hərəkət etməsinin vacibliyi vurğulanır. Müəllimin mümkün olduqca sinifdə monotonluğu aradan qaldıracaq müxtəlif fəaliyyətlərə və üsullara yer verməli olduğunun üzərində durulur. Cəzalandırmanın arzuolunmaz davranışın qarşısını almaqda təsirli olmadığını bildirir, şagirdlərin müəllimi sevdikləri zaman və ona hörmətlə yanaşdıqda daha çox müsbət davranışlar göstərəcəkləri fikri irəli sürülür. Sinifdə arzuolunan şagird davranışları xüsusən nizamın, keçidlərin, xəbərdarlıq və fərdi məsuliyyətin yer aldığı təsirli tədris üsulları ilə bağlı olduğu göstərilir. Kouninin sinifdə təsirli intizamın təşkil olunmasına aid fikirləri qısa şəkildə belədir:

- Müəllim bir şagirdin arzuolunmaz davranışını düzəldərkən əsasən ətrafındakı şagirdlər də bundan təsirlənir və buna dalğa təsiri deyilir.
- Müəllim sinfin hər nöqtəsində nə baş verdiyini bilməlidir. Kounin bu fərqindəliyi şahidlik adlandırır.
- Fəaliyyətlər arası incə keçidləri təmin etmək bacarığı təsirli qrup idarəçiliyi üçün vacibdir.
- Müəllim şagird qrupunun diqqətini canlı tutmağa çalışmalı və hər bir qrup fərdini fəaliyyətlərdən məsul tutmalıdır.
- Nailiyyət duyğusu əsas götürülərək tədris proqramında çeşidlilik təmin edilməli, şagirdlərin fikrinin yayınmasının qarşısı alınmalıdır.

Kouninin üzərində durduğu bəzi əsas anlayışların mənası belədir:

***Dalğa təsiri:*** bir şagirdin arzuolunmaz davranışının müəllim tərəfindən düzəldilməsi ilə digər şagirdlərin də bundan təsirlənməsidir. Dalğa təsiri müəllimin şagirdə cəsarət və ya töhmət verərkən üzə çıxa bilər. Erkən uşaqlıq yaşlarında xüsusən də ibtidai siniflərdə çox təsirlidir.

***Şahidlik:*** müəllimin bütün sinifdən xəbərdar olmasını ifadə edir. Bu davranış sözlərdən daha təsirlidir. Şagirdlərin müəllimin hər şeydən xəbərdar olduğunu bildiyi halda yanlış davranış nümayiş etdirməkdən çəkinəcəklər.

***Üst-üstə düşmə:*** iki hadisədə eyni anda iştirak edə bilmək bacarığı olaraq bilinir. Məsələn, kiçik bir qrup fəaliyyəti əsnasında fəaliyyətə qatılmayıb öz aralarında söhbət edən şagirdləri fəaliyyətə cəlb edərkən və ya onları sakitləşdirməyə çalışarkən qrupun fəaliyyətinin kəsintisizliyini təmin edərək şagirdlərə rəhbərlik edilməsidir.

***Hərəkət idarəetməsi:*** Kounin burada fiziki hərəkətdən bəhs etmir. Bir fəaliyyətdən digər fəaliyyətə keçid zamanı olan hərəkətlilikdən bəhs edir. Mərhələli keçid şagird diqqətinin bir fəaliyyətdən digərinə asanlıqla yönəlməsini təmin edir və şagird diqqətini hər zaman iş üzərində sabit saxlayır.

Kouninə görə sinfin nəzarətində şagirdlərin məşğul edilməsi ilə davranış problemləri ən aşağı səviyyəyə endirlə bilər. Bundan əlavə müəllimlər eyni anda bir çox işlə məşğul olmalıdırlar. Təsirli bir intizam təmin etmək üçün müəllimlərin etməli olduqları aşağıdakı kimi sıralanmışdır:

Sinifdə baş verənlərdən xəbərdar olmaq və şagirdlərlə müntəzəm əlaqədə olmaq.

- Eyni vaxtda birdən çox hadisə ilə maraqlanmaq.
- Arzuolunmaz davranışdan öncə uyğun gələn hədəfi müəyyənləşdirmək.
- Qrupun diqqətini məsuliyyət və diqqətli olmağa yönləndirmək.
- Darıxdırıcı olmayan tədris proqramları təşkil etmək (Kounin, 1977).

**Frederic Skinner modeli (davranış dəyişdirmə modeli)**

Skinner modeli əsasən davranışyönümlü yanaşmaya əsaslanaraq inkişaf etdirilib, sonradan bəzi tədqiqatçılar tərəfindən yenidən təfsir edilmişdir. Bu modeldə əsasən sinif qaydalarının və sinifdə şagird davranışlarının nəticələrinin müəllim tərəfindən şagirdə izah edilməsinin vacibliyi üzərində durulur. Şagird davranışını dəyişdirmə və təsir etmədə daha çox xarici mükafat və cəzaların vacibliyi üzərində dayanılır.

Bu modeldə mükafatlandırılan davranışın gücləndirilmiş olacağı, mükafatlandırılmayan davranışın isə zəifləyəcəyi fikri vurğulanır. Bunun üçün müəllimin sinifdə şagirdlərə verbal (sözlü) və ya qeyri-verbal (sözsüz) gücləndiricilərlə qiymət, ulduz və s. mükafatlar verərək tələb olunan davranışı gücləndirəcəyi, arzuolunmaz davranışları isə sıradan çıxara biləcəyi qeyd olunur. Skinnerin təsirli sinif idarəçiliyi ilə bağlı fikirləri aşağıdakı kimi ümumiləşdirilir:

- Mükafatlandırmanın sistemli istifadəsi şagird davranışlarını gözlənilən istiqamətdə dəyişə bilər.
- Davranış gücləndiricilərlə dəstəklənməzsə zəifləyər.
- Cəzalandırmaqla da davranış zəifləyə bilər.
- Müəllim ilkin etaplarda sabit gücləndiricilərlə ən yaxşı nəticəni əldə edə bilər.
- Öyrənmə gözlənilən səviyyəyə gəldikdə fasiləli gücləndirici (bundan sonra dəstəkləyici) ilə bu səviyyədə qalması təmin edilir.
- Davranış dəyişikliyi üçün müxtəlif növ dəstəkləyicilərdən istifadə edilir.

Davranış dəyişikliyi iki əsas yolla əmələ gəlir:

- Şagirdi müşahidə etmə, mükafatlandırma, davranışın təkrarlanması,

- Şagirdi müşahidə etmə, diqqət göstərməmə və ya cəzalandırma, düzgün davranışı mükafatlandırma, yanlış davranışın azalması.

Bu modeldə üzərində durulan dəstəkləyici növləri bunlardır:

1. **Sosial dəstəkləyici:** sözlər, jestlər və mimikalardan ibarətdir. Sözlü və sözsüz olmaqla iki hissəyə ayrılır.

- **Sözlü:** doğrudur, bəli, afərin, təşəkkür edirəm, bəyəndim, çox gözəl...
- **Sözsüz:** gülümsəmək, göz qırpmaq, göz təması, toxunmaq, yanında durmaq, əlini sıxmaq...

2. **Simvollu dəstəkləyici:** şagirdlərə ulduz vermək, qiymət vermək, dəftərlərinə gülən sima çəkmək, rəngli yapışqanlar yapışdırmaq və s...

3. **Fəaliyyətə əsaslanan dəstəkləyici:** şagirdlərin məktəbdə etməkdən zövq aldıqları fəaliyyətləri əhatə edir. Kiçik yaşlı uşaqlar üçün ən təsirli dəstəkləyicilər müəllimin yanında əyləşmək, mahnı oxumaqdırsa daha böyük yaş qruplarında oyun oynamaq, sinif yoldaşı ilə birgə tapşırıq yerinə yetirmək, ev tapşırıqlarından azad olunmaq kimi nümunələr göstərilə bilər (Holland & Skinner, 1961; Skinner, 1971).

**Marlene Canter modeli (özgüvənə əsaslanan intizam)**

Bu modeldə əvvəlcə müəllimin ilin əvvəlində sinif qaydalarını yazılı şəkildə müəyyənləşdirməsi, gözləntilərini izah etməsi və şagirdlərə məsuliyyət verməsinin vacibliyi vurğulanır. Kənardan nəzarət əvəzinə daha çox daxili nəzarət və intizama diqqət yönləndirilir. Bu model öz sahəsində Canter və Jones Modeli, demokratik və əməkdaşlıq modeli, davranışın təsirli idarəetməsi modeli olaraq da tanınır. Modeldə dəstəkləyici nəzarət, məsuliyyətli davranış, müsbət və etibara əsaslanan münasibət, cəsarətləndirmə, mükafatlandırma və nümunə olma kimi anlayışlara önəm verilir, şagirdlərə muxtariyyət verilərək sinifdə nəzarətin yaradıla biləcəyinin mümkünlüyünü bildirilir.

Müəllimin başlıca vəzifəsi tədris mühitini, öyrənməni ən yüksək səviyyədə həyata keçirəcək formada təşkil etmək və tələb olunan davranışın yaranmasını təmin etməkdir. Bunu təmin edə bilmədikdə isə məktəb rəhbərliyi və ailədən yardım istəməlidir. Bundan əlavə modeldə şagirdlərin də bəzi başlıca vəzifələri haqqında söz açılır. Müəllimin sinifdə tələb olunan nəzarəti təmin etməsi üçün bir neçə xüsuslar təklif edilir:

- Şagirdlərə prioritetləri və gözləntilərini izah etməli.
- Aydın, səmimi səs tonundan istifadə etməli və göz kontaktı yaratmalı.
- Qorxu yaratmadan və qışqırmadan təsir edə bilməli.
- Sözlü münasibəti gücləndirmək üçün bədən dilindən istifadə etməli.
- Vermək istədiyi ismarıcı hər zaman təmkinlə təkrar etməli.

Bu modeldə müəllimlərə düşmən münasibəti nümayiş etdirən müəllim əvəzinə dəstəkləyici müəllim müsbət auralı, dəstəkləyici, qoruyucu, yaradıcı bir sinif və tədris mühitinin bünövrəsi olaraq təqdim edilir. Modelin diqqət mərkəzində özünə inam və qərarlılıq dayanır. Canterin sinifdə nəzarəti təmin etməklə əlaqəli fikirləri qısaca olaraq aşağıdakı kimidir:

- Müəllimin öyrənmə məqsədlərindəki uğursuzluğu sinifdə nəzarəti təmin etmə və davam etdirmə uğursuzlugu ilə eyni səviyyədədir.
- Bir çox müəllim nəzarət barədə yalnış fərziyyələrə sahibdirlər, daimi nəzarətin yorucu və qeyri-insani olduğuna inanırlar. Halbuki daimi nəzarət düzgün şəkildə istifadə olunarsa çox humanist və sərbəstləşdiricidir.
- Müəllim bir sıra əsas tədris haqlarına sahibdir. Bunlar:
  – ən uyğun tədris mühitini yaratma haqqı,
  – uyğun davranışı gözləmə və tələb etmə haqqı,
  – ehtiyac hiss etdikdə rəhbərlik və valideynlərdən yardım istəmək haqqı olaraq sadalaya bilərik.

Şagirdlərin dəbəzi hüquqları vardır:

–Müəllimlərdən yardım tələb etmə haqqı,
–Necə davranacaqlarını seçmək haqqı.
• Ehtiyaclar, qaydalar və şərtlər düzgün intizam təmin etmək üsulları istifadə edilərək ən gözəl formada müəyyənləşdirilir. Müəllim gözləntilərini açıq şəkildə dialoq quraraq şagirdlərə çatdırır.

Yaxşı intizam aşağıdakı davranışları əhatə edib təsirliyini yüksəltmək üçün davamlı olaraq istifadə edilməlidir:

–Gözləntiləri açıq şəkildə bildirmək,
–“Bəyəndim” və ya “bəyənmədim” söyləməyi bacarmaq,
–Gözləntilər və hisslər mövzusunda təkidli olmaq,
–Qərarlı səs tonu istifadə etmək,
–Göz kontaktı yaratmaq,
–Sözlü münasibəti sözsüz münasibətlə dəstəkləmək,
–Uyğun davranış üçün tələb və xahişlər əvəzinə ipucları və suallardan istifadə etmək,
–Şagirdlərə qarşı mülayim və qətiyyətli olmaq.

Kanterin fikrinə əsasən müəllimlərin intizam yaratmaqda daha mülayim olmaları üçün diqqət etməli olduqları bəzi məqamlar aşağıdakı kimi sıralana bilər:

• Müsbət cavab vermə üslublarından istifadə etmək,
• Anlaşıqlı məhdudiyyətlər və nəticələr müəyyən etmək,

- Prosedurları tətbiq etmək,
- Olumlu intizam planları hazırlamaq və tətbiq etmək,
- Qeyd aparmaq, yaddaşa güvənməmək,
- Şagirdlərə köməklik göstərməkdə məktəb idarəçiliyindən dəstək istəmək.

Kanterə görə müəllimlər intizam yaratma haqqında bir sıra yanlış ideyalara sahibdirlər. Bunlar aşağıdakılardır:

- Yaxşı müəllimlər heç bir kömək olmadan intizam problemlərini həll edə bilərlər.
- Davamlı intizam şagirdlərdə bəzi psixoloji problemlərlə nəticələnir.
- İntizam problemləri şagirdlərin istəklərini qarşılamaq üçün fəaliyyətlər təmin edildikdə azalır.
- Yanlış davranışların yaranmasına səbəbkar müəllimlərdir.

İntizam haqqında düzgün fikirlər isə qısa şəkildə belə sıralanır:

- Psixoloji təhlükəsizlik üçün intizam lazımdır.
- Təhlükəsizlik üçün intizam lazımdır.
- Təsirli tədris mühiti üçün intizam lazımdır.
- Davranışlara nəzarət etmək üçün intizaam lazımdır.

Kanterin fikrincə müəllimlərin diqqətli olmağı və sinifdə yaxşı intizam yaratmağı üçün əməl etməli olduqları beş addım aşağıdakı kimidir:

- Maneələri görə bilmək və aradan qaldırmaq,
- Müsbət cavab vermək üsullarından istifadə etməyi alışqanlığa çevirmək,
- Sərhəd qoymağı öyrənmək,
- Müəllimlərin tələblərini qarşılamaq üçün müvafiq davranışlardan istifadə etməyi öyrənmək,
- Müsbət və gözlənilən nəticələr sistemini tətbiq etmək (Kanter, 1976).

**Hiam Ginnot modeli (təsirli əlaqə mərkəzli model)**

Bu modeldə sinifdə intizamı təmin etməkdə öncəliklə müəllimin şagirdlər üçün gözəl davranış rol-modeli olmasının vacibliyi üzərində dayanılır. Müəllimin arzuolunmaz davranışlar qarşısında şagirdi günahlandırmaq əvəzinə davranışın özündə xoşagəlməz nəticələrini ifadə edən "mən" ismarıcları verməyinin daha münasib olacağı bildirilir. Buna görə də bu modeldə müəllimin şagirdlərlə təsirli qarşılıqlı əlaqə qurması zərurəti üzərində durulur. Bu müddətdə müəllim bunları yerinə yetirməlidir:

- Şagirdləri bütün müsbət və mənfiləri ilə qəbul etmək,
- Empatiya qurmaq və açıq olmaq,

- Şagirdləri incidəcək davranışlardan uzaq durmaq,
- Səbrli olmaq.

Ginnotun sinifdə yaradılacaq intizama aid fikirləri aşağıdakı kimidir:

- İntizam yavaş-yavaş qazanılan, kiçik bir zəfərdir.
- Sinif intizamındakı ən vacib komponent müəllimin şəxsi intizamıdır.
- Yanlış davranışları düzəldərkən pozitiv ismarıclar istifadə etmək önəmlidir
- Pozitiv ismarıclar şagirdin şəxsiyyətini deyil, vəziyyəti hədəf alır.
- Şagirdlərdən tələb etdiyi davranışı öz nümunəsində göstərməlidir.
- Şagirdlərdən tələb etmək əvəzinə onları ortaq əməkdaşlığa dəvət etməlidir.
- Əsəbləşdiyini uyğun şəkildə ifadə etməlidir.
- Şagirdlərə ayrı-seçkilik qoymaq  onları ruhdan salır.
- Lağa qoyma və tərifləmədən sui-istifadə ola bildiyindən, diqqətli istifadə edilməlidir.
- Mütəmadi üzr istəmə qəbul edilməməlidir.
- Yaxşı müəllimlər şagirdlərin hörmət qazanmalarına kömək edər və öz təcrübələrinə güvənərlər.

Ginnot modelinə əsasən müəllim sinfin ən güclü komponentidir, sinif mühitini formalaşdırır və qoruyur. Şagirdləri düzgün və ya yanlış tərbiyə etmə gücünə sahibdir. Onların effektivliliyi məhsuldar bir tədris mühiti yaratmaq istedadına bağlıdır. Ginnot mənəvi tənəzzül yaşayan şagirdlərin öyrənməsinin zəif olduğunu iddia edir. Bu halı azaltmaq üçün şagirdlərin hisslərinə uyğun ünsiyyət qurmağın zəruriliyini iddia edir. Pozitiv ünsiyyət tədris mühitində çox önəmli amil olaraq qəbul edilir.

Ginnotun fikrinə görə yaxşı müəllimlər bu davranışları göstərirlər:

- Şagirdin şəxsiyyətinə görə deyil, vəziyyətə uyğun hərəkət edir.
- Əsəbləşdiyini uyğun şəkildə əks etdirir.
- Əməkdaşlığı dəstəkləyir.
- Şagirdlərin hissləri ilə maraqlanır.
- Şagirdləri günahlandırmaqdan uzaq durur.
- Şagirdləri doğru yönləndirməyə çalışır.
- Artıq və lazımsız tərifdən uzaq durur.
- Nümunəvi insan olaraq qəbul edilir.

Ginnota görə sevilməyən müəllimlər  aşağıda qeyd olunan şəkildə davranırlar:

- Əsəbi və təcavüzkardır.
- Əməkdaşlıq əvəzinə tələblər irəli sürür.
- Şagirdlərin hisslərini görməzdən gəlir.

- Şagirdlərə müxtəlif ləqəblərlə müraciət edər
- Uzun və mənası olmayan mövzular haqqında danışar.
- Əksərən nəzarəti itirər.
- Tərifdən çox istifadə edər.
- Şagirdlərə yaxşı nümunə olmaz.

Müəllimlərin intizamı təmin etmə formalarına baxdıqda uyğun olmayan intizam təmin etmə üsulları aşağıdakı hallarda ortaya çıxır:

- Özünənəzarəti itirdikdə,
- Kobud rəftar etdiklərində,
- Həddindən artıq reaksiya verdiklərində,
- Bir nəfərin səhvini bütün sinfə aid etdikdə,
- Təhdid etdikdə,
- Şagirdləri incitdikdə.

Ginnot öyrənmək üçün ətraf mühiti nəzərə almağı müəllimin vəzifəsi olaraq görür. Ətraf mühitin ən önəmli hissəsi isə sosio-emosional mühitdir və buna görə də müəllimlər şagirdlərə dəyər verdikdə intizam problemləri azalacaqdır. Bu model qısa olaraq müəllimlərin şagirdlərin hisslərini müsbət yöndə necə istiqamətləndirəcəklərini vurğulayır (Ginnot, 1971; 1977).

**Lee Jones və Fred Jones modeli (sinif idarəetməsi modeli)**

Müsbət intizam modeli olaraq da ifadə edilən bu modeldə müəllimlərin əsasən sinifdə keçirilən zamanın yarısını intizam problemlərini həll etmək üçün sərf etdiklərini irəli sürür. Şagirdlərin arzuolunmaz davranışlarının dəstəkləyici bir sinif idarəetməsi yanaşması, sinif mühitinin düzgün qurulması və bədən dilinin düzgün istifadəsi ilə aradan qaldırılmasının mümkünlüyü bildirilir. Bunun üçün müəllim tərəfindən əvvəlcə şagirdlərin vəzifəyə həvəsləndirilməsinin vacibliyi üzərində durularaq bu müddətdə bəzi mükafatlardan istifadə edilə biləcəyi fikri irəli sürülür. Əsas vasitələr olaraq həvəsləndiricilərlə şagirdlərdə yaradılacaq məsuliyyət duyğusu və onlara ediləcək təsirli yardımlarla arzuolunmaz davranışların qarşısının alınmasının mümkünlüyü vurğulanır. Bunun üçün müəllimin yerinə yetirəcəyi bir sıraa davranışlar belə sıralanır:

- Sinifdə gəzmək,
- Problemli şagirdləri özünə yaxın yerdə əyləşdirmək,
- Şagirdlərlə mütəmmadi göz təması qurmaq, müəllim kimi baxmaq,
- Duruş tərzini düzgün müəyyənləşdirmək,
- Həvəsləndiriciləri bütün şagirdlər üçün istifadə etmək,
- Şagirdlərə məsuliyyətliliyi öyrətmək,
- Arzuolunmaz davranış ortaya çıxmadan onun qarşısını almaq,

- Hər kəsə öyrədə bilməsi və hər kəsin öyrənə bilməsinə yönələn strategiya müəyyən etmək.

Bu modelin diqqət mərkəzi şagirdlərin avtomatik nəzarət mexanizmlərini yaratmaqlarına kömək etməkdir. Bədən dilinin təsirli formada istifadəsinin istənilən davranışı motivə etdiyi fikri müdafiə olunur. Jonesin fikrincə müəllimlər sinifdəki əsas zamanlarının 50%-ni yazamyan və dərsi dinləməyən şagirdlərə görə boş keçirirlər. Bu vaxt itkisi dərsə olan diqqətsizlik və icazəsiz danışmaq kimi davranışladan qaynaqlanır. Müəllimlər düzgün bədən dili motivasiya sistemi və güclü fərdi köməklik kimi üsullardan istifadə etdikdə zamzn itkisi minimuma endirilə bilər. Bu modelə görə yaxşı sinif intizamının ən vacib hissəsi bədən dilinin düzgün istifadəsidir. Motivasiya sistemi isə şagirdlərin işlərinə yönəlməsini təmin etmək üçün güclü komponentdir. Müəllimlər şagirdlərə güclü fərdi köməklik və dəstək olduqda şagirdlər də daha yaxşı tədris mühiti tapacaqlar. Jonesin fikrincə müəllimlər sinifdə hər şagirdə təqribi dörd dəqiqə zaman ayırır. Bu hal həddindən artıq zaman itkisinə və az şagirdə təsir etməyinə səbəb olur. Jonesin tədqiqatlarına görə sinfin yalnış idarəsi dörd problemə səbəb olur:

- Bütün şagirdlərə yetişmə çatışmazlığı,
- Şagirdlərin gözləmə nəticəsində vaxt itirmələri,
- Arzuolunmaz davranış üçün mühitin yaranması,
- Daimi asılılıq.

Bu dörd problem müəllimlərə necə daha yaxşı köməklik edə biləcəklərini öyrətməklə həll edilə bilər. Bu mövzuda atılmalı addımlar aşağıdakı kimi sıralanır:

- Müəllim bütün şagirdləri rahat görə biləcəyi yerdə əyləşməli,
- Dərs və mövzu ilə əlaqəli vizual materialdan yararlanmalı,
- Fərdi köməklik üçün ən uyğun zamanı müəyyən etməli.

Jonesin nəzarət sisteminin əsasını bədəndili, motivasiya sistemləri və təsirli köməklik təşkil edir. Təsirli tədris intizamının təmin olunması üçün müəllimlərə təklif edilənlər bunlardır:

- Arzuolunmaz davranışları erkən aşkar etmək və aradan qaldırmaq,
- Sözlərin əvəzinə bədən dilindən istifadə etmək,
- Təsirli motivasiya sistemlərindən istifadə etmək,
- On saniyəlik qarşılıqlı əlaqəni hədəf alan fərdi köməkliklər təklif etmək,
- Şagirdləri heç bir halda təhdid etməmək (Jones, 1979; 1987).

### Fritz Redl və Villiam Vattenberg modeli

Redl və Vattenberq şagirdlərin sinifdəki davranışlarına təsir edən psixoloji və sosial amillərə diqqət çəkirlər. Bu modelə görə istənməyən davranış sinifdə süətlə yayıla bilən olub

müəllim bu davranışa müdaxilə etmədən öncə yayılma potensialını nəzərə almalıdır. Əgər davranışın yayılma potensialı zəifdirsə davranışı diqqətə almamaq olar, əgər yayılma potensialı yüksəkdirsə təcili müdaxilə edilməlidir. Bu mövzuda təklif edilən bəzi müdaxilə strategiyaları isə göz təması qurmaq, başını yelləmək, yanına getmək, yumordan istifadə etmək kimi yollardır.

Redl və Vattenberqin fikrinə əsasən insanlar qrup daxilində fərdi olaraq davrandıqları üçün fərqli davranışlar sərgiləyirlər. Başqa sözlə desək müəllim arzuolunmaz davranışları dəf etmək üçün təsirli fəaliyyətləri necə istifadə edəcəyini öyrənməlidir. Buna görə də Redl və Vattenberq qrupu bir canlı olaraq görür. Qrupun gözləntiləri fərdin davranışlarına təsir etdiyi kimi fərdi davranış da qrupa təsir edir. Müəllim qrup davranışlarının özünəməxsus xüsusiyyətləri və qrup dinamikası haqqında məlumatı olmalıdır. Qruplar, üzvlərinin fərdi davranışlara təsir etmədə özlərinəməxsus bir sıra psixoloji təzyiqlər qurur. Öyrətmənin qrup dinamikası haqqında yetərli olması təsirli sinif idarəetməsi üçün önəmli amildir.

Redl və Vattenberq qrup üzvləri üçün bir sıra rollar müəyyənləşdirmişlər. Bu rollar aşağıdakılardır:

- **Lider:** hər qrupda olan və bir çox mövzuda digərlərindən üstün xüsusiyyətlərə sahib olan insanlardır. Bəzən eyni qrup içərisində fərqli fəaliyyətlərdə fərqli liderler ola bilər.
- **Təlxək:** qrupun əyləncə qaynağıdır. Bəzən qrupa faydası olar, bəzən də zərər verə bilər. Xüsusən stresli mühitin normallaşmasında rol oynayırlar.
- **Sərt:** qrupda söz sahibi olmaq üçün güc və müxtəlif mənfi gücləndiricilərdən istifadə edirlər. Qrup tərəfindən çox sevilməyən, lakin güclü olduqlarına görə qorxulan və hörmət edilən insanlardır.
- **Təxribatçı:** öz daxili problemlərini qrupa əks etdirən və olmayan problemlər yaradan insanlardır. Əsasən gərgin mühitdə daha çox ön planda olurlar.

Redl və Vattenberq tərəfindən qruplar və bu quplrda olan şagirdlərdən başqa sinifdə müəllimin də sahib olduğu bəzi rollar müəyyənləşdirilib. Bu rollar aşağıdakı kimi sıralanır:

- Model olaraq cəmiyyət nümayəndəsi,
- Hakimlik,
- Məlumat mənbəyi,
- Öyrənmə yrdımçısı,
- Mütəxəssislik,
- Səhvləri üzə çıxaran dedektivlik,
- Modellik/ nümunə olmaq,
- Xidmət etmək,
- Eqo dəstəkləyicisi,
- Qrup liderliyi,
- Valideyn vəkilliyi,

- Düşmən hədəfi,
- Dostluq,
- Sevgi obyekti (Redl & Vattenberq, 1959; Redl, 1972).

**Thomas Gordon modeli (müəllim mərkəzli model)**

Qordon sinifdə intizamın sadəcə mükafat və cəza ilə əldə edilə bilməyəcəyini bildirir., avtoritar intizamın şagird üzərindəki mənfi təsirlərinə diqqət çəkir. Bu model təsirli müəllimlik təhsili adı ilə inkişaf etdirilmiş olub arzuolunmayan şagird davranışlarının şagirdlə qurulacaq açıq ünsiyyətlə aradan qaldırıla bilər. Mükafat və cəza üsulunun davranışı dəyişməkdə yetərli olmadığı fikrini müdafiə edən bu modeldə şagirdlərdə özünüidarəetmə və şəxsi intizam yaradılmasının vacibliyi üzərində durulur, problemi şagirdin şəxsiyyəti kimi qəbul edir. Problemli davranışın aradan qaldırılmasında müəllimlərin yardım edən, üzləşdirən və qarşısını alan olmaqla bir sıra yanaşmalar izləyə bilərlər. Bunların hər biri ilə əlaqəli əməl olunmalı bəzi strategiyalar haqqında söz edilmişdir.

Bu modeldə əvvəlcə problemli davranışın kiminlə əlaqəli olduğunu müəyyənləşdirmək vacibdir. əgər problem şagirddən qaynaqlanırsa bu halda müəllim məsləhətçi olaraq və empatik əlaqə ilə şagirdə problemə özünün çıxış yolu tapmasına kömək edir. Əgər problem müəllimdən qaynaqlanırsa bu halda da müəllim və şagirdlərin birlikdə çıxış yolu tapmalarının vacibliyi vurğulanır. Bu modelə görə sinif daxili öyrənmə fəaliyyətləri şagirdlərin bir sıra arzu olunmayan davranışları ilə bloklanırsa bu halda problem daha çox müəllimə aiddir. Qordonun fikrincə müəllimlər əsasən problemin kökündə onlarla əlaqəli olmasına qarşılıq olaraq şagirdlərə “sən” dili ilə xitab edərək onları günahlandırırlar. Qordon müəllimlərə “mən” dilindən istifadə edərək problem haqqında onun nə hiss etdiyini ifadə edən ismarıclarla şagirddən nə gözlədiyini açıq şəkildə ifadə etməyinin zəruri olduğunu bildirir. Şagirdlərə problem həll etmək bacarığının qazandırılmasını zəruri hesab edən Qordon bu müddətin aşağıdakı mərhələlərdən ibarət olduğunu bildirir:

- Problemi müəyyənləşdirmək
- Problemin həlli yollarını müəyyənləşdirmək
- Qəbul edilə bilən həll yolunun nə olduğuna qərar vermək
- Həll yolunu tətbiq etmək
- Tətbiqin uğurluluğunu dəyərləndirmək (Qordon, 1996).

**Sinif idarəetməsində müəllim davranışı**

Məktəbdə və sinifdə intizamın təmin edilməsi əsas mövzu olduqda əsasən şagird davranışının məktəb idarəçiləri və müəllimlər tərəfindən yoxlanılması başa düşülür. Halbuki, şagirdlərə öz davranışlarını yoxlamaq və özlərinə nəzarət etmək və idarə etmək bacarığı qazandırıldığında xarici nəzarətə çox da ehtiyac olmayacaq. Şagirdlər öz davranışlarına nəzarət

etməyi öyrənməlidir. Məktəb və sinifdəki intizamın digər bir hissəsi də müəllimin öz intizam anlayışı və tətbiqidir. Müəllim şagirdlərdə görmək istədiyi davranışı əvvəlcə özü göstərərək yaxşı rol model olmalıdır. Müəllimin sahib olduğu status – mükafatlandırma və cəzalandırma gücü şagirdlərin onu təqlid etməyi və model olaraq görməyi ilə nəticələnə bilər. Buna görə müəllim qışqırmaqdan çox danışmalı, şagirdlər haqqında tənqidi fikirlər yürütmək və mənfi danışmaqdansa onların müsbət tərəflərini önə çıxarması və vurğulaması kimi davranışlar nümunəvi davranışlardandır.

Müəllimlər şagirdlərə daha çox muxtariyyət verdikdə sinifdə nəzarəti itirəcəklərini düşünürlər. Müəllimlər alternativ nəzarət üsullarını bilməlidirlər. Məktəbin funksiyalarından biri şagirdin şəxsiyyətinin inkişafını təmin etməkdir. Bu halda müəllimin vəzifəsi şagirdə düzgün seçimlər etməyinə kömək etmək, həyata keçirmək istəyini fəaliyyəti seçmək və nəticələrinə qatlanmaq fürsəti verməlidir. Beləcə şagirdlərin müstəqil iş görmək və yaradıcılıq bacarıqları inkişaf etmiş olur. Lazım olduqda müəllim şagirdlərin səhv etməsinə də icazə verməlidir, səhv etmək də bir öyrənmə yoludur. Hər şagirdə öz hərəkətinin nəticələrini açıqlamasına və izah etməsinə fürsət verilməlidir. Təsirli müəllim şagirdə cəza verməkdənsə öz davranışlarının nəticələrinə razı olmağı öyrədir. Müəllim şagirdlərin uyğun hesab olunan davranışları bildiklərini düşünməməli, onlara bu davranışları özü öyrətməlidir.

Sinifdə intizamı təmin etməyin əsas məqsədlərindən biri digərlərinin hüquqlarını qorumaqdır. Bunlardan biri də öyrənmə hüququdur. Bununla yanaşı şagirdlərin hörmət, əlaqə saxlamaq, özünü ifadə etmək, fiziki və psixoloji istiqamətlərdə təhlükəsizlikdə olmaq kimi bir sıra ehtiyac və hüquqlarından söz edilə bilər (Şişman, 2002).

**Bölmənin xülasəsi**

Sinifdə intizam təmin edilməsi sinif idarəetməsinin ən vacib faktorlardan biri olub xüsusən yeni müəllim namizədlərini ən çox maraqlandıran hallardandır. Sinifdə şagird davranışına nəzarət və arzuolunmayan şagird davranışlarının qarşısının alınması mövzusunda universal səviyyədə keçərli tək bir yol yoxdur. Sözügedən hallar məktəb səviyyələrinə və növlərinə görə dəyişir. Müəllimlərin üzərinə düşən vəzifə sinif idarəetməsi mövzusunda inkişaf etmiş müxtəlif yanaşma və modelləri bilmək, bunlardan yararlanaraq öz sinif idarəetməsini inkişaf etdirməkdir. Hər nə qədər müəllimlər əsasən sinifdə yaranan arzuolunmaz davranışların qaynağını və səbəbini şagirdlərdə görsələr də, ilk öncə sinifdəki mühiti formalaşdıran müəllimin öz davranışıdır. Sinif idarəetməsi və sinifdə intizam təmin etmə haqqında inkişaf etdirilmiş modellər araşdırıldığı zaman ənənəvi mükafatlandırma və cəzalandırma üsullarının bu mövzuda yetərsiz olduğu, müəllimlərin güclü əlaqə bacarıqlarına sahib olduqlarında sinifdə yaranacaq bir çox problemin öhdəsindən gələ biləcəyi göstərilir.

# SOSİAL ÖYRƏNMƏ NƏZƏRİYYƏSİ

- Rza Məmmədov -

Fərdin özünü qorumaq, inkişaf etdirmək, sağlam olmaq, ictimai münasibətlər qurmaq kimi sahələrdə bacarıqlı olmasını təmin edən və həyatı boyu ehtiyac duyacağı bacarıqları özündə ehtiva edən həyat bacarıqlarının formalaşması uşaqlıq dövründən başlayır. Belə ki, formal və informal yollarla əldə edilən məlumatlar həyatda qazanılan bacarıqlarla birləşdikdə sosial, idraki və emosional vəziyyətlərin öhdəsindən gəlmək qabiliyyətimizə müsbət təsir göstərir.

Həyati bacarıqların əsasını təşkil edən nəzəriyyələr uşaq və yeniyetmələrin inkişafı nəzəriyyəsi, idrak problemlərinin həlli, sosial öyrənmə nəzəriyyəsi, sosial təsir nəzəriyyəsi, emosional inkişaf, problem davranış nəzəriyyəsi və davamlılıq nəzəriyyəsi kimi sıralanır. Bu bölmədə sosial öyrənmə nəzəriyyəsi haqqında məlumat verəcəyik.

## Sosial öyrənmə nəzəriyyəsi anlayışı

Albert Bandura tərəfindən formalaşdırılmış sosial öyrənmə nəzəriyyəsi həm də sosial koqnitiv öyrənmə nəzəriyyəsi kimi tanınır. Banduraya görə, insan düşüncə və davranışlarının əksəriyyəti sosial mühitdən əldə edilən məlumatlara əsaslanır. Bu nəzəriyyəyə görə, sosial mühit bizim öyrənməmizə əhəmiyyətli dərəcədə təsir göstərir. Nəzəriyyənin əsas strukturu fərd, ətraf mühit və davranış üçbucağı üzərində formalaşır; Bu dəyişənlər daim bir-birinə təsir edir (Bandura, 1986). Ailə, sosial mühit və hətta əvvəlki nəsillər bizim sosial davranışımıza böyük təsir göstərir.

Eyni zamanda ifadə etmək lazımdır ki, insanların başqa bir insandan öyrənə biləcəyini ilk dəfə John Dewey söyləmişdir. Deweyə görə sosial qarşılıqlı əlaqə nəticəsində fərd öz düşüncəsini formalaşdırır (Williams, 2017). Digər tərəfdən Lev Vıqotski isə inkişafın sosial mühitdə qarşılıqlı təsirlər nəticəsində əldə olunduğunu müdafiə edir. Digər tərəfdən Julian Rotter sosial öyrənmə anlayışından ilk istifadə edən şəxsdir. İnsanlar öz həyatlarına təsir etmək qabiliyyətinə malikdirlər. Amma gücləndiricilər və xarici stimullar da insanların şəxsiyyətinin

və davranışının formalaşmasına təsir göstərir (Mearns, 2004). Nəzəriyyənin əsasında dönərsək, Banduraya görə, sahib olduğumuz bacarıqların əksəriyyəti modelləşdirmə yolu ilə əldə edilir. Fərd ətrafındakıların davranışlarını müşahidə edərək öyrənir; Müşahidə olunan davranışların necə edildiyini və bu davranışlarla bağlı qaydaları beynində kodlaşdırır. Bu kodlaşdırma daha sonra müşahidə olunan davranışı yerinə yetirərkən fərdə rəhbərlik edir (Bandura, 1986). Ona görə də yeni davranışların mənimsənilməsində müşahidənin böyük rolu var. Müşahidə yolu ilə öyrənmə sadəcə digər insanların davranışlarını təqlid etməklə deyil, ətrafdakı hadisələri idrakla emal etməklə də baş verir (Çakır, 2007).

Sosial öyrənmə nəzəriyyəsinə görə, öyrənmədə dörd əsas proses var. Bunlar diqqət, yadda saxlama, təkrar və motivasiyadır. Fərd yaşadığı mühitdə etdiyi davranışa diqqət yetirir, bu davranışın necə edildiyini yaddaşında saxlayır, uyğun bir mühit tapdıqda davranışı təkrarlayır və sonradan istifadə etmək üçün motivasiya olur. Mükafat və cəza davranışın təkrarlanmasına və öyrənilməsinə əhəmiyyətli təsir göstərir. Fərd cəmiyyətin mükafat və cəzalarla bağlı dəyər mühakimələri haqqında təsəvvür əldə edir, hansı davranışın ona mükafat gətirəcəyini dərk edir və sonra müsbət davranışı özünəməxsuslaşdırır (Aydın, 1997). Müsbət davranışları daxililəşdirmək vacibdir. Çünki həyat yalnız mükafat və cəzalardan ibarət olsaydı, çoxları sağ qalmazdı. Buna görə də müsbət davranışı mükafat gözləmədən yerinə yetirmək sosial həyatın düzgün davam etməsini təmin edir (Bandura, 1969). Bu nöqtədə sosial həyatı idrakla idarə edə bilmək vacib olur. Bandura bu prosesi özünütənzimləmə kimi təsvir edir (Bandura, 1986). Məqsədlər təyin etmək və bu məqsədlərə çatmaq üçün strategiyalar hazırlamaq mənasını verən özünütənzimləmə əsas həyat bacarıqları arasındadır.

Düşüncənin fiziki əsasları ilə onun funksional tərəfləri arasında diqqətli bir fərq qoyulmalıdır. İdrak prosesləri təkcə beyinlə əlaqəli fəaliyyətlərdə baş vermir, həm də qərar qəbul etmə proseslərində təsirli olur. İnsan ağlı təkcə reaktiv deyil, həm də məhsuldar, yaradıcı, təşəbbüskar və özünü əks etdirəndir. İnsanlar qərar vermə funksiyaları olan düşüncələrin istehsalçısıdırlar. Onlar dəyişən situasiyalara uyğunlaşmaq üçün gələcək fəaliyyətlərini planlaşdırır, öz hərəkətlərinin funksional tərəflərini qiymətləndirir, strateji olaraq seçilmiş seçimləri təşkil edir və hərəkətlərinin mümkün nəticələrini müəyyənləşdirir (Bandura, 1999). Yuxarıda ifadə edilənlərin aydın olması üçün sosial öyrənmə nəzəriyyəsinin əsas elementlərinə baxaq:

1. İnsanlar başqalarının davranışlarını və bu davranışların nəticələrini müşahidə edərək öyrənə bilərlər;

2. Öyrənmə davranış dəyişikliyi olmadan baş verə bilər. Sosial öyrənmə nəzəriyyəsinin tərəfdarları iddia edirlər ki, öyrənmə mütləq performansı (davranışı) əks etdirmir, çünki insanlar yalnız müşahidə etməklə də öyrənə bilərlər. Öyrənmə davranışda dəyişiklik yarada və ya yaratmaya bilər;

3. Öyrənmədə qavrayış mühüm rol oynayır. Son 30 ildə sosial öyrənmə nəzəriyyəsi insanın öyrənmə prosesinə daha çox perseptual (idrak) şəkildə yanaşmışdır. Gələcək gücləndirmə və ya cəzalar barədə məlumatlılıq və gözləntilər insan davranışına əhəmiyyətli dərəcədə təsir göstərir;

4. Sosial öyrənmə nəzəriyyəsi davranış və koqnitiv öyrənmə nəzəriyyələri arasında körpü və ya keçid kimi qəbul edilə bilər.

Bu dörd element fərdlər arasında fərqli ola bildiyindən, fərqli fərdlər eyni davranışı müxtəlif yollarla əks etdirəcəklər. Bundan əlavə, sosial öyrənmə nəzəriyyəçiləri öyrənmə və performans (davranış) arasında ənənəvi davranış nəzəriyyəçilərinin etmədiyi mühüm fərq qoyurlar. İnsanlar bir davranış əldə etsələr də (öyrənsələr), o anda bu davranışı göstərməməyi (etməməyi) seçə bilərlər (Malone, 2002).

**Sosial Öyrənmə Nəzəriyyəsinin Prinsipləri**

Sosial öyrənmə nəzəriyyəsinin altı əsas prinsipi var. Bandura (1977) bu əsas prinsipləri aşağıdakı kimi sadalayır:

***1. Qarşılıqlı determinizm (Reciprocal determinism)***

Sosial öyrənmə nəzəriyyəsinin birinci əsas prinsipinin davranış, şəxsi faktorlar və ətraf mühit təsirlərinin birlikdə nəzərə alınması və onların birlikdə öz sistemini formalaşdıracağı bildirilir. Müəyyən edilmiş xüsusiyyətlər Şəkil 1-də verilmişdir:




Öyrənmədə qarşılıqlı təsir

Qaynaq: Zimmerman və Schunk, 2001.

Şəxsi amillərlə insanın düşüncələri, gözləntiləri və inancları izah edilir və bu xüsusiyyətlərin insanın davranışına təsir edəcəyi bildirilir. Bundan əlavə, şəxsi xarakterlər, temperament, görünüş də şəxsi amillərdə göstərilir. Davranış insanın vəziyyətə reaksiyasını ifadə edir və öz davranışını qiymətləndirən fərdlərin reaksiyasının fərqli xüsusiyyətlərə malik olacağı bildirilir. Ətrafdan alınan rəy insana özünü qiymətləndirməyə və davranışını böyük ölçüdə dəyişməyə imkan verəcəkdir.

Sxemləşdirilmiş vəziyyəti qısaca belə izah etmək olar; İnsan məktəbə müəyyən düşüncə və dəyərlərlə gəlir və sosial mühiti ilə daim qarşılıqlı əlaqədə olur. Məktəbə gələn fərd öz müsbət və ya mənfi davranışlarını həmin cəmiyyətə daşıyacaqdır (*davranış*). İnsanın özünün və dostlarının *fərdi xüsusiyyətləri ətraf mühitdə* bir-birinə təsir edəcəkdir. Beləliklə, şəxsi, davranış və ətraf mühit xüsusiyyətləri davamlı olaraq bir-birinə təsir etmək gücünə sahib olacaqdır (Tuckman, 1991).

***2. Simvollaşdırma qabiliyyəti (Symbolizing capability)***

Simvollaşdırma qabiliyyəti insanların ətraf mühiti dərk etməsinə və idarə etməsinə təsir göstərir. Təcrübələr simvolik olaraq şüurda ifadə olunur və davranışın öyrənilməsinə imkan verən bir modelə çevrilir. Keçmişi yadda saxlamaq olar; Gələcək sınaqdan keçirilə bilər. İnsanlar uzaqgörənlik qabiliyyəti ilə həyatlarını zehinlərindəki simvollarla kodlaşdıraraq gələcək üçün proqnozlar verə və planlar qura bilərlər. Düşüncə hərəkətdən əvvəl gəlir (Bandura, 2001).

Simvollar insanların şüurunda dünyada gördüklərinin nümayəndəsi kimi görünür. Fərdlər dünyanın özündən daha çox idrak nümayəndələri ilə qarşılıqlı əlaqədə olurlar və onlar dünyanı idrak agentləri vasitəsilə simvolik olaraq görürlər. Bu o deməkdir ki, insan düşünmək və dildən istifadə etmək qüdrətinə malik olduğu üçün keçmişi beynində saxlaya, gələcəyi proqnozlaşdıra bilər. Mümkün gələcək davranışlar simvolik olaraq beyində formalaşdırılır və sınaqdan keçirilir. Keçmişin və gələcəyin simvolları və ya koqnitiv nümayəndələri kimi düşüncələr sonrakı davranışa təsir edən və ya səbəb olan materiallardır (Yeşilyaprak, 2002).

***3. Uzaqgörmə qabiliyyəti (Forethought capability)***

Sosial öyrənmə nəzəriyyəsinə görə, insan davranışı məqsədyönlüdür və uzaqgörənliklə tənzimlənir. Uzaqgörənlik insanın özünü motivasiya etmək, öz hərəkətlərini qabaqcadan görmək və istiqamətləndirmək qabiliyyətidir. Əvvəlki təcrübələr, davranış həyata keçirilməzdən əvvəl həmin davranış nəticəsində nələrin baş verəcəyi ilə bağlı gözləntilər (proqnozlar) yaradır. Buna görə də, davranışın nəticələri ilə bağlı gözləntilər, davranışın faktiki nəticələrinə deyil, davranışın təkrarlanma ehtimalına təsir göstərir. Gözləntilər insanın proqnozlaşdırılan nəticəni qiymətləndirməsidir. Fərdin gözləntilərə əsaslanaraq davranışını tənzimləmək qabiliyyəti proqnozlaşdırıcı davranış mexanizmini təmin edir.

Gələcəyə baxış bir çox müxtəlif yollarla özünü göstərir. İnsanlar özləri üçün məqsədlər qoyur, müxtəlif davranış nümunələrinin ehtimal olunan nəticələrini təxmin edir və arzu olunan nəticələrə nail olmaq və zərərli olanlardan qaçmaq üçün müəyyən fəaliyyət addımlarını seçib tətbiq edirlər (Bandura, 2001). Gözlənilən davranış mümkündür, çünki insanlar simvollaşdırma qabiliyyətinə malikdirlər. Məhz simvolların formalaşması prosesidir ki, insana

gələcək hadisələri elə bil bu anda baş verirmiş kimi idrakla düşünməyə imkan verir. Uzaqgörənlik özünütənzimləmə mexanizmi ilə motivasiya və fəaliyyətə çevrilir.

***4. Dolayı öyrənmək bacarığı (Vicarious capability)***

Dolayı öyrənmə göstərir ki, insanlar birbaşa təcrübə vasitəsilə öyrənməklə yanaşı, başqalarını müşahidə etməklə də öyrənə bilərlər. Dolayı öyrənmə vacibdir, çünki o, insanlara bəzi davranış nümunələrini öyrənməyə kömək edir və bu prosesdə vaxt aparan sınaq və səhvlərdən uzaq tutur. Eyni zamanda fərdin dolayı öyrənmə qabiliyyəti; ona vaxt, resurs və məkan məhdudiyyətlərinə görə adətən əldə edə bilməyəcəyi yeni məlumatlar əldə etmək üçün yeni vəziyyətlər və fəaliyyətlər kəşf etməyə imkan verir. Məsələn, televiziya insanların hər gün qarşılıqlı əlaqədə olduqları nümunələrin və davranışların nisbətini çox artırdı və insanların ətraf mühitin hüdudlarını aşmasına səbəb oldu (Brown, 1999).

***5. Özünütənzimləmə qabiliyyəti (Self-regulatory capability)***

Sosial öyrənmə nəzəriyyəsinin əsas prinsiplərindən biri insanın öz davranışını idarə etmək qabiliyyətinə malik olmasıdır. İnsanın günlük fəaliyyətini danışmaq, yemək, ev tapşırığını yerinə yetirmək və s. ilə bağlı bir çox davranış təşkil edir. Bütün şəxsi işlər başqaları üçün deyil, özləri üçün tənzimlənir. Ətrafdakı digər insanların davranışı fərdin davranışına təsir edə bilər, lakin insan öz davranışını təşkil edərək reaksiya verir (Tuckman, 1991).

***6. Özünü mühakimə bacarığı (Self-reflective capability)***

Keçmiş insanın nə düşündüyünü, nə etdiyini görmək baxımından böyük əhəmiyyət kəsb edir. Bir insanın davranışının nəticələrinə baxaraq, fərd şəxsi yoxlama aparacaq və düşüncələrinin adekvatlığını yoxlayacaqdır. Bandura (1982) bildirmişdir ki, istedadlı və bu qabiliyyətə malik olan fərdlər təhsillərində uğur qazanacaqlar. O, bu qiymətləndirmə qabiliyyətinə özünü effektivlik (self-efficacy) adını vermişdir.

Özünü effektivlik fərdin həyatına təsir edən hadisələrə inam səviyyəsidir və öz işinə nəzarət edir. Müəyyən mənada fərdin etməli olduğu şey öz imkanlarını performansla müqayisə etmək və vəziyyətə uyğun hərəkət etməkdir. Qarşılaşdığı çətinliklərdə necə uğur qazana biləcəyinə dair insanın özü haqqında inanmasıdır. Wood ve Bandura (1989) bu özünü effektivliyi "*fərdin konkret situasiya məqsədlərinə çatmaq üçün lazım olan motivasiya, idrak resursları və fəaliyyət kursları yaratmaq qabiliyyətinə olan inancları*" şəklində müəyyənləşdirmişdir (s. 408).

Öz-özünə effektivlik səviyyəsi insanların özlərini necə hiss etdiyini, düşündüyünü, hərəkət etdiyini və motivasiya etdiyini müəyyən edir. Öz-özünə effektivliyə dair inanclara təsirlərə 4 fərqli proses vasitəsilə nail olunur. Bunlara koqnitiv (məqsədlər haqqında düşünmə), motivasiya (məqsədlər qoymaq və onlara nail olmaq üçün işləmək), davranış (qanunla qəbul edilən mübarizə bacarıqları) və seçmə (mühit və fəaliyyətlərin seçilməsi və yaradılması) prosesləri daxildir (Malone, 2002; Bandura, 1994).

Öz-özünə effektivlik inancları fərdlərin çətinliklər qarşısında özlərini necə motivasiya etmələri, emosional həyatlarının keyfiyyəti və həyatları boyunca mühüm qərarlar qəbul edərkən seçimləri baxımından düşüncələrinə təsir göstərir (Bandura, 2002). Güclü özünü effektivlik hissi bir çox cəhətdən insanın nailiyyətlərini və şəxsi məmnuniyyətini artırır. Özünə inamı yüksək olan insanlar çətin vəziyyətlər qarşısı alınmalı təhdidlərdən çox idarə edilməli və həll edilməli olan vəziyyətlər kimi baxırlar. Belə effektiv perspektiv fərdə öz fəaliyyətlərinə həqiqi maraq göstərməyə və dərin konsentrasiya ilə məşğul olmağa imkan verir. Digər tərəfdən, öz effektivliyinə şübhə edən insanlar şəxsi təhdid kimi gördükləri çətin vəziyyətlərdən qaçır və onlardan uzaqlaşırlar. Onlar nail olmaq istədikləri məqsədlərə doğru daha az istək və daha az əzm nümayiş etdirirlər. Uğursuzluq halında, kompensasiya etmək üçün olduqca yavaş olurlar. Onlar üçün stress və depressiyaya düşmək son dərəcə asandır (Driscoll, 2000; Bandura, 1994).

***Sosial öyrənmə nəzəriyyəsinin əsas ifadələri***

Sosial öyrənmə nəzəriyyəçiləri daxili və xarici qaynaqlı olaraq gücləndiriciləri üç qrupa ayırmışdırlar:

*Sosial gücləndiricilər (Social reinforcement)*: İnsan davranışına təsir edən amillər təkcə fərdin şəxsi ehtiyacları ilə deyil, həm də psixoloji ehtiyacları ilə bağlıdır. Buna görə də insan davranışını və şəxsiyyətini yaradan güclü gücləndirici forma sosial gücləndiricilərdir. Təsdiq, gülümsəmə, maraq göstərmə, təriflәmə və təşviq kimi sosial gücləndirmələr fərdlərə arzu olunan davranışları qazandırmaq baxımından əhəmiyyətlidir. Fərdin təhsilində sosial möhkəmləndirmələrə fiziki sevgi (qucaqlaşmaq, öpmək və s.) və valideyn-uşaq fəaliyyətləri (kitabxanaya və ya zooparka birlikdə getmək, nağıl oxumaq və s.) daxildir və bu cür möhkəmləndirmələr diqqətdən kənarda qalmamalıdır (Neill & Fleming, 2003).

*Subyektiv gücləndiricilər (Self reinforcement)*: Müəyyən müsbət davranışlara görə özünü real mükafatlarla təltif etməklə yanaşı, subyektiv möhkəmləndirmələr (məsələn, bir saat dərs oxusam, bir dilim tort yeyə bilərəm); daxili olaraq özü ilə müsbət danışmaq və müsbət hisslər hiss etməyi əhatə edir. İnsanlar uğur və müsbət davranış üçün özlərini mükafatlandıra bilərlər. Digər tərəfdən, mənfi davranışlara görə özlərini cəzalandıra bilərlər (Neill & Fleming, 2003).

*Dolayı gücləndirici (Vicarious reinforcement)*: Başqalarının davranışlarının mükafatlandırıldığını və ya cəzalandırıldığını müşahidə etmək, həmin davranışların fərddə dolayısı ilə möhkəmlənməsi ilə nəticələnir. Məsələn, çox məşq edən insanların Olimpiya qızıl medallarını qazandığını görmək müşahidəçini fiziki hazırlığa təşviq edəcək və davranışı gücləndirəcəkdir (Neill & Fleming, 2003). Dolayı gücləndiricilər bir növ subyektiv gücləndiricidir və bəzi hallarda davranış dəyişikliyi üçün qeyri-kafi ola bilər (Bandura, 2004).

Sosial öyrənmə nəzəriyyəsi haqqında digər anlayışlar bunlardır:

*Dolaylı cəza (Vicarious punishment)*: Model hər hansı bir davranışa görə cəzalandırıldıqda, müşahidəçinin bu davranışa meyli azalır (Askew və Field, 2007). Məsələn, dostunun yol hərəkəti qaydalarına əməl etməməsi səbəbindən bir il sürücülük vəsiqəsinin əlindən alınmasını müşahidə edən şəxs eyni səhvlərə yol verməmək üçün diqqətli olmalıdır. Ancaq fərdlər qorxuları səbəbindən davranışlarını göstərə bilmirlərsə, qorxu yox olduqda və ya azaldıqda arzuolunmaz davranışı etməyə meyllidirlər. Məsələn, təhsilalanların müəllimi onları görmədiyi halda siqaret çəkməsi və ya digər dostlarına qarşı aqressiv olması deyilə bilər (Korkmaz, 2003).

*Dolaylı emosiya (Vicarious emotional arousal)*: Başqa bir insanın davranışını müşahidə edərkən meydana çıxan empatiya vəziyyəti, müşahidə edilən insanda baş verən davranış vəziyyətinə əsaslanan emosional kondisiyaya səbəb olur (Neill & Fleming, 2003). Bir çox hisslər müşahidə yolu ilə əldə edilir. Bəzi insanlar birbaşa zərər görməsələr də, siçan, pişik və ya başqa şeylərdən qorxa bilərlər. Məsələn, evdə siçan görünəndə anasının qışqırdığını görən uşaq siçanın qorxmalı bir məxluq olduğu qənaətinə gəlir və anasını təqlid edir. Adətən özümüz belə yaşamasaq da, başqalarının həyatını müşahidə edərək dolayı yolla qorxu və narahatlıq kimi hissləri inkişaf etdirə bilərik (Korkmaz, 2003).

*Semantik ümumiləşdirmə (Semantic generalization)*: Semantik ümumiləşdirmə rəng, ölçü və forma kimi konkret əlamətlərdən daha çox mücərrəd əlamətlər əsasında aparılan ümumiləşdirməyə aiddir. Öyrənmə müəyyən mühitdə baş verən müəyyən vəziyyətlərlə məhdudlaşmır. Oxşar vəziyyətlərə semantik əlaqələr və ümumiləşdirmələr edilə bilər. Müsbət və mənfi emosiyalar daha asan ümumiləşdirilir. Məsələn, futbol matçına getmək və xoşagəlməz təcrübələr yaşamaq həmin insanda kriket oyununa getməklə bağlı mənfi hisslər yarada bilər (Neill & Fleming, 2003).

*Qaydalara əsaslanan öyrənmə (Rule-based learning)*: Müəyyən mühitlərdə öyrənilən prinsip və qaydalara əsaslanaraq, insanlar müxtəlif mühitlərdəki vəziyyətlərdə necə davranmalı olduqlarını müəyyən edə bilərlər. Məsələn, məktəb tamaşasına baxarkən riayət edilməli olan qaydaları öyrənən təhsilalan çöldə teatr tamaşasına baxarkən nələrə riayət etməli olduğunu proqnozlaşdıra və tətbiq edə bilər (Bayrakçı, 2007).

***Sosial öyrənmə nəzəriyyəsində öyrənmə və öyrətmə***

Sosial öyrənmə nəzəriyyəsində dolayı öyrənmə başqalarının davranışına və bu davranışların müşahidəsinə əsaslanır. Müşahidəli öyrənmə (*Observational learning*) adlanan bu öyrənməyə görə, insanlar sınaq və səhvə ehtiyac olmadan ümumi və inteqrasiya olunmuş öyrənmə nümunələrini əldə edə bilərlər. Dolayı və birbaşa öyrənmənin vəziyyəti cədvəl 1-də verilmişdir.

***Cədvəl 1. Birbaşa və dolaylı öyrənmənin qarşılaşdırılması***

| **Öyrənmənin Növü** | **Öyrənmənin reallaşması** |
|---|---|
| Birbaşa öyrənmə | Öyrənən şəxs öz reaksiyasını göstərir və nəticələr birbaşa müəyyənləşir.<br>Təsviri stimul --- Operant cavab --- Ardıcıl gücləndiricilər |
| Dolaylı öyrənmə | Öyrənən model aldığı fərdin davranışını və performansını müşahidə edir və öz-özünə gücləndirir, sonra isə davranışı müəyyənləşdirir.<br>Təsviredici stimul (model) --- Zehni emal --- Daxili gücləndiricilər --- (Müəyyən vaxtın keçməsi) --- Oxşar vəziyyət --- Modelləşdirilmiş davranış |

Qaynaq: Bandura, 1986.

Sosial öyrənmə nəzəriyyəsinə görə öyrənmə, reaksiya yolu ilə öyrənmə, model alma və ya müşahidə yolu ilə öyrənmə metodlarından biri ilə baş verir (Bandura, 2001).

**Reaksiya yolu ilə öyrənmə**

Gündəlik həyatda bəzi davranışlar bir reaksiya ilə qarşılaşmasa da, bəzilərinin nəticəsi olaraq cəza və mükafat gələ bilər. İnsanlar təkcə öyrənmə zamanı reaksiya vermir, həm də nəticələrə diqqət yetirirlər. Nəticələr müşahidə edilir və təsvirlər verilir. Qazanılan bu bilik gələcək davranışlar üçün bələdçi kimi xidmət edəcəkdir. Gücləndirici nəticələr fərdə hansı nəticələrin mükafatlara, hansı nəticələrin cəzaya səbəb olduğunu müəyyən etməyə kömək edir. Çünki reaksiya ilə öyrənmənin böyük ölçüdə idrak prosesi olduğu bildirilir (Bandura, 2001).

**Model alma və ya müşahidə yolu ilə öyrənmə**

Bandura bir davranışın müşahidə nəticəsində öyrənilə biləcəyini qeyd edir. Fərdlər öz inkişafının fəal iştirakçılarıdır və davranışı təqlid, müşahidə və ya modelləşdirmə yolu ilə

öyrənə bilərlər. Müşahidə olunan insanlara modellər, öyrənmə prosesi isə modelləşdirmə adlanır. İnsanlar başqalarının davranışını və bu davranışın nəticələrini müşahidə edir və əgər bu davranış müsbət və ya qəbul edilirsə, insanlar bu davranışı öz daxilində qəbul edib təqlid edir və ya oxşar davranışlar nümayiş etdirirlər. Aqressiv davranışlar və zorakılıq tətbiqləri də modelləşdirmə yolu ilə öyrənilə bilər (Bandura, 1969).

Bandura bir insanın başqa bir insanın davranışını uğurla modelləşdirməsi üçün dörd prosesin zəruri olduğunu bildirir. Bu prosesləri aşağıdakı kimi izah edə bilərik (Malone, 2002):

1. ***Diqqət prosesi (Attention)***

Müşahidəçinin modelin hansı aspektinə diqqət yetirəcəyi vacibdir. Fiziki və ya məkan baxımından modelə yaxın olmaq müşahidəçinin öyrənməsinə böyük təsir göstərəcəkdir (Bandura, 1977). İnsan modelləşdiriləcək davranışı düzgün qavramasa və dəyərləndirməsə, müşahidə yolu ilə öyrənmə baş tutmayacaqdır. Müşahidə olunan davranış nə qədər sadə və diqqəti cəlb edirsə, onu modelləşdirmək bir o qədər asan olacaqdır. Ona görə də davranışı modelləşdirmək insanın özünü hazırlayıb-hazırlamamasından asılıdır.

Təhsilalanların tədris mühitində nümunə götürə biləcəkləri davranışları sinif mühitinə gətirmək üçün müəllimlərin kifayət qədər iş görmədiyi bildirilir (Bandura, 1986). Təhsilalanların örnək ola biləcəkləri davranışlara laqeyd yanaşmaq onların gələcək karyera seçimlərinə təsir edəcək bir amil kimi ortaya çıxmaqdadır. Nəticədə, diqqət modelin xüsusiyyətlərindən və davranışından asılı olaraq dəyişəcəkdir. Funksional dəyəri olmayan davranışlar modelləşdirici tərəfindən nəzərə alınmayacaqdır (Truckman, 1991). Modelləşdirmə yolu ilə öyrənmədə diqqəti təmin etmək üçün öyrəniləcək davranışın mühüm hissələrinin vurğulanması; yerinə yetiriləcək işi hissə-hissə yerinə yetirmək; davranışdakı vacib elementləri aydınlaşdırmaq və müşahidəçiyə modelləşdirilmiş davranışı praktikada tətbiq etmək üçün lazımi imkanları vermək vacibdir (Bandura, 1986).

2. ***Yadda saxlama prosesi (Retentin)***

Davranış modelləşdirildikdən sonra, modelləşdirilmiş iş və ya davranış uyğun mühitlərdə, hətta bu davranış olmadıqda belə xatırlanmalıdır. Qazanılan biliklər insanın şüurunda psixi strukturlar və ya xəyali əşyalar kimi formalaşa bilməlidir (Bandura, 1977). Məlumat iki şəkildə simvollaşdırılır. Birincisi, məlumatın zehni şəkillərə, təsvirlərə çevrilməsidir. İkincisi, onu yaddaşda saxlamaqdır. Davranış strukturları ilə bağlı məlumatların daha çox vizual kodlar şəklində simvollaşdırıldığı bildirilir. Modelləşdirilmiş davranışların fərd tərəfindən sonradan tətbiq edilməsinə imkan verən vizual və şifahi simvollar keçmiş hadisələrin zehni şəkillərini formalaşdırmaqdansa, bu hadisələr haqqında abstraksiyaları ehtiva edir (Bandura, 1986).

Digər simvolik sistem şifahi-konseptual simvollardır. Davranışı tənzimləyən bir çox koqnitiv proseslərin əslində vizual deyil, konseptual olduğu ifadə edilir. Şifahi simvollar konkret modelləşdirmə ilə əldə edilən biliklərin böyük bir hissəsini təşkil edir. Vizual və şifahi simvollar bir-biri ilə qarşılıqlı əlaqədə olur. Modelləşdirdikləri davranışı şifahi və ya vizual simvollara çevirən müşahidəçilər hadisəni sadəcə müşahidə edən və zehni başqa işlərlə məşğul olan müşahidəçilərdən daha yaxşı öyrənəcəklərdir (Bandura, 1986).

### 3. *Tətbiq prosesi (Motor reproduction)*

Modelləşdirmə ilə öyrənmənin bu mərhələsi təsəvvür edilən və yadda qalan fəaliyyətlərin davranışa salınması ilə formalaşır. Geribildirim vermək bu mərhələnin baş tutmasına kömək edəcəkdir. Davranış modelini aşkar etmək üçün fərdlərin bu davranış haqqında əvvəlcədən məlumatı olmalıdır (Bandura, 1986).

Davranış yerinə yetirilməzdən əvvəl şəxs davranışı zehni olaraq təkrarlamalıdır ki, müşahidəçinin və modelin davranışı davranışa uyğun olsun. Bu prosesdə fərd öz davranışını müşahidə edir və davranışını ağlında tutduğu modelin davranışı ilə müqayisə edir. Müşahidəçinin davranışı ilə modelin davranışı arasındakı fərq çatışmazlıqların düzəldilməsinə səbəb olur. Bu proses müşahidəçinin davranışı modelləşdirilmiş davranışa oxşayana qədər davam edir. Bu prosesdə modelləşdirilmiş təcrübənin simvolik yada salınması müşahidəçiyə öz performansını nümayiş etdirməzdən əvvəl öz davranışını müşahidə edib düzəltməyə və modeli öz davranışına yaxınlaşdırmağa imkan verir (Senemoğlu, 1989).

### 4. *Motivasiya (Motivation)*

Sosial öyrənmə nəzəriyyəsində öyrənmə və performans bir-birindən ayrılır və öyrənmə performansdan əvvəl baş verir. Çünki fərdlər öyrəndikləri hər şeyi qəbul etməyə bilər. Modelləşdirilmiş davranışın nəticəsi insan üçün dəyərlidirsə, arzu olunan davranış daha asan aşkarlana bilər. Sosial öyrənmə nəzəriyyəsinin operant vəziyyətdən fərqləndiyi bir nöqtə olaraq, öyrənmənin gücləndirmə ilə və ya gücləndirilmədən davranış nəticəsində baş verdiyini göstərmək olar.

İnsanlar müşahidə yolu ilə yeni davranışlar və ya bacarıqlar əldə edə bilərlər, lakin motivasiya olunmayana və ya buna ehtiyac duyulana qədər fəaliyyəti həyata keçirmirlər. Motivasiya prosesi öyrənilənləri davranışa çevirməyə imkan verən bir prosesdir. Möhkəmləndirmənin iki mühüm funksiyası var. Bunlardan birincisi müşahidəçilərdə bir gözlənti yaradır ki, əgər onlar modelin gücləndirilmiş davranışı kimi davransalar, onlar da möhkəmlənəcəklər. İkincisi, öyrənməni davranışa çevirmək üçün fəaliyyətə əlavə kimi çıxış edir. Başqa sözlə desək, o, insanı öyrəndiyi şeylərdən istifadə etməyə sövq edir. Ümumiyyətlə, insanlar mükafatlandırılan davranışlar etməyə meyllidirlər (Senemoğlu, 1989).

Bu prosesdə üç əsas müşahidə öyrənmə modeli mövcuddur: (Bandura, 1977):

**Canlı model:** Davranış real şəxs nümayiş etdirir,

**Şifahi tədris modeli:** Davranış şifahi şəkildə izah edilir və təsvir edilir,

**Simvolik model:** Davranış uydurma personaj tərəfindən kütləvi informasiya vasitələrində, kitablarda nümayiş etdirilir. Simvolik model bu gün təlim prosesində getdikcə daha güclü rola malikdir.

**Sosial öyrənmə nəzəriyyəsinin sinfin idarə olunmasında tətbiqi**

Sosial öyrənmə nəzəriyyəsindən yaranan müvəffəqiyyət nəzəriyyəsinə görə, insanların niyə uğur əldə etmək istədikləri məlum olarsa, təhsilalanları motivasiya edən strategiyalar seçilə bilər. İnsanlar uğursuzluq ehtimalını minimuma endirdikdə və müvəffəqiyyət hissini maksimuma çatdırdıqda özlərinə real hədəflər qoyurlar. Uğur qazanan təhsilalanlarda nailiyyət ehtiyacı güclənir (Ergün, 2004). Dərsdə sosial öyrənmə, təhsilalanın öz öyrənmə uğurunu sinif yoldaşlarında nümayiş etdirdiyi və uğurunun böyük bir hissəsinin dostları tərəfindən qəbul edildiyi vaxt mənalıdır. Sosial öyrənmə qrupda başqalarının nəzarəti və şərhi altında “başqaları ilə birlikdə” əldə olunmaqla baş verir. Burada qrup daxilində ünsiyyət, qarşılıqlı əlaqə və unikal şəxsiyyətin formalaşması amili əhəmiyyət kəsb edir.

Sosial öyrənmə xüsusilə qrup dərslərində əldə edilir. Bu təlimdə müəllim təhsilalanlara daha da yaxınlaşır. Kiçik qrupda təhsilalanın özündən uzaqlaşması, maneələr qurması üstünlük hesab edilir. Çünki bu yolla təhsilalan qrupa daha rahat daxil ola və fəaliyyətlərdə daha səmərəli iştirak edə bilər (Ültanır, 1997).

Müəllim təhsilalanların diqqətini onlardan nümunə götürməsini istədiyi davranışa yönəltməlidir. Təhsilalanların problem həll etmə və alətlərdən istifadə etmələrini təmin edəcək fəaliyyətlərdə müəllim əvvəlcə özünü görüləcək iş üçün bir model kimi təqdim edə bilər. Müəllimin yeni davranışların mənimsənilməsində uyğun model olması mühüm amildir. Müəllimin işlətdiyi dil və sözlər, onun davranışı, təhsilalanlara münasibəti təhsilalanlar tərəfindən nümunə götürülür (Demirbaş, 2005).

Sosial öyrənmə nəzəriyyəsində müəllimin sinifdə model rolu müəllimin keyfiyyəti ilə düz mütənasibdir. Müəllimin təhsilalanlarla münasibəti yaxşı olarsa, təhsilalanlarına nümunə ola bilər. Əks halda, təhsilalanlar sinifdən kənarda model axtarırlar. Müəllimin iş planı, standartı, prinsipləri və təhsilalana müsbət münasibəti yaxşı model olmağa müsbət töhfə verir (Korkmaz, 2003). Modelləşdirmə ilə öyrənmənin həyata keçirilməsində aşağıdakı tədqiqatların aparılmalı olduğu bildirilmişdir (Tuckman, 1991):

1. Modelləşdiriləcək davranış müəyyən edilməlidir;

• Koqnitiv, affektiv və davranış ölçülərində yaradılmalıdır,

• Davranış (nəzakət, hörmət və s.) müəyyən edilməlidir,

• Mükafatlandırılan və ya cəzalandırılan davranış modeli qurulmalıdır.

2. Model müəyyən edilməlidir;

• Müəllimin özü ola bilər,

• Bənzər vəziyyətdə başqa bir təhsilalan ola bilər,

• Cəmiyyətdə olan canlı model seçilə bilər,

• Simvolik modellər daxil edilə bilər (qəhrəmanlar və s.).

3. Modelləşdirilmiş davranış təqdim edilməlidir;

• Model davranışı sadə və maraqlı etməklə təhsilalanların diqqəti artırılır,

• Təhsilalanlara zehni kodlaşdırma ilə yadda saxlamağa kömək edilir,

• Təhsilalanlara davranışı yerinə yetirmələri təmin edilir,

• Təhsilalanlar davranışı həyata keçirmək üçün həvəsləndirilir.

4. Model davranışının funksional dəyəri formalaşdırılmalıdır;

• Müsbət model davranışlar təqdim olunur,

• Arzuolunmaz davranışlar mükafatlandırılmamalıdır,

• Modelin davranışı özündən başqa xüsusiyyətə malik olduğu göstərilməməlidir.

Tuckman (1991) həmçinin yuxarıda müəyyən etdiyi model almaq ilə öyrənmə mərhələlərinin bir-biri ilə əlaqəsini aşağıdakı kimi göstərir.




Şəkil 2. Model almaq ilə öyrənməyin mərhələləri
Qaynaq: Tuckman, 1991.

Model davranışların nəticələrini müşahidə etmək, model alınacaq davranışları mənimsəmə faktorudur. Davranışın mənimsənilib-mənimsənilməməsi, davranışın mükafatlandırılması və ya cəzalandırılmasından asılıdır.

Bununla birlikdə, sosial öyrənmə nəzəriyyəsinin prinsiplərinə görə, insanın öz təlim fəaliyyətini və motivasiyasını tənzimləməkdə öz effektivliyini dərk etməsi fərdin intellektual inkişafı üçün çox vacibdir. Təhsilin ən böyük məqsədlərindən biri təhsilalanlara həyatları boyu özünütəhsil üçün zəruri olan intellektual alətlər və özünütənzimləmə bacarıqları verməkdir. Davamlı inkişaf edən təhsil texnologiyaları və elmi dəyişikliklərin sürəti özünü tənzimləyən öyrənmə üçün özünü effektivlik qavrayışının əhəmiyyətini və prioritetini artırmışdır (Bandura, 2002). Bu səbəbdən də təhsilalanlar tərəfindən hər cəhətdən nümunə götürülən müəllim öz özünə inamını sinifdə ən yaxşı şəkildə ortaya qoymalı, təhsilalanları daim dəstəkləməli və motivasiya etməlidir ki, təhsilalanlarda özlərinə tam etibarlı olsunlar.

# SİNFİN İDARƏ OLUNMASINDA QAYDALAR VƏ PROSEDURLAR

- Fəttah Fəttayev -

Fəaliyyəti düzgün təşkil olunmuş sinif yüksək öyrənmə mühiti və şagird fəallığı üçün ilkin şərtdir. Belə mühitdə şagird fəallığı yüksəlir, qrup və layihə tapşırıqları səmərəli şəkildə yerinə yetirilir, tədris resurslarından faydalı istifadə təmin olunur, vaxtdan səmərəli istifadə olunur, təşkilati işlərə az vaxt sərf olunmaqla, öyrənmə müddəti maksimuma çatdırılır. Müəllim ilk öncə sinfi düzgün idarə etməli və təhlükəsiz öyrənmə mühiti yarada bilməlidir.

Sinfin fəaliyyətinin düzgün təşkil olunması üçün hər bir şagird ondan nə tələb olunduğunu, necə davranmalı olduğunu, konkret situasiyada nə edəcəyini bilməlidir. Bunun üçün hər bir sinifdə müəllimin şagirdlərdən gözləntiləri, onlar üçün qaydalar və konkret situasiyalarda necə hərəkət etmələrini göstərən prosedurlar tərtib olunmalı və şagirdlərə öyrədilməlidir.

**Gözləntilər** – normal tədris mühitinin saxlanması üçün müəyyən edilmiş təlimatlar sistemidir. Bu təlimatlar şagirdlərdən gün ərzində hansı davranış gözlənildiyini göstərir. Məsələn:

– Başqalarına qarşı xeyirxah və nəzakətli olun.
– Sinif yoldaşlarınıza və müəllimlərə hörmətlə yanaşın.
– Məktəb əmlakına, avadanlıqlarına ziyan vurmayın.

**Qaydalar** – adətən davranışla bağlı olub, daha çox mənfi davranışlara məhdudiyyət qoyulması və müəyyən işlərin məcburi şəkildə yerinə yetirilməsi şəklində ifadə olunur. Məsələn:

– Təlimatlara qulaq as və əməl et.
– Danışmamışdan və yerindən durmamışdan öncə əlini qaldır.

**Prosedurlar** – hər hansı işi yerinə yetirmək üçün bir qrup spesifik addımlar ardıcıllığıdır. Məsələn, dərsin başlanması prosedurunu aşağıdakı kimi ifadə edə bilərik:

1. Sakitcə sinfə daxil ol.

2. Çantandan lazım olan materialları götür.
3. Öz yerində əyləş.
4. Müəllimin göstərişlərini gözlə.

Bütün şagirdləri sinifdən gözləntiləri və sinfin qaydalarını qurmaqda Sizə kömək etməyə təşviq edin. Qaydaları özünüz təyin edib, şagirdlərə "bunları etmək olmaz" deməkdənsə, qaydaları onlarla birlikdə tərtib etsəniz, daha effektli nəticə əldə edəcəksiniz. Qaydaların tərtibində özləri də iştirak etdiyindən, həm onlara əməl edəcək, həm də əməl olunmasına nəzarəti həyata keçirəcəklər.

Bu üsul yeni əmək fəaliyyətinə başlayan və ya hər hansı sinfə ilk dəfə dərs deyən müəllimlər üçün, xüsusilə də sinfə ilk təyin olunan sinif rəhbərləri üçün vacibdir. Dərs ilinin əvvəlində şagirdlərlə davranış baxımından nəyi etmək və nəyi etməmək lazım olduğu haqqında müzakirə aparın:

- Hansı məqamlarda telefondan istifadə etmək olar, hansı halda isə yaxşı deyil?
- Dərs zamanı hansı hallarda səs-küyün hansı səviyyədə olması yolveriləndir? və s.

İlk dəfə daxil olduğunuz siniflə münasibətlərinizi bu cür başlamaq özünüzü uğursuzluğa hazırlamaq kimi görünə bilər, ancaq sinfinizin quruluşundan asılı olaraq, şagirdlərinizin təklif etdiyi bəzi qaydaların sərtliyindən şoka düşə bilərsiniz. Nə olursa olsun, müzakirələriniz qarşılıqlı anlaşma və hörmət şəraitində keçməlidir.

Görmək istədiyiniz davranışları nümayiş etdirməyi vərdiş halına gətirin, çünki tədqiqatlar göstərir ki, modelləşdirmə şagirdlərə fərqli vəziyyətlərdə necə davranmağı effektiv şəkildə öyrədir.

Müəyyən davranışları modelləşdirməyin sadə yolu, rəhbərliklə, digər müəllim və ya şagirdlə söhbəti səhnələşdirməkdir. Hər hansı bir mövzu haqqında söhbət edin və danışarkən:

- Nəzakətli olun;
- Göz təması saxlayın;
- Telefonu əlinizdə saxlamayın, cibinizə qoyun;
- Bir-birinizə danışmaq üçün şərait yaradın, həmsöhbətinizin sözünü kəsməyin;
- Bir-birinizin ifadələrinə hörmətlə yanaşaraq narahatlıq yaratmayın.

Nümunə göstərdiyiniz söhbəti müzakirə edin, şagirdlərinizlə birlikdə "ideal davranış necə olmalıdır?" sualına cavab axtarın.

**Gözləntilər**

Səmərəli məktəb modeli bütün şagirdlər üçün yüksək gözləntilər nəzərdə tutur. Yəni bütün şagirdlər məktəbin verdiyi əsas bilik və bacarıqlara sahib olurlar. Gözləntilər normal tədris mühitinin saxlanması üçün müəyyən edilmiş təlimatlar sistemi olduğundan gün ərzində şagirdlərdən hansı davranış gözlənildiyini bildirməlidir.

- Gözləntilər geniş yazılmalıdır;
- Bütün insanlara və müxtəlif hallara şamil edilə bilər;
- Sadə və aydın olmalıdır;
- Müsbət dildə yazılır;
- Sayca məhdud olmalıdır;

*Davranış gözləntiləri nümunələri*

- Hamıya hörmətlə yanaşın;
- Məsuliyyətli olun;
- Təhlükəsizliyə riayət edin;

*Gözləntilərin izahı*

Hamıya hörmətlə yanaşın

- Sakit işləyin və başqalarının rahat işləməsi üçün şərait yaradın
- Başqaları danışanda diqqətlə dinləyin
- Sözünüz olanda əlinizi qaldırın, növbənizi gözləyin
- Nəzakətli sözlərdən istifadə edin

Məsuliyyətli olun

- Dərsə vaxtında gəlin
- Dərs başlayarkən bütün materialların partanın üzərində olmasına əmin olun
- Verilən bütün tapşırıqları vaxtında yerinə yetirin

Təhlükəsizliyə riayət edin

- Sinif yoldaşlarınızla, digər şagirdlərlə mübahisə etməyin və dalaşmayın;

- Sinifdə və dəhlizlərdə asta yeriyin;
- Hər hansı hadisə baş verdikdə dərhal müəllimlərinizə və ya yaxınlıqdakı böyüklərə məlumat verin.

**Qaydalar**

Qaydaları ilk dərs günündən və şagirdlərin iştirakı ilə yaradın. Bu, onların fikirlərinə hörmətlə yanaşmanızı və onları dəstəklədiyinizi göstərəcək. Qaydaların hazırlanmasında şagirdlərin iştirakı ona görə vacibdir ki, insan psixoloji olaraq özünün tərtib etdiyi qaydalara daha çox əməl etməyə çalışır və digərlərinin də həmin qaydalara əməl etməsinə çalışır. Digər tərəfdən şagirdlər arasında tez-tez rast gəlinən davranış pozuntularını şagirdlər özləri daha yaxşı hiss görür və həll etməyə çalışırlar. Onların təkliflərinin də yer aldığı qaydalar siyahısını çap edin və şagirdlərə paylayın. Hər hansı şagird bu qaydaları pozduqda, ümumu müzakirə ilə hazırladığınız bu sənədi ona xatırladıb, ümumi qaydalara hörmətlə yanaşmağın və ona əməl etməyin vacib olduğunu ona bildirməyiniz kifayət edəcək. Qaydalar hazırlanarkən aşağıdakıları nəzərə almaq lazımdır. Qaydalar:

**Sadə, dəqiq və aydın olmalıdır:** Şagirdləriniz ilk dəfə qaydalarınızla tanış olduqda, onlar mahiyyətcə nə demək istədiyinizi başa düşməlidirlər. Baxmayaraq ki, qaydalar ətraflı öyrədilməli və modelləşdirilməlidir, nə qədər sadə yazılsa və şagirdlər aydın başa düşsələr, bir o qədər təsirli olar. Hansı davranışın qayda pozuntusu olduğuna dair hər hansı qeyri-müəyyənlik onların təsirini bir neçə dəfə azalda bilər.

**Davranışla bağlı olmalıdır:** Sinif qaydaları yalnız davranış gözləntilərini əks etdirməli, müşahidə edilə bilən və ölçülə bilən hallara aid edilməlidir. Onları akademik gözləntilərə aid edilməməlidir. Məsələn, "ev tapşırığını vaxtında yerinə yetirmək" kimi akademik gözləntilərlə bağlı olan qaydaların yazılması düzgün hesab edilmir.

**Müsbət dildə yazılmalıdır:** Qaydalarda inkar cümləsindən istifadə etmək olmaz. Məsələn, "zəng vurulmamışdan öncə sinfi tərk etmək olmaz" düzgün tərtib olunmuş qayda deyil. Bu qayda "Sinfi zəng vurulduqdan sonra tərk etmək lazımdır" kimi ifadə edilməli, "hündürdən danışmayın" əvəzinə "asta danışın", "qaçmayın" əvəzinə "asta yeriyin" kimi ifadələrdən istifadə olunmalıdır.

**Sayı az olmalıdır:** İnsanlar uzun-uzadı, sayı çox olan məlumatları yadda saxlamaqda çətinlik çəkirlər. Qaydaların sayını azaltmaq üçün müəllim hər bir şagirdin yadda saxladığı, artıq norma halına düşmüş qaydanı siyahıdan çıxara bilər. Lakin xəbərdarlıq edilməlidir ki, qayda siyahıdan çıxarılsa belə, şagird onun pozulmasına görə məsuliyyət daşıyır.

**Ediləbilən olmalıdır:** Tətbiq oluna bilməyən qaydalar hazırlamayın. Məsələn, "özünüzə hörmət edin" gözəl bir ifadədir, lakin necə tətbiq olunması qeyri-müəyyən olduğu üçün qayda

kimi istifadə oluna bilməz. Digər tərəfdən, özünə hörmətin olmaması dərs prosesinə mane olmur və buna görə də davranış hesab edilmir.

**Gözəçarpan olmalıdır:** Qaydaları sinif otağının girişində və ya ən yaxşı görünən yerində divara asın ki, şagirdlər onu tez-tez görsünlər və unutmasınlar. Mənfi davranış sərgiləyən şagirdlərə qaydaları daim xatırladın.

Qaydalara əməl olunması üçün şagirdlərə onların səbəblərini də izah etmək lazımdır. "Biz dəhlizdə qaçmırıq, yeriyirik, çünki dəhlizdə qaçsaq başqaları ilə toqquşub zədə ala bilərik", "mübahisə etmək dalaşmaqla nəticələnə bilər", "nəzakətli olmaq bizi pis sözlərdən uzaqlaşdırır" demək şagirdlərə qaydaların məntiqli və əsaslı olduğunu göstərir.

Şagirdləri hər bir qayda pozuntusunun nə ilə nəticələnəcəyi barədə əvvəlcədən məlumatlandırın. Qaydaları pozacaqları halda "ədalətli cəzalar" tətbiq edin. Əgər siz bircə dəfə belə olsa, qəbuledilməz davranışı cavabsız qoysanız, gələcək qayda pozuntularına yaşıl işıq yandırmış olacaqsınız. Şagirdlərə bildirmək lazımdır ki, insanların hər bir hərəkəti nəticə ilə sonlanır və qaydaların pozulmasına görə tətbiq edilən nəticələr cəza deyil, onların etdiyi seçim, bu seçimə görə verilən nəticədir. Qayda pozuntularına cavab olaraq verilmiş "cəza"lar isə şagirdin törətdiyi əmələ uyğun seçilməlidir. Məsələn, əgər şagird rəsm dərsində rəngləri partanın üstünə dağıdıbsa, buna uyğun məntiqi "cəza" şagirdə partanın üzərini təmizlətdirmək olar. Belə bir qayda pozuntusuna görə tənəffüsə çıxmamaq və ya törədilən əmələ aidiyyatı olmayan digər bir cəza verməyiniz məntiqsiz görünər. Qaydaları pozan şagirdə dərsi pozmadan dərhal xəbərdarlıq etmək lazımdır. Əks halda digər şagirdlərdə də özlərini onun kimi aparmaq hissləri yarana bilər.

Ən yaxşı təltif, gördüyün işdən məmnunluq duymaq hissidir. Qaydaları pozan şagirdə cəza verdiyiniz kimi, qaydalara riayət edən şagirdləri mükafatlandırmağı da unutmayın. Mükafatlandırma kimi şagirdə dostunun yanında oturmaq, əlavə tapşırıqlardan azad etmək, suala birinci cavab vermək, tapşırığı seçmək, müəllimlə birlikdə şəkil çəkdirmək imkanı vermək və ya şagirdin xoşuna gələn istənilən bir nüansı istifadə etmək olar.

*Qaydalara aid nümunə:*

1. Sinifdə və koridorda asta yeriyirik.
2. Təlimatlara qulaq as və əməl et.
3. Danışmamışdan və yerindən durmamışdan öncə əlini qaldır.
4. Mübahisələri və problemləri sakit şəkildə həll etməyə çalışın.
5. Nəzakətli sözlərdən istifadə edirik.

Şagird hər hansı qaydaya əməl etmədikdə, onu tez bir zamanda həll etməyə çalışın. Xüsusilə də, dərs ilinin əvvəlində şagirdlərlə müzakirə şəraitində tərtib etdiyiniz və yazılı şəkildə şagirdlərə verdiyiniz (və ya imza etdirdiyiniz) təlimatlarda göstərilən qaydalar pozulubsa, ona reaksiya verməkdə gecikməyin. Əks halda, bu, həmin şagirdə adi bir hal kimi görünəcək və sonralar vərdiş halına keçəcək. Digər şagirdlər də qaydaları pozmağı adi hal kimi dəyərləndirəcək və beləliklə məsuliyyət hissi aradan qalxacaq.

Bu cür hallarda şagirdi günahlandırmaq və danlamaq, (xüsusilə də sinfin qarşısında) əks effekt verə bilər. Çünki hər bir şəxs, hətta böyüklər belə, günahlandırılarkən özünün səhv etdiyini dərk etsə də, özündən asılı olmayaraq, özünümüdafiə instinkti işə düşür, müxtəlif bəhanələr gətirərək günahı başqa birisinin üzərinə yönləndirir və özünü haqlı çıxarmağa çalışır. Məsələ uzandıqca böyüyür, daha sonra şagird əvvəlcə dediklərinin əksini deməyə özündə cəsarət tapmır və ya özünə sığışdırmır. Çünki sözünü dəyişərsə, əvvəlki bəhanələrinin yalan olduğunu etiraf etmiş olur.

Belə hallarda adətən şagirdlə sinif yoldaşlarının yanında deyil, fərdi və səmimi söhbət etmək lazımdır. Şagirdi həmyaşıdları qarşısında danlamaq əksər hallarda effektsiz olur.

**Prosedurlar**

Sinifdə baş verən davranış pozuntularının çoxu şagirdlərin prosedurlara riayət etməməsindən irəli gəlir. Şagirdlərin prosedurlara riayət etməməsinin əsas 3 səbəbi var:

- Şagird prosedurun nədən ibarət olmasını bilmir
- Şagird prosedurlara necə həyata keçirəcəyini bilmir
- Müəllim prosedurların öyrədilməsinə vaxt sərf etmir

*Əlbəttə, şagirdlər mövcud olmayan prosedurlara necə riayət edə bilər?*

**Qaydalarla prosedurların arasında hansı fərqlər var?**

- Qaydalar adətən davranışla və şagirdlər üçün ciddi təhlükə yaradan vəziyyətlə bağlı olur, prosedurlar isə hər hansı bir işin həmişə eyni qaydada yerinə yetirilməsi üçündür.

- Şagird qaydanı pozduqda nəticə ilə üzləşməli olur (cəzalandırılır), prosedura riayət etmədikdə ona proseduru xatırladırıq və lazım gəldikdə yenidən məşq edirik.

- Qaydaların sayının 5-dən artıq olması məqsədəuyğun deyil, prosedurların sayı isə çox olmalıdır.

Sinif, müəllim, şagird üçün ayrı-ayrı prosedurların olması lazımdır. Hər bir kəs hər hansı işin görülməsi zamanı hansı addımları atmalı olduğunu əvvəlcədən bilməlidir. Bu, sinfin daha

rahat fəaliyyət göstərməsini təmin edir, şagirdlər gündəlik tapşırığı yerinə yetirmək üçün addımlar öyrənir və bu addımlar avtomatikləşir. Hər bir sinfin müəyyən prosedurlara ehtiyacı var:

– Təşkilati məsələlər üçün (sinfə daxil olmaq, dərsdən icazə almaq, karandaşın yonulması və s.)

– Ünsiyyət yaratmaq, kollektiv və fərdi münasibətləri tənzimləmək üçün (müzakirə və mübahisələr zamanı narazalıqlarının aradan qaldırılması, davranışın nizamlanması və s.)

– Təlimatı məsələlər üçün (tapşırıqların tamamlanması, ev tapşırıqlarının təhvil verilməsi və s.)

– Akademik vərdişlərin formalaşması üçün.

***Prosedurlar tərtib olunarkən aşağıdakıları nəzərə almaq lazımdır:***

– Prosedur hər hansı işin görülməsi üçün hərəkətlər ardıcıllığı, alqoritmdir. Ona görə də prosedurlarda ardıcıllığın gözlənilməsi vacibdir.

– Uzun-uzadı, çoxlu terminlərdən istifadə olunmuş və yerinə yetirilməsi çətin olan prosedurlar tərtib etməyin. Prosedur qısa, sadə və yerinə yetirilə bilən olmalıdır.

– Prosedurlar anlaşıqlı olmalıdır. Şagirdin anlamadığı prosedur yaratmaq əhəmiyyətsizdir. Onların başa düşməkdə çətinlik çəkdikləri məqamlara aydınlıq gətirməyə çalışın.

– Prosedurları əmr formasında və ya indiki zamanda yazın.

Müəllimlərin şagirdlərdən prosedurlara daima əməl etməsi üçün gözləntisi olmalıdır. Prosedurlar isə bu gözləntilərə uyğun tərtib olunmalıdır. Prosedurları şagirdlərlə birlikdə tərtib etmək daha məqsədəuyğundur. Prosedurlara əməl etməyən şagirdə bu prosedurları onun özünün tərtib etdiyini və əməl etməsinin vacib olduğunu xatırlatmaq lazımdır.

Prosedurların yazılı olaraq həm özünüzdə saxlanması (daha yaxşı olar ki, şagirdlərin prosedurla tanış olmaları haqqında imzaları ilə birlikdə), həm də şagirdlərə paylanması onun yadda qalmasını, davamlı olaraq yerinə yetirilməsini və vərdiş halına çevrilməsini təmin edəcək.

Prosedurlara hamı eyni dərəcədə əməl etməli, onlara əməl etmək hamıdan eyni dərəcədə tələb olunmalıdır. Əgər şagirdlər ayrıseçkilik edildiyini hiss etsələr, onlarda qısqanclıq hissi yaranacaq, qaydaları pozmağa çalışacaqlar.

Validenləri və digər müəllimləri də tərtib etdiyiniz prosedurlarla tanış edin. Çalışmaq lazımdır ki, bütün müəllimlər eyni prosedurların yerinə yetirilməsini tələb etsinlər.

Bəzi prosedurların qavranılması üçün dəqiqələr tələb olunduğu halda, bəziləri üçün daha ətraflı izahata və məşqə ehtiyac var. Hər bir hərəkət bir neçə dəfə təkrarlandıqdan sonra vərdiş halına çevrilir. Prosedurları səhnələşdirin və bir neçə dəfə məşq etdirin. Düzdür, bu, bir qədər vaxtınızı alacaq, lakin nəticədə şagirdlər konkret situasiyada necə hərəkət etməli olduqlarını biləcək və sonrakı dərslərdə siz, onun öyrədilməsinə sərf etdiyinizdən bir neçə dəfə artıq zamana qənaət etmiş olacaqsınız. Prosedurlar vərdiş halına gələnə qədər məşq etmək lazımdır.

Şagirdlər sizin nə dediyinizə deyil, daha çox nə etdiyinizə fikir verirlər. Ona görə də özünüz prosedurlara ciddi əməl etməlisiniz. Özünüz qaydalara əməl etmədiyiniz halda, digərindən bunu tələb edə bilməzsiniz.

Hər bir sinifdə aşağıdakı hallarda şagirdin nə edəcəyini əvvəlcədən bilməsi üçün prosedurların tərtib olunması vacibdir.

- Sinfə daxil olduqda;
- Sualları dinlədikdə və cavab verdikdə;
- Sinif müzakirələrində iştirak etdikdə;
- Başa düşüb-düşmədiyini nümayiş etdirmək istədikdə;
- Dərslər və ya tapşırıqlar arasında keçidlərdə;
- Kağızların ötürülməsi zamanı;
- Sual soruşduqda;
- Koridorda yeriyəkən;
- Təhlükəli hallarda – zəlzələ, yanğın və s. ;
- Dərsə gecikdikdə;
- Dərsə gəlmədikdə;
- Tapşırığı tez bitirdikdə;
- Əlavə material lazım olduqda;
- Sinfə qonaqlar gəldikdə;
- Müəllim sinifdə olmadıqda;
- Dərsin sonunda;
- Günün sonunda.

Pedaqoji yanaşmalarda ümumi qəbul olunmuş prosedurlar sistemi var. Lakin hər bir müəllim öz fərdi xarakterinə, tədris etmə üsuluna, sinfin xüsusiyyətlərinə görə ümumi qəbul olunmuş qaydalara zidd olmayan prosedurlar hazırlaya bilər.

Təsəvvür edin ki, sinfinizdə 3 şagird həmişə dərsə gecikir. Bu gecikmələr sizin dərslərinizə mane olur. Gecikən şagirdlərin sinfi narahat etməməsi üçün prosedur aşağıdakı kimi ola bilər:

*Dərsə geçikən şagirdlər üçün prosedur:*

1. Sakitcə sinfə daxil ol
2. Yerinə keç
3. İşə başla

*Dərsə gecikmənin qarşısını almaq üçün müəllimdən asılı olan amillər:*

- Dərs ilinin əvvəlində şagirdlərin dərsə vaxtında gəlməsi üçün gözləntilər tərtib edirik.
- Dərsə geçikməyin yaxşı hal olmadığını şagirdlərə izah edirik.
- Dərsimizi şagirdlərin sevdiyi bir tapşırıqla başlayırıq.
- Gecikmənin dərs prosesinə mənfi təsirini azaltmaq məqsədilə tez-tez gecikən şagirdləri qapıya yaxın yerdə əyləşməsinə çalışırıq.
- Gözləntilərimizdə israrlı oluruq.
- Gecikmənin səbəbini müəyyən etmək üçün gecikən şagirdlə/valideynlə fərdi danışırıq.
- Bu davranışla bağlı məsuliyyəti şagirdin özünə həvalə edirik.

**Prosedur nümunələri**

*Müəllim sinifdə olmadıqda:*

• Səs-küy salmayın.

• Tapşırığınıza davam edin.

• Təcili nə isə lazım olarsa qonşu otaqdakı müəllimə müraciət edin.

*Sual vermək istədikdə:*

• Əlini qaldır.

• Səbrli ol.

• Müəllimin icazəsini gözlə.

• Sualı soruş.

*Sinfin sakitləşdirilməsi*

• Müəllim əlini qaldırır və gülümsəyir.

• Şagirdlər əlini qaldırır və gülümsəyir.

• Şagirdlər hələ də işinə davam edən yoldaşlarını sakitcə dinləməyə dəvət edirlər.

*Dərsin-günün sonu*

• Sakitcə ayağa dur.

• Stolun üstünü və ətrafını yığışdır.

• Əşyalarını çantaya qoy.

• Sinfi tərk etmək üçün müəllimin icazəsini gözlə.

*Dərs zamanı icazə alıb bayıra çıxdıqda şagird:*

• Əlinin işarə barmağını qaldırır.

• Müəllimin icazə verməsini gözləyir.

• Müəllim razılıq işarəsini göstərir.

• Şagird sakitcə otağı tərik edir.

• Qayıtdıqda astaca daxil olub yerinə keçir.

**Qeyd:** 1. Dərs boyunca yalniz bir dəfə icazə almaq olar.
2. Eyni zamanda yalnız bir şagird icazə ala bilər.

*Əlavə material lazım olduqda*

– Əlini qaldır.
– Müəllimin sənə yaxınlaşmasını gözlə.

*Tapşırığı erkən bitirdikdə*

Aşağıdakılardan birini seç:

– İşinə bir daha nəzər sal, təkrar yoxla.

– Dərsliyi aç, mövzunu təkrarla.

– Həmin dərs üçün ev tapşırığını yazmağa başla.

– Köməyinə ehtiyacı olan yoldaşına yardım et.

– Rəsmlər çək.

– Hekayə yaz.

*Kağızların/materialların ötürülməsi*

- Müəllim materialı ön partaların üstünə qoyur.
- Ön partadakı şagird özünə material götürür.
- Digərlərini arxaya ötürür.

*Telefondan istifadə proseduru*

- Telefonu səssiz rejimə qoyun.
- Vacib zəng olduqda müəllimin razılığı ilə sakitcə dəhlizə çıxıb cavablandırın.
- Zəngi cavablandırdıqdan sonra sakitcə sinfə daxil olun və işə davam edin.

*Sinifdə müzakirə proseduru:*

- Müəllimin işarəsi ilə danışırıq.
- Danışanı diqqətlə dinləyirik və baxışları ona yönləndiririk.
- Qarşılıqlı hörmət prinsipinə riayət edirik.
- Danışmaq üçün əlimizi qaldırırıq.

*Müəllimdən kömək istəyərkən:*

- Şəhadət barmağımızı qaldırırıq.

- Səbrlə müəllimin bizi görməyini gözləyirik.
- Səbrlə müəllimin yaxınlaşmasını gözləyirik.

*Müəllim əlini qaldıranda şagirdlır:*

- Qələmləri yerə qoyurlar.
- Müəllimə baxırlar.
- Sakitcə müəllimi dinləyirlər.

Prosedurları bu nümunələrdə verildiyi kimi ayrı-ayrı addımlar şəklində deyil, ümumi şəkildə də ifadə edə bilərsiniz. Məsələn:

**Otağa daxil olmaq –** Sinfə sakitcə daxil olun, salamlaşın. Üst geyimi və papaq geyinmisinizsə, onu çıxarın; digər şagirdlərin sözünü kəsməyin; günün hər vaxtı üçün müvafiq prosedurlara əməl edin.

**Otaqdan çıxmaq** – Hara getmək istədiyinizi deyin, dəhlizdə, pilləkənlərdə və ya tualetlərdə qaçmayın və oynamayın. Şagirdlərin icazəsiz sinifdən çıxmasına icazə verilmir.

**Dərsin başlanğıcı –** Zəng vurulduqda Siz artıq sinifdə olmalı və parta arxasında əyləşməlisiniz. Müəllim sinfə daxil olduqda bütün söhbətləri dayandırmalı, dərsdə istifadə edəcəyiniz dəftər-kitabınızı açmalı, qələm, karandaş və s. stolun üstünə qoymalısınız. Dərs başlayan andan müəllimin göstərişlərinə uyğun hərəkət etməlisiniz.

**Dərsə gecikmə –** Dərsə gecikdikdə sakitcə qapını açıb müəllimin Sizə sinfə daxil olmaq icazəsini gözləyirsiniz. Müəllim söz və ya işarə ilə icazə verdiyini bildirdikdə sinfə daxil olursunuz. Əgər müəllim gecikmənin səbəbini soruşarsa, səbəbi bildirirsiniz. Əgər müəllim gecikmənin səbəbini soruşmamışsa, dərs bitdikdən sonra müəllimə yaxınlaşıb gecikmənizin səbəbini bildirməli, müəllimin bu məsələ ilə bağlı dediklərinə qulaq asmalısınız. Davamlı olaraq dərsə gecikdiyinizdə tənbeh olunacağınızı unutmayın. Üzürlü səbəbdən geciksəniz, buna görə heç bir tənbeh olunmayacaqsınız.

**Dərs bitdikdə –** Stolun üstünü təmizləyin; oturduğunuz stolun altında və ətrafında kağız qırıntıları və ya hər hansı zibil varsa, onları təmizləyib zibil qutusuna atın. Müəllimin icazəsi olmadan sinfi tərk etməyin. Sinfi tərk edərkən sağollaşmağı unutmayın.

**Qrup işi zamanı** - Sakitcə və cəld olaraq aid olduğunuz qrup arasında yerinizi tutun. Lazım ola biləcək bütün ləvazimatları (dəftər, kitab, karandaş, qələm, marker və s.) götürün; qrup üzvləri ilə salamlaşın; Sizə aid olan tapşırıqları ən yaxşı şəkildə yerinə yetirməyə çalışın; qrup layihəsinin təqdimatına keçməzdən öncə qrup üzvlərindən hər birinin layihənin yekun

təqdimatı ilə razılaşdığına əmin olun; iş bitdikdən sonra, qrup üzvlərindən ayrılmazdan əvvəl onlara təşəkkür edin. Digər qruplara mane olmamaq üçün asta səslə danışmağa çalışın. Müzakirə zamanı digərlərinin fikirlərini dinləmək, fikir bildirmək qədər vacib komponentdir.

**Tapşırıqlarla bağlı kömək əldə etmək –** Ehtiyacınız olarsa, sakitcə sizə ən yaxın olan adamdan kömək istəyin; Əgər bu fərdi layihədirsə, heç kəsdən yardım istəməyin (bu, aldatmanın bir növüdür), müəllimdən kömək almaq üçün əlinizi qaldırın; əgər siz qrupla işləyirsinizsə, tapşırığın necə yerinə yetirildiyini başa düşmək üçün müəllimdən əvvəl qrup üzvlərindən kömək istəyin. Əgər cavab sizi qane etmirsə və ya yenə başa düşməsəniz müəllimdən kömək istəyə bilərsiniz.

**Yekunlaşdırdığınız tapşırığı təhvil verərkən** adınızın, tarixin və fənnin adının yazılmasını bir daha yoxlayın. Digərlərinin fikrini yayındıracaq hərəkətlər etmək, digərlərindən qurtarıb-qurtarmadığını soruşmaq və tapşırığı qurtardığnız barədə müəllimə səsli xəbərdarlıq etmək olmaz. Tapşırığı sakitcə təhvil verin (müəllim stolunun üstünə qoyun) və ya sakitcə müəllimin onları yığmasını gözləyin.

**Müəllimin verdiyi tapşırıqları bitirə bilməmisinizsə,** müəllim işin təhvil verilməsini istədikdə, tapşırığı yekunlaşdıra bilmədiyinizi müəllimə bildirin. Sonra müəllimin göstərişlərinə uyğun hərəkət edin. Əgər müəllim tapşırığı yekunlaşdırmaq üçün onun özünüzdə qalmasına və ya evə aparmağınıza icazə verərsə, təhvil verməyə bilərsiniz. Deyilənlər summativ qiymətləndirməyə aid deyil. Summativ qiymətləndirmələr müəyyən olunmuş zaman içərisində yerinə yetirilməlidir. Əgər summativ tapşırıqlarını yerinə yetirə bilməmisinizsə belə, dərsin sonunda mütləq müəllimə təhvil verməlisiniz.

**Vacib olmadığı halda bayıra çıxmaq üçün icazə istəməyin.** İcazə almaq vacibdirsə, bunu şagirdlərin fikrini yayındıracaq şəkildə yüksək səslə və ya müəllimin sözünü kəsərək etməyin. Müəllim dərs izah edərkən, sinif yoldaşınız dərs danışarkən və ya suala cavab verərkən, həmçinin qrup işi zamanı icazə istəməyin. Digər vaxtlarda uyğun məqam gözləyin, dərsdə kiçik pauza yarandıqda sakitcə əlinizi qaldırın və bayıra çıxmaq istədiyinizi müəllimə işarə ilə bildirin. Əgər müəllim icazə verməzsə, zəngin vurulmasını gözləyin. Müəllimin razılıq bildirən işarəsi olduqda sakitcə sinifdən çıxın və 2-3 dəqiqə ərzində geri qayıdın. İcazə alıb bayıra çıxmısınızsa, geri qayıdarkən qapını döymək, müəllimdən daxil olmaq üçün icazə istəmək lazım deyil.

**Zibil atmaq –** kağız qırıntısı və ya hər hansı zibili zibil qutusuna yalnız müəllim dərs izah etməyən vaxt ata bilərsiniz. Yerə düşmüş kağız və ya zibilləri siz atmamısınızsa belə götürüb zibil qutusuna atmaq lazımdır. Lakin unutmayın, zibil qutusu basketbol səbəti deyil!

**Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilərkən** harada olmağınızdan, nə iş görməyinizdən asılı olmayaraq ayağa qalxın, sağ əlinizi ürəyinizin üstünə qoyub himni oxumağa başlayın. Azərbaycanın müstəqilliyi uğrunda canını qurban vermiş şəhidlərimizi xatırlayın!

**Diqqət üçün siqnal** – müəllim əlini qaldıraraq və ya digər bir işarə ilə diqqətinizin ona yönəlməsini istədikdə nə iş görürsünüzsə, onu dayandırın, danışığı kəsin və diqqətlə müəllimin göstərişlərini dinləyin.

**Dərsə yalnız həmin gün lazım olan kitab-dəftərləri və ləvazimatları gətirin.** Artıq ləvazimat çantanızın ağırlaşmasına səbəb olacaq və çantanızda sizə lazım olan hər hansı bir əşyanı tapmağı çətinləşdirəcək.

**Boş vaxtda nə etməli** – müəllimin verdiyi tapşırığı bitirmisinizsə, yarımçıq qalan digər tapşırıqları, ev tapşırığını, iş dəftəri və ya kitabdan növbəti tapşırıqları yerinə yetirməyə başlaya bilərsiniz. Belə tapşırıqlar olmadıqda, köməyə ehtiyacı olan sinif yoldaşınıza nə isə öyrədə, yeni bir layihə haqqında düşünə bilərsiniz. Əgər bu sahədə istedadınız varsa, şeir və ya esse yaza bilərsiniz.

Prosedurlar şagirdlərlə birlikdə hazırlandıqdan sonra şagirdlərə öyrədilməli, məşq etdirilməli, möhkəmləndirilərək adət halına gətirilməlidir. Buna "3 addım qaydası" da deyə bilərik:

- Öyrət
- Məşq et
- Möhkəmləndir

**Öyrət**

Əziz şagirdlər! Dərsin sonuna 2 dəqiqə qalmış mən sizə xəbər verəcəyəm, siz stolunuzu və stolunuzun ətrafını təmizləyib evə getməyə hazır olacaqsınız. Zəng vurulanda bir daha evə götürməli olduğunuz şeyləri yoxlayın. Yadda saxlayın, Siz zəngin səsini eşidən kimi deyil, mənim icazəmdən sonra sinifdən çıxmalısınız. Mən ''Yaxşı yol" deyəndə siz sinfi tərk edəcəksiniz.

**Məşq et**

İndi biz dərsimizin son iki dəqiqəsini məşq edəcəyik. Bu bizim evə getmək üçün hazırlıq vaxtımızdır. Mən dedikcə, siz yoxlayın.

• Partam səliqəli və təmizdir

• Partamın ətrafı təmiz və səliqəlidir

• Kitablarımı və mənə məxsus əşyaları götürmüşəm

• Mən "yaxşı yol" deyəndə getməyə hazırsınız

**Qeyd:** bu arada müəllim partaların arası ilə gəzir və müşahidəsini sözlə ifadə edir.

- Bu stol təmizdir

- Bu sıra təmizdir

- Kiminsə jaketi burda qalıb

- Artıq hamı getməyə hazırdır

- Yaxşı yol!

Şagirdlər prosedura riayət etmədikdə nəzakətlə soruşuruq – bu hal üçün prosedurumuz necədir, deyə bilərsənmi? Şagird prosedura bilmirsə, ona xatırladırıq. Əgər şagird çox vaxt prosedurlara riayət etmirsə, tənəffüsdə onu sinifdə saxlayıb proseduru məşq etdirmək olar.

Şagird gözləntiləri doğrultmadıqda, qaydaları pozduqda, prosedurlara əməl etmədikdə, əvvəlcə onunla fərdi söhbət aparılmalıdır. Fərdi söhbət zamanı şagirdin davranışının düzgün olmadığını izah etmək, belə davam edərsə onu nə gözlədiyini izah etmək, gözləntiləri doğruldarsa nə əldə edə edəcəyini bildirmək lazımdır. Beləliklə, şagird və müəllim arasında bir razılaşma əldə olunmalıdır. Bu razılaşmanın yazılı sənəd şəklində olması daha yaxşı olar. Razılaşma zamanı hər iki tərəf davranışın yaxşılaşması üçün nəzərdə tutulan məqsədlərlə razılaşırlar. Buraya gözlənilən müsbət davranışın xüsusiyyətləri, müsbət və mənfi nəticələr və bunun üçün tələb olunan zaman daxil edilir. Daha sonra müəllim və şagird (3-cü şəxs də daxil edilə bilər) razılaşmanı imzalayırlar.

Müəllim və şagird arasında bağlanmış yazılı razılaşmaya aid nümunə:

**Davranış kontraktı**

Şagirdin adı və soyadı ________________________________

Növbəti 3 (5) gün ərzində aşağıdakı davranışların tam yaxşılaşmasına söz verirəm:

1. Dərsə vaxtında gələcəyəm.

2. Nəzakətli sözlərdən istifadə edəcəyəm.

3. Səbirli olacağam və heç kimlə dalaşmayacağam.

Gözləntiləri doğrultduğum halda:

1. Məktəb tərəfindən valideynlərimə müsbət fikirlər yazılmış məktub göndəriləcək.

2. Ayda 1və ya 2 dəfə müəllim məni özünə köməkçi təyin edəcək.

Gözləntiləri doğrultmadığım halda:

1. Tənəffüs zamanının yarısını prosedur və qaydaları məşq etməklə keçirəcəm.

2. Müəllim valideynlərimi məktəbə dəvət edəcək və mənim davranışımı müzakirə edəcək

Müəllimin imzası: Şagirdin imzası:

Digər bir nümunə:

**Davranış kontraktı**

Mən bu gün ____________________________________________

____________________________________________

Başa düşürəm ki, bu yanlış davranışdır və təkrar baş verərsə, valideynlərim məktəbə dəvət olunacaq və mənim davranışım müzakirə olunacaq. Davranışımı yaxşılaşdırdığım halda, “Gözəl davranış” təltifinə layiq görüləcəm.

Söz verirəm ki, bundan sonra ____________________________________________

____________________________________________

Müəllimin imzası: Şagirdin imzası:

# PEŞƏKAR HƏYATIN BAŞLANĞICI – GƏNC MÜƏLLİMLƏRƏ MƏSLƏHƏTLƏR

- Fəttah Fəttayev -

Peşə fəaliyyətinə başladığı ilk günlər müəllimlik fəaliyyətinin ən çətin günləri hesab oluna bilər. Gənc müəllim ilk gündən faktiki olaraq öz təcrübəli həmkarı ilə eyni peşəkar vəzifələri yerinə yetirir: tədris prosesini təşkil edir, şagirdlərin potensialının reallaşdırılması üçün şərait yaradır, onların inkişafını idarə edir, valideynlərlə ünsiyyət qurur. Özünü yeni mühitdə tapan, yeni situasiyalarla qarşılaşan gənc müəllim nəyi necə edəcəyini bilmir, qərar verməkdə tərəddüd edir və çətinliklərlə üzləşir. Hər il yeni əmək fəaliyyətinə başlayan müəllimləri eyni sual düşündürür: şagirdlər, müəllim kollektivi, rəhbərliklə münasibətləri düzgün qura bilmək üçün nə etməli? Bütün bunlar həddindən artıq gərginliyə, narahatlığa və nəticədə narazılığa səbəb olur. Bu kimi halların baş verməməsi üçün gənc müəllimə əvvəlcə təhsil müəssisəsinin rəhbərliyinin, metodistlərin, həmkarlarının və hətta valideynlərin daimi köməyi lazımdır.

Elmi ədəbiyyatlarda peşə fəaliyyətinə başlama dövrü peşə adaptasiyası, fərdin sosial və istehsal şəraitinə uyğunlaşması mərhələsi adlanır. Bu mərhələdə inkişaf vəziyyətini formalaşdıran amillər toplusu təhsil aldığı dövrdə olduğu ilə nisbətdə kəskin şəkildə dəyişir. Bunlar:

- yeni sosial və peşəkar dəyərlər;

- müxtəlif sosial mövqe və sosial rol;

- prinsipcə yeni aparıcı fəaliyyət növü (əmək);

- inzibati münasibətlərin başqa iyerarxik sistemi;

- yeni sosial əlaqələrin qurulmasını tələb edən geniş yaş diapazonuna malik yeni kollektiv;

- yeni sosial-psixoloji və fiziki yüklənmələr.

Peşə fəaliyyətinə sosial-psixoloji uyğunlaşma bir çox fərdi xüsusiyyətlərdən asılıdır:

- psixi sağlamlıq vəziyyəti;

- əqli inkişaf səviyyəsi;

- şəxsi keyfiyyətlər;

- peşəkar yetkinlik.

Bu vəziyyət təkcə şəxsiyyətin özü ilə deyil, həm də onu əhatə edən sosial, eləcə də inteqrasiya olunduğu peşəkar mühitlə bağlı olduğu üçün adaptasiya prosesində xarici amillərin də böyük təsiri var. Bunlara aşağıdakılar daxildir:

- təhsil mühitinin xarakteri;

- rəhbər və rəhbərlik nümayəndələrinin şəxsi xüsusiyyətləri;

- məktəbin pedaqoji kollektivinin xüsusiyyətləri;

- şagird və valideynlərin xüsusiyyətləri;

- ailə və dostlardan psixoloji dəstəyin olması və ya olmaması.

Bu dövrdə uğurlu peşəkar adaptasiya müəllimin gələcək müqəddəratını həll etmiş olur. Ona görə də gənclərin bu peşəyə uğurla başlamasında rəhbərliyin üzərinə böyük məsuliyyət düşür. Rəhbərlik gənc mütəxəssisin əmək fəaliyyətinə səmərəli şəkildə başlaya bilməsi üçün şərait yaratmağa, bütün adaptasiya dövründə onlara hərtərəfli dəstək göstərməyə borcludur.

Gənc müəllim adaptasiya prosesində bir neçə mərhələ keçməli olur:

**Hazırlıq mərhələsi**

Bu mərhələdə gənc müəllim gələcək peşə fəaliyyəti haqqında məlumat toplayır. Toplanmış məlumat nə qədər dolğun və etibarlı olsa, müəllimin gələcək fəaliyyətini düzgün qurması bir o qədər asan olar. Gənc universitet məzunları MİQ imtahanı verdikdən sonra, vakansiya seçimi zamanı ilkin tanışlıq üçün adətən təhsil müəssisələrinin internet saytlarına müraciət edirlər. Əgər məktəbin saytında dolğun informasiyalar yerləşdirilibsə və daim yenilənirsə, müəllim kifayət qədər ətraflı informasiya əldə edə bilir. Çox müsbət haldır ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan bütün məktəblərin veb-saytları daim yenilənir və buradan məktəb haqqında kifayət qədər ətraflı məlumat əldə etmək mümkündür. Lakin regionlardakı məktəblər haqqında məlumatları adətən sosial şəbəkələrdən əldə etməyə çalışırlar. Sosial şəbəkələrdən isə çox zaman kifayət qədər ətraflı və düzgün məlumat əldə etmək mümkün olmur.

**Peşəkar uyğunlaşma: işin ilk günləri**

Uğurlu uyğunlaşma üçün müəllimin məktəbə ilk gəlişi böyük əhəmiyyət kəsb edir. O, hər şeyə diqqət yetirir: onu girişdə necə qarşıladılar, məktəbin interyeri necə görünür, şagird və müəllimlərin davranışı necədir və s. Amma onun üçün ən önəmlisi məktəbin direktoru ilə ilk görüşdür. Gələcək münasibətlərin taleyi və yeni müəllimin məktəbdəki uğuru əsasən bir-birləri

haqqında ilk təəssüratdan asılı olur. Bu əlaqəni qurmaq üçün direktorun bacarığı böyük əhəmiyyət kəsb edir. İlk görüş gənc mütəxəssisi həvəsləndirməli, ona motivasiya verməlidir. Vaxt çərçivəsinə görə, bu görüş uzun olmamalı, ənənəvi qısa tanışlıq, məşğulluq problemi ilə bağlı qısa işgüzar ünsiyyət, qısa qeyri-rəsmi söhbətlə yekunlaşmalıdır. Tanışlıq mərhələsində bütün etiket qaydalarına riayət etmək çox vacibdir. Direktorun iş masasını tərk edib yeni həmkarına doğru getməsi daha yaxşıdır, görüşmək və təbii ki, onu əyləşməyə dəvət etmək məsləhətdir. Mümkünsə, vəzifə kreslosunda deyil, dairəvi iş stolu arxasında oturmaq məsləhət görülür. Əks halda rəhbərin hiperstatus və həmsöhbətdən uzaqlaşma hissi artır, keyfiyyətli əlaqə kəskin şəkildə azalır. Direktor və ya onun müavini müəllimin sənədlərini diqqətlə yoxlayır. Onların məzmunu ilə bağlı bir-iki sual vermək, söhbət əsnasında bu məktəbi seçməyin səbəblərini soruşmaq və müəllimin tutduğu vakansiya haqqında qısa məlumat vermək vacibdir. Digər məsələlərlə (dərs saatları, tədris planı, məktəbin daxili nizam-intizam qaydaları və s.) tanışlıq sonrakı dəfəyə təxirə salınmalıdır. Ünsiyyət tərzi açıq, mehriban, maraqlı olmalı, söhbətin məzmunu gələcək konstruktiv əməkdaşlığa diqqət yetirməyə yönəlməlidir.

Gənc müəllimin kollektivə təqdim olunması və ilkin təlimatlandırılması üçün uzun illər boyu formalaşmış pedaqoji ənənə var. Yeni müəllim adətən dərs ilinin ilk pedaqoji şurasında kollektivə təqdim olunur. Onun şagirdlərə məktəbin direktoru və ya direktor müavini tərəfindən təqdim olunması daha məqsədəuyğundur. Ona tədris aparacağı siniflərin tipik xüsusiyyətləri, özünü şagirdlərə necə təqdim etməsi proseduru haqqında məlumat vermək vacibdir. Təcrübəli müəllimlər karyerasının başlanğıcı ilə bağlı xatirələrini bölüşsələr, gənc müəllimdə inam əhval-ruhiyyəsi yarada bilərlər. İlk iş gününün yekununda gənc müəllimin müəllimlər və məktəb rəhbərliyi tərəfindən əvvəlcədən hazırlanmış təntənəli təbrik olunması lazımdır.

Gənc müəllimin peşə fəaliyyətinə başlamasının ilk anları zehni stressin başlanğıc mərhələsi kimi dəyərləndirilir. O, ilk dərs gününə hazırlığı özü həyata keçirməlidir: ilk iş gününüzü əvvəlcədən planlaşdırın, şagirdlərlə müsbət əlaqə qurmağa kömək edəcək interaktiv tanışlıq oyunları seçin, şagirdlərin adlarını və soyadlarını yadda saxlamağa çalışın. Təqvim planınızı mümkün qədər tez hazırlayın. Əvvəlcədən planlaşdırdığınız bu cür ilkin fəaliyyət əhəmiyyətli səhvlərdən qaçmağa, daha çox diqqət, təmkinlilik təmin etməyə, inam və nikbinlik yaratmağa kömək edəcəkdir. Əlbəttə ki, praktiki fəaliyyət zamanı ilkin hazırlanmış planlar dəyişilə bilər, lakin, söhbət bir qayda olaraq kardinal deyil, müəyyən situativ aspektlərə aid kosmetik dəyişikliklərdən gedir.

**Müəllim heyətinə qoşulmaq**

Uyğunlaşmanın növbəti mərhələsi – müəllimin komandaya daxil olması zamanı yaranan kəskin psixi reaksiyalardır. Bu zaman, məsələn, valideyn iclasında valideynlərlə ilk söhbət zamanı müəllimdən yeni şəraitdə müstəqil qərarlar qəbul etmək tələb olunduqda o yeni sosial

mühitin amillərinin təsirini hiss etməyə başlayır. Məhz bu mərhələdə həm şəxsi, həm də şəxsiyyətlərarası konstruktiv və ya destruktiv reaksiyalar, aqressiya, rəhbərliklə münaqişə kimi hallar səbəbindən məyusluq hissinin yaranması istisna olunmur. Yeni müəllimə böyük konstruktiv yardımı dostlar, həmçinin məktəb tərəfindən təyin edilmiş təcrübəli mentor-müəllim göstərə bilər. Bu məqsədlə kollektivin ünsiyyətcil və həssas bir üzvünü seçmək daha yaxşı olar. Onun məsləhətçi, tyutor və bəzi hallarda vasitəçi (münaqişə vəziyyətlərində) kimi fəaliyyəti gənc müəllim üçün düzgün davranış strategiyasını müəyyən etməkdə, psixo-emosional stressi aradan qaldırmaqda, özünəinamı qorumaqda, düzgün seçim etməkdə son dərəcə vacibdir. Gənc müəllimin məsləhət ala biləcəyi digər üsul tələbə yoldaşları ilə virtual ünsiyyət, getdikcə populyarlaşan Facebook, WhatsApp qrupları və teleqram kanalları, ixtisaslaşmış saytlar vasitəsilə təcrübəli psixoloqlar və pedaqoqlarla məsləhətləşmələr ola bilər.

**Gənc müəllim üçün davranış strategiyası**

Müəllimin müəyyən davranış strategiyasını seçməsi aşağıdakı parametrlərin ilkin qiymətləndirilməsinə əsaslanır:

- sosial mühitin tələbləri (onların gücü, düşmənçilik, fərdin ehtiyaclarına məhdudiyyətlər, sabitliyi pozmağa yönəlmiş təsir);

- ətraf mühitin uyğunlaşma potensialı (kollektivdə xeyirxahlıq, gənc mütəxəssisə ehtiyac, varislik mexanizmləri, təcrübəli mütəxəssislər və menecerlərin təkcə peşəkar fəaliyyətdə deyil, daha geniş kontekstdə dəstəyi);

- insanın özünün dəyişmək, ətraf mühitə uyğunlaşmaq qabiliyyəti;

- ətraf mühiti və ya özünüzü dəyişmək yollarını seçərkən səylərin dəyərləndirilməsi.

İnsanlar əksər hallarda bu parametrləri ona tanış olan həyat strategiyalarını nəzərə alaraq, intuitiv şəkildə dəyərləndirir.

Davranış strategiyaları passiv və aktiv şəkildə müəyyən oluna bilər:

***Passiv strategiya*** şəxsiyyətin ətraf mühitin maraq və tələblərinə tabe olması ilə xarakterizə olunur. Belə insanlar öz peşəkar bacarıqlarına əmin olmadıqlarına görə, mövcud həyat tərzini dəyişdirməyə cəhd etmədən, başqalarının köməyinə arxalanaraq heç bir aktiv hərəkət etmirlər. Passiv strategiya insanın müstəqillik istəyinin olmaması, məsuliyyəti öz üzərinə götürə bilməməsindən irəli gəlir. Passiv strategiyanın daimi həyata keçirilməsi yaradıcılığı, ümumiyyətlə peşəkar davranışın bütün formalarını məhdudlaşdıraraq, şablon hərəkətlər toplusuna qədər azaldır. Buna görə də, sosial mühitin tələblərini, normalarını, münasibətlərini və dəyərlərini passiv qəbul etmək uyğunlaşma deyil, diskomfort və narazılıqla müşayiət olunan uyğunsuzluqdur. Gənc müəllimin belə bir strategiyanı seçməsi rəhbərlik

tərəfindən onun peşəkar inkişafında ciddi problemlərin olması barədə siqnal kimi dəyərləndirilməlidir.

***Aktiv strategiya*** iki variantda təzahür edə bilər: *konstruktiv və destruktiv*. Stressli vəziyyətin öhdəsindən gəlmək üçün aktiv-konstruktiv strategiya optimist dünyagörüşü, həyata real yanaşması və daha yüksək mövqeyə nail olmaq istəyi olan insanlara xasdır. Müəllimin aktiv davranış strategiyası subyektin fəaliyyətini yönləndirərək inamlı peşəkar inkişafı təmin edir. Bu strategiya gənc mütəxəssisin inkişafı üçün ən mütərəqqi strategiyadır.

Çətin vəziyyətdən çıxmaq üçün *aktiv-destruktiv* (dağıdıcı) strategiyalar tətbiq etmək nevrotik şəxsiyyət tipi üçün xarakterikdir. Belə insanlar, bir qayda olaraq, iddialıdırlar, aqressiv şəkildə başqalarına qarşı çıxmağa meyillidirlər. Peşəkar özünüdərketmə səviyyəsinin aşağı olması onlara öz eqosentrik münasibətlərindən azad olmağa imkan vermir. Bu da ona gətirib çıxarır ki, insan aqressiyanı insan təbiətinin təbii təzahürü kimi qəbul etməyə başlayır. Aqressiv davranış hansısa müsbət məqsəd güdsə də, bu cür davranış yenə də ünsiyyətin pisləşməsinə səbəb olur. Aqressiv davranış strategiyasının seçilməsi fərdin sosial uyğunsuzluğundan xəbər verir. Bu cür davranış xüsusilə pedaqoji sahədə qəbuledilməzdir.

**Peşəkar uyğunlaşma böhranı və onun aradan qaldırılması**

Gənc mütəxəssisin işə uyğunlaşması uzunmüddətli və keşməkeşli ola bilər və orta hesabla üç ildən beş ilə qədər davam edir. İlk həftələr, aylar qarşıya böyük çətinliklər çıxa bilər, lakin tədqiqatların göstərdiyi kimi, kritik vəziyyətlərin səbəbi bu çətinliklər deyil, real peşə həyatı ilə gənc müəllimin ideya və gözləntiləri arasındakı uyğunsuzluqdan qaynaqlanır.

Peşəkar fəaliyyətlə gözləntilər arasındakı uyğunsuzluq peşəkar gözləntilərin böhranına səbəb olur. Adətən, ilk iş ili barədə eşitdiyimiz “göydən yerə düşmə”, “amansız zərbə”, “əvvəlcə hər şey dumanlı idi”, “qorxu, çarəsizlik hissi”, “heç nə alınmadı”, “az qalırdım ki ağlayam”, “xəcalət çəkirdim”, “nikbinliyi ruh düşkünlüyü əvəz etdi”, “hiss edirdim ki, yaradıcılığım çatmır” və s. kimi ifadələr peşəkar gözləntilər böhranını xarakterizə edən ifadələrdir. Peşəkar fəaliyyətlə gözləntilər arasında uyğunsuzluq peşəkar mövqeyin dəyişməsinə səbəb olur. Peşəkar gözlənti böhranı həm də əməyin təşkilindən, məzmunundan, vəzifə öhdəliklərindən, iş şəraitindən, əmək haqqından narazılıqda ifadə oluna bilir. Vəziyyət çox vaxt peşəkar mühitin gənc mütəxəssislərə qarşı ehtiyatlı olması və onların yeni təşəbbüslərini qəbul etməyin çətin olması ilə daha da ağırlaşır. Müxtəlif zamanlarda aparılmış sorğular gənc müəllimlərin yalnız 7%-nin ilk iş ilini heç bir problem olmadan başa vurmasını göstərmişdir.

Əksər gənc müəllimlər səriştələrinin yetərli olmadığını etiraf edirlər. Bu, adətən tədris ilinin ortalarında baş verir. Onlar adətən tədris materialını öyrətmək, sinifdə tərbiyə işinin təşkilində və tələbələrlə emosional ünsiyyətdə çətinlik çəkdiklərini bildirmişlər. Bunun qarşısını almaq üçün gənc müəllimlər üçün əlavə dəstək mexanizmləri hazırlanmalıdır.

Məsələn, ilk peşə bayramı – Müəllimlər Günü ərəfəsində şəhər, rayon təhsil idarələrində gənc müəllimlərlə bayram görüşü keçirilməsi, onların ilk peşə bayramı münasibətilə təbrik edilməsi ənənə halını almalıdır. Təhsil idarələrinin metodik mərkəzlərində gənc müəllimlərə dəstək üçün xüsusi planın hazırlanması, bu plana elmi-metodiki mərkəzin strukturları ilə tanışlıq-ekskursiya, gənc mütəxəssislərin peşəkar tələbatlarından asılı olaraq metodiki görüşlər və seminarların daxil olması yaxşı olardı. İl ərzində sənədləşmə işlərinin aparılması, nizam-intizam problemlərinin həlli yolları, dərsin tərtibi və modelləşdirilməsi, təcrübəli müəllimlərin ustad dərslərinin təşkili, ünsiyyət bacarıqlarının inkişafı, biliklərin təkmilləşdirilməsi istiqamətində təlimlərin təşkil olunması adaptasiya prosesində gənc müəllimlərə böyük dəstək ola bilər.

Dərs ilinin sonlarına yaxın (aprel-may aylarında) gənc müəllimlərin açıq dərslərinin, müxtəlif müsabiqələrin, dəyirmi masaların təşkili onlara nailiyyətlərini nümayiş etdirmək, təcrübə mübadiləsi aparmaq fürsəti yaradar. Bu tədbirlər eyni zamanda onlara mentor müəllimlər kimi yetişərək növbəti illərdə gənc kadrlara kömək etmək təcrübəsini də aşılamış olar.

Gənc müəllimlərin əmək fəaliyyətinin ikinci ilindən başlayaraq rayon, şəhər səviyyəsində metodik işlərə, peşəkar müsabiqələrə cəlb olunması, onların peşə yönümlülüyünə və şəxsi inkişafına müsbət təsir göstərə bilər.

**Gənc müəllimlərin tipik səhvləri**

Peşəyə yiyələnmək uzun və çətin prosesdir, onun üzərində daim zəhmət, davamlı özünütərbiyə, metodik, psixoloji, pedaqoji və idarəetmə məlumatlarının sistemli işlənməsi tələb olunur. Təcrübəsiz müəllimlərin problemlərinə diqqətsizlik, onlara dəstək verilməməsi təkcə mütəxəssis itkisi ilə deyil, həm də təhsil müəssisələrinin pedaqoji kadrlarının inkişafında durğunluqla nəticələnir. Gənc müəllimlər təcrübəsizlik səbəbindən adətən aşağıdakı səhvlərə yol verirlər:

*1. Şagirdlərlə münasibətlərdə səhvlər:*

- öyrənmə problemi olan uşaqlara və istedadlı uşaqlara qarşı xüsusi diqqət ayırmamaq;

- bəzi şagirdlərdən onların bacarmadığı səviyyəni tələb etmək;

- mənfi davranış sərgiləyən şagirdlərlə bağlı düşünülməmiş spontan qərarlar vermək;

- uşaq psixologiyasını düzgün bilməmək;

- nəyin bahasına olursa olsun avtoritet qazanmaq, sinifdə vahid söz sahibi olmağa çalışmaq;

- şagirdləri hər kiçik şeyə görə günahlandırmaq, onlarla münasibətlərdə həddindən artıq sərtlik.

*2. Həmkarlarla münasibətlərdə səhvlər:*

- yaşlı nəslin təcrübəsinə hörmətsizlik, onlarla münasibətdə nəzakətsizlik;

- kollektivə qaynayıb-qarışmamaq, adət-ənənələrə etinasızlıq.

*3. Gənc müəllimlərin bir-biri ilə münasibətindəki səhvlər:*

- bir-birinə qarşı etinasız olmaq;

- bir-birinə hörmətsizlik;

- gənc həmkarlarının işinin qərəzli dəyərləndirmək;

*4. Peşəkar fəaliyyətin qeyri-qənaətbəxş olması ilə bağlı səhvlər:*

- bilavasitə vəzifələri yerinə yetirməmək, intizamsızlıq;

- həvalə edilmiş işi başqasına ötürmək istəyi;

- qəbul edilmiş norma və qaydalara əməl etməmək;

- müasir məktəbdə müəllimin rolunu düzgün dərk etməmək.

*5. Gənc müəllimin öz gücü və imkanlarını həddən artıq yüksək qiymətləndirməsi ilə bağlı səhvlər:*

- təcrübəli müəllimlərin məsləhətlərini, tövsiyələrini rədd etməklə ifadə olunan özünə inam;

- vəzifələrinin icrasına yalnız rəsmi münasibət.

*6. Ümumi texnoloji hazırlıqla bağlı səhvlər:*

- mövzu və onun təqdim edilməsi üsulları haqqında kifayət qədər məlumatın olmaması;

- öz vəzifəsini idarə edə bilməmək;

- ünsiyyət bacarıqlarının olmaması;

- inkişaf etməmiş diksiya, mimika, jestlər;

- sərtlik, diqqətsizlik, sinifdə baş verən vəziyyətlərə müəllimin reaksiyasının qeyri-adekvatlığı.

Bütün bunlar əməli fəaliyyət prosesində aradan qaldırıla bilən qüsurlardır. Müdriklərin dediyi kimi, – "gənclik tez keçib gedən çatışmazlıqdır". Çatışmazlıqları aradan qaldırmağın yolu səhvlərini qəbul edib, onları düzəltməyə çalışmaq və daim öyrənməkdən ibarətdir. Bunun üçün

Sizə əmək fəaliyyətinə başladığınız ilk zamanlarda (bəlkə də bütün fəaliyyətiniz boyu) faydalı ola biləcək bəzi məsləhətlər vermək istərdik.

**Yeni əmək fəaliyyətinə başlayan müəllimlərə məsləhətlər**

Siz universiteti bitirmisiniz, MİQ imtahanından uğurla keçmişiniz və işə qəbul olunmusunuz. Böyük arzularınız var. Xəyalınızda xarüqələr yaradır, məktəbdə hamının sevimlisinə çevrilirsiniz. Şagirdləriniz bütün fənlər içərisində ən çox Sizin fənni sevir və məktəb üzrə ən yüksək nəticələr də Sizin fənnə aiddir. Hamı Sizin gördüyünüz işlərdən danışır, hamı Sizi tərifləyir, bütün şagirdlər arzu edirlər ki, onların müəllimi məhz Siz olasınız. Lakin bunlar hələ ki, xəyallardır. Məktəbdə Sizi nələrin gözlədiyindən xəbəriniz yoxdur...

Sonuncu cümlə Sizi qorxutmasın, məktəb əsla qorxulu yer deyil, lakin nəzərə alın ki, hər bir işin öz çətinlikləri var. Məşhur bir deyimi yada salın: “Müəllimlik şərəfli, lakin şərəfli olduğu qədər də çətin peşədir”. Siz bu çətinliklərdən keçməli, qarşınıza çıxan maneələri bir-bir dəf etməlisiniz. Xəyallar bir anda gerçəkləşmir, məqsədinizə çatmaq üçün üçün addım-addım irəliləməlisiniz.

Sizin ilk dərsiniz! Bunun üçün Siz 4-5 il universitet təhsili almış, treninqlər, kurslarda iştirak etmiş, praktika keçmiş, MİQ imtahanında yüksək bal toplamaq üçün əlinizdən gələni etmisiniz. Universitetdə diskret riyaziyyat və ya ingilis filologiyası, fəlsəfə, psixologiya, pedaqogika öyrənmisiniz, lakin sinfə ilk dəfə daxil olduğunuz zaman hiss edəcəksiniz ki, öyrəndikləriniz sinfi idarə etmək, yaxşı müəllim olmaq üçün kifayət etmir. Müəllim olmaq üçün çox bilmək azdır, həm də bildiklərini öyrətmək, şagirdlərlə, kollektivlə, valideynlərlə düzgün ünsiyyət yarada bilmək bacarığının olmasıdır.

Pedaqoji kollektiv və şagirdlərlə tanışlığın özü belə gənc müəllimdə yüngül formada stress yarada bilir. Gənc müəllim şagirdlərin ona cavabını bilmədiyi sual verməsindən ehtiyat edir, şagirdlərlə dil tapa bilib-bilməyəcəyini, ilin (və ya yarımilin) sonunda şagirdlərinin təlim nəticələrinin necə olacağını narahatlıqla düşünür. Bu narahatlıqların işə başladığınız ilk günlərdən Sizi neqativ düşüncələrə kökləməsinə və stresə salmasına imkan verməyin. Çətinliklə qarşılaşdıqda ruhdan düşməyin, ona hazır olun və soyuqqanlılıqla aradan qaldırmağa çalışın. Bu çətinlikləri üç qrupa bölmək olar:

- Professional xarakterli problemlər
- Şagirdlərlə bağlı konflikt situasiyalar
- Kollektivdə şəxsiyyətlərarası münasibətlər.

Bu hallarla bağlı bəzi məqamlara nəzər salaq:

**Dərsin mövzusu ilə bağlı situasiyalar:** Şagirdin verdiyi sualın cavabını bilməməyin müəllimi nə qədər çətin vəziyyətdə qoymasını hər birimiz təsəvvür edə bilirik. Lakin bu vəziyyətdən çıxış yolu tapmaq digər hallara nisbətən daha asandır. Əlbəttə, ola bilər ki nəyi isə bilməzsiniz və ya unuda bilərsiniz, axı Siz robot deyilsiniz. Adətən bu hal müəllimi öz üzərində daha ciddi çalışmağa, fənnini daha mükəmməl öyrənməyə məcbur edir.

Bu halda Siz şagirdlərə sualın cavabını bilmədiyinizi və ya onu unutduğunuzu, növbəti dərsdə suala cavab verəcəyinizi deyə bilərsiniz. Əgər bu cür cavab vermək psixoloji cəhətdən Sizin üçün çətindirsə, sualın cavabını bilmədiyinizi incə bir şəkildə gizləyərək, şagirdlərə sualı birlikdə araşdırmağı təklif edin. Cavabı internet resurslarından axtarmalarına icazə verin və sonda şagirdlərin cavablarını ümumiləşdirin. Əlbəttə, bu üsul həmişə işə yaramır. Məsələn, riyaziyyatdan həll edə bilmədiyiniz hər hansı bir məsələnin həllini internet resurslarından axtarıb tapmağın ehtimalı demək olar ki, yox dərəcəsindədir. Bu halda, yenə də bilmədiyinizi incə bir şəkildə gizləyərək, bu dərs müddətində onlara izah edəcəyiniz materialın çoxluğunu əsas gətirərək, sualın cavabını sonraya təxirə salmağa çalışa bilərsiniz. Əlbəttə, belə vəziyyətlərdə Sizin şəxsi keyfiyyətləriniz, çətin vəziyyətlərdən çıxa bilmə bacarıqlarınız öz sözünü deyəcək.

**Şagirdlərlə yaranan konflikt situasiyalar:** Şagirdlərlə ünsiyyət prosesində yaranan problemlər daha çətin və çoxşaxəli olur. Şagirdlərlə yaranan konfliktlər, onların intizamsızlığı və kobudluğu, həmçinin müəllimin ifrat dərəcədə ciddiliyi, güzəştə getməməsi dərs prosesinin pozulmasına səbəb ola bilər. Peşəkar müəllim özünün və qarşısındakı auditoriyanın xüsusiyyətlərini nəzərə almaqla onların harmoniyasını yarada, bütün fəaliyyətləri dərs çalışmalarına yönləndirə bilir. Əlbəttə, insanlar bu bacarıqla doğulmurlar, onlar təcrübə ilə əldə edilir. Gənc müəllimə bu təcrübəni əldə etməsi üçün zaman lazımdır. Lakin onların bu təcrübəni qazanması üçün yaşlı həmkarlarına nisbətən üstünlüyü var. Gənc müəllim, şagirdlərlə yaş fərqinin daha az olması səbəbindən onların nə düşündüyünü, hansı hisslər keçirdiyini daha yaxşı başa düşə bilir. Həmçinin gənc müəllimin özünü şagirdin yerində təsəvvür etməsi daha asandır. Siz də şagird olmusunuz. Orta və ya ali məktəbdə oxuduğunuz dövrdə hansı müəllimlərə daha çox hörmət bəslədiyinizi və bunu hansı səbəbdən etdiyinizi xatırlayın, o zaman şagirdlər arasında nüfuz sahibi olmağın yolunu tapmış olarsınız.

**Kollektivlə bağlı yaranan problemlər:** Valideynlər və həmkarlarınız sizin apardığınız tədris prosesinin iştirakçıları olmasalar da, onlarla münasibətləriniz əhvalınızı korlaya, fəaliyyətinizə birbaşa təsir göstərə bilər. Bu kimi hallarda soyuqqanlı olmaq, hisslərlə deyil, ağıl, məntiqlə hərəkət etmək lazımdır. Digərlərinin Sizin ünvanınıza xoş olmayan sözlər dediyini eşitsəniz belə, yanınızda olmayan birisinin hərəkətlərini, sözlərini müzakirə etməyin və onlar kimi davranıb, ünvanlarına xoş olmayan sözlər deməyin. Bu cür davranış etik deyil və müəllimin gec-tez həm şagirdərin, həm də həmkarlarının yanında hörmətini itirməsinə səbəb olacaq.

Adətən, gənc müəllimlər işə başladığı tədris müəssisəsində dərsdənkənar fəaliyyətə, ictimai işlərə daha çox cəlb olunur. Bundan çəkinmək lazım deyil, əksinə, kifayət qədər vaxtınız, enerjiniz var ikən bu fəaliyyətlərdə aktiv olmağa çalışın – bu sizin xeyrinizədir. Əvvəla, üzərinizə götürdüyünüz bu işlərin öhdəsindən gəlməklə həm kollektivin, həm də rəhbərliyin rəğbətini qazanmış olacaqsınız, ikincisi, bu fəaliyyətlər zamanı çox şey öyrənəcək, gələcək üçün təcrübə toplayacaqsınız.

**İlk təəssürat necə yaranır?**

Dərsi teatr tamaşasına bənzətmək olar: mimikalar, jestikulyasiyalar, yüksələn və enən səs tembri ilə dinləyicilərin diqqətini özünə cəlb etməyə, bildiklərini onların beyninə yeritməyə çalışan müəllimin 45 dəqiqəlik tamaşası. Şagirdlərinin hər birisinə bir rol həvalə edərək, onları da tamaşanın iştirakçısına çevirə bilməsəniz tamaşa Sizin cansıxıcı monoloqunuzdan ibarət olacaq.

İlk dərslərini yuxarı siniflərdə başlayan gənc müəllimin dərslərini isə daha çox 20-30 cüt gözün gənc müəllim entuziazmı ilə qarşılaşdığı qeyri-bərabər döyüş məşqinin keçirildiyi poliqona da bənzətmək olar. Müəllimin vəzifəsi onlarla əks cəbhədə dayanıb döyüşmək deyil, onların müəllimlə eyni səngərdə dayanmasına nail olmaqdır. Şagirdləri buna məcbur etmək olmaz, əgər məcbur edə bilsəniz belə, özlərini əsirlikdə olan kimi hiss edəcək, ilk fürsətdə Sizin yanınızda olmaqdan imtina edəcəklər. Şagirdləri Sizinlə eyni mövqedə dayanmağa sövq etməli, özünüzü onlara sevdirməli, onlara rəhbərlik edə biləcək bilik, bacarıq və kompetensiyalara malik olduğunuzu nümayiş etdirməlisiniz.

Yadda saxlayın, şagirdlərdə Sizin haqqınızda ilkin rəy biliklərinizə, savadınıza görə deyil, görünüşünüzə, danışığınıza, davranışınıza, onlara qarşı münasibətinizə, onlarla ünsiyyətinizə əsasən formalaşır. Bir neçə onilliklər əvvəlki qədər olmasa da, geyim müəllim üçün önəmli faktorlardan biridir. Ataların "insanı geyiminə görə qarşılayıb, ağlına görə yola salarlar" deyimini xatırlayın. Geyimin bahalı olmasına deyil, sadə, səliqəli və gözoxşayan olmasına fikir vermək lazımdır. Eyni zamanda geyiminizin Sizin üçün rahat olmasına diqqət yetirin. Rahat olmayan geyimin yaratdığı diskomfort müəllimin hərəkətləri və jestikulyasiyasını məhdudlaşdırmaqla əsəbiliyə səbəb olur, özünəinamı azaldır.

Şagird və ya tələbə olduğunuz vaxtları yada salın: hansı müəllimin dərslərinə daha diqqətlə qulaq asırdınız – asta-asta, monoton şəkildə danışan, yoxsa dərsi canlı, hərəkətli şəkildə izah edən müəllimin? İclaslarda Sizin üçün maraqlı olmayan uzun-uzadı məruzələrə maraqla qulaq asırsınızmı? Zaman keçir, lakin insan psixologiyası dəyişmir. Biz canlı, rəngarəng təqdim edilən informasiyaları daha asan qavrayırıq. Ona görə də şagirdləriniz üçün “maraqsız məruzəçi” olmayın.  Bütün dərs boyu eyni monoton tonda danışmayın, intonasiyanıza, səs tonunuza fikir verin, dərsi rəngarəng etməyə çalışın. Əvvəlcədən məşq edin, diksiyanızı, nitqinizin dəqiqliyi və ahəngini qiymətləndirin. Səs tonunuzu yüksəldib azaltmaq, kiçik

pauzalar etməklə auditoriyanın diqqətini özünüzə asanlıqla cəlb edə bilərsiniz. Jestikulyasiyalardan istifadə etməkdən çəkinməyin, bir yerdə dayanmayın, partaların arası ilə gəzin, şagirdlərlə göz kontaktı qurmağa çalışın. Bu halda onların diqqəti daim Sizdə olar.

İlk dərsdə şagirdlərlə tanış olduqdan sonra qarşıdakı hədəflərinizi elan edə, əməl etməli olduqları müəyyən qaydaları onlara çatdıra bilərsiniz. Məsələn, nə zaman sual vermək olar – sual yaranan anda, yoxsa mövzu izah olunub qurtardıqdan sonra? Dərsdən sonra sualları yaranarsa, Sizə necə müraciət edə bilərlər – telefonla zəng edib soruşa bilərlərmi, yoxsa məktəbdə olduğunuz vaxt yaxınlaşmalıdırlar? və s. Qaydalarda qadağanedici məqamları vurğulamaqdan çəkinin, şagirdlərə hədə-qorxu gəlib, cəza ilə qorxutmaq isə tamamilə yolverilməzdir.

**Həmkarlarınız arasında Sizə məsləhət verə biləcək təcrübəli müəllimlər tapın.**

Əlbəttə, düşünə bilərsiniz ki: "4-5 il təhsil almışam, universiteti təzəcə bitirmişəm, ixtisas, pedaqogika, psixologiyadan universitet mühazirələri hələ yadımdadır, MİQ imtahanlarda ən yüksək bal toplamışam! Başqasının məsləhəti nəyimə lazımdır ki?" Əsla belə düşünməyin! İşə başladığınız ilk ildə Sizə yol göstərə biləcək təcrübəli müəllim dəstəyi mütləq gərəyiniz olacaq. Təcrübəli həmkar dəstəyindən heç zaman imtina etməyin, o, işin nəzərə almadığınız, fikrinizdən qaçırdığınız incəliklərini Sizə izah edəcək, təqvim planının, summativ tapşırıqların hazırlanmasından tutmuş, şagirdlərlə, valideynlərlə və nəhayət kollektivlə münasibətə qədər hər bir sahədə Sizə məsləhət verəcək. Ondan yeni işə başlayarkən etdiyi səhvlər barədə tez-tez eşidəcəksiniz: "Əvvəllər belə etmirdim, amma vaxtilə bu məktəbdə filan müəllim işləyirdi, onun belə etdiyini gördüm, çox xoşuma gəldi, fikirləşdim ki, neçə ildir ki bu, mənim niyə ağlıma gəlməyib?" Bütün məsləhətlərə qulaq asın, onları saf-çürük edib, işinizdə istifadə etməyə çalışın.

Düzdür, həmkarlarınızın məsləhətləri olmadan da keçinə bilərsiniz, lakin, yaxşı halda ola bilər ki kiçik səhvlər edərsiniz və ya bir gün ərzində həll oluna bilən problem Sizin aylarla vaxtınızı aparar, bir ildə qazana biləcəyiniz uğurlara çatmaq üçün illərlə vaxt lazım olar. Pis halda isə, bir neçə aydan sonra işin öhdəsindən gələ bilmədiyinizi görüb, özünüzü ağlamaqdan zorla saxlayaraq, gözlərinizin yaşını gizlədərək: "məndə heç nə alınmır, mən bacarmıram, şagirdlər mənə qulaq asmır, valideynlər çox aqressiv davranır, rəhbərlik isə daim məni günahkar hesab edir." – deyə biləsiniz. Daha sonra özünüzə başqa iş axtarıb, müəllimliyə əlvida demək haqqında düşünə bilərsiniz. Bu anda Sizə yol göstərəcək kimsə tapılacaq, problemləri araşdırıb, iş metodunuzu dəyərləndirəcək və məlum olacaq ki, hələ hər şey itirilməyib və ya vəziyyət çox pisdir, lakin düzələ biləndir. Təcrübəli həmkarınız nəyi düzgün etmədiyinizi Sizə bildirəcək, köməyini əsirgəməyəcək. Lakin, unutmayın ki, itirilmiş nüfuzu bərpa etmək (hətta əgər bu mümkün olarsa), həmişə onu itirməyə sərf olunan zamandan dəfələrlə artıq zaman alır. Ona görə də əmək fəaliyyətinə başladığınız ilk andan çalışın ki, təcrübəli həmkarlarınızın

məsləhətlərindən faydalanıb, onlardan öyrənəsiniz. Axı hər şey heç də kitablarda yazıldığı kimi olmur. Vaxtı çatanda – illər sonra Siz də gənc həmkarlarınıza dəstək olub, təcrübəli həmkarınıza olan borcunuzu növbəti nəslə öyrətməklə ödəyə bilərsiniz.

**Unutmayın ki, Siz kollektivin bir üzvüsünüz**.

Hətta ən yüksək bacarıqlara, dəyərlərə sahib olsanız belə, məktəbi sizin istedadınızı məhv edən, xoşlamadığınız işi görməyə məcbur edən müəssisə, müəllimliyi isə başqa iş tapa bilmədiyinizdən, məcburiyyət qarşısında seçdiyiniz iş hesab etməyin. Məktəbin sizin kimi bacarıqlı kadrlara ehtiyacı olduğu kimi, sizin də məktəbə ehtiyacınız var. Bəli, məktəb sizdən çox şey gözləyir, sizin kimi bacarıqlı bir insanın orada işləməyindən çox məmnundur, lakin yadda saxlayın ki, əvəzedilməz insan yoxdur. Böyük məmnuniyyətlə Sizin yerinizdə işləmək istəyən yüzlərlə gənc müəllim var. Əgər müəllimik peşəsini seçmisinizsə, müəllim işləyirsinizsə, vəzifə borcunuzu vicdanla yerinə yetirməlisiniz. Çünki yüzlərlə şagirdin, Vətən övladının gələcəyi sizin kimi müəllimlərdən asılıdır.

Siz artıq kollektivin bir üzvüsünüz. Kollektivdən ayrılmayın, daim onlarla bir olmağa çalışın. Özünüzü gəncliyin sahib olduğu müasir texnologiyalara, xarici dil bilgiləri kimi üstünlüklərə sahib olmayan yaşlı nəslin nümayəndələrindən üstün tutmayın. Elə düşünməyin ki, kollektiv yaşlıdır, Siz isə səliqəli geyinmiş, yaraşıqlı birisi onlarla dostluq edə bilməzsiniz. Klassik şərq ədəbiyyatının görkəmli nümayəndələrinin demək olar ki, əksəriyyətinin əsərlərində rast gəlinən bu ifadəni yaddan çıxarmayın: “cavanlığınızla qürrələnməyin, bir gün gələcək Siz də yaşlanacaqsınız”. Yaşlı müəllimlərə hörmətlə yanaşın, onlara qayğı göstərin, təcrübələrini öyrənməyə çalışın. Hər bir həmkarınızdan müsbət bir nümunə götürüb, bilmədiyiniz bir şey öyrənsəniz, onlardan qazandığınız təcrübə Sizə bir ömür boyu bəs edər.

**Şagirdlərə qarşı səmimi olun, sünilikdən qaçın**

Siz universitet təhsili zamanı pedaqoji təcrübədə olmuşunuz, dərs keçmiş, şagirdlərlə ünsiyyətdə olmuşunuz. Artıq şagirdlərlə münasibət yaratmaq təcrübəniz var. Lakin pedaqoji təcrübə zamanı fənn müəlliminin və metodistin nəzarəti altında dərs keçməklə müstəqil tədris etmək arasında, bir sinifdə bir neçə dərs keçməklə, davamlı olaraq bütün il boyu dərs keçmək arasında kifayət qədər fərq var.

Şagirdlərinizə qarşı ədalətli və səmimi olun, onlarla dərs zamanı və dərsdənkənar vaxtlarda eyni şəkildə davranın. Tənəffüs zamanı şagirdlərlə xoş danışıb, dərs zamanı onları dərsə qulaq asmağa məcbur etmək üçün qaşqabaqlı, acıqlı görünməyə və ya olduğunuzdan daha ağıllı görünməyə çalışmayın, onsuz da faydası olmayacaq. Şagirdlər hər şeyi hiss edir, hər şeyə düzgün qiymət verə bilirlər. Ətrafınızdakıların, şagirdlərin gözündə əvvəlcə istədiyiniz kimi görünə bilsəniz də, bir müddət sonra onlar sizi “kəşf” edəcəklər. Sizin səmimi, yoxsa qeyri-

səmimi olduğunuzu, əslində olduğunuz kimi, yoxsa süni davrandığınızı, nəyə qadir olduğunuzu bir neçə həftə ərzində ayırd edəcəklər. Çalışın ki, şagirdləriniz Sizi olduğunuz kimi qəbul etsinlər, olduğunuz kimi sevsinlər. Siz onlara hansı münasibəti bəsləsəniz, onlardan eyni münasibəti görəcəksiniz.

Aktyorlarla müəllimlər arasında oxşarlıq var, hər ikisi publika qarşısına çıxır – aktyor tamaşaçı, müəllim isə şagird qarşısına. Əgər aktyor tamaşaçı ilə göz kontaktı qurub, tamaşaçının qəlbinə yol tapa bilməzsə, istənilən effekt alınmayacaq. Sinif də belədir. Bir çox hallarda aktyor kimi rola girməyə məcbur olacaqsınız – əvvəlcə özünüzə sözün əsil mənasında müəllim hesab edə biləcəyiniz şəxsə oxşamağa çalışa bilərsiniz, bu təbii haldır, lakin zaman keçdikcə, başqalarını təqlid etməkdən çəkinin, öz yolunuzu tapın, öz rolunuzu oynayın. Yadda saxlayın, hətta aktyorlar belə, hansısa rolu oynayanda, təbii oynamaq üçün qəhrəmanının daxili dünyasını dərk etməyə çalışır. Öz rolunu oynamaq sizin üçün çətin olmayacaq, axı siz başqa birini yox, məhz öz rolunuzu oynayırsınız.

**Uğursuzluq və tənqidlərə görə ruhdan düşməyin**

Dərslərinizdə hər şey əvvəlcədən planlaşdırdığınız kimi alınmasa da, hansısa uğursusluğa düçar olsanız da, “axı niyə belə oldu, mən ki hər şeyi düzgün planlamışdım, amma alınmadı, deməli, mən bacarmıram” düşüncəsindən uzaq olun, ruhdan düşməyin. Siz əzmlə davam edin, hər şey yalnız çalışqanlığınız sayəsində yoluna düşəcək.

Hər kəs səhv edə bilər. Düzgün verilməmiş qərar, edilən səhvlərə görə peşman olmaq deyil, onlardan nəticə çıxarmaq lazımdır. Səhvlərinizdən dərs alın.

Hər şeyə görə özünü günahlandırmaqdan çəkinin. Məsələn, sinifdə dərslərə hazırlaşmayan, nizam-intizam qaydalarını tez-tez pozan bir neçə şagird ola bilər. Əgər şagird dərslərə müntəzəm hazırlaşmır, tez-tez dərs buraxırsa, problem adətən müəllimlə bağlı olmayıb daha çox ailədən, valideyn nəzarətsizliyindən qaynaqlanır. Əgər valideynlər üçün övladlarının dərs oxumaması, tez-tez dərsdən qalması normal qəbul olunursa, hətta ən təcrübəli müəllimlərin belə vəziyyəti dəyişməkdə çətinlik çəkirlər. Bu şagirdlərlə söhbət edin, onlar haqqında digər fənn müəllimlərindən məlumatlar əldə etməyə çalışın, sonra görəcəyiniz tədbirlər haqqında qərar verin.

İşlədiyiniz müddətdə çoxlu tənqidlər eşidəcəksiniz. Rəhbərlik dərslərinizdə iştirak edəcək, Sizə iradlarını bildirəcək. Adətən bir çoxları müsbət cəhətlərə “belə də olmalıdır” deyə, əhəmiyyət verməyib, “belə olmaz!” deyərək mənfi cəhətləri daha çox qabartmağa çalışırlar. Dərsləriniz haqqında direktor və ya müavinlərdən: “Dərsin məqsədi aydın deyildi”, “şagirdlərin fəallığı zəif idi”, “Şagirdlərin hamısını dərsə cəlb edə bilmədiniz”, “filan məsələni başqa cür izah etsəydiniz daha yaxşı olardı” və s. kimi iradlar eşidəcəksiniz. Özünüzü dahi hesab edib iradları haqsız hesab etməyin, onları qəbul edin. Yadda saxlayın ki, dərsinizin mənzərəsi təsəvvür

etdiyiniz kimi deyil, kənardan göründüyü kimidir. Kənardan baxdıqda Sizin görmədiyiniz hər hansı nöqsanı digərləri görə bilir. Nəzərə alın ki, dərsinizi qiymətləndirənlər (direktor, müavinlər, fənn müəllimləri) təcrübəli pedaqoqlardır, onlar bu işi Sizdən daha yaxşı bilirlər. İrad bildirməkdə onların məqsədi Sizin işinizə kölgə salmaq deyil, gələcəkdə bu kimi nöqsanları təkrarlamamanız, daha yaxşı müəllim ola bilməniz üçündür. İradların haqlı və ya haqsız olmasından asılı olmayaraq, ruhdan düşməyin. Bəzən haqsız iradlar da eşidə bilərsiniz. Məsələn, "dərsin icmalını printerdə çap etməməli idiniz, əlyazma ilə yazmalı idiniz" kimi heç bir məntiqə əsaslanmayan iradları qulaqardına vura bilərsiniz.

**Gündəlik tutun (daha yaxşısı bir neçə gündəlik)**

Yaddaşınıza həmişə güvənməyin. Sizi qarşıda müxtəlif iclaslar, Pedaqoji Şuralar, tədbirlər, ekskursiyalar, görüşlər, məsləhətlər, valideyn iclasları və s. gözləyir. Bütün bu tədbirlərdə eşitdiklərinizi, verilən tapşırıqları, onların həyata keçirilmə tarixlərini unutma ehtimalınız çox böyükdür. Bunun üçün gündəlik tutun, hətta onu bir neçə yerə ayırsanız daha yaxşı olar. Birində, Sizə verilmiş tapşırıqları, iclaslarda toxunulan məsələləri qeyd edin, digər hissəsində şagirdlərlə, tədris etdiyiniz fənn ilə bağlı olan qeydlər aparın, digər hissədə gələcəkdə görmək istədiyiniz işləri, ideyaları yazın və s.

Qeydləriniz belə ola bilər:

- Üzürlü səbəbdən summativ qiymətləndirmədə iştirak etməyən şagirdlər üçün yeni summativ qiymətləndirmə tapşırıqları hazırlamaq;
- 8 noyabr – Zəfər Günü ilə bağlı xüsusi təqdimat hazırlamaq
- Rasim keçən dərslərdə öyrənmədiyi şeiri 1 dekabra qədər əzbərləyib danışacağına söz verdi;
- 14 mart tarixində π (pi ≈ 3,14) günü ilə bağlı şagirdlərə xüsusi məlumat vermək və s.

**Görəcəyiniz işləri son ana saxlamayın**

İnsanlar müxtəlif xarakterdə olurlar. Bəzi insanlar bütün işlərini planlı şəkildə qurur, hər bir işi vaxtında görürlər, bəziləri isə işlərini son ana saxlayırlar. İşlərinizi planlı şəkildə, öz vaxtında görsəniz bütün işləriniz qaydasında gedəcək, istirahət, əyləncə, ailə, şəxsi həyatınız üçün də kifayət qədər vaxtınız qalacaq. İşlərinizi son ana saxlasanız, əksəriyyətini keyfiyyətli şəkildə yerinə yetirə bilməyəcəksiniz. Tələskənlikdən hardasa mütləq səhv edəcək, fors-major (Sizdən asılı olmayan) hallarla rastlaşdıqda ümumiyyətlə nəzərdə tutduğunuz işi həyata keçirə bilməyəcək, daim vaxt çatışmazlığından şikayətlənəcəksiniz. Məsələn, təsəvvür edin ki, summativ qiymətləndirmə keçirməyi planlaşdırmısınız, qiymətləndirmənin vaxtını şagirdlərə elan etmişiniz, tapşırıqları evdə hazırlamısınız və yaddaş kartına köçürüb, dərsdən əvvəl məktəbdə çap edərəm deyə düşünmüsünüz. Materialı çap etmək istərkən məlum olur ki,

yaddaş kartı zədələnib və ya fayl açılmır. Bu halda hansı vəziyyətə düşəcəyinizi təsəvvür edirsinizmi?

**Unutmayın, Sizin şəxsi həyatınız da var**

Müəllimlik sizi öz həyatınızdan ayrı salmamalıdır. Həyatınız yalnız müəllimlikdən ibarət deyil. Əgər müəllim yalnız müəllimdirsə, həyat onun üçün, o isə ətrafındakılar üçün maraqsız və mənasız olacaq. Mahnı oxuyun, şeir yazın, idmanla məşğul olun, səyahət edin, ətrafınızdakı insanlarla mehriban olun, dost qazanıb əhatənizi genişləndirin. Hər halı – çətinlikləri, ağrı-acısı ilə, xoş günləri, sevinci, kədəri ilə həyatı sevin. Siz şagirdləriniz üçün maraqlı və sevimli bir insan olmalısınız. Özünə qapanmaq, yalnız özü üçün yaşamaqla buna nail olmaq mümkünsüzdür.

Məktəbin işini evə, evin problemini məktəbə daşımayın. Dərsiniz bitən kimi məktəbi tərk etməyin, müəllimlər otağı və ya kompüter kabinetində oturub növbəti günlər üçün lazım olan işlərinizi görün – dəftərləri və ya qiymətləndirmə tapşırıqlarını yoxlayın, növbəti dərslər üçün təqdimatlar, testlər hazırlayın. Əgər bütün bunları evdə etmək istəsəniz, həyatınız test hazırlamaq, yazı yoxlamaqla keçəcək. Lakin həyat təkcə bunlardan ibarət deyil. Siz həm də ev işlərinə, valideynlərinizə, ailənizə, övladlarınıza, istirahətə, gəzməyə vaxt ayıra bilməlisiniz.

Dediklərimizdən belə nəticə çıxarmayın ki, işdən sonra işlə bağlı bütün məsələləri unutmalı və kənara atmalısınız. Kənara çıxmalar həmişə olacaq, istəsəniz də, istəməsəniz də işlə bağlı məsələlər bütün gün Sizdən əl çəkməyəcək – valideynlər zəng edib övladının ev tapşırıqları haqqında və ya digər məsələ ilə bağlı nə isə soruşacaq, həmkarlarınız və ya rəhbərlik zəng edib nə isə xahiş edəcək, axşam evdə oturub sabahkı dərsinizə hazırlaşacaqsınız, internet resurslarından yeni materiallar axtaracaqsınız və s. Siz sadəcə iş və şəxsi həyat arasında "Qızıl orta yol"u tapıb, hər bir işi öz vaxtında və öz yerində etməyə çalışmalısınız.

**Bildiyiniz yeni metodların hamısını birdən tətbiq etməyə tələsməyin.**

Əmək fəaliyyətinə yeni başlayan bütün gənc müəllimlər kimi, təbii ki, özünüzü sübut etmək, nəyə qadir olduğunuzu ilk günlərdən göstərmək istəyəcəksiniz. Lakin bacarıqlarınızı göstərməyə tələsməyinizin işinizə mənfi təsiri də ola bilər. Məsələn, əgər Siz bir dərs ərzində daha çox informasiya verməyə, hər şeyi mümkün qədər maraqlı etməyə çalışsanız, düşündüklərinizin hamısını həyata keçirmək üçün dərsi çox sürətli keçməyə məcbur olacaqsınız, şagirdləriniz isə Sizin bu tempinizlə ayaqlaşmaqda çətinlik çəkəcək. Axı maraqlı tapşırıqları yerinə yetirmək də vaxt tələb edir, şagirdlər isə vaxtı o qədər də düzgün bölüşdürə bilmirlər. Çalışmaq lazımdır ki, dərs həddindən artıq "yüklü" olmasın. Fənninizin xüsusiyyətləri ilə xarakterinizi birləşdirib, öz üslubunuzu, dərsin tempini buna görə müəyyən etməlisiniz. Əgər hiss etsəniz ki, şagirdlər dərsin tempi ilə ayaqlaşa bilmir, sürəti azaldın. Bu zaman yəqin

ki, dərs zamanı həyata keçirilməsini nəzərdə tutduğunuz bəzi şeyləri ixtisar etməyə məcbur olacaqsınız. Bunu şagirdlərə hiss etdirməyin, onlar Sizin nə planlaşdırdığınızı bilmirlər, nə etdiyinizi görürlər. Bu hala hətta təcrübəli müəllimlərin dərslərində də (xüsusilə açıq dərslərdə) rast gəlinir. Məsələn, müəllim dərsi daha dolğun edə bilmək üçün mümkün qədər çox informasiya verməyə çalışır, çoxlu maraqlı tapşırıqlar nəzərdə tutur, lakin bu zaman şagirdlərin qavrama, tapşırıqları həll etmə sürətini nəzərə almır. Nəticədə, zəng vurularkən, dərs hələ yekunlaşmamış olur və ya müəllim dərsi 45 dəqiqə ərzində yekunlaşdıra bilməyəcəyini hiss edib, nəzərdə tutduqlarının bəzilərini ixtisar etməli olur. Dərsin müzakirəsi zamanı müəllim təcrübəsizlik edərək dərsi daha yaxşı təşkil edə biləcəyini göstərmək üçün: "mən filan şeyi də etməyi nəzərdə tutmuşdum, amma şagirdlər ləng işlədilər, vaxt çatmadı" – deyir. Açıq dərsi müşahidə edən müəllimlər və rəhbərlik dərsin gedişi zamanı müəllimin əvvəlcədən nəzərdə tutduğu hansı hissəni ixtisar etdiyini hiss etməsələr də, bu "etiraf" dərsi tənqid etmək üçün onlara əsas verir. Nəticədə, müəllim özünün daha yüksək bacarığa sahib olduğunu göstərmək istədiyi halda, özü haqqında nəzərdə tuqduqlarını həyata keçirə bilməyən müəllim obrazı formalaşdırmış olur.

Bütün bacarıqlarınızı ilk günlərdə nümayiş etdirməyə çalışmayın, sonrakı günlərə də nə isə saxlayın. Əgər bildiyiniz bütün metodları ilk dərslərdə tətbiq edib, sonrakı dərslərdə heç bir yenilik nümayiş etdirə bilməyəcəksinizsə, haqqınızda "bir atımlıq barıtı var imiş" deyə düşünəcəklər. Kiçik elementlərdən başlayın, şagirdlərinizi hər növbəti dərsdə daha yeni metodlar tətbiq etməklə həvəsləndirin.

**Şagirdlərə sərbəst seçim edə bilmək imkanı yaradın**

Şagirdlərinizin yaradıcı insan kimi yetişməsinə çalışın. Yalnız verilən tapşırıqları yerinə yetirən insan icraçıdır. Yaradıcılıq sərbəstlik tələb edir. Şagirdlərinizə sərbəstlik verin, fikirlərini, ideyalarını ifadə etmələrinə imkan yaradın. Lakin həddindən artıq sərbəstlik xaosa çevrilə bilər. Bu sərbəstlik idarə oluna bilən şəkildə olmalıdır.

Şagird özünüidarəsi yaxşı haldır, lakin onlar düzgün yolu seçməkdə çətinlik çəkə bilərlər, ona görə də müəllimin istiqamətləndirici rolunun olması vacibdir. Onlara vaxta necə qənaət edə biləcəkləri, hansı nüansları nəzərə almaq lazım olduğu barədə ipucu verin, istiqamətləndirin. Şagirdlərə imkan verin ki, hansı tapşırığı əvvəl, hansını sonra yerinə yetirməli olduqlarını özləri seçsin. Əgər cütlərlə iş aparırsınızsa, onları məcburi qaydada cütlərə ayırmayıb, seçim etməyi öz ixtiyarlarına buraxsanız daha yaxşı olar. Seçimi şagirdlərin öhdəsinə buraxıb, onlardan görülən işin nəticəsini tələb edin. Şagirdləri istiqamətləndirib, işi necə görməkdə sərbəstlik vermək və nəticəsini tələb etməklə onların bütün bacarıqlarını nümayiş etdirmələrinə şərait yaratmış olursunuz.

Sərbəstlik sinifdə müəyyən qədər səs-küyə səbəb ola bilər. İdarə oluna bilən işçi səs-küyə həmkarlarınızın necə qiymət verəcəyinə o qədər də əhəmiyyət verməyin. Məsələn, qapının

yanından keçən həmkarlarınız şagirdlərə sərbəstlik verdiyinizdən yaranan və nəzarətiniz altında olan qısa müddətli işçi səs-küyü eşidib, "müəllim sinfi idarə edə bilmir" kimi düşünə bilər deyə, şagirdlərin sərbəstliyinə məhdudiyyətlər qoymağa çalışmayın. Nəzərə alın ki, müəllimin fəaliyyəti dərsin ayrı-ayrı epizodlarına görə deyil, ümumi işə və son nəticələrə görə dəyərləndirilir.

**Problemləri böyütməyə çalışmayın**

Şagirdlərdən həmişə bütün qaydalara tam ciddiliyi ilə əməl etməyi tələb etmək heç də həmişə müsbət nəticə vermir. Çoxlu sayda qaydalar, qadağalarla doldurulmuş ciddi təhsil mühiti müəllim-şagird münasibətlərində soyuqluq yaradır, tez-gec şagirdlərin və ya valideynlərin "üsyan" etməsinə gətirib çıxarır. Siz nizam-intizamı qorumaq üçün qaydalar tətbiq edirsiniz, lakin onlar sinfi idarə etmək üçün ideal olmaya bilər. Enerjinizi hər boş şeyə sərf etməyin, hər kiçik detalı böyüdüb problemə çevirməyin. Bəzən təsadüfən baş verən kiçik detalları görməzdən gəlməli, eşitməzliyə vurmalı olacaqsınız. Lakin nizam-intizamın, davranışın "qırmızı xətt"i həmişə mövcud olmalı, bu xətti keçməyə heç kimə icazə verilməməlidir. "Qırmızı xətt"in sərhədlərini yeri gəldikcə, sözarası da olsa, davamlı olaraq xatırlatmağa çalışın, bu xətti keçmək cəhdlərinin qarşısını təmkinlə almağa həmişə hazır olun.

**Özünüzü şagirdlərin yerinə qoyun**

Çalışın hər şeyə şagirdlərinizin gözü ilə baxasınız. Empatiya göstərməklə Siz onları daha yaxşı başa düşə biləcək, onlarla daha tez dil tapa biləcəksiniz. Heç vaxt unutmayın, qarşınızdakılar canlı insanlardır, Sizin əmrlərinizi qeyd-şərtsiz yerinə yetirməli olan robotlar deyillər. Onlardan özünüzə qarşı hansı münasibəti gözləyirsinizsə, özünüz də onlara qarşı o cür münasibət göstərin. Hər hansı şagirdə nə isə dedikdə fikirləşin: eyni sözü Sizə desələr hansı reaksiyanı verərdiniz? Şagirdlərinizlə xoş münasibət yaratmağa, onların qəlbində özünüzə yer etməyə çalışın, göstərin ki, onlar Sizin üçün dəyərlidirlər. Əmin olun, onlarla xoş münasibət yaratmağa sərf etdiyiniz vaxtı on qat artığı ilə geri qazanacaqsınız.

**Valideynləri özünüzlə müttəfiq etməyə çalışın.**

Onlara yalnız övladlarından şikayət etmək üçün zəng etməyin, daha çox övladlarının uğurlarını bildirmək üçün əlaqə yaradın. Belə etsəniz, şagirddən şikayət etdikdə, valideynlər Sizi səmimi qəbul edəcək və mütləq şəkildə Sizə kömək etməyə çalışacaqlar. Daim şikayət etsəniz, onları da bezdirəcək və özünüzdən narazı salacaqsınız.

**Asta deyilən sözün təsiri daha güclü olur!**

Bəzən şagirdlər müəllimə qulaq asmır, müəllim isə qışqırır, əlini stolun üstünə çırpır, lakin, sanki şagirdlər onu sanki heç eşitmirlər. Düşünün, Sizə qışqırsalar, xoşunuza gələrmi? Heç vaxt qışqırmayın, səsinizi nə qədər qaldırsanız da, 15-20 nəfərin səsindən yüksək olmayacaq. Yüksək səs özü də neqativ mühit və əks-təsir yaradır. Qışqırmaqla çox şey əldə edə bilərsiniz, lakin hörmət və etibarınızı itirərsiniz.

Başqa bir müəllim isə, partaların arası ilə gəzə-gəzə aramla, sakit-sakit danışır, sanki hansısa sehirli bir qüvvə şagirdləri müəllimə baxmağa, ona qulaq asmağa məcbur edir. Bu, müəllim hipnozu fenomenidir. Bax belə müəllim doğrudan da özünü xoşbəxt hiss edə bilər. İstənilən gərgin vəziyyətdə təmkininizi qoruya bilsəniz, şagirdlər arasında hörmət və avtoritet qazanmış olacaqsınız.

Müəllimin əsassız sərt rəftarı, sinifdə özünün üstünlüyünü açıq-aşkar nümayiş etdirməsi şagirdləri müəllimdən qorxub-çəkinməyə məcbur edir, müəllimin tədris etdiyi fənn şagird üçün maraqsız olur. Həddindən artıq sərbəstlik müəllimlə şagirdlər arasında xoş münasibətlərin yaranmasına səbəb olsa da, sinifdə nizam-intizam qaydalarının pozulması halları çoxalır. Müəllim bu iki yol arasında "Qızıl orta yol"u tapmağa şalışmalıdır.

**Siniflə dost olmağa çalışın**

Şagirdlərə hiss etdirin ki, onların uğuru Sizin üçün çox vacibdir. Şagirdləri "2" yazmaqla və ya digər vasitələrlə hədələməyin. Axı onları öyrətmək Sizin vəzifənizdir. Şagirdləriniz öyrənmirsə, günahın hamısı onlarda deyil, burada Sizin də "pay"ınız var. Onların dərslərini çatdıra bilməməsinin məsuliyyətini də öz üzərinizə götürməlisiniz. Şagirdləri rəhbərliyə və valideynlərə şikayət etməklə qorxutmayın. Sinfi rəhbərlik və valideyn deyil, Siz idarə etməlisiniz. Şikayət etməklə bir növ işinizin öhdəsindən gəlmədiyinizi etiraf etmiş olursunuz. Həm də rəhbərlik və valideynlərin Sizi haqlı hesab edəcəyinə əvvəlcədən əmin ola bilməzsiniz. Əgər onlar Sizi haqlı hesab etməzsə, hansı vəziyyətə düşəcəyinizi təsəvvür edin.

**Fərqli metodlar tətbiq edin**

Hər gün eyni qaydada təkrar olunan hadisələr yadda qalmır, fərqli hadisələr isə unudulmur. Çox güman ki, 2 gün əvvəl şam yeməyində nə yediyinizi xatırlamırsınız, 1 həftə əvvəldən isə danışmaq belə artıqdır. Lakin 2 il əvvəl getdiyiniz piknikdə, iş və ya tələbə yoldaşlarınızla birlikdə restoranda nə yediyiniz yəqin ki, hələ də yadınızdan çıxmayıb. Çünki hər gün eyni qaydada şam edirsiniz, piknik, iş yoldaşları ilə restorana getmək isə adi günlərdə olduğundan fərqlidir. Əgər fənninizin xüsusiyyəti, məktəbin şəraiti və qaydaları imkan verirsə,

dərsi fərqli şəraitlərdə keçməyə çalışın – məsələn, açıq havada, akt zalında, kitabxana və ya muzeydə. Fərqli şəraitlərdə, fərqli üsullarla keçdiyiniz dərslər daha yaxşı yadda qalacaq.

**Peşənizi və fənninizi sevin**

Müəllim dərsə necə münasibət göstərirsə, şagirdlər də eyni münasibəti nümayiş etdirəcəklər. Əgər müəllim özü dərsə gecikirsə, şagirdlər dərsə gecikməyi normal hal hesab edəcəklər. Mövzuları maraqlı faktlar gətirərək həvəslə izah etsəniz, hər zaman dərsə hazır gəlsəniz, dərsi daim rəngarəng etməyə çalışsanız, qeyri-standart üsullar, tapşırıqlardan istifadə etsəniz, əmin olun ki, Sizin bu xüsusiyyətiniz şagirdlərinizə də yaxşı mənada "yoluxacaq".

Dərsin əvvəlində dərsin planını, nə öyrənəcəyinizi şagirdlərə bildirin, daha yaxşı olar ki, qarşınıza hansısa problemi həll etmək məqsədini qoyun, çalışın ki qoyduğunuz problem aktual və maraqlı olsun. Mövzunu müasir həyatla bağlayan bir əlaqə tapın. Yeni biliklərin praktik tətbiqləri ilə bağlı nə qədər çox nümunə gətirə bilsəniz, şagirdlərin diqqətini cəlb edib, onları daha şox maraqlandırarsınız. Dərsi sonunda mütləq ümumiləşdirmə aparın.

Əgər dərs şagirdlər üçün maraqsızdırsa, onlar başqa sinfə keçmək istəyirlərsə və ya əlavə kurslara getmək məcburiyyəti yaranırsa, bunun səbəbini əksər hallarda müəllimdə axtarmaq lazım gəlir.

**Dərs ilinin əvvəlində şagirdləri həddindən artıq dərs yükü ilə yükləməyin**

3 aylıq yay tətilindən sonra şagirdlərin məktəbə yenidən adaptasiya olmalarına şərait yaradın. Nəzərə alın ki, bu qədər müddət ərzində hətta əlaçı şagirdləriniz belə, ötən tədris ilində keçdiyiniz materialların xeyli hissəsini unudublar. Keçən ilki materialın təkrarına, yada salınmasına zaman ayırın.

**Dərslərə əvvəlcədən hazırlaşın**

Tədris etdiyiniz fənni mükəmməl bilin. Nə qədər peşəkar olsanız, sizi o qədər maraqla dinləyəcəklər, şagirdlər və həmkarlarınız arasında nüfuz sahibi olacaqsınız. Lakin biliyinizə arxayın olmayın. Bəzən müəllim öz biliyinə arxayın olub, istənilən vəziyyətdən çıxış yolu tapa biləcəyinə əmin olduğundan, dərsə əvvəlcədən hazırlaşmır. Söhbət müəllimin keçiləcək mövzu haqqında hansısa məlumatı bilməməsi, hansısa məsələni həll etməkdə çətinlik çəkməsindən getmir. Əlbəttə, biliyinə arxayın olan müəllimin belə hallarla rastlaşması ehtimalı çox azdır. Lakin müəllim də nəyi isə unuda, nəzərdən qaçıra bilər. Ola bilər ki, şagirdə verilməli olan hansısa məlumat nəzərdən qaça bilər. Həm də müəllim mövzunun izahı zamanı ardıcıllığı qorumalı, dərsin mərhələlərini bir-biri ilə düzgün əlaqələndirməlidir.

**Haşiyə:** Müəllimlik fəaliyyətinə başladığım ilk illərdə dərslərə əvvəlcədən hazırlaşmağı öz biliyinə güvənməmək əlaməti hesab edib, dərslərə hazırlaşmır, "yaxşı müəllim dərsə həmişə hazır olmalıdır" düşüncəsi ilə hərəkət edirdim. Bakı Slavyan Universitetinin Məktəb-Lisey Kompleksində işləyərkən, özümə müəllim hesab edə biləcəyim təcrübəli həmkarım – riyaziyyat müəllimi, Kamal Mansurovun (Allah rəhmət eləsin!) tənəffüs zamanı dərsliyi vərəqləyib, diqqətlə oxuduğunu gördüm. Axşam dərsə hazırlaşmağa vaxtı olmadığından, ən azından tənəffüs zamanı mövzuya nəzər saldığını dedi. Təəccübləndiyimi görüb: "işlədiyim müddətdə bircə dəfə də olsun, dərsə hazırlaşmadan sinfə daxil olmamışam, bəzən vaxt çatdıra bilməyəndə, ən azı dərsdən əvvəl - tənəffüs zamanı kitaba baxıb mövzunu yada salıram" – deməsi düşüncələrimi tamamilə alt-üst etdi. Deməli, yaxşı müəllim olmaq üçün savadlı və təcrübəli olmaq kifayət deyil, daim öz üzərində çalışmaq və hər bir dərsə hazırlaşmaq lazımdır.

**Özünüzü həddindən artıq yükləməyin**

Universiteti yenicə bitirib ilk dəfə əmək fəaliyyətinə başlayan gənc müəllimə işə başladığı ilk ildə daha çox dərs saatı, üstəlik sinif rəhbərliyi verilərsə, o, işin öhdəsindən gəlməkdə çətinlik çəkə bilər. İşə başladığı ilk ildə daha çox dərs saatı, sinif rəhbərliyi götürmək əvəzinə təcrübə toplamağa üstünlük vermək daha yaxşı olardı. Dərs yükünün çoxluğu müəllimin yorulmasına, dərslərə yaxşı hazırlaşa bilməməsinə səbəb olub, özünü yaxşı müəllim kimi tanıtmasına mane ola bilər.

**Optimist olun, özünüzə inanın!**

Hər şeydən narazı olan insan tipinə çevrilmənizə əsla yol verməyin. Günəşin istisindən, qışın soyuğundan, payızın yağışından narazı qalan insan gələcəyi də dumanlı, qaranlıq görür. İdeyalar irəli sürün, reallaşdırmaq üçün plan qurun. Yenilikləri izləyin, öyrənin və tətbiq edin. Sinfə daxil olarkən bütün problemlərinizi qapıdan bayırda qoyun, onların sinfə daxil olmasına icazə verməyin. Sizin əhvalınız şagirdlərə də sirayət edəcək. Əgər şagirdlər hiss etsələr ki, indi Sizin üçün dərsdən daha vacib olan nə isə başqa bir şey var, özünüz sinifdə olsanız da fikriniz başqa bir yerdədir, onlardan dərsə hansı münasibət gözləmək olar?

**Yumor hissinizi itirməyin**

Şagirdlərlə münasibətdə zarafatçıl olmağa çalışın. Əgər özünüz qaraqabaqsınızsa, başqalarının da sizin kimi olmasına çalışmayın, şagirdlərin yumor hissini müsbət dəyərləndirin. Məsələn, belə bir situasiyada necə hərəkət edəcəyinizi düşünün:

Situasiya: Dərs zamanı arxa partada əyləşən şagird kağıza nə isə yazaraq qabaq partaya ötürür. Şagird yazını oxuyur, dönüb pəncərəyə baxır, sonra kağızı digərinə ötürür. Bu qayda ilə

kağız parçası bir partadan digərinə ötürülür. Müəllim əsəbiləşərək kağızı şagirdlərdən alır və oxuyur. Kağızada "pəncərəyə bax" yazıldığını görüb, qeyri-ixtiyari olaraq o da pəncərəyə baxır. Şagirdlər də bunu gözləyirmişlər kimi hamısı gülməyə başlayır.

**Sual:** Bu situasiyada necə hərəkət edərdiniz?

**Şagirdlərinizə yaxşı nümunə olmağa çalışın**

Vicdanlı, səmimi və dürüst olun, bunu şagirdlərinizə də aşılamağa çalışın. Bəlkə də fikirləşəcəksiniz: "mən ki bunu hər gün şagirdlərimə deyirəm". Çox nahaq. Hər gün demək lazım deyil. Bircə dəfə demək kifayətdir. Lakin elə demək lazımdır ki, onlar Sizə inansınlar. Elə inansınlar ki, dediyinizi hər gün xatırlayıb, heç zaman unutmasınlar! Onlara dediklərinizi isə öz hərəkətləriniz, davranışınızla hər gün nümayiş etdirib nümunə göstərin. Hansısa məşhurun (müəllifini unutmuşam) dediyi kimi: Övladlarınızı deyil, özünüzü tərbiyə etməyə çalışın, övladlarınız onsuz da sizə bənzəməyə çalışacaqlar.

Və nəhayət: Bu məsləhətlərin Sizə çox köməyi dəyəcək, lakin dediklərimizi istənilən hal üçün qeyd-şərtsiz düzgün hesab etməyin. Həyatın istənilən anında mütləq doğru olan bir qayda yoxdur! Hər şey özünüzdən asılıdır!

## DƏRSİN PLANLAŞDIRILMASI

- Qoşqar Məhərrəmov -

*Əgər dərsi necə keçəcəyinizi planlaşdırmamısınızsa, pis keçməyi planlaşdırmısınız.*

Dərsin planı müəllimin dərsdə nə edəcəyini və hansı ardıcıllıqla edəcəyini qeyd etdiyi bir sənəddir. Bu baxımdan deyə bilərik ki, dərsin planı bir filmin və ya tamaşanın ssenarisi kimidir və yaxşı hazırlanmış plan sinifdə işlərin qaydasında getməsinin zəmanətidir. Dərsin planlaşdırılması sinfin effektiv idarə olunmasına birbaşa təsir edən bir məsələdir və sinifdə keçən zamanın yol xəritəsidir. Sinfin idarə olunmasının əsas üç elementi mövcuddur.

- Təlim nəticələri;
- Öyrənmə fəaliyyətləri;
- Şagirdlərin qiymətləndirilməsi.

Dərsin planının olması müəllimlərin mütləq həmin plana sadiq qalaraq eynilə həmin formada dərsi keçməli olduğu mənasına gəlmir. Dərsin planı sinfi daha müəyyən bir yer edir, qeyrimüəyyənliyi azaldır və dərsdə hamının bir-birindən öyrənməyini təmin edir. Dərs planı 3 əsas mərhələdən ibarətdir:

1. Dərsdən əvvəl,
2. Dərs prosesi,
3. Dərsdən sonra.

**Dərsdən əvvəl: dərs planının addımları**

***1. Təlim nəticələrinin müəyyən olunması***

Birinci mərhələdə müəllim mütləq dərsin məqsədini və təlim nəticələrini müəyyən etməlidir. Bundan sonra müəllim dərs sırasında icra ediləcək öyrədici fəaliyyətləri, həmin

fəaliyyətlərin nəticəsini necə qiymətləndirəcəyini və ümumiyyətlə dərsin işlər ardıcıllığını qurmalıdır. Məlumdur ki, dərsin məhdud bir zaman kəsiyidir. Ona görə də bu məhdud zaman intervalında müəllim mümkün ola biləcək sayda fəaliyyət keçirməyi planlaşdırmalı, vaxtı düzgün planlamalı və dərsi yekunlaşdırmaq üçün vaxt ayırmalıdır. Burada dərsin xaotik şəkildə bitməyinə icazə verilməməlidir. Ona görə də müəllimin nəzəri saatda olmalı və dərsin son 5 dəqiqəsini bağlanış üçün saxlamalıdır.

Təlim nəticələri şagirdlərin dərsdə nə edəcəyini deyil, dərsin sonunda hansı bilik və bacarıqları əldə edəcəyini təsvir edir. Təlim nəticələri dərsin məzmunu ilə bir-başa əlaqəli olmalı, onu əks etdirməli və asan dildə yazılmalıdır. Şagirdlər onu beləcə asanlıqla başa düşəcəklər. Təlim nəticələri mütləq sinifdə görünməlidir. Yəni müəllimin ilk təqdimat səhifəsi və ya lövhəyə ilk yazılan təlim nəticələri olmalıdır. Aydın və açıq təlim nəticələrinin ortaq xüsusiyyətləri aşağıdakılardır:

- Terminlərdən və qəliz ifadələrdən uzaq, açıq bir bacarığın ifadə şəkli olmalıdır
- Ən vacib öyrənmə hədəflərini ehtiva etməlidir
- Şagirdlər üçün əlçatan olmalı və 45 dəqiqədə əldə oluna biləcək hədəglər olmalıdır
- Göstərilə bilən və ölçülə bilən olamalı, qiymətləndirilə bilməli, nəticələr rahatlıqla müşahidə oluna bilməlidir
- Təlimin, məzmunun və müəssisənin məqsədləri ilə uyumlu olmalıdır

Təlim məqsədlərinin düzgün hazırlanması üçün Blum öyrənmə səviyyələri taksonomiyasından istifadə oluna bilər. Belə ki, Blum öyrənmənin səviyyələrini aşağıdan yuxarı belə sadalayır:

- Bilik
- Anlama
- Tətbiq etmə
- Analiz
- Sintez
- Qiymətləndirmə və yaratma

### *2. Öyrədici fəaliyyətlərin planlaşdırılması*

Öyrədici fəaliyyətləri planlaşdırarkən fikirləşməliyik ki, şagirdlərin nəticəyə çatmağı üçün hansı işlə və fəaliyyətlə məşğul olmaları lazımdır. Diqqət etməliyik ki, bu fəaliyyət onlara yeni bacarıq və göstərilə bilən, ölçülə bilən yeni səriştə qazandırmalıdır. Fəaliyyətlərin şagirdlərin yaşlarına uyğun olmağı nəzərə alınmalıdır. Bundan əlavə öyrədici fəaliyyətlərin icrası sırasında bütün şagirdlərin prosesdə fəal olması, mərhələli şəkildə hamının təlim nəticələrinə adım-

addım yaxınlaşması təmin olunmalıdır. Şagird fəaliyyət əsnasında gündəlik həyat fəaliyyətlərini təcrübədən keçirməli və bu təcrübə onun həyatında iz buraxaraq qalıcı öyrənmə hasil etməlidir.

Öyrədici fəaliyyətlərin hər birinə ayrılacaq vaxtın əvvəlcədən müəyyən olunması vacibdir. Beləcə həmin fəaliyyətlərin arasında düzgün keçidlər, lazımi müzakirələr və daha dərin izahatlar aparıla bilər. Öyrədici fəaliyyətləri tərtib edərkən aşağıda qeyd olunan sualları nəzərinizdə saxlamağınız vacibdir:

- Mövzunu izah etmək üçün nə edəcəm?
- Mövzunu fərqli bir formada təqdim etmək və çatdırmaq üçün nə edəcəm?
- Şagirdləri mövzuya necə cəlb edəcəm?
- Mövzu ilə əlaqədar həyatımızdan hansı nümunələr gətirə bilərik, hansı hadisələrlə mövzunu əlaqələndirə bilərik ki, şagirdlər mövzunu daha yaxşı başa düşsün?
- Şagirdlərin mövzunu daha yaxşı başa düşməyi üçün onlara necə bir kömək etməyimiz lazımdır?

Şagirdləri dərsə cəlb edəcək müxtəlif fəaliyyət növləri mövcuddur. Bu fəaliyyətlər uzun bir siyahı olaraq sizə mürəkkəb bir proses olaraq gələ bilər ancaq nəzərinizdə saxlayın ki, fəaliyyət sadəcə "Şagird həmin an nə edir?" sualının cavabıdır. Öyrədici fəaliyyətlərə aşağıdakılar nümunə verilə bilər:

| **Fəaliyyətin növü** | **Fəaliyyətin adı** | **Fəaliyyətin təsviri** |
| --- | --- | --- |
| Məzmunla qarşılıqlı əlaqə | Dərinə get və praktika et | Məhdud bir vaxt ərzində şagirdlərə bir problem təqdim olunur və şagirdlər onu cavablandırmağa çalışır |
| | Mühazirə | Anlayışların şifahi izahı, adətən əyani vəsaitlərin dəstəyi ilə, Məs. slaydlar |
| | Kuiz | Şagirdlərin anlayış səviyyəsini qiymətləndirmək üçün verilən suallar və tapşırıqlar<br>Bunlar testlər, qısa cavablı suallar, esselər və s. formatında ola bilər |

| | | |
|---|---|---|
| | Şagirdlərin təqdimatı | Şagirdlər təqdimat hazırlayır və öyrəndiklərini və ya apardığı tədqiqatın sonunda əldə etdiklərini yoldaşları və müəllimi ilə bölüşür |
| Rəqəmsal məzmunla qarşılıqlı əlaqə | Oyun | Dərsin birbaşa məqsədinə xidmət edən əməkdaşlığı və rəqabəti təşviq edən oyunlar |
| | Simulyasiya | Real həyat hadisələrini sanki yaşayırmış kimi təqdim etmək, müxtəlif virtual simulyasiya-lardan istifadə etmək |
| Başqa şagirdlərlə qarşılıqlı əlaqə | Debat | Bir məsələ haqqında iki və daha artıq mövqe sahiblərinin öz arqumentlərini müdafiə etməsi |
| | Müzakirə | Müəllimin formal və ya informal verdiyi sual və mövzu ətrafında fikir mübadiləsi, fərqli yanaşmaların təqdim olunması |
| | Əksəlaqə | Şagirdin cavabına və ya yanaşmasına qarşı müəllimin rəy bildirməsi, fikirlərini söyləməsi |
| | Dəvətli spiker | Dəvət olunmuş bir spiker tərəfindən mövzu ilə əlaqədar yeniliklərin, yanaşmaların təqdim olunması |
| Problem həlli və tənqidi təfəkkür | Nümunəvi hadisə | Mövzu ilə əlaqədar daha əvvəl yaşanmış bir hadisənin verdiyi dərslər, bu hadisədə başa düşülməyi lazım olan məsələlərin izahı |
| | Anlayış xəritəsi | Yeni mövzuda öyrənilən |

| | | |
|---|---|---|
| | | anlayışların bir-biri ilə əlaqəsinin, ortaq yönlərinin qrafik şəkillərlə izah olunması |
| | Real həyatla əlaqədar layihə | Dərsin mövzusuna aid bir problemin həlli üçün fəaliyyətlər toplusunun sistemli bir halda təşkil olunması |
| Refleksiya | Refleksiya jurnalı | |

***3. Şagirdin anlayıb-anlamadığını necə qiymətləndirəcəyinizin planlaşdırılması***

Testlər, sual-cavab, fərdi işlər, təqdimat və s. kimi tapşırıqlarla siz müəllimlər şagirdlərin biliklərini qiymətləndirə bilərsiniz. Bu qiymətləndirmənin nəticələri şagirdlər, müəllimlər, valideynlər və təhsilin digər tərəfdaşları üçün vacibdir. Çünki ancaq bu yolla proqres müəyyən oluna bilər və ancaq bu üsulla hədəflərə çatılıb-çatılmadığı aşkara çıxar. Əgər siz hədəfinizə neçə faiz çatmış olduğunuzu bilsəniz ki, onda lazımi qərarları daha düzgün şəkildə verə bilərsiniz.

Məlumdur ki hər bir dərsin təlim nəticələri olmalıdır və təlim nəticələrinə çatılmağı barədə də qənaətə gəlmək lazım olur. Bu qənaət üçün isə qiymətləndirmə qaçılmazdır. Şagirdlərin təlim nəticələrini müxtəlif formada olan qiymətləndirmələrlə göstərə bilərlər. Bunlar formativ və summativ olaraq sadalana bilər. Qiymətləndirməni müəyyən meyarlara görə aparmalısınız. Hansı nəticəyə hansı qiyməti verəcəyiniz bu meyarlarda öz əksini tapır. Belə bir sənədə isə rubrik deyilir.

Şagirdləri qiymətləndirmək bir çox zaman sadəcə müəllimlərin işi kimi başa düşülür. Ancaq bu həm də şagirdlərin işidir. Belə ki, şagirdlər həm özlərini, həm də dostlarını qiymətləndirə bilərlər. Bu iki növ qiymətləndirmə onların bir çox müsbət keyfiyyətini inkişaf etdirəcək və biliklərin qalıcılığını artıracaq. Ancaq burada da kriteriyalar məlum olmalı və nəyi, niyə, necə qiymətləndirmək məsələsi aydın şəkildə şagirdlərə izah olunmalıdır. Rübün və ilin əvvəlində şagirdlər və valideynlər bütün qiymətləndirmə prosesi ilə tanış olmalıdırlar. Bu tanışlığı universitetlərdə hazırlanan sillabus adlı sənəd kimi bir sənəd hazırlayaraq reallaşdırmaq mümkündür. Deməli siz müəllimlər ilin əvvəlində şagirdləri hansı aralıqlarla, necə qiymətləndirəcəyinizi və hansı mövzuların bu qiymətləndirmələrdə əhatə olunacağını sillabusda qeyd etməli, ümumi qiyməti necə çıxaracağınızı bu sənəddə izah etməli və şagirdlərə, valideynlərə təqdim etməlisiniz.

### 4. *Dərsi maraqlı və mənalı şəkildə ardıcıllıqla keçməyi planlaşdırın*

Robert Gaqne, dərsin ardıcıllığını planlaşdırmaq üçün faydalı, "tədrisin mərhələləri" adlanan doqquz addımlı bir proses təklif edir. Gagne-nin 9 mərhələsini Blumun Təlim Məqsədlərinin Taksonomiyası (link) ilə birlikdə istifadə edərək cəlbedici və mənalı dərs planı hazırlamaq mümkündür. Bu mərhələlərin birincisi "Diqqəti cəlb edin" mərhələsidir. Burada təlimatçı təlim məzmununu təqdim edərkən tələbələrin diqqətini cəlb edin. Bunun üçün əlaqədar hekayə və ya problemi təqdim edin. Sinfi prosesi cəlb etmək üçün buz qıran fəaliyyətlərdən, cari xəbərlərdən və hadisələrdən, nümunəvi araşdırmalardan, YouTube videolarından və s. istifadə edin. Məqsəd şagirdlərin diqqətini və mövzuya marağını tez bir zamanda cəlb etməkdir. Dərsin əvvəlində mübahisəli bir suala cavab axtarın və şagirdlərin rəylərini almaq üçün onlayn sorğular kimi texnologiyalardan istifadə edin.

İkinci mərhələdə şagirdlərə məqsədlər haqqında məlumat verin. Şagirdlərə görəcəkləri, eşidəcəkləri və/və ya edəcəkləri ilə bağlı fikirlərini nizamlamağa imkan verin. Tədris məqsədlərini dərs slaydlarına, proqrama və fəaliyyətlər, layihələr və sənədlər üçün dərs qeydlərinə daxil edin. Şagirdlərdən tələb olunan performansı təsvir edin. Arzulanan standart performansın meyarlarını təsvir edin.

Üçüncü mərhələdə əvvəlki biliklərin xatırlanmasını asanlaşdırın. Şagirdlərə yeni məlumatları artıq bildikləri və ya daha əvvəl yaşadıqları bir şeylə əlaqələndirərək anlamağa kömək edin.

Əvvəlki dərsdən hadisələri xatırlayın, fəaliyyətlərin nəticələrini cari mövzu ilə əlaqələndirin və/yaxud əvvəlki məlumatları cari mövzu ilə əlaqələndirin. Şagirdlərdən əvvəlki anlayışları başa düşdüklərini soruşun.

Dördüncü mərhələdə yeni məzmun təqdim edin. Dərsin məzmununun xülasəsi, fəaliyyətlər, layihələr, multimedia və digərləri daxil olmaqla müxtəlif üsullardan istifadə edin.

Zehnin həddən artıq yüklənməsinin qarşısını almaq üçün məlumatları ardıcıl və hissə-hissə verin. Məlumatı xatırlamağa kömək etmək üçün məlumatları qarışdırın. Blumun təlim nəticələrinin taksonomiyası mövzunu çətinlik səviyyələrinə bölmək üçün istifadə edilə bilər.

Beşinci mərhələdə yol göstərin. Şagirdlərə məzmunu və mövcud resursları öyrənməyə kömək edəcək strategiyalar barədə məsləhət verin. Öyrənmə yolunda onlara edəcəyiniz rəhbərlik ilə onların öyrənmə sürəti artır, çünki şagirdlər səhv biliklərə və ya zəif başa düşülən anlayışlara görə vaxt itirmək və ya məyus olmağı heç istəmir.

Şagird tapşırığı və ya məzmunu öyrəndikdən sonra zehində qurula bilən sxem kimi lazım olduqda təlimat dəstəyi təmin edin. Müxtəlif öyrənmə strategiyalarını modelləşdirin – mnemonika, konsepsiyanın xəritəsi, rol oyunu, vizuallaşdırma və s. bunlara nümunədir. Mövzuya aid nümunələrdən istifadə edin, mövzunu şagirdə uyğun şəkildə müxtəlif formalarda izah etməyə çalışın.

Altıncı mərhələdə şagirdlərə mövzu ilə əlaqədar yeni təcrübələr qazandırın. Şagirdlərə öyrəndikləri bilik və bacarıqları tətbiq etməyə icazə verin. Şagirdlərə bilikləri qrup və ya fərdi fəaliyyətlərdə tətbiq etmək imkanı verin. Dərin öyrənmələri üçün suallar verin, şagirdlərin mövcud olan bildiyinə istinad edin və ya şagirdlərin həmyaşıdları ilə əməkdaşlıq etmələrini təmin edin. Şagirdlərdən öyrəndikləri məlumatı çoxlu sayda təkrar etmələrini istəyin.

Şagirdlərin işləməsini asanlaşdırın – tələbələrdən təfərrüatları işləyib-işləmələrini və ya izah etmələrini xahiş edin və onların cavablarını daha mürəkkəbləşdirin.

Yeddinci mərhələdə əks-əlaqə verin. Öyrənməyi qiymətləndirmək və asanlaşdırmaq üçün şagirdlərin fəaliyyəti haqqında dərhal rəy bildirin. Qrup və sinif səviyyəsində rəydən istifadə edin.

Həmyaşıdların əks-əlaqələri əsasında şagirdlərin düzəlişlər etməyinə şərait yaradın.

Səkkizinci mərhələdə şagirdin performansını qiymətləndirin. Təlim fəaliyyətlərinin effektivliyini qiymətləndirmək üçün gözlənilən təlim nəticələrinə nail olub-olmadığını yoxlamaq üçün şagirdləri yoxlayın. Uğur meyarları əvvəldən müəyyən edilmiş təlim məqsədlərinə əsaslanmalıdır. İmtahanlar/viktorinalar, yazılı tapşırıqlar, layihələr və s. daxil olmaqla müxtəlif qiymətləndirmə üsullarından istifadə edin.

Doqquzuncu mərhələdə yadda saxlamanı və biliyi müxtəlif situasiyalara tətbiq etməni gücləndirin. Bunun üçün şagirdlərə məlumatı şəxsi kontekstlərə tətbiq etməyə icazə verin. Məlumatları şəxsi həyatla əlaqələndirmək və özününküləşdirmək yadda saxlamanı artırır.

Şagirdlərin sınamalarına və səhv etmələrinə imkan verin. Beləcə onların səhvlərindən də öyrənəcəklər.

### *5. Dərsin planını hazırlayarkən vaxtı nəzərə alın.*

On ədəd təlim məqsədinin olması real deyil, ona görə də siyahınızı tələbələrin dərsdə öyrənməsini istədiyiniz iki və ya üç əsas anlayış, ideya və ya bacarıqlara qədər daraltın. Prioritetləşdirilmiş təlim məqsədlərinizin siyahısı sizə yerində qərarlar qəbul etməyə və lazım olduqda dərs planınızı tənzimləməyə kömək edəcək. Real vaxt qrafiki yaratmaq üçün bəzi strategiyalar bunlardır:

- Fəaliyyətlərin hər birinin nə qədər vaxt aparacağını təxmin edin, sonra hər biri üçün ayrıla biləcək əlavə vaxt planlaşdırın.
- Dərs planınızı hazırladığınız zaman hər bir fəaliyyətin yanında bunun nə qədər vaxt alacağını göstərin.
- Qalan suallara cavab vermək və əsas məqamları xülasə etmək üçün dərsin sonunda bir neçə dəqiqə planlaşdırın.
- Vaxtınız varsa, əlavə fəaliyyət və ya müzakirə sualı planlaşdırın.

– Çevik olun - dərs planınızı tələbələrin ehtiyaclarına uyğunlaşdırmağa hazır olun və əsas planınıza sadiq qalmaqdansa, daha səmərəli olacaq şeylərə diqqət yetirin.

***6. Dərsin sonunu planlaşdırın.***

Dərsin sonunu planlaşdırdıqda siz şagirdin öyrəndiklərini konkretləşdirə biləcəksiniz. Bu məsələ müəllim və şagird də əhəmiyyətlidir.

Dərsin yekunu üçün:

– Dərsin xülasəsini verin və şagirdlərin nə dərəcədə anladıqlarını öyrənməyə çalışın.

– Əsas anlayışları yenidən vurğulayın.

– İplərin ucunu bir yerə bağlayın və düyümləyin.

– Səhv anlamalara düzəlişlər verin.

– Növbəti mövzu haqqında məlumat verin.

– Şagirdlər üçün dərsin yekunu əhəmiyyətlidir. Çünki şagirdlər:

– Bütün mövzunu qısa müddətdə bir daha nəzərdən keçirəcək və əsas anlayışlara yenidən diqqət yetirəcək.

– Əsas anlayışları, açar sözləri mənimsəyəcək.

– Dərsin ideyasını anlayış halına gətirəcək, bir çərçivəyə yerləşdirəcək və daha əvvəl öyrənilmiş mövzu ilə əlaqələndirəcək. .

– Biliyi yeni situasiyalara tətbiq edəcək.

Dərsi bu üsullarla yekunlaşdıra bilərsiniz:

- Ən vacib 3 məsələni deyin.
- Bir şagirddən dərsin qısa xülasəsini verməsini istəyin.
- Bütün şagirdlərə bir kağız parçasına dərsi xülasə etmələrini söyləyin.

Ümumiyyətlə, dərs əsnasında şagirdlərə dərs planınızı təqdim etmək vacibdir. Beləcə sizin şagirdlərinizə sinifdə nə öyrənəcəklərini və nə edəcəklərini bildirmək, onları daha da fəallaşdıracaq və dərsi yadda saxlamağa kömək edəcək. Dərs vaxtının mənalı təşkilini təmin etmək şagirdlərə nəinki daha yaxşı yadda saxlamağa, həm də dərsinizi izləməyə və planlaşdırılan öyrənmə fəaliyyətlərinə qoşulmağa kömək edə bilər. Siz lövhədə qısa gündəliyi yazmaqla və ya şagirdlərə sinifdə nə öyrənəcəklərini və edəcəklərini açıq şəkildə söyləyərək dərs planınızı paylaşa bilərsiniz.

Yekun olaraq dərsdən sonra plan üzrə refleksiya tələb etməyiniz çox yerində olar. Hər dərsdən sonra bir neçə dəqiqə vaxt ayırın ki, nəyin yaxşı işlədiyini, niyə və nəyi fərqli şəkildə edə biləcəyinizi düşünün. Sinif vaxtını və fəaliyyətlərini daha uğurlu təşkil etmək, sinfin gözlənilməz vəziyyətlərinə uyğunlaşmağı asanlaşdırar. Bunu unutmaq olmaz ki, plan vacibdir ancaq dəyişməz deyil. Lazım gələrsə, dərs planını yenidən nəzərdən keçirin və hər an dəyişməyə hazır olun. .

# MƏNFİ DAVRANIŞLARIN QARŞISININ ALINMASI

- Fəttah Fəttayev -

***Unutmayın ki, sinifdə hər bir şagirdin onu yanlış davranışa və ya açıq itaətsizliyə sövq edən bir hekayəsi var. Bu hekayələrin 90 %-i sizi əsəbiləşdirməyəcək, əksinə qəlbinizi kövrəldəcək.***

***Annet Bro***

Sinifdə nizam-intizam, davranış problemi şagirdlərin təlim nəticələrinə birbaşa təsir göstərən və məktəblərdə ən çox rast gəlinən problemlərdəndir. Nizam-intizam olmayan, davranış qaydalarına əməl edilməyən sinifdə yüksək təlim nəticələrindən danışmaq mümkünsüzdür. Nizam-intizam, sinifdə səssizliyin hökm sürməsi demək deyil, şagirdlərin diqqətinin dərsə cəlb olunması deməkdir.

Sinifdə pozulmuş nizam-intizam qaydalarını bərpa etmək üçün hər dərs zamanı təqribən 5-6 dəqiqə zaman itkisi baş verirsə, bir tədris ilində 130-140 dərs saatına bərabər olan vaxt davranış qaydalarının pozulması səbəbindən mənasız sərf olunur.

Sinifdə davranış qaydalarına əməl etməyən, nizam-intizamı pozan şagirdlərə qarşı özünü ciddi, eyni zamanda xoşniyyətli aparmaq, şagirdə qarşı ədalətli davranmaq üçün nə etməli? Belə problemlə qarşılaşan zaman müəllim, şagirdin mənfi davranışının səbəblərini aydınlaşdıra, vəziyyəti tez bir zamanda stabilləşdirmək üçün effektiv yol tapa, şagirdin gələcəkdə oxşar xoşagəlməz əməllərini təkrarlamaması üçün onunla qarşılıqlı əlaqənin tənzimlənməsi üçün strategiya müəyyənləşdirə bilməlidir. Bunu edə bilmək üçün ilk növbədə şagirdin mənfi davranışlarının səbəblərini müəyyənləşdirmək vacibdir.

Araşdırmaların nəticələrinə əsasən şagirdlərin xoşagəlməz davranışlarının motivlərini əsasən 4 yerə ayırmaq və onları belə ifadə etmək olar:

1. Bəzi şagirdlər həmişə diqqət mərkəzində olmağı xoşlayır;

2. Bəziləri lider olmağa (ən azından digərinə tabe olmayıb, öz istədiyi kimi hərəkət etməyə), istənilən hadisədə əsas fiqur olmağa çalışır;

3. Bir çox şagirdlər onlara qarşı olan hər hansı ədalətsiz hərəkətin qisasını almaq istəyir;

4. Bəzi şagirdlər istəyirlər ki, heç kim onları narahat etməsin, necə deyərlər onlara "dəyib-dolaşan" olmasın.

Şagirdlərin mənfi davranışları şagirdlərin xarakterindən asılı olaraq müxtəlif formalarda təzahür etsə də, əsasən yuxarıdakı motivlərdən qaynaqlanır. Müəllim bu motivi düzgün müəyyən edə bilsə, şagirdə qarşı baxışları dəyişər, onu başa düşüb, ümumi dil tapa bilər, fəaliyyətini bu istiqamətə planlaşdırar, ona qarşı həyata keçirəcəyi tədbirlərin effektiv olma ehtimalı da bir o qədər yüksək olar.

**Hamının diqqətini cəlb etmək istəyi**

Hər kəsin diqqət mərkəzində olmağı xoşlayan şagirdlər özlərinə qarşı diqqət tələb edirlər, onları əhatə edən auditoriyaya ehtiyacları olur. Onlar əsil aktyorlar kimi, istənilən vəziyyətdə hər kəsin diqqətini cəlb etmək istəyir, bunun üçün müxtəlif üsullara əl atır, hər gün yeni bir metoda əl atırlar.

Başqalarının diqqətini cəlb etmək aktiv və ya passiv formada təzahür edə bilər. Aktiv formada təzahür edən bu cür davranışlarda şagirdin, adətən "xüsusi mexanizmləri" olur. Məsələn, qələmi stola vurub taqqıldatmaq, tez-tez arxa partaya dönmək, daim ətrafında oturan şagirdlərlə söhbət etmək, özündən böyük uşaqlardan eşitdiyi və yaşına uyğun olmayan sözlər işlətmək, müəllimə tez-tez əhəmiyyətsiz, adətən dərslə əlaqəsi olmayan suallar vermək və ya hər dəfə tapşırığı həll etmək üçün kömək istəmək, hər dəfə dərsə gecikmək, müəllim dərs izah edərkən (adətən lövhədə yazarkən), onu yamsılayan və ya lağa qoymağa çalışan hərəkətlər, üz-göz işarələri, mimikaları ilə ətrafındakıların diqqətini cəlb etmək, kağız parçasına nə isə yazıb digər şagirdlərə ötürmək, imkan tapdıqda telefonla digər şagirdlərə nə isə yazmaq və s.

Bu cür şagirdlərin hərəkətləri adətən "uğurlu" alınır. Çünki bu hərəkətlər digər şagirdlər üçün maraqlı olur, onları tez cəlb edə bilir. Xüsusilə də, əgər dərs canlı, hərəkətli, interaktiv formada təşkil olunmayıbsa, şagird üçün yorucudursa, onların diqqətini cəlb etmək daha da asanlaşır. Əgər vaxtında reaksiya verilməsə, bir müddət sonra ona daha bir neçə şagird qoşulacaq, sinifdə öyrənmə mühiti tamamilə pozulacaq və dərs keçmək mümkünsüz olacaq.

Passiv formada təzahür edən davranışları müəyyən etmək adətən o qədər də asan olmur. İlk baxışda hər şey əla görünür, dərs normal templə davam edir və bir müddət sonra sinifdə sakitcə "öz işini görən" şagirdlərin mövcudluğu məlum olur. Onlar Sizin heç bir tapşırığınızı yerinə yetirməkdən imtina etmirlər, lakin asta-asta sinfə təsir edirlər. Məsələn, Siz sinfə

çalışmalar həll etməyi tapşırırsınız, o asta-asta çantasını axtarıb, dəftərini açana qədər, digərləri artıq bir neçə çalışmanı həll etmiş olur. Sizə elə gəlir ki, həmin şagird çox tənbəldir, deyilənləri gec başa düşür və s. Lakin eyni zamanda dərsdənkənar vaxtlarda həmin şagirdlərin hadisələrə münasibətinin və hərəkətlərinin digərlərindən fərqlənmədiyinin, reaksiyasının digərlərindən gec olmadığının da şahidi olursunuz. Passiv formada təzahür edən bu cür meylləri islah etmək daha çətindir, çünki, belə şagirdlər Sizin dediyiniz heç bir fikrə etiraz etmir, tapşırıqlarınızdan imtina etmirlər. Aktiv şagirdlərə irad bildirmək üçün kifayət qədər dəlil tapa bildiyiniz halda, passiv formada fəaliyyət göstərən şagirdləri "günahlandırmaq" üçün əsasınız olmur. Şagirdin bu cür hərəkətləri müəllimi daim narahat edir, onda şagirdə irad bildirmək, danlamaq kimi təbii reaksiyalar yaradır. Bu iradlar isə şagirdin öz hərəkətlərinə yalnız qısamüddətli fasilə verməsi ilə nəticələnir.

***Başqalarının diqqətini cəlb etmək istəyi necə yaranır?***

1. Uşaq kiçik yaşlarında nə isə istəyir, lakin valideynlər ona əhəmiyyət vermirlər. Uşaq istədiyini əldə etmək üçün ağlamağa başlayan kimi, valideynlər dərhal onun istəyini yerinə yetirirlər. O, bütün günü özünü sakit aparır, heç kəsin diqqətini çəkmir, vazanı sındırdıqda isə dərhal diqqət mərkəzində olur. Getdikcə uşaqda belə bir fikir formalaşır: "Əgər valideynlərimin mənə diqqət göstərməsini istəyirəmsə, onların qadağan etdiyi hər hansı işi görməliyəm".

2. Heç kəs şagirdə normal şəkildə diqqəti cəlb etməyin yolunu öyrətmir. Diqqət mərkəzində olmaq ehtiyacı fizioloji baxımdan yemək-içməyə olan tələbat kimi, psixoloji tələbatdır. Əgər uşağa yemək verməsəniz, o, yemək əldə etmək üçün diqqəti cəlb etməyə çalışacaq. Biz uşağa ac olduqda yemək istəməyin qaydalarını öyrədirik, lakin "psixoloji aclıq" zamanı necə hərəkət etməli olduğu haqqında düzgün istiqamət verə bilmirik.

3. Hər bir insanda az və ya çox dərəcədə diqqət mərkəzində olmaq istəyi var. Şagird ailədə özünə qarşı diqqət hiss etmədikdə, bu boşluğu məktəbdə doldurmağa çalışacaq, müəllimindən diqqət görməyən şagird, sinif yoldaşlarının diqqətini cəlb etməyə çalışacaq və s.

**Haşiyə:** Yəqin ki, sosial şəbəkələrdə, ekran və efirlərdə müxtəlif peşə sahiblərinin qeyri-adi çıxışları, bəzən qeyri-etik və ya cəmiyyətdə normal qəbul edilməyən ifadələri, qalmaqallarının şahidi olmuşunuz. Bunlar daim diqqət mərkəzində olmaq, gündəmdə qalmaq, özünə elektorat toplamaq üçün istifadə olunan vasitələrdir. Sosial şəbəkələrdə "layk xəstəliyi" kimi təzahür edən hərəkətlər də bu motivlə bağlıdır. Bu hərəkətlər insanların peşə fəaliyyəti ilə bağlı olan planlaşdırılmış və ya diqqət mərkəzində olmaq kimi psixoloji ehtiyaclarından qaynaqlanan xaotik xarakter daşıya bilər.

Başqalarının diqqət mərkəzində olmaq istəyən şagirdlərin müsbət cəhətləri ondan ibarətdir ki, onlar əslində müəllimlə, sinif yoldaşları ilə ünsiyyət yaratmaq istəklərini bildirmiş olurlar, lakin pozitiv ünsiyyət qurmağın düzgün yolunu bilmirlər.

Əksər hallarda müəllimlər sinifdə sakitcə oturan şagirdə diqqət yetirmir, səs-küy saldıqda isə onu danlamaqla bütün diqqəti həmin şagirdin üzərinə cəmləyir, beləliklə də, həmin şagirdin istədiyini ona vermiş olurlar. Fizioloji baxımdan bu hadisəni belə bir analogiya ilə ifadə etmək olar: uşaq sakitcə ac olduğunu hiss etdirir, bildirir, lakin ona yemək verən olmur, o da ağlayıb səs-küy salır, danlansa da, yemək əldə edir. Belə halların qarşısını almaq üçün, həmin şagirdlərin müsbət hərəkətləri zamanı onlara bir neçə qat daha çox diqqət ayırın, mənfi davranışlarını qabardıb diqqət mərkəzinə gətirməyin. Beləliklə, şagird diqqəti cəlb etmək ehtiyacını mənfi deyil, müsbət davranışlar nəticəsində qarşılamış olacaq.

Dediklərimizi aşağıdakı cədvəldəki kimi ümumiləşdirə bilərik.

| | |
|---|---|
| **Davranışın mahiyyəti** | Aktiv forma: şagird müəllimin və digər şagirdlərin diqqətini yayındıran hərəkətlər edir<br>Passiv forma: Şagird müəllimin tapşırıqlarına gec reaksiya verir, verilən tapşırıqları asta-asta, ləng yerinə yetirir. |
| **Sosial səbəblər** | Valideynlər və müəllimlər özünü yaxşı aparan uşaqlara deyil, nizam-intizama riayət etməyən uşaqlara daha çox diqqət ayırır.<br>Özünə qarşı diqqət tələb edən uşaqlar bu hisslərini düzgün formada hiss etdirməyin yolunu bilmirlər.<br>Şagirdlər özlərinə qarşı diqqət hiss etmirlər, özlərinin heç kəsə lazım olmadığını düşünürlər. |
| **Davranışın müsbət cəhətləri** | Şagird müəllim və sinif yoldaşları ilə daha çox ünsiyyətdə yaratmaq istəyir. |
| **Müəllimin təbii reaksiyası** | Hisslər: Qıcıqlanma və qəzəb<br>Hərəkət: irad bildirmək, təhdid etmək |
| **Müəllimin reaksiyasına şagirdin cavabı** | Mənfi davranışlarına qısa bir müddət ara verir. |
| **Profilaktika** | Müsbət davranışlara daha çox diqqət ayırmaq. Şagirdlərə diqqətə ehtiyacları olduqda onu düzgün şəkildə necə büruzə verməyi öyrətmək. |

**Lider olmaq (tabe olmamaq), əsas fiqura çevrilmək**

Lider olmaq, özünün digərləri üzərində üstünlüyünü hiss etdirmək istəyi ilə bağlı olan mənfi davranışlar zaman keçdikcə daha çox rast gəlinən hallardandır. Sinifdə liderliyi ələ almaq istəyən şagirdlər adətən müəllimlə mübahisə etməyə daha çox meylli olurlar. Açıq-aşkar olmasa da, hərəkətləri, sözləri ilə sanki müəllimə "meydan oxuyurlar". Onlar müxtəlif üsullardan istifadə edə bilərlər: müəllimin tapşırıqlarına, xatırlatmalarına əhəmiyyət vermədən asta-asta hərəkət etmək, yazı işlərini, hətta summativləri belə axıra çatdırmadan təhvil vermək, digər şagirdlər sakitcə tapşırıq işləyərkən səs-küy salmaq, kim isə bir şey xahiş etdikdə kobud cavab vermək, dərsdə heç kimə əhəmiyyət vermədən saqqız çeynəmək ən çox rast gəlinən hallardandır. Onlar müəllimin sözü ilə razılaşmayıb açıq-aşkar etiraz edə, müəllimin tələblərini yerinə yetirməyə məcbur qaldıqda isə jestləri, mimikaları ilə etirazını hiss etdirə bilərlər.

"Hakimiyyətsevərlər" bir qayda olaraq, "tamaşaçısız" hərəkət etmirlər. Onlar üçün lider olduqlarına şahidlik edən şəxslərin olması lazımdır. Ona görə də onlar imkan tapdıqda sinifdə hər kəsin qarşısında müəllimi provokasiyaya çəkə, sinfin müdafiəçisi kimi çıxış edib, müəllimi düzgün olmamaqda ittiham edə bilər. Adətən, kifayət qədər təcrübəsi olmayan müəllim, sinfin qarşısında şagirdlə mübahisədə uduzarsa, şagirdlərin gözündə "məğlub müəllim" kimi qalacığını bildiyindən, daha çox həyəcanlanır və adekvat reaksiya verməkdə çətinlik çəkir.

Hakimlik iddiasında olan şagirdlərin davranışları da aktiv və passiv formada təzahür edə bilər. Aşağı siniflərdə belə hallar aktiv formada demək olar ki, rast gəlinmir. Lakin kiçik yaşlı uşaqların heç nəyə qulaq asmayaraq, səs-küylə müşahidə olunan fəal hərəkətlərini də qismən bu formaya aid etmək olar.

Valideynlərinin sözü ilə razılaşmayıb, öz dediyini həyata keçirmək istəyən bir uşaq təsəvvür edin. İstədiyini əldə edə bilmədikdə qəzəb hissini valideynlərinə etiraz olaraq öz otağına çəkilməklə nümayiş etdirən uşağın qapını bağladıqdan sonra otağı səliqəyə salacağını gözləyirsinizmi? Əlbəttə yox. O, sadəcə bu şəkildə manipulyasiya edərək, istədiyini əldə etməyə çalışır.

Yəqin ki, belə bir hadisə ilə rastlaşmısınız: marketdə valideynləri uşağa saqqız və ya konfet almaq istəmirlər, uşaq isə heç kəsə qulaq asmayaraq qışqırmağa, hətta yerə yıxılıb özünü döşəməyə sürtməyə başlayır. Yaxından baxsanız, görərsiniz ki, o, heç kəs görməsin deyə sıxılmış göz qapaqları arasından gizlicə anasını, daha doğrusu onun nə edəcəyini izləyir. Əgər istədiyi yerinə yetməzsə, fəaliyyətinə ikiqat artıq güclə davam edir. Bu, uşağın öz istəyini, dediyini həyata keçirmək metodudur. Aşağı siniflərdə şagirdlər öz istəklərinə buna bənzər şəkillərdə səs-küy salmaqla nail olmağa cəhd edirlər.

Yeniyetmələr isə qəzəb hisslərini gizlətmirlər, onu açıq etirazlarla büruzə verirlər. Məsələn, müəllimin tapşırıqlarına etiraz olaraq kobud şəkildə – "paralel sinifdə bu cür tapşırıqlar vermirlər, biz bunları niyə etməliyik ki?" deyə etiraz edə bilərlər.

Bəzi şagirdlər istəyini açıq etiraz şəklində deyil, daha mülayim formada ifadə edir. Onlar kobud davranmır, öz mənfi hərəkətlərinə mədəni, lakin məntiqsiz şəkildə haqq qazandırmağa çalışırlar. Məsələn, "zəngə az qalıb, olar ki, mən çalışmaları yazmayım, evdə yazaram?" və ya "olar ki bu gün mən cavab verməyim? Keçən dərs cavab vermişdim, Siz gördünüz ki, dərsi bilirəm." İlk dəfələrdə şagirdlərin mülayim müraciəti müəllimin ürəyini "yumşaldır" və müəllim razılaşır. Lakin belə hal bir neçə dəfə təkrar olunduqda, müəllim şagirdlərin bu cür söz oyunlarından bezir, əsəblərini cilovlaya bilmir.

Bu tip davranışların passiv formasında şagirdlər əks mövqelərini açıq şəkildə büruzə vermir, sakitcə oturub, üzdə gülümsəyərək müəllimin dediklərini qəbul etdiklərini göstərsələr də, tabeçilik göstərməyib, öz bildiklərini edirlər. Məsələn, müəllim sinfə tapşırıqlar verib, şagirdlər artıq 10 dəqiqədir ki, çalışma həll edirlər, Ləman isə hələ də pəncərəyə baxır. Müəllimin "nə isə olub?" sualına gülümsəyərək, başını sağa-sola hərəkət etdirməklə heç nə olmayıb cavabını verir. Müəllimin "niyə heç nə yazmamısan?" sualına isə "hələ fikirləşirəm" cavabını verir. Müəllimin "yazıb qurtarırsanmı?" sualına başı ilə təsdiq cavabı verir. Dərs bitir, yazılar yığılır, Ləmanın vərəqində isə heç nə yazılmayıb...

Razılaşın ki, bu cür hallarda necə hərəkət etmək lazım olduğu haqqında fikirləşərkən çox vaxt öz pedaqoji bacarığımıza şübhə ilə yanaşırıq. Bu halda müəllim, faktiki olaraq Ləmanın nə etdiyinə deyil, nə dediyinə fokuslandı. Ləmanın sözləri onun müsbət davranış sərgilədiyini nümayiş etdirsə də, hərəkətləri ilə faktiki olaraq müəllimin sözlərinə əhəmiyyət vermədiyini, "mən Sizin verdiyiniz tapşırıqları yerinə yetirmək istəmirəm" dediyini göstərmiş oldu.

Psixoloqlar müəyyən etmişlər ki, belə hallarda adətən insanın nə etdiyinə deyil, nə dediyinə inanırlar. Məsələn, şagird "indi həll edəcəyəm" desə də onun bütün davranışları "heç nə yazmaq istəmirəm, yazmayacağam" deyir. Biz isə onun sözlərinə inanıb, "hər şey alınacaq" – deyə düşünürük. Bu vəziyyəti düzgün analiz etdikdə məlum olur ki, şagird yalan danışır, sadəcə müəllimi aldadır. Bu bəhanələrdən ev tapşırıqlarını yerinə yetirməyən şagirdlərin "evdə deyildik, qonaq getmişdik", "qonaqlarımız gəlmişdi", "işıqlar sönmüşdü", kitabım sinifdə qalmışdı", "ev tapşırığını qeyd etməmişdim", "yadımdan çıxmışdı" kimi ifadələrini dəfələrlə eşitmişik.

Bəzi şagirdlər bu kimi bəhanələrin işə yaramadığını gördükdə daha təcrübəli davranır, başqa üsullarla özünə haqq qazandırmağa, guya peşman olduğuna, müəllimi bir də belə halların baş verməyəcəyinə inandırmağa çalışır. Məsələn, ev tapşırığını həll etməyən şagird müəllimə: "Gündüz hazırlaşırdım ki, dərsi öyrənim, amma tənbəllik etdim, gecə isə yuxum gəldi. Bilirəm ki, tənbələm, amma söz verirəm ki, bunu aradan qaldıracağam" deməklə günahını tənbəl olmağı ilə əlaqələndirir. Əgər şagird düz cavab versə, deməli idi ki: "Bütün günü kompüterdə oyun

oynadım, çox maraqlı idi, ona görə də oyunu saxlayıb dərs oxumaq istəmədim". Şagird, bu cür cavab verdikdə müəllimin hansı reaksiya verəcəyini bildiyindən, yalan danışmağı daha üstün tutur.

Şagirdin yalan danışdığını hiss etdikdə, əsəbiləşib onu danlamaq əvəzinə, səmimiyyətlə, üzünüzdən təbəssümü əskik etməmək şərti ilə, bəzən də zarafatla onun yalan danışdığını bildiyinizi, lakin üzə vurmadığınızı hiss etdirin, həmin şagirdə ünvanladığınızı digərlərinə hiss etdirməmək şərtilə, yalan danışmağın yaxşı hal olmadığını şagirdlərin nəzərinə çatdırın. Bu cür reaksiya verdikdə, şagird Sizi aldatmağın mümkün olmadığını anlayacaq və buna cəhd etməyəcək.

Şagirdlərin "yadımdan çıxıb", "lövhəni yaxşı görə bilmirəm", "yaxşı eşitmədim" kimi bəhanələri də əslində müəllimin tapşırıqlarına əməl etməmək, öz bildiyi kimi hərəkət etmək istəyini reallaşdırmaq üçün gətirilən bəhanələrdir. Müəllimin "tapşırığı niyə yazmamısan?" sualına "yazmaq istəmirəm" və "yadımdan çıxıb" cavabları arasında seçim edən şagirdin cavabını əvvəlcədən proqnozlaşdırmaq çətin deyil...

Şagirdin hərəkətinin liderliyə can atması ilə bağlı olmasını onun müəllimdə yaratdığı təbii reaksiyaya əsasən də müəyyən etmək mümkündür. Əgər müəllimin bu hərəkətlərə verdiyi ilk təbii reaksiya aşağıdakı hallardan hər hansı birinə uyğun gəlirsə, çox böyük ehtimalla, bu davranış şagirdin liderliyə can atması və ya müəllimə tabe olmayıb, öz bildiyi kimi hərəkət etmək istəməsi ilə bağlıdır:

- Birinci əlamət: əgər şagirdin davranışları müəllimdə qəzəb, kin, düşdüyü çarəsiz vəziyyətdə özünü itirmə və ya hətta qorxu hissinin yaranmasına səbəb olursa;
- İkinci əlamət (təbii reaksiya): əgər müəllimdə istənilən vasitə ilə – hətta fiziki təzyiq göstərməklə (şagirdin qolundan tutub silkələmək, qulağını dartmaq, döymək) onun hərəkətinə son vermək istəyi yaranırsa.

Şagirdin davranışının bu motivlə bağlı olmasını onun reaksiyasından da müəyyən etmək olar. Bu reaksiya şagirdin açıq qarşıdurmaya meylli olmasıdır. Belə hallarda, adətən, müəllimin hadisəyə müdaxiləsinə şagird "Siz mənə heç nə edə bilməzsiniz!" mənasında başa düşülən hər hansı ifadə və ya hərəkətlə açıq etiraz bildirir, sakitcə müəllimin daha sonra nə edəcəyini gözləyir. Şagird adətən müəllimin təsirindən deyil, özü belə istədiyi üçün sakitləşir – o artıq öz işini görüb, "tamaşaçılar" da hadisənin şahidi olublar.

Özünü lider kimi aparıb, müəllimə tabe olmamaq meylləri son zamanlar daha da çoxalıb. Bu tip davranışların artmasının səbəblərindən biri müasir sosial münasibətlərin fonunda baş verir. Əgər əvvəllər həyatın hər bir sahəsində sosial münasibətlərdə tabeçilik meylləri üstünlük təşkil edirdisə, indi demokratik dəyərlərin üstünlük təşkil etdiyi cəmiyyətdə yaşayan şagird artıq tabeçilik meyllərini qəbul etmir. Əvvəllər şagirddən yaxşı oxumaq, özünü yaxşı aparmaq, müəllimə qeyd-şərtsiz tabe olub, onun tapşırıqlarını yerinə yetirmək tələb olunurdusa, müəllim

isə ciddi, bir az da zəhmli və hər zaman haqlı idisə, indi müəllim şagirdə onun hüquqlarını başa salır, vəzifəsi isə şagirdə təkcə bilik öyrətmək deyil, onu şəxsiyyət kimi yetişdirməkdir. Müasir dövrdə faktiki olaraq hər kəsin hüquqlarının qorunması, hər kəsin fikrinə hörmətlə yanaşılması aşılandığından, şagird də hüquqlarından istifadə etməyə çalışır, ona qarşı hörmətlə yanaşılmasını istəyir. Müasir dünyada faktiki olaraq qeyd-şərtsiz tabeçilik modeli yoxa çıxdığına görə, şagird də tabe olmaq istəmir və bunu bacarmır.

Lider olmaq, tabe olmamaq istəyi həm də "Güclü şəxsiyyətlər"ə pərəstişdən irəli gəlir. Uşaqlar tez-tez "Necə lider olmalı?", "Necə müvəffəqiyyət qazanmalı?", "İnsanlara necə təsir etməli?" kimi kitablar və ya məqalələr oxuyurlar, məşhur filmlərin qəhrəmanlarına oxşamağa çalışırlar. Əslində müəllimlər də şagirdləri bu ruhda tərbiyə etməyə çalışırlar. Lakin, şagirdlər bir çox hallarda "güclü şəxsiyyət", "əsil qəhrəman", "müstəqil düşüncə" kimi anlayışları düzgün dərk edə bilmir, bunu digərlərinin üzərində üstünlük, öz bildiyi kimi hərəkət etmək kimi başa düşürlər. Onların bu cür hərəkətlərindən isə sinif yoldaşları, müəllimlər əziyyət çəkirlər.

Liderliyə can atan şagirdlərin bir çox üstünlükləri var. Belə ki, onlarda adətən liderlik qabiliyyəti, vicdanlılıq, özünə inam, asılı olmamaq kimi müsbət xüsusiyyətlər üstünlük təşkil edir. Belə şagirdlər heç vaxt digər insanların əlində alətə çevrilmirlər, adətən baş verən hadisələri düzgün qiymətləndirə bilirlər, öz fikirləri, ideyaları olur, özləri düşünmək, öz həyatları haqqında özləri qərar vermək istəyirlər ki, bu da onların əsil şəxsiyyət kimi formalaşması üçün vacib amillərdir. Müəllimlərin çətinliyi isə ona görə yaranır ki, bu şagirdlər öz bacarıqlarından istifadə edib, digərlərinə təsir etməyə, onları öz təsiri altında saxlamağa, bir sözlə öz üstünlüyünü nümayiş etdirməyə meylli olurlar.

Liderliyə meylli şagirdlər müəllimlərlə adətən əks mövqedə dayanırlar, lakin özlərini çox ağıllı apararaq, bunu tez büruzə vermirlər. Müəllimin zəif cəhətlərini bilərək, onun arxayınlaşmasını gözləyib liderliyini, üstünlüyünü nümayiş etdirmək üçün fürsət axtarırlar. Bu şagirdlərlə birbaşa konfliktə girməkdən çəkinin, üstünlüklərini icazə verilmiş şəkildə nümayiş etdirməyə imkan verin. Öz işlərinizin bir hissəsini onlara tapşırmaqla, bacarıqlarını göstərməyə şərait yaradaraq fəaliyyətlərini müsbət istiqamətə yönəldin.

Dediklərimizi aşağıdakı cədvəldəki kimi ümumiləşdirə bilərik:

| | |
|---|---|
| **Davranışın mahiyyəti** | Aktiv forma: qəzəb və narazılıq – şagird müəllimlə birbaşa konfliktə girir və gərginlik yaradır.<br><br>Passiv forma: sakit itaətsizlik – şagird nəzakətlə cavab verir, söz verir, lakin öz bildiyini etməyə davam edir. Müxtəlif bəhanələr gətirir. |
| **Sosial səbəblər** | 1. Sosial münasibətlərin tabeçilikdən bərabər hüquqlar müstəvisinə keçməsi. |

| | |
|---|---|
| | 2. "Güclü şəxsiyyətlər"ə, qəhrəmanlara bənzəməyə çalışmaq<br>3. Liderliyə can atmaq |
| **Davranışın müsbət cəhətləri** | Şagirdlər liderlik, müstəqil düşünmə və qərarvermə, avtoritarlığa müqavimət göstərmə bacarıqlarını nümayiş etdirirlər. |
| **Müəllimin təbii reaksiyası** | Hisslər: qəzəb, inciklik, ola bilsin ki qorxu<br>Hərəkətlər: şagirdin davranışlarının fiziki təzyiq vasitəsilə qarşısını almaq (qulağını dartmaq, vurmaq) istəyi |
| **Müəllimin reaksiyasına şagirdin cavabı** | Cavabın məzmunu: münaqişəyə girmək, "mənə heç nə edə bilməzsiniz" mənasına gələn ifadə və hərəkətlər.<br>Hərəkət: şagird özü dayanmayanadək qarşıdurma davam edir. |
| **Profilaktika** | 1. Konfliktdən qaçmaq, gərginliyi azaltmaq<br>2. Öz təşkilatçılıq səlahiyyətlərinin bir hissəsini şagirdə verməklə onun fəaliyyətini müsbət istiqamətə yönləndirmək. |

**Qisasçılıq – mənfi davranışların əsas səbəblərindəndir**

Diqqəti cəlb etmək, liderliyini nümayiş etdirmək motivləri əsasında mənfi davranışlar sərgiləyən şagirdlərdə kifayət qədər müsbət cəhətlər tapmaq mümkündür, lakin, qisasçılıq motivləri ilə bağlı hərəkətlərdə bunu demək çətindir. Onlar adi halda belə qəzəbli, qaşqabaqlı görünürlər, baxışları, hərəkətləri ilə müəllimi onu danlamağa təhrik edirlər. Belə şagirdləri digərlərinə qarşı aqressiv danışığına, onların ünvanına işlətdiyi kobud ifadələrə görə də müəyyən etmək olar. Bu hal tərbiyə prosesinin ən çətin məqamlarından biridir.

Belə şagirdlər onlara qarşı baş vermiş və xoşlarına gəlməyən hər bir hərəkətə görə, xüsusilə fiziki təzyiqə məruz qaldıqları halda qisas almağa çalışır. Bəzən müəllim düşünür ki, o sinfi idarə edə bilmək üçün şagirdə qarşı sərt davrana bilər, lakin unutmamalıyıq ki, hər bir sərt davranış şagirdin qəlbinə inciklik toxumu səpir ki, gələcəkdə bu toxum qisasçılıq ağacı kimi qol-budaq ata bilir və nəticədə biz qisasçı şagirdlər yetişdirmiş oluruq. Şagirdlərdə qisasçılıq hisslərinin əmələ gəlməsi müəllimlə deyil, valideyn və ya məktəb rəhbərliyi ilə əlaqəli olsa da, onlardan qisas almaq riskli olduğu üçün, şagird bu hissi daha çox ünsiyyətdə olduğu insana – müəllimə qarşı yönəldə bilər. Şagirdin qisas almağa nə zaman cəhd edəcəyi haqqında əvvəlcədən heç bir proqnoz vermək mümkün deyil, bu ola bilər 2 saatdan, ola bilər 2 gündən, ola bilər ki, 2 ildən sonra baş versin.

Şagirdlərdə qisasçılıq hissləri müəllimin şagirdi bilərəkdən incitməsindən deyil, təsadüfi diqqətsiz hərəkətindən də qaynaqlana bilər.

**Haşiyə:** Rusiya məktəblərinin birində 2-ci sinif şagirdinin sinif yoldaşlarına müəllimə nifrət etdiyini deməsi, onun haqqında xoşagəlməz ifadələr işlətməsi məlum olur. Müəllim şagirdin davranışlarını izləyir və bir müddət sonra ondan soruşur: "Sənin niyə məndən xoşun gəlmir?" Şagird isə cavabında: "Siz heç vaxt məni lövhəni silməyə çağırmırsınız, qələm, kitab, marker lazım olarkən heç vaxt məndən istəmirsiniz. Bütün uşaqları lövhəni silməyə çağırırsız, onların hər birindən nə isə istəyirsiniz, məndən isə heç vaxt!"

Şagird müəllimin bu məsələlərlə bağlı təsadüfən ona müraciət etməməsini müəllimin ona nifrətlə yanaşması kimi hesab etmiş və onun haqqında təhqiramiz ifadələr işlətməklə qisas almağa çalışmışdır. Şagirdin davranışının motivi məlum olduqdan sonra müəllim ona qarşı diqqətli olmuş və şagirdin qəlbindən qisasçılıq hissini silib ata bilmişdi.

Fəaliyyətin aktiv forması fiziki güc, bəzən də soyuq silah tətbiq etməklə müşahidə oluna bilir. Təsadüfi deyil ki, insan qətlləri seriyasını həyata keçirmiş qatı cinayətkarların bu cür əməllərinin böyük əksəriyyətinin uşaq vaxtı aldığı psixoloji travmalardan qaynaqlandığı məlum olmuşdur. Onların qəlbinə səpilmiş qisasçılıq toxumu o qədər güclü inkişaf etmişdir ki, nə vaxtsa onları incidən insandan deyil, hər kəsdən qisas almağa çalışmışlar.

Şagird müəllimə qarşı yaranmış qisasçılıq hissini birbaşa müəllimə deyil, onunla bağlı olan hər şeyə – müəllimin "sevimlisi" olan şagirdlərə, sinif otağındakı plakatlara, mebellərə, partalara da tətbiq edə bilər. O, müəllimə aid olan kitabların vərəqlərini cıra, plakatların çərçivələrini, şkafın qapısını sındıra, partaların üstünü cızıb korlaya bilər. "Kiçik qisasçılar" böyüklərin zəif nöqtələrini, onlara hansı sözün daha çox təsir edəcəyini çox yaxşı bilirlər.

**Haşiyə:** 5 yaşlı uşağın anası qızında qeyri-normal hallar müşahidə etməsi səbəbindən onu psixoloqa aparır. Belə ki, uşaq hər dəfə anasına əsəbləşəndə: "istəyirəm ki, böyük bir yük maşını sənin təzə maşınını əzib üstündən keçsin" – deyir. Psixoloq isə uşaqda heç bir anormallığın olmadığını, əksinə, onun yaşıdlarından daha ağıllı olduğunu müəyyən edir. Daha sonra məlum olur ki, anasının ona qarşı davranışlarından xoşu gəlmədiyindən, uşaq "səndən xoşum gəlmir" demək əvəzinə, unikal bir üsul tapıb: anasının yeni maşınına olan sevgisini hiss edərək, onu ən zəif nöqtədən vurmağı qərara alıb...

Qisasçılıq motivləri əsasında şagird öz hisslərini gizlədə bilməyib, müəllimə açıq-aşkar hiss etdirə bilər. Bu kimi davranışlara aşağıdakı kimi ümumiləşmiş misallar göstərmək olar:

- Siz indiyə qədər gördüyüm ən ədalətsiz müəllimsiniz;

- Mənim bacımın bəxti gətirib. Bu il onların sinfinə Siz dərs deməyəcəksiniz;

- Nə yaxşı ki, qəbul imtahanında Sizin fəndən imtahan verməyəcəyəm, yoxsa heç nə yaza bilməzdim;

- Əgər sinifdəki uşaqlar Sizdən qorxmasaydılar, indi onlara verdiyiniz konspekt vərəqlərindən təyyarə düzəldib pəncərədən uçurmuşdular;

- Heç kəsə lazım olmayan bu mənasız şeyləri niyə öyrənməliyik? və s.

Şagirdlər müəllimə nəyin daha çox təsir edə biləcəyini, onun nəyə daha çox diqqət yetirməsini, onun üçün nəyin daha dəyərli olduğunu çox yaxşı bilirlər. Ona görə də müəllimin özündən qisas ala bilmədikdə, bu dəyərlərə "hücum" edirlər. Əgər müəllim sinifdə şagirdlərin səliqəli geyinməsinə, kitabları, partanın üzərini səliqəli saxlamasına xüsusi diqqət yetirirsə, şagirdin ağ koftasını bilərək çirkləndirməsi, partanın, kitabın üzündə cızma-qaralar çəkməsi təəccüblü görünməməlidir. Əgər Siz hər yerdə, hər zaman nəzakətli olmağı yüksək dəyərləndirirsinizsə, şagird sinfə daxil olarkən Sizin yanınızda guya təsadüfən baş vermiş kimi, sinif yoldaşını itələyib yıxacaq və ya tənəffüsdə Sizi gördükdə eşidə biləcəyiniz səslə qışqırıb, kimi isə təhqir edəcək.

Valideynlərindən, müəllimlərdən qisas almaq üçün baş verən bu cür hərəkətlərdən ən çox ziyan çəkən şagirdlərin özləri olur. Cinayətkarlıq, siqaretə, alkoqola, narkotik maddələrə meyillilik, özünə zərər vermə, hətta intiharlar belə valideynlərə, müəllimlərə – ümumiyyətlə şagirdi incidən hər bir kəsə ultimatum göndərmək, onları şantaj etmək vasitəsi kimi istifadə olunur.

Yeniyetmələrin əksəriyyəti qisasçılıq hərəkətlərini açıq-aşkar hiss olunacaq şəkildə büruzə verirlər. Lakin bu davranışlar passiv formada da təzahür edə bilər. Qisasçı davranışın bu növü şagirdin özünə qapanması, özünü ətraf aləmdən təcrid etməsi ilə nəticələnə bilər. Onlar öz etirazlarını heç kəsə heç nə demədən susmaqla da bildirə bilərlər. Bəzən susmaq, danışmaqdan daha güclü etiraz forması ola bilir.

Şagirdlərin qisasçılıq motivləri ilə əlaqəli davranışlarına müəllimin reaksiyası o qədər xarakterikdir ki, müəllimin təbii reaksiyasından şagirdin hərəkətinin motivlərini asanlıqla müəyyən etmək mümkündür.

Birincisi, əgər liderlik və tabe olmamaq kimi hərəkətlərə qarşı müəllimin reaksiyası qəzəb, kin, özünü itirmə və ya qorxu hissləri şəklində büruzə verirdisə, qısasçılıq motivləri əsasında baş verən davranış pozuntularına qarşı müəllimin təbii reaksiyasına həm də inciklik, qəlb qırıqlığı, ruh düşkünlüyü də əlavə olunur. Çünki bu davranış zamanı qisasçılığın hədəfi müəllim olur. Təbii ki, özünün hədəfə alındığını hiss edən müəllimin təbii reaksiyası başa düşüləndir.

İkinci əsas əlamət müəllimin bu hərəkətləri dərhal dayandırmağa yönələn impulsiv hərəkətləri şəklində təzahür etməsidir. Bu impulslar özünü insanlarda ibtidai dövrlərdən indiyə qədər dəyişilməz qalan "qalib gələcəyinə əmin olan döyüşür, əmin olmayan isə aradan çıxmağı üstün tutur" prinsipinə uyğun olaraq güc tətbiq edilməsi, nəyin hesabına olursa olsun, şagirdə həmin anda "yerinin göstərilməsi" və ya şagirdi valideyninə, məktəb rəhbərliyinə

şikayət edəcəyi ilə hədələyərək qapını çırpıb sinfi tərk etməsi şəklində göstərir. Lakin bu cür təbii reaksiyaların heç biri müəllim üçün uyğun hesab edilmir. Təəssüf ki, müəllimlərin bir çoxu bu sadə qaydanı səhvlərinin xoşagəlməz nəticələri ilə qarşılaşdıqdan sonra başa düşürlər.

**Haşiyə:** (Uşaq bağçasında işləyən bir müəllimənin dediklərindən). Dəhlizdə gedərkən arxamca gələn 5 yaşlı uşaq, əlimdən vurdu. Mən də özümdən asılı olmadan, qeyri-ixtiyari olaraq, zarafatla uşağın kürəyinə astaca vurdum. Uşaq həmin anda ağlamağa, "məni niyə vurdunuz?" deyə qışqırmağa başladı. Mən isə onun könlünü almaq üçün: "sən də məni vurdun" dedim. Uşaq ani olaraq qəribə bir ifadə ilə üzümə baxdı və qaçıb getdi. Uşaq üçün bu hadisə "əvəz-əvəz olduq" deyə həmin anda bitdi, lakin mən əvvəlcə valideynlərin sərt təpkisi ilə qarşılaşdım, bağça müdirinə izahat verdim, sonra isə valideynlərin şikayətlərinə görə daha yuxarı qurumlara çağırıldım, töhmət aldım, sosial şəbəkələrdə "uşaq döyən müəllim" kimi yazılara etiketləndim, dərin psixoloji sarsıntı keçirdim.

Şagirdin hərəkətlərinin qisasçılıq motivləri ilə bağlı olduğunu, müəllimin münaqişəni aradan qaldırmaq üçün şagirdə qarşı tətbiq etdiyi spontan metodlara qarşı şagirdin verdiyi reaksiyadan da təyin etmək olar. Şagirdin mənfi davranışı bu motivlə əlaqəlidirsə, o, adətən müəllimin hərəkətlərinə eyni cür əks mövqe göstərir və qarşıdurmanı dərinləşdirməkdən çəkinmir.

Təəssüf ki, görülən bütün tədbirlərə baxmayaraq, məktəblərdə zorakılıq hallarına hələ də rast gəlinir, çünki həyat təkcə məktəb divarları arasında mövcud deyil, bu divarlardan kənarda böyük bir dünya var. Televiziya ekranlarında, internet resurslarında, küçələrdə, hər yerdə bu cür hərəkətləri müşahidə edə bilirik. Uşaqlar demək olar ki, heç yerdə zorakılığa gülər üzlə cavab verilməsinin şahidi olmurlar. Uşaq bu cür hadisələrin klassik modelini – "zərbəyə zərbə ilə cavab vermək" modelini hər yerdə – filmlərdə, insanlar arasında münasibətlərdə, hətta ailədə gördüyündən, digər üsul fikirləşə bilmir.

Bütün insanlar instinktiv olaraq təbəssümə təbəssümlə, zərbəyə zərbə ilə cavab verirlər. Lakin peşəkar müəllim özünü müdafiə etmək, haqlı olduğunu sübut etmək üçün instinktiv reaksiyalar göstərməkdən çəkinməlidir.

Qisasçılığın güclü cəhətlərini müəyyən etmək üçün belə şagirdlərin xüsusiyyətlərinə nəzər salmaq lazımdır. Digər insanlar onları incitdikdə özlərini müdafiə etməyə çalışırlar. Onların müdafiə vasitələri özünə deyil, digərlərinə qarşı yönəlmiş aqressiyadır, mübarizə aparmaq bacarıqları güclüdür. Onlar özlərinə qarşı olan haqsızlıqlarla barışmır, əks-zərbə vurmaqla daxili stresslərini atmağa çalışırlar. "Gənc qisasçılar"dan fərqli olaraq, haqsızlıqlara qarşı çıxa bilməyib, hər şeyi ürəyinə salan şagirdlərdə isə tezliklə özünə inamsızlıq, ətraf aləmə qarşı laqeydlik hissləri yaranır. Bu hiss güclüdürsə və uzun müddət davam edərsə, xroniki depressiyaya, psixi pozuntulara, hətta intihar cəhdlərinə gətirib çıxara bilər. Bu baxımdan demək olar ki, qisasçılıq davranışları ilə fərqlənən aktiv şagirdlərin sosial adaptasiyası passiv və qapalı xarakterli şagirdlərə nisbətən daha ümidvericidir.

Şagirdlərdə qisasçılıq meyllərinin yaranmaması üçün müəllimin necə hərəkət etməsi ilə bağlı 2 əsas prinsip var:

– şagirdlərlə münasibəti elə qurmaq lazımdır ki, bütün şagirdlər müəllimin onlara qarşı qayğısını hiss etsinlər. Əlbəttə, bu müəllimdən yüksək bacarıq, müdriklik və fədakarlıq tələb edir. Əslində insanın bu cür davranışlara təbii reaksiyası psixoloji olaraq əsəb, qəzəb, aqressiya şəklində büruzə verir. Lakin müəllim həmin anda müdriklik göstərib, baş verən hərəkəti onu edən şəxsdən ayırmağı, hərəkəti edən şəxsi cəzalandırmaq deyil, hərəkəti yaradan səbəbi aradan qaldırmağı bacarmalıdır.
– şagirdlərə qəlbindəki incikliyi, iztirabları normal şəkildə ifadə etməyi öyrətmək, həmçinin şagirdin psixoloji sarsıntılarının üzə çıxdığı an, onu söhbətə dəvət edib, sarsıntıların səbəbini öyrənmək. Əgər şagirdlərə bu cür yanaşma aşılanarsa, onlar daxili təlatümlərinin motivlərini gizlədərək, onu aqressiya şəklində büruzə vermək əvəzinə, səbəblərini normal şəkildə ifadə etməyə çalışar.

Dediklərimizi aşağıdakı cədvəldəki kimi ümumiləşdirə bilərik:

| | |
|---|---|
| **Davranışın mahiyyəti** | Aktiv forma: birbaşa fiziki və dolayı psixoloji zorakılıq hərəkətləri. Şagird bütün gücü ilə müəllimə zərər verməyə çalışır.<br>Passiv forma: bütün xoşməramlı ünsiyyət cəhdlərini rədd edir. |
| **Sosial səbəblər** | 1. Ailədə, cəmiyyətdə zorakılıq hərəkətləri nümunələri.<br>2. Kütləvi informasiya vasitələrində konfliktlərin güc yolu ilə həll olunması faktlarının çoxluğu. |
| **Davranışın müsbət cəhətləri** | Şagird mübarizə aparmaq, özünü müdafiə etmək bacarıqlarını göstərir. |
| **Müəllimin təbii reaksiyası** | Hiss: qəzəb, kin, inciklik, qəlb qırıqlığı, ruh düşkünlüyü.<br>Hərəkət: fiziki güc tətbiq etməklə şagirdə "yerini bildirmək", vəziyyətdən çıxmaq üçün sinfi tərk etmək. |
| **Müəllimin reaksiyasına şagirdin cavabı** | Münaqişə şagird özü dayanmayana qədər davam edir. |
| **Profilaktika** | 1. Bütün şagirdlərə eyni qaydada diqqət göstərmək.<br>2. Şagirdlərə qəlbindəki incikliyi, iztirabları normal şəkildə ifadə etməyi öyrətmək |

**Uğursuzluqdan qaçmaq**

Uğursuzluqdan qaçmaq motivi əsasında baş verən mənfi davranışları hiss etmək o qədər də asan deyil. Məsələ burasındadır ki, bu motiv əsasında baş verən mənfi davranışlar destruktiv (pozucu, dağıdıcı) hərəkətlər şəklində təzahür etmir, müəllimlə münaqişəyə, sinifdə səs-küyə, xaosa səbəb olmur. Əksinə, belə şagirdlər qapalı xarakterə malik olub, mümkün qədər "görünməz" olmağa çalışır, bütün qaydalar və tələblərə qeyd-şərtsiz əməl edirlər. Problem ondan ibarətdir ki, onlar sinif yoldaşları, müəllimlər ilə çox az ünsiyyət qururlar. Uğursuzluqdan qorxan şagirdlər "cavabım düzgün olmaya bilər" düşüncəsi ilə müəllimin sinfə ünvanlandığı suallara cavab verməyə çalışmır, bilmədiyi sualları soruşmağa özlərində cəsarət tapmır, ümumiyyətlə həmişə diqqətdən kənarda qalmağa çalışırlar. Adətən bu cür şagirdlərin dərsdə iştirak edib-etməməsi belə hiss olunmur. Gizli şəkildə davranış pozuntusuna səbəb olan uğursuzluqdan qaçmaq motivini aşkar etmək o qədər də asan deyil.

Belə bir sityuasiyanı nəzərdən keçirək: Riyaziyyat dərsidir. Adil arxa partada, küncdə oturub, müəllimin dərsi izah etdikdən sonra verdiyi tapşırıqları həll etmir, kitabı bağlayıb və pəncərəyə baxır. Müəllim: "Nə isə olub? Niyə yazmırsan?" kimi sual verdikdə, Adil müəllimlə göz kontaktından yayınaraq, çiyinlərini dartır, oturduğu stulun üstündə bir az qabağa sürüşərək, sanki partanın altında gizlənməyə çalışır. Müəllim düşünür: Adil heç vaxt dərsə qoşulmur, suallara cavab vermir. Psixoloqun dediyinə görə onun riyazi təfəkkürü də pis deyil, lakin summativlərin nəticələri bunun əksini göstərir. Müəllim Adilə kömək etmək, onu bu vəziyyətdən çıxarmağa cəhd edir, lakin sinifdə 30 şagird var, onların əksəriyyəti səsli-küylü, hiperaktiv uşaqlardır. Müəllim bütün sinfi ələ almalı, mövzuları izah etməli, hər gün proqram materialını onlara mənimsətməlidir. Adil isə dərsə mane olmur, onun sinifdə olub-olmaması hətta hiss olunmur. Müəllim bir neçə dəfə onu dərsə cəlb etmək istəsə də, nəticə vermədiyini görüb ondan əl çəkir. Əslində Adilin istədiyi də elə budur – heç kəs ona fikir verməsin, ondan heç nə soruşmasınlar, bir sözlə "rahat buraxsınlar".

Adil kimi şagirdlər davranış baxımından müəllim üçün narahatçılıq yaratmır, nizam-intizam qaydalarına riayət edirlər. Lakin problem də elə buradan başlayır – onlar sinif yoldaşları və müəllimlərlə ünsiyyətdən qaçır, sinifdə, bufetdə, dəhlizdə, idman zalında, ümumiyyətlə hər yerdə sinifdən təcrid olunmuş vəziyyətdə qalmağa üstünlük verirlər.

Bu kimi şagirdlərin davranışlarını yuxarıda qeyd etdiyimiz müvəqqəti geri çəkilib güc toplamaq, fürsət gözləmək məqsədilə passiv etiraz forması nümayiş etdirən şagirdlərin davranışları ilə eyniləşdirmək olmaz. Əvvəldə qeyd etdiyimiz üç mənfi davranış motivindən fərqli olaraq bu tip davranışlar aktiv formada demək olar ki, təzahür etmir. Müəllim üçün yaranan problem şagirdin nə isə etməsi deyil, heç nə etməməsidir.

Bu tipə aid edilən şagirdlərin bir devizi var: "Əgər istəsəydim bunu edə bilərdim". Müəllimin ev tapşırığı kimi verdiyi essedən "3" aldıqda, "əgər esseni gecəyarısı yuxulaya-

yuxulaya deyil, gündüz yazsaydım, "5" alardım" və ya "əgər summativə bir gün deyil, digər uşaqlar kimi üç-dörd gün hazırlaşsaydım, "4" yox, "5" alardım" deməyə üstünlük verirlər.

Bu ifadələrin arxasında nə dayanır? Görünən odur ki, şagird özünü bacarıqsız hesab etmir, "əgər istəsəm, hər şeyi bacararam" kimi düşünür. Lakin zaman keçdikcə sinif yoldaşlarından daha da geri qalır. Bir müddət sonra əvvəlki mövzuları yaxşı öyrənmədiyindən, cəhd etsə belə, müvəffəq nəticə əldə edə bilmir, artıq özü haqqında əvvəlki düşüncəsi dəyişir: "əgər bu qədər çalışmağıma baxmayaraq, heç nə öyrənə bilmirəmsə, deməli heç nə bacarmıram". Bu cəhdlər bir neçə dəfə təkrar olunub, sonra heç bir nəticə vermədikdə onda "bacarıqsızlıq sindromu" yaranır, şagird öyrənməyə artıq cəhd belə etmir. Bacarıqsızlıq sindromunu əyani təsəvvür edə bilmək üçün psixoloqların apardığı bir təcrübəyə nəzər salaq:

**Psixoloji təcrübə:** Böyük bir akvariumun ortasına şüşə lövhə qoymaqla onu 2 yerə ayırıb, bir hissəsinə naqqa balığı, digər hissəsinə isə kilkə buraxırlar. Naqqa balığı kiçik balıqlar, o cümlədən kilkə ilə qidalandığından ona hücum edir, lakin şüşə arakəsməyə dəyərək geri qayıdır. Eyni hal dəfələrlə təkrar olunur, bir neçə gün davam edir, lakin uğursuzluqla nəticələnir. Hər ötən gün naqqa balığının kilkəyə etdiyi hücumların sayı azalır və bir müddət sonra o, artıq hücumlarını dayandırır. Daha bir müddət keçdikdən sonra şüşə arakəsməni götürürlər. Balıqlar artıq eyni yerdə üzür, hətta bir-birinə toxunurlar, lakin naqqa balığı dəfələrlə cəhd edib, kilkəni yeyə bilmədiyindən, onu yeməyin mümkünsüz olması qənaətinə gəlir və kilkəni yeməyə cəhd etmir. Bu, bacarıqsızlıq sindromu adlanır. İnsanlar da belədir: hər hansı işi görməyə bir neçə dəfə cəhd edib, heç bir nəticə əldə edə bilmədikdə, "bu işin öhdəsindən gəlmək mümkünsüzdür" deyə düşünür və daha heç bir cəhd göstərmir.

**Başqa bir nümunə:** Sirkə yeni gətirilmiş bala fillərin ayağını zəncirlə bağlayırlar. Bala fil dəfələrlə dartınıb cəhd etməsinə baxmayaraq, zənciri qırmağa gücü çatmır və bir müddətdən sonra artıq onu qırmağa cəhd etmir. İllər keçdikdən sonra fil böyüməsinə və həmin zənciri bir cəhddə qırmaq gücünə malik olmasına baxmayaraq yenə də qırmır. Çünki, artıq fil zənciri qırmağa gücünün çatmadığını düşünür və buna heç bir cəhd etmir.

Belə şagirdlərin bir xüsusiyyəti də görülən işləri başa çatdırmağa çalışmamaları, çətinliyə düşən kimi işi yarıda saxlamalarıdır. Bu da uğursuzluqdan qorxmaq əlamətidir. İnsan başladığı işi sona çatdırmağa cəhd edib bunu bacarmadıqda uğursuzluğa düçar olmuş olur. Lakin işi yarıda saxlamaq, "əgər axıra qədər davam etsəydim, bacarardım" ümidini sönməyə qoymur.

**Haşiyə:** Bu mövzu ilə bağlı araşdırmalarla ilk dəfə tanış olan müəllimə deyilənləri təsdiqləyərək, özünün də vaxtilə belə halla rastlaşması haqqında belə deyir: "Gənc yaşlarımda dükandan baha qiymətə hazır paltar almaq əvəzinə, parça alıb paltarlarımı özüm tikməyə çalışdım. Paltar şkafım biçilib, kəsilib, yarıya qədər tikilmiş paltarlarla dolu idi, lakin heç biri tam hazır deyildi. Əminəm ki, həmin paltarları tikib qurtarsaydım, bu sahədə heç bir bacarığımın olmamasının şahidi olacaqdım. Lakin bütün paltarların yarımçıq qalması, "əgər

axıra qədər tikib qurtarsam, çox gözəl don alınacaqdı" deyə düşünərək, yüksək bacarıqlarımın olmasına daxili inamımı qoruyub saxlamağa imkan verdi.

Şagirdlərin dərsdən kənarda qalmaları üçün istifadə etdikləri metodlardan biri də xəstəliklərdən istifadə etmələridir. Bu, həkim tərəfindən rəsmi diaqnoz qoyulmuş xroniki xəstəlik və ya şagirdin özünü xəstələnmiş kimi göstərməsi ola bilər. Ən təcrübəli müəllimlər, bəzən hətta həkimlər belə, xəstələndiyini deyən şagirdin doğru və ya yalan deməsini müəyyən etməkdə çətinlik çəkə bilərlər. Çünki bu stimulyasiya deyil, şagirdin özündən asılı olmadan yaranan müdafiə üsuludur.

Yəqin ki, şagirdi dərsə cəlb etmək istəyərkən, xüsusilə də fiziki tərbiyə dərsi zamanı, başım, dişim, mədəm və ya ayağım ağrıyır, özümü pis hiss edirəm kimi bəhanələrlə özünü kənara çəkən, dərs qurtaran kimi bütün "xəstəlikləri" yox olan şagirdə rast gəlmisiniz. Müəllim şagirdlərin gətirdiyi ilk arqumentin doğru, yoxsa bəhanə olmasını müəyyən etməkdə çətinlik çəkir. Lakin belə hallar periodik davam etdikcə, müəllim əsil vəziyyətin nə yerdə olduğunu düzgün təyin edə bilir. Şagirdlərin "yaradıcılığı" isə çox zəngindir. Özlərini məsuliyyətdən qurtarmaq üçün kifayət qədər fərqli üsullara əl ata bilərlər.

**Haşiyə** (olmuş hadisə): Dərsdə şagirdlərin xəstələndiyini güman etdikdə və ya şagird özünü pis hiss etdiyini dedikdə, müəllim həmişə əlini onların alnına toxundurub temperaturunun olub-olmamasını  yoxlayırmış. Müəllimin bu xüsusiyyətini müşahidə edən və dərsə hazır olmayan şagird müəllimin ondan dərs soruşmaması üçün dərs başlayanda bir neçə dəqiqə əlini alnına sürtür, sürtünmə nəticəsində alnının dərisi istiləşir. Sonra müəllimə özünü pis hiss etdiyini deyir. Müəllim əlini onun alnına toxundurur və temperaturunun yüksək olduğunu görüb, ondan dərs soruşmur...

Belə şagirdlərin xüsusi qayğıya və köməyə ehtiyacları var. Əgər kömək edilməzsə, onlarda özünəinam hissi tezliklə məhv ola bilər. Şagirdi bu vəziyyətdən çıxarmaq üçün hansı metodlardan istifadə etməyinizdən asılı olmayaraq, onlar daim Sizdən: "sən bacararsan", "hər şey alınacaq" kimi ifadələr eşitməlidirlər. Onlara daim dəstək verən bir insanın varlığı özünəinam hissinin formalaşmasına və uğursuzluqdan qorxmaq hissinin yox olmasına səbəb olacaq.

Şagirdin passiv davranışlarının uğursuzluqdan qaçmaq motivi ilə bağlı olub-olmadığını, müəllim öz emosiyalarını düzgün analiz etməklə təyin edə bilər. Şagirdin bu motivlə bağlı davranışlarına müəllim bir neçə cür təbii reaksiya verə bilər. Əgər şagirdin passiv davranışlarına qarşı müəllimdə yaranan təbii reaksiyalar aşağıdakı şəkildə olarsa, davranışın motivinin "uğursuzluqdan qaçmaq" olduğu qənaətinə gəlmək olar:

- Şagirdə kömək etmək istəyən müəllim bir neçə cəhddən sonra peşəkarlığının yetərsiz olduğunu hiss edir, təəssüf hissi keçirir.
- Müəllim şagirdin bu cür davranışlarını onun hansısa xəstəliyi və ya psixoloji durumu ilə əlaqələndirir, onun həkim və ya psixoloq müayinəsinə ehtiyacı olduğunu düşünür.

- Müəllimin səyləri nəticə vermədiyindən, şagirdi rahat buraxıb, ona diqqət yetirməmək qərarına gəlir.

Belə şagirdlər müəllimin müdaxiləsinə tabeçilik nümayiş etdirirlər. Digər şagirdlər kimi, verilmiş tapşırıqların öhdəsindən gələ bilməyəciklərini bildikləri üçün özləri heç nə etməyə çalışmayıb, müəllimlərdən xüsusi kömək gözləyirlər. Onlardan dərs öyrənmək tələb olunmaması müqabilində müəllimin istənilən digər tələblərini yerinə yetirməyə razı olurlar.

Şagirdləri "hə" və "yox" seçimi qarşısında qoymayın. Bir çox hallarda valideynlər və müəllimlər şagirddən onun öhdəsindən gələ bilməyəcəyi yüksək nəticələr tələb edir, onu "ya qalib olacaqsan, ya da ki məğlub" seçimi qarşısında qoyurlar. Məsələn, valideyn: "mütləq tibb universitetinə qəbul olmalısan, ora qəbul olmasan, başqa ixtisas oxumağın lazım deyil, gələn il hazırlaşarsan" deməklə, hesab edir ki, övladı dərslərinə daha ciddi yanaşacaq. Lakin şagird tibb universitetinə qəbul üçün lazım olan balı toplaya bilməyəcəyini bildiyindən, oxumağa ümumiyyətlə çalışmır. Müəllim şagirdi hansısa yarışa göndərmək istəyir və şagirddə motivasiya yaratmaq üçün deyir: "mütləq I yeri tutmalısan, gedib adımızı batırma!". Şagird isə mükafata layiq yer tutacağına tam əmin ola bilmədiyindən yarışa getməkdən imtina edir. Yarışa qatılsa bəlkə də yüksək nəticə əldə edə bilərdi, lakin "bacarıqsız" adlandırılmaqdansa, "tənbəl" və ya "məsuliyyətsiz" kimi görünmək daha yaxşı seçimdir...

Şagirdlərin qarşısında mükəmməl və səhvsiz olmaları tələbini qoymayın. Özündən mükəmməllik tələb edən şagird səhv etməsi ilə barışa bilmir, səhvlərin, öyrənmə prosesinin tərkib hissəsi olduğu fikrini qəbul edə bilmir. Çox təəssüf ki, bir çox istedadlı şagirdlər ən yüksək nəticə göstərə biləcəklərinə tam inanmadıqları, hardasa səhv edə biləcəklərini hiss etdikləri üçün heç bir sahədə özlərini sınamağa cəhd etmirlər.

**Haşiyə:** 90-cı illərin sonlarında işlədiyim məktəbdə rus bölməsi də fəaliyyət göstərirdi. Həmkarlarımdan biri rus dilini yaxşı bilirdi, lakin bəzi sözləri düzgün tələffüz edə bilmirdi. Danışarkən səhv edə biləcəyindən heç kimlə rus dilində danışmırdı. Digər həmkarım isə, bu dili ondan xeyli zəif bildiyi halda, səhv etməkdən çəkinmir, hər kəslə rus dilində danışmağa çalışırdı. Zaman keçdikcə, haqqında danışdığım ikinci həmkarım səhvlər edə-edə öyrəndi, birinci həmkarım isə bildiklərini də unutmağa başladı.

Uğursuzluqdan qaçan şagirdlərin müsbət cəhətlərindən danışmaq çox çətindir. Yeganə olaraq, özündən mükəmməllik tələb edənlərinin müsbət cəhətlərindən danışmaq olar. Onlar mükəmməl olmaq istəyirlər, səhv etmək onlar üçün fəlakət kimidir. Eyni zamanda bütün sahələrdə mükəmməl olmaq demək olar ki mümkünsüz olduğundan, onlar bir sahəyə daha çox diqqət yetirib, bu sahədə çox yaxşı mütəxəssis ola bilirlər.

Uğursuzluqdan qaçan şagirdlərə qarşı münasibətdə hansı metodlardan istifadə etməyinizdən asılı olmayaraq, son nəticədə əsas məqsəd onların "mən bacarmaram" fikrini "mən bacararam" fikrinə dəyişmək olmalıdır. Onların səhv edəcəklərindən çəkinmək

kompleksini aradan qaldırmaq, özlərinin düşüncələrində yaratdıqları maneələri yox etmək lazımdır.

Dediklərimizi aşağıdakı cədvəldəki kimi ümumiləşdirə bilərik:

| | |
|---|---|
| **Davranışın mahiyyəti** | Aktiv forma: narahatlıq, məsuliyyət yüksək olduqda şagird özünə nəzarəti itirir.<br>Passiv forma: hər şeyi sonraya təxirə salmaq, işi başa çatdırmamaq, müvəqqəti fəaliyyətsizlik, xəstəlik. |
| **Sosial səbəblər** | 1. Valideyn və müəllimlərin şagirdin bacarıqlarından artıq gözləntisi<br>2. Özündən mükəmməllik tələb etmə |
| **Davranışın müsbət cəhətləri** | Şagird uğur qazanmaq istəyir, hər şeyi mükəmməl bacarmaq istəyir.<br>Əksər şagirdlər üçün müsbət cəhətlər yoxdur. |
| **Müəllimin təbii reaksiyası** | Hiss: Peşəkarlığının kifayət dərəcədə olmaması.<br>Hərəkət: özünə haqq qazandırıb şagirdin psixoloq və ya həkimə ehtiyacı olduğunu bildirmək. |
| **Müəllimin reaksiyasına şagirdin cavabı** | Tabeçilik və asılılıq hərəkətləri. Şagird heç nə etməyə cəhd etmir. |
| **Profilaktika** | 1. “Mən bacarmaram” fikrini “mən bacararam” fikrinə dəyişmək.<br>2. Şagirdi kollektivə inteqrasiya etməklə sosial izolyasiyanı, kompleksləri dəf etməkdə yardımçı olmaq. |

***Mənfi davranışın motivinin müəyyənləşdirilməsinə aid nümunə:***

İbtidai sinfi şagirdi sinifdə oturub ağlayır.

Əgər Siz şagirdə yaxınlaşdıqda o sakitləşirsə, motiv “diqqəti cəlb etməkdir”.

Əgər ona yaxınlaşdıqda daha hündürdən ağlamağa başlayırsa, motiv şagirdin hakimiyyətsevərliyidir.

Əgər bu hadisə Sizin açıq dərsinizdə baş verirsə, motiv “qisasçılıqdır”.

Əgər şagird suala cavab verməyə qorxur və ya cavab verə bilmirsə, motiv "uğursuzluqdan qaçmaq" ola bilər.

**Mənfi davranışların qarşısının alınması ilə bağlı tövsiyələr**

**Dərsi maraqlı və hərəkətli keçməyə çalışın**

Səs-küy adətən bekarçılıqdan baş verir. Dərsiniz yalnız qaydalar, düsturlar, təriflərdən ibarət olarsa, cansıxıcı olacaq. Başa düşmədikləri terminlər, yadda saxlaya bilmədikləri düsturlar, qaydalar onları çox tez yoracaq, çalışsalar belə, fikirlərini tam olaraq dərsə cəmləyə bilməyəcəklər. Şagirdlərin yorulduğunu, fikirlərinin dağıldığını hiss etdikdə, şən əhval-ruhiyyə yaratmağa çalışın, maraqlı faktlar və ya mövzuya aid tarixi rəvayətlər, hətta lətifə danışa bilərsiniz. Dərs nə qədər dinamik olsa, şagirdlərin "xaos yaratmağa" bir o qədər az vaxtları qalar.

Səs-küylü siniflərdə səs-küyə adətən bir və ya bir neçə aktiv şagird səbəb olur, bəzən də üzdə görünmürlər. Bütün sinfi danlamaq əvəzinə, bu şagirdləri müəyyənləşdirib söhbət etmək daha faydalıdır. Onları dinləyin, sonra vəziyyətə uyğun hərəkət edin. Sinifdə ən fəal səs-küy salan şagirdə dərs zamanı daha çox tapşırıq verməklə onu məşğul etməyə çalışın. Çalışın ki, tapşırıqlar daha çox yaradıcı xarakter daşısın. Beləliklə Siz şagirdin enerjisini müsbət yaradıcı istiqamətə yönəltmiş olacaqsınız.

**Haşiyə:** Yeri gəlmişkən, XVII əsrin sonlarında Almaniya məktəblərinin ibtidai siniflərindən birində müəllim daim səs-küy salan, lakin çox istedadlı bir şagirdinin səs-küyünü bu metodla "zərərsizləşdirərkən" maraqlı bir hadisə baş vermişdi. Müəllim, həmin şagirdə hər dəfə çətin bir tapşırıq verərək onu məşğul edir, dərsdə sakitliyi bərpa edirmiş. Bir dəfə müəllim həmin şagirdi məşğul etmək üçün 1-dən 100-dək ədədlərin cəmini tapmağı tapşırır. Lakin bir neçə dəqiqədən sonra şagirdin səs-küyü yenə də eşidilir. Müəllim, "tapşırığı niyə yerinə yetirmirsən?" sualına, "artıq həll etmişəm" cavabını eşitdikdə inana bilmir. Şagird bu ədədlər sırasında əvvəldə və sonda duran ədədlərin cəminin 101-ə bərabər olmasını (1 + 100 = 101, 2 + 99 = 101, 3 + 98 = 101 və s.) dərhal müəyyən edir. 101-i bu sıradakı cütlərin (1 və 100, 2 və 99 və s) sayına, yəni 50-yə vurmaqla cavabın 5050-yə bərabər olduğunu asanlıqla tapır. Həmin uşaq sonralar ədədlər nəzəriyyəsi, riyazı analiz, differensial həndəsə, geodeziya, elektrostatika, astronomiya və optika elmlərinə misilsiz töhfələr vermis məşhur alman riyaziyyatçısı Karl Fridrix Qauss idi.

**Cəzalandırmaqdan çəkinin**

Kütləvi cəzalandırmalara "yox" deyin. Şagirdlərin kütləvi cəzalandırılması onlarda Sizə qarşı aqresiiya yaradacaq, onları Sizə qarşı birləşməyə sövq edəcək, nəticədə şagirdlər Sizinlə

birlikdə deyil, “əks cəbhə”də olacaqlar, Siz də daim bu cəbhədə döyüşməli olacaqsınız. Konflikt böyüdükcə, valideynlər də bu məsələyə qoşulacaq və nəhayət haqlı olsanız belə, çoxluq Sizə qalib gələcək.

Ayrı-ayrı şagirdlərlə bağlı olan problemləri fərdi qaydada həll etməyə çalışın. Bir və ya bir neçə şagirdin yaratdığı problemə görə bütün sinfi cəzalandırmaq, günahsız olduqları halda cəzalandırılan digər şagirdlərin Sizdən inciməsinə səbəb ola bilər.

Qaydaları pozan şagirdlərlə xoş danışmağa çalışın. Məzələn:

- "Səsini kəs, dərsə mane olma!” deyil, “Nə isə soruşmaq istəyirdinmi?”;
- "Ora-bura baxma, diqqətlə qulaq as!” deyil, “Sənə nə olub, fikrini toplamağa mane olan nədir?” kimi müraciət etsəniz daha effektli nəticə əldə edə biləcəksiniz.

Bu cür yanaşma, şagirdin uyğun olmayan davranışını dərhal etiraf etməsinə və Sizinlə dostcasına bir münasibət saxlamasına imkan verəcək.

Şagirdləri hər kəsin qarşısında cəzalandırmaqdan çəkinin. Əgər sinif qarşısında şagirdlə aranızda hər hansı konflikt yaranıbsa, ilk növbədə günahı özünüzdə axtarın. Çünki, konflikt üzə çıxana qədər məntiqli hərəkət etsəydiniz, belə vəziyyət yaranmazdı. Nizam-intizam qaydalarını pozan şagirdə hamının qarşısında sərt irad bildirməyin. Belə etməklə, Siz vəziyyəti qəlizləşdirmiş olursunuz. Sinif yoldaşları qarşısında danlanmağı özünə sığışdırmayan şagird özünü müdafiə etməyə çalışacaq və vəziyyət necə deyərlər “dalana dirənəcək”. Əgər şagirdin hərəkəti heç bir çərçivəyə sığmırsa və buna göz yummaq mümkün deyilsə, daha yaxşı olar ki, məsələn, şagirdlə sinifdən bayırda iki dəqiqə danışıb, söhbətin davamını dərsdən sonraya saxlayasınız. Şagirdlə söhbət edərkən soyuqqanlılığınızı qoruyun, sakit və ciddi danışın, öz mövqeyinizin düzgün olmasını sübut edən rasional və məntiqli arqumentlər gətirin. Elə danışın ki, şagird bu cür hərəkətlərinə son qoymazsa, nəticəsinin onun üçün xoşagəlməz olacağını hiss etsin. Konflikti rəhbərlik səviyyəsinə qaldırmaq və onu pis vəziyyətdə qoymaq istəmədiyinizi bildirin. Söhbət zamanı mütləq şəkildə şagirdə fikirlərini ifadə etməyə imkan verin və onun arqumentlərini diqqətlə dinləyin. Onu başa düşdüyünüzü hiss etdirməyə çalışın. Bu yanaşma 90 % hallarda konfliktin aradan qaldırılması ilə nəticələnir. Belə ki, sinif yoldaşları qarşısında danlanıb cəzalandırılmadığından, özünü təhqir olunmuş hiss etməyəcək, onu başa düşdüyünüzə görə Sizə qarşı kin bəsləməyib, daha yaxın olmağa çalışacaq. Konflikt aradan qalxdıqdan sonra, özünüzü belə bir hadisə sanki, heç zaman olmayıbmış kimi aparın, şagirdlə münasibətinizi səmimi saxlayın.

**“Çətin” şagirdlərin üstündən xətt çəkməyin**

“Çətin” şagirdlərin üstündən xətt çəkməyin, onlar ciddi və sakit şagirdlərdən az diqqət tələb etmir. Şagird dərsə qulaq asmaya, nizam-intizam qaydalarına əməl etməyə bilər, lakin bu

hərəkətləri onun timsalında “xuliqan” obrazı yaratmaq üçün əsas vermir. Səbrlə, təmkinlə, qayğı göstərərək onu ələ almağa, düzgün tərbiyələndirməyə çalışmalısınız.

Hər bir şagird uğur qazana bilər, müəllimin vəzifəsi ona uğur qazanmağın yolunu göstərməkdir. Bütün insanlar kimi uşaqlar da zəhmət tələb edən, xüsusilə, öhdəsindən gəlmək çətin olan işi görməyə can atmırlar. Şagirdə “sən bunu bacaracaqsan” fikrini təlqin etmək, onu dərsə cəlb etməyin ən yaxşı yoludur.

Şagirdin səhvinə görə heç bir zaman onu lağa qoymayın, danlamayın, əksinə, onda tərifləyə biləcəyiniz xüsusiyyətlər axtarın. Əlbəttə, bu o qədər də asan deyil, lakin bunu bacarmaq lazımdır. Müəllimlik peşəsinin çətinliklərindən biri də budur. Müəllimlik, 45 dəqiqə müddətdə sadəcə dərsi izah edib, soruşub, qiymətləndirməkdən ibarət deyil.

Şagirdlərin xüsusiyyətlərini öyrənməyə çalışın, dərsin planını qurarkən onları nəzərə alın. Əgər şagirdlərin daxili aləminə bələd olsanız, onları tez ələ alar, dərsə maraqlandıra bilərsiniz.

### Şagirdin mənfi davranışlarında yalnız mənfi motivlər axtarmayın

Hər bir mənfi hərəkətdə mənfi motiv axtarmaq müəllimin düzgün olmayan qərarlar verməsinə, şagirdi haqsız ittiham etməsinə, müəllim-şagird konfliktinin dərinləşməsinə səbəb olur. Burada pedaqoji ustalıq öz sözünü deməlidir. Güman edirik ki, baş vermiş kiçik bir hadisə dediklərimizi əyani təsəvvür etmək üçün kifayət edər:

**Haşiyə:** Şagird müəllimə sual verir. Müəllimin eşitmə ilə bağlı problemi olduğu üçün sualı yaxşı eşitmir və şagirddən bir də təkrarlamasını istəyir. Bu zaman müəllim Aylanın (ad şərtidir) astadan güldüyünü (gülümsədiyini) görür. Aylanın dayaq-hərəkət sistemi ilə bağlı anadangəlmə problemi var, yeriyərkən axsayır. Müəllim Aylanın onun yaxşı eşitməməsinə güldüyünü düşünərək əsəbiləşir, aqressiv şəkildə “məni lağa qoyursanmı? Sənin özünə gülmək lazımdır” – deyərək, sinifdən çıxmasını tələb edir. Ayla axsaya-axsaya sinifdən çıxarkən, səsi tutula-tutula: “mən Sizə gülmürdüm” – deyir. Əslində həmin vaxt Ayla dünən analizlərinin nəticələrinin ümidverici olduğunu deyən həkimin “artıq bir müddət sonra hamı kimi normal yeriyə biləcəksən” sözünü düşünürdü. Artıq hamı kimi normal yeriyə biləcəyini təsəvvürünə gətirdikdə, üzündə qeyri-ixtiyari olaraq təbəssüm yaranmışdı...

### Şagirdləri təzyiq altında saxlamayın, onlara dəqiq göstərişlər verin

Ötən əsrin 50-ci illərində amerikan psixoloqlarının apardıqları araşdırmalar zamanı maraqlı dalğavarı effekt müəyyən etmişlər: əgər müəllim hər hansı şagirdi davranışına görə cəzalandırırsa, həmin şagird necə deyərlər “özünü yığışdırır”, sinifdə qısa müddətlik nizam-intizam yaranır, lakin tezliklə onun yerini digər şagird tutaraq eynilə onun kimi davranmağa

başlayır. Müəllimin bu cür hərəkəti şagirdlərdə destruktiv davranışlara meyilliliyi artırır, həmçinin danlanan, cəzalanan şagird özünü sinifdən təcrid olunmuş hiss edərək, xeyli müddət fikrini cəmləyib dərsə yönəltməkdə çətinlik çəkir. Araşdırmaların sonunda onlar bu qənaətə gəlmişlər ki, sinif üzərində total nəzarət əvvəlcədən proqnozlaşdırıla bilməyən xoşagəlməz nəticələrə səbəb ola bilər. Əgər müəllim həm də belə dalğavarı effektlərə nəzarət etmək istəyirsə, şagirdləri təzyiq altında saxlamaq əvəzinə, onlara dəqiq göstərişlər verməyə çalışmalıdır. Bu araşdırmadan artıq 70 il keçib, lakin problem hələ də aktual olaraq qalmaqdadır. Yeni əmək fəaliyyətinə başlayan müəllimlərin demək olar ki yarısı şagirdlərin davranış qaydalarına əməl etməsinə nail olmaqda çətinlik çəkdiyini etiraf edir, bu halda necə hərəkət edəcəyini bilmir.

**Diqqətinizi şagirdlərdən yayındırmayın**

Dərs zamanı əyləşib şagirdlərin yazı işlərini yoxlamaq və ya hansısa sənədlər işləmək şagirdlərə "artıq söhbət etmək zamanıdır" mesajını verir. Aktiv olun, partaların arası ilə gəzin, şagirdlərin dəftərlərinə nəzər salın, suallar verin, dərsi hərəkətli etməyə çalışın. Dərsdə dinamikliyi təmin etmək, nizam-intizam yaratmağın ən yaxşı üsullarından biridir.

Müəllimin qeyri-verbal hərəkətləri – üzündəki təbəssüm, şagirdlə göz kontaktı şagirdlə müəllim arasındakı psixoloji baryeri aradan qaldırmağa kömək edir, şagirdlərdə pozitiv hisslərin yaranmasına səbəb olmaqla, onların müsbət davranışlar sərgiləməsinə səbəb olur.

Şagirdlərin boş dayanmasına yol verməyin. Əgər bir şagird danışırsa, digərləri diqqətlə ona qulaq asmalıdır. Arabir şagirdlərə onun danışdıqlarına aid sual verin və ya onun fikrinə əlavələr etmələrini istəyin. Bununla şagirdlərin sinif yoldaşlarının danışdıqlarına qulaq asmasına motivasiya yaratmış olacaqsınız. Əgər bir şagird lövhədə çalışma həll edirsə, digərlərinin də həmin tapşırığı dəftərlərində həll etmələrinə nəzarət edin. Şagirdlərə bilik səviyyələrinə uyğun müxtəlif çətinlik dərəcələrində tapşırıqlar verməyə çalışın. Zəif oxuyanlara asan, yaxşı oxuyanlara isə daha çətin və maraqlı tapşırıqlar verin.

**Fikir verin ki, uşaqlar yorulmasınlar**

Çox vaxt, nizam-intizamın pozulması şagirdlərin yorularaq dərsə diqqət etməmələri səbəbindən baş verir. Əgər görsəniz ki, şagirdlər dərsdən yayınır, əlavə işlərlə məşğul olur, o zaman iş formasını dəyişin. Diqqəti dərsdən daha çox yayınan şagirdi tapşırıq həll etmək üçün lövhəyə çağırın və ya ona sual verin. Lakin yadda saxlayın ki, bu, cəza metodu deyil. Çətinlik çəkdikdə ona kömək edin. Yorğunluq hissini aradan qaldırmaq üçün aktiv və passiv iş formalarının, qrup və fərdi tapşırıqların növbələşməsini təmin edin.

**Dərsin dəqiq planını əvvəlcədən müəyyən edin**

Əgər Siz dərsə hazırlaşmadan sinfə daxil olursunuzsa, dərsin gedişi zamanı pauzalar yarana bilər. Mənfi davranışlar, adətən, dərs zamanı boşluqlar yarandıqda ortaya çıxır. Hər dərs üçün plan tərtib edin, dərsin hansı mərhələsində nə deyəcəyinizi və nə edəcəyinizi dəqiq planlaşdırın. Qarşınızda plan olduqda, dərsin gedişi zamanı heç nəyi unutmayacaqsınız, hər bir işi öz vaxtında, ardıcıllıqla görmüş olacaqsınız. Dərsin gedişi zamanı şagirdlərə dəqiq təlimatlar verin. Məsələn: "dəftərləri açın və yazın. Yazıb qurtardıqda qələmləri qoyun və diqqətlə qulaq asın", "Mən sizə bəzi qaydaları izah edəcəyəm, sonra isə siz həmin qaydalara uyğun nümunələr deyəcəksiniz" və s.

**Şagirdlərinizi tərifləyin**

Son illərin müşahidələri və araşdırmalarına görə şagirdin yaxşı işinə görə təriflənməsi onların akademik nailiyyətləri və davranışına müsbət təsir göstərir.

Hər hansı konkret işə görə səmimi tərif aşağıdakı nəticələrə səbəb ola bilir:

- Sinfi həvəsləndirir,
- Şagirdin özünə inamını artırır,
- Şagirdlərdə görmək istədiyiniz dəyərləri və sinifdə görmək istədiyiniz qaydaları möhkəmləndirir.

Daha önəmli olan odur ki, bu yanaşma şagirdləri pozitiv davranışları təkrarlamağa sövq edir. Tutaq ki, bir şagird riyazi məsələni dərsdə öyrətmədiyiniz hər hansı digər üsulla həll edir. Onun bu üsuldan istifadəsini tərifləməklə, digər şagirdləri də axtarış etməyə təşviq edəcəksiniz.

**Şagirdlərlə fərdi söhbətlər aparın**

Dərslərdə fəal iştirak etməyən, normal olmayan davranışları ilə diqqət çəkən, sinif yoldaşları ilə zəif ünsiyyət quran şagirdlərlə ayrıca söhbət edin. Bu şagirdlərə fərdi münasibət göstərmək onların davranışları və dərslərə münasibətində müsbət dəyişikliklər yaradacaq. Söhbət dərdənkənar vaxtlarda və ya dərs zamanı ola bilər. Şagirdlərdən:

- Fikrini cəmləmək üçün onlara nə kimi kömək edə biləcəyinizi;
- Qrup işləri zamanı kiminlə eyni qrupda olmaq istədiklərini;
- Müəllim dərsi hansı şəkildə keçdikdə daha yaxşı başa düşdüklərini;
- Ən çox hansı fənni sevdiklərini;
- Dərsi öyrənməkdə onlara nələrin mane olduğunu;

- Hansı tip tapşırıqların onların dərsi yadda saxlamalarına daha çox kömək etdiyini və s. soruşa bilərsiniz.

Şagirdlərin verdiyi cavabları özünüzdə qeyd edin ki, növbəti dərslərinizdə onlara uyğun şərait yarada biləsiniz. Çünki belə şagirdlər bir müddət dərslərdən kənarda qalmaqla daim geriləyirlər, sonradan öyrənməyə cəhd etsələr belə, əvvəlki mövzuları mənimsəmədiklərindən, sonrakı dərsləri də öyrənməkdə çətinlik çəkir və beləcə, təhsil həyatına son vermis olurlar. Daha sonrakı siniflərdə onlar dərsdə sanki qonaq kimi iştirak edir və dərslərdən heç bir fayda əldə edə bilmirlər. Siz, onlara fərdi yanaşmaqla, təhsil həyatlarına son vermələrinin qarşısını almış olacaqsınız.

**"Qırmızı qələm" prinsipindən çəkinin**

Adətən, şagirdin yazı işləri yoxlanılarkən düz yazdıqları haqqında heç bir qeyd aparılmayıb, yalnız səhvləri qırmızı qələmlə qeyd edilir. Belə düşünülür ki, şagirdin səhvləri göstərilərsə, şagird onu düzəltməyə, bir daha təkrarlamamağa çalışar. Lakin bu üsulun əks-effekti daha güclü olur: şagird "nə qədər çox yazsan, o qədər çox səhv edərsən" düşüncəsi ilə daha az tapşırıq yerinə yetirməyə, hətta tapşırıqları ümumiyyətlə yerinə yetirməmək qərarına gələ bilər. Xüsusilə, şagird davranışlarına "qırmızı qələm" prinsipi ilə yanaşaraq yalnız səhvlərini qeyd etmək tamamilə faydasızdır. Şagirdin düzgün olmayan davranışlardan çəkinməsi üçün ən yaxşı motivasiya, onun bu sahədə bacarıqlarını, düzgün etdiklərini önə çəkməkdir.

Tərifləyərkən ayrı-ayrı şagirdləri deyil, ümumi sinfi tərifləməyə çalışın. Məsələn, sinfə daxil olarkən: "Afərin, artıq mən sinfə daxil olarkən, hamınız öz yerinizdə əyləşmisiniz". Şagirdlərə "bunu etmək olmaz", "bu düz deyil" əvəzinə, "belə etsən daha yaşı olar" kimi ifadələrlə müraciət etmək daha yaxşı effekt verir.

# VAXTIN İDARƏ OLUNMASI

- Rza Məmmədov -

Bu gün yaşadığımız informasiya cəmiyyətində həyat günü-gündən sürətlənir. İnsanlar həm iş, həm də şəxsi həyatlarında bir çox işi uğurla yerinə yetirmək üçün vaxtla yarışırlar. Vaxt bizim yaşadığımız həyatdır. İnsan həyatı müəyyən vaxtdan ibarətdir. Bu müddət ərzində həyata keçirmək istədiyimiz bütün fəaliyyətlər vaxtın filtrindən keçməlidir. Azərbaycan dilində vaxtla bağlı deyilən "dəmiri isti-isti döyərlər", "əldən qalan əlli il qalar", "vaxtını itirən baxtını itirər" və s. kimi çoxlu atalar sözləri, aforizmlər, deyimlər vardır. Bənzər bir deyim Qərb cəmiyyətlərində "vaxt puldur" kimi ifadə edilir. Bu sözlərlə nəzərdə tutulan odur ki, vaxt pul qədər dəyərli bir mənbədir. Ancaq vaxt pulla eyni ola bilməz, çünki vaxt puldan daha çoxdur. Bir çox iqtisadiyyat kitablarında "dünən ləğv edilmiş çekdir", "sabah bir vekseldir", "bu gün nağddır" kimi ifadələrə rast gəlmək mümkündür. Bu səbəbdən zaman fərdlər və məktəblər üçün məhdud və qıt resurs kimi xarakterizə olunur. İnsan vaxtı sərf etdiyi kimi, vaxt da insanı sərf edir.

Vaxt yığıla bilməz, borc alına və ya dəyişdirilə bilməz. Vaxt satın alınmayan demokratik şəkildə paylaşılan bir mənbədir (Scoott, 1997). "*Vaxt fiziki, fəlsəfi, psixoloji və sosioloji ölçüləri olan bir reallıqdır*" (Finley, 2007). Vaxt anlayışı işin görüldüyü müddətdir. Biz vaxtı həmişə eyni şəkildə qəbul etmirik. Bu səbəblədir ki, vaxtın mənası, vacibliyi, dəyəri insandan insana dəyişir.

**Vaxtın növləri**

Vaxt insanlar tərəfindən müxtəlif yollarla qavranılan psixoloji və sosioloji aspektləri olan bir hadisədir. Sevmədiyimiz bir işi etdikdə insanlar üçün zamanın çətin keçdiyi dərk edilə bilər. Ancaq sevdiyimiz bir mühitdə vaxt keçiririksə, "zamanın necə keçdiyini anlamadıq" ifadəsi işlədilir. Bu vəziyyət tamamilə hiss və duyğularla, yəni qavrayışlarla bağlıdır. Beləliklə vaxtın subyektiv və obyektiv qiymətləndirilməsi olduğu deyilə bilər. Bu halda vaxtın növlərini bilmək ehtiyacı ortaya çıxır.

1. *Obyektiv Vaxt*: Saata bağlı olan və real bir ölçmə metoduna əsaslanan vaxtdır. Bu vaxt növü bütün insanlar üçün sabit və eynidir. Vaxtın idarə edilməsi çərçivəsində baxıldığında da idarə edilməsi lazım olan vaxt obyektiv vaxtdır. Fəaliyyətləri müəyyən edən

plan, proqram, əmək fəaliyyəti, koordinasiya, təcrübə kimi rasional və planlanan təşkilati fəaliyyətlər bu vaxt içində həyata keçirilir (Tengilimoğlu vd., 2015, s. 30).

2. *Subyektiv Vaxt*: Bəzi məqamlarda vaxt heç keçmir, bəzən də tez keçir. Bu vəziyyət insanların emosionallığı ilə bağlıdır. İnsan sevdiyi mühitdə olarkən vaxtın tez keçdiyini düşünsə də, sevmədiyi işlə məşğul olarkən vaxtın heç keçmədiyini dərk etməsi vaxtın psixoloji tərəfini göstərir. Psixoloji, yəni subyektiv zaman bizim hiss edə və ya qavraya bildiyimiz zaman növüdür. İnsanın günün istənilən anında və ya bir işdə keçirdiyi vaxtı uzun və ya qısa olaraq qəbul etməsi həmin an yaşadığı duyğularla bağlıdır. Bəzən yuxuda olan insan oyandıqdan sonra yatdığı vaxtın çox qısa və ya uzun olduğunu düşünür, vaxt sabit olsa da, birbaşa insanın zehni dünyası ilə bağlıdır (Yılmaz, 2020, s. 4).

3. *Bioloji Vaxt*: Hər bir canlı müvəqqəti olaraq yaşayır və bu dövrəyə uyğun olaraq özünü nizamlayır. Bitkilər tamamı ilə bioloji vaxta görə yaşayırlar. Misal üçün gün işığı ilə bəzi çiçəklər açarkən, bəziləri isə qapanır. Bioloji vaxtın günəş, istilik, nəm, hava təzyiqi və iqlimlər ilə əlaqəsi vardır. Bir çox həyati funksiyanın bioloji saata görə baş verməsi canlıların qurulmuş bioloji saatla yaşadıqlarının göstəricisidir. Bəzən qurulan saat hələ də çalmadıqda oyanmağın izahı belədir ki, bioloji saat insanı ayağa qalxmaq üçün xəbərdar edir. Canlılar tərəfindən yemək, içmək, yatmaq kimi bioloji zamana əsaslanan prosesləri gecikdirmək və ya görməməzlikdən gəlmək kimi əks hərəkətlər həyati funksiyaları pozaraq orqanizmə əhəmiyyətli bioloji ziyan vurur (Tengilimoğlu vd., 2015, s. 87).

4. *Təşkilati Vaxt*: Təşkilatlarda tələb olunan mal və xidmətlərin istehsalı üçün görülməli olan proseslərin, istifadə olunan işçi heyətin və texnikanın sərf etməli olduğu vaxtın məcmusudur (Özkan, 2008, s. 5). Təşkilati vaxtı digər qıt resurslardan fərqləndirən xüsusiyyət ondan ibarətdir ki, onu geri qaytarmaq mümkün deyil, başqa sözlə desək, onu saxlamaq, artırmaq, istehsal etmək və dəyişdirmək mümkün deyildir. Ediləcək yeganə şey onu ən faydalı şəkildə xərcləməkdir. Bu səbəbdən təşkilati vaxt bütün təşkilati proseslərdə ən səmərəli şəkildə istifadə edilməsi lazım olan ən qıt qaynaqdır və bu xüsusiyyəti ilə təşkilatda əməklə bağlı hər cür nəticələrin sərhədlərini müəyyən edir (Karabulut, 1996, s. 68).

Göründüyü kimi, zaman təkcə canlılar üçün deyil, həm də cansız varlıqlar olan bəzi cisim və formasiyalar üçün müəyyənedici və qiymətli mənbədir. Bununla belə, unutmaq olmaz ki, təşkilatlarda vaxtdan düzgün istifadə bütün elementlərin harmoniyası ilə əldə edilə bilər.

5. *İnzibati Vaxt*: Rəhbərlərin idarəetmə ilə bağlı işlərinə həsr etməli olduqları vaxtdır. İnzibati vaxt müəyyən bir məqsədə çatmaq üçün lazım olan insan resurslarını və vasitələri bir araya gətirmək üçün sərf edilməli olan vaxtdır. İnzibati vaxta həmçinin planlaşdırma, təşkil etmə, icra, əlaqələndirmə, təftiş və təlim fəaliyyətləri üçün tələb olunan işçi heyəti və maddi-texniki vaxt da daxildir (Yeşil, 2009, s. 9). Rəhbərlər vaxtlarını yalnız təşkilati işlərin yerinə yetirilməsinə sərf etmirlər. Eyni zamanda bir çox müxtəlif problemlərlə qarşılaşa bilərlər. Yaranan problemlərin həllinə ayrılan vaxt bəzən inzibati

fəaliyyətləri poza bilər. Bu səbəbdən idarəetmə fəaliyyətinin yaxşı planlaşdırılması və lazımi xammal və işçi qüvvəsinin vaxtında təmin edilməsi vaxtın idarə edilməsinə kömək edəcək mühüm məsələlərdir.

6. *İqtisadi və Sosial Vaxt*: Zaman hadisəsi iqtisadi və sosial mənada hiss olunan və istifadə olunan ölçü vahididir. Məsələn, zəhmət müqabilində edilən ödənişlər adətən saatlıq, gündəlik, həftəlik və ya aylıq əsasda hesablanır. Bundan əlavə, əsas vəsaitlərdən istifadəyə görə ödənilən icarə haqları da istehsal məqsədləri üçün və müəyyən dövrlərdə istifadə olunduğu üçün yığılır (Sabuncuoğlu ve Tüz, 2003, s. 282). Sosial olaraq, insanların müəyyən sosial fəaliyyətlər üçün ayrılması lazım olduğu müəyyən vaxtlar vardır. İnsan sosial varlıq olduğu üçün bu, təkcə iş həyatından ibarət deyildir. Həm maarifləndirici, həm də rahatlaşdırıcı fəaliyyətlərlə məşğul olmaq qaçılmazdır. Onlar üçün də müəyyən müddətlər olmalıdır.

Vaxtın növlərinə nəzər yetirdikdə onun idarəedilməsinin nə qədər əhəmiyyətli olduğu görünür. Bu həm əmək fəaliyyəti, həm də şəxsin yaşam standartlarını müəyyənləşdirir. Bu səbəblədir ki, vaxtın idarə edilməsi hər bir fərd tərəfindən bilinməli olan bir məsələdir.

**Vaxtın idarə olunması**

Vaxtın idarə olunması, əmək fəaliyyəti çox olan rəhbərlərin vaxtlarını daha yaxşı təşkil etmələrinə kömək olmaq məqsədi ilə bir təhsil vasitəsi olaraq Danimarkada formalaşmışdır. Müasir dövrdə, xüsusi ilə peşəkar iş həyatında müəvəffəqiyyətin ən vacib parçalarından biri olmaqdadır (Koch, 1998, s. 147).

Vaxtın idarə olunması, məqsədlərə və hədəflərə çatmaqda vacib amil olan vaxtdan təsirli və məhsuldar istifadə fəaliyyətidir. Vaxtın idarə olunmasında əsas mövzu, mövcud vaxtda nələrin edilə biləcəyini planlamaqdır. Əlbəttə ki, vaxtın əksəriyyətini işləyərək keçirmək, vaxtı düzgün idarə etmək mənasını daşımır. Belə bir vəziyyətdə girişdə də ifadə edildiyi kimi sadəcə vaxtın fərdi idarə etdiyi ifadə edilə bilər. Vaxtı təsirli və məhsuldar istifadə etmək, sahib olunan hər saatı, hər dəqiqəni müəyyən bir hədəf və məqsədə çatmaq üçün planlayaraq istifadə etməkdir.

Nəticə etibarı ilə vaxtın idarə olunmasında üzərində durulmalı olan üç mövzu vardır. Birincisi hər hansı bir işin görülməsinin gecikdirilməsinin qarşısını almağa istiqamətlənmiş tədbirlərdir. İkincisi fərdi məhsuldarlığı artırmağa kömək edəcək dəyər mühakimələrini qazanmaq və bu mövzuda müsbət davranışlar formalaşdırmaqdır. Sonuncusu isə vaxtın istifadə edilməsində fərdə faydalı olan texnika və metodları bilməkdir.

Təşkilatlarda vaxtın təsirli idarə olunması üçün əlaqəli ədəbiyyatda səkkiz mərhələli bir gedişat müəyyənləşdirilmişdir. Bu mərhələlər şəkil 1-də verilmişdir.




Şəkil 1. Vaxtın təsirli idarə edilməsi

Qaynaq: Akgemci, 2003, s.41.

Hər bir mərhələnin özün xas xüsusiyyətləri vardır. İlk mərhələdə məqsəd vaxtın necə istifadə olunacağının müəyyənləşdirilməsidir. İkinci mərhələdə vaxt itkisinə səbəb ola biləcək problemlərin müəyyənləşdirilməsidir. Bu mərhələdə fərd vaxtını idarə etmə formasını analiz edərək problemləri aradan qaldırmalıdır. Üçüncü mərhələdə fərdin özünü tanımasıdır. Yəni hansı vaxt ərzində nə edə biləcəyini və ya nəyə qadir olduğunu dərk etməlidir. Dördüncü mərhələdə məqsədlərin və bu məqsədlərə çatmaq üçün vasitələrin nələr olduğunu müəyyənləşdirilir. Müəyyən edilmiş məqsəd və hədəflərə çatmağın tək yolu həmin məqsəd və hədəflərin tələb etdiyi səyi göstərməkdir. Beşinci mərhələdə fəaliyyətlərə bir istiqamət vermək və dəqiqlik qazandırmaq məqsədi ilə, səylərin müəyyən edilən hədəflərə çatılması adına planlanmasıdır. Altıncı mərhələdə əsas fəaliyyət planlardan hərəkətlə qısa müddətlik plan və proqramlar hazırlamaqdır. Yəni ilk olaraq həftəlik proqram və həftəlik proqramdan gündəlik proqramlar müəyyənləşdirilməlidir. Yeddinci mərhələ gecikdirmək, planlama etməmək, prioritetləri müəyyənləşdirməmək kimi ifadə edilən vaxt tələlərindən qaçmaq üçün

formalaşdırılacaq metodları ifadə edir. Son mərhələdə isə vaxtın effektiv idarə edilməsi üçün formalaşdırılan strategiyanın təsirliliyi yoxlanılır və varsa düzəlişlər edərək yenidən analiz edilir.

**Vaxtın idarə olunması konsepsiyaları**

Tarixi inkişaf yolu keçən vaxtın idarə edilməsi bəzi konsepsiyalarla zənginləşdirilmişdir. Bu konsepsiyalar vaxtın məhsuldar idarə edilməsi üçün fikirlər ortaya qoymuşdur. Vaxt idarəetmə konsepsiyaları səkkiz başlıqda qruplaşdırılmışdır:

*Nizamlı yaşam:* Vaxtın idarə edilməsində yaranan problemlərin əksəriyyətinin həyatımızda olan nizamsızlıqdan qaynaqlandığını müdafiə edir. Çox vaxt lazım olanı axtardığımız anda tapa bilmirik. Belə olan halda etməli olduğumuz iş arada itir. Bu problemlərin cavabı adətən sistemdədir. Yəni sənədləşmə, daxil olan və gedən sənədlər, xatırlatma və verilənlər bazası sistemləri. Bu sistemlər adətən üç sahədə qaydalara diqqət yetirir (Efil, 2008).

a. *Obyektləri təşkil etmək. Açarlardan tutmuş kompüter ekranlarına, sənədləşmə sistemlərindən sənəd şkaflarına, ofis sahəsindən tutmuş mətbəx sahəsinə qədər hər şeyi səliqəyə salmaq zərurətini ifadə edir*.

b. *Vəzifələri təşkil etmək. Bu, sadə siyahılardan mürəkkəb planlaşdırma və layihə idarəetmə proqramlarına qədər müxtəlif vasitələrdən istifadə edərək, "görüləcək işləri" qaydaya salmağa və sıralamağa aiddir.*

c. *İnsanları təşkil etmək. Bu, fərdin və başqalarının iş yerində görə biləcəyi işləri müəyyən etmək, səlahiyyətlər vermək və baş verənlərə nəzarət etmək üçün monitorinq sistemlərinin yaradılması deməkdir*

Nizamlı yaşam konsepsiyası nizamsızlığın səbəb olduğu vaxt itkisini minimuma endirir və vaxta qənaət etməni göstərir. Açarı, paltarı və ya itdiyini düşünülən hesabatları daha qısa müddətdə tapmaq üçün müəyyən edilmiş təşkil etmə texnikalarını öyrətdiyi üçün vaxt itkisini aradan qaldırır. Eyni zamanda deyilə bilər ki, redaktə yalnız daha böyük məqsədlər üçün bir vasitədir. Unudulmamalıdır ki, tənzimləmə əsas iş deyil, sadəcə işi asanlaşdıran mühüm addımdır. Lazımi diqqət göstərilməsə və tənzimləmə şişirdilsə, bu, özlüyündə bir məqsədə çevrilə bilər. Bu zaman səmərəli istifadə edilməli olan vaxtın böyük bir hissəsi işə deyil, planlaşdırmağa sərf olunur. Gündəlik həyatda bir çox insanlar planlarla çox məşğul olaraq işlərini gördüklərini zənn edərlər, lakin vacib işləri başa çatdırmaq əvəzinə istəmədən təxirə sala bilərlər (Tutar, 2011).

*Döyüşçü konsepsiyası*: İnsan öz vaxtını hər cür vaxt tələlərindən qorumalı və işə diqqət etməlidir. Döyüşçü konsepsiyası tələlərin aradan qaldırılması anlayışına əsaslanır. Vaxta qarşı mübarizə aparmağa qərar verən fərd, tələləri aradan qaldırmağa çalışmalıdır. Buna görə də döyüşçü konsepsiyası bildirir ki, səmərəli və müstəqil işləmək üçün insan özünü qorumaq və vaxtına diqqət yetirməlidir. Aşağıdakı kimi güclü metodları əhatə edir:

a. *Özünü izolyasiya etmək. Bu, katibədən səmərəli istifadə etmək, açıq qapı siyasətindən qaçmaq, telekatibədən istifadə etmək və lazımsız görüşlərdən imtina etmək deməkdir.*

b. *Tənha olmaq. İş vaxtı məşğul edilməmək üçün tək qala bilinəcək yerə çəkilmək deməkdir.*

*c.Səlahiyyət ötürmək. Daha vacib işlərə vaxt ayırmaq üçün başqalarına tapşırıqlar vermək deməkdir.*

Bu konsepsiyanın üstünlüyü ondan ibarətdir ki, o, hamıya bərabər paylanmış vaxtdan fərdin payına görə məsuliyyəti şəxsən öz üzərinə götürməyinə əsaslanır. Məhsuldar və yaradıcı olmaq üçün insana sakit, məşğul edilməyən bir mühit lazımdır. Ancaq bu konsepsiya fərdi başqalarını düşmən kimi görməsinə səbəbiyyət verə bilər. Bu gün sürətlə artan rəqabətdə döyüşçü yanaşmasının sağ qalmağı hədəfləyən bir paradiqma olduğunu söyləyə bilərik. Bu yanaşmanın əsas ifadələri təcrid etmək, vaxtını almağa çalışanları qorxutmaq, digər işçilərlə sərhədlər qoymaqdır. İşə mane olan hər hansı yardım sorğusuna yox deməkdir. Telefon danışıqlarını mümkün qədər qısa saxlamaq lazımdır. Burada diqqət çəkən vacib məqam odur ki, döyüşçü konsepsiyası insanların yaratdığı zaman tələlərinə qarşı mübarizə kimi deyil, işdən və fərdin vərdişlərindən qaynaqlanan zaman tələləri ilə mübarizə kimi başa düşülməli və bu şəkildə tətbiq edilməlidir (Tutar, 2011, s. 64-65).

*ABC konsepsiyası:* Bu konsepsiyanın əsas prinsipi ilk növbədə ən vacib işlərə diqqət yetirmək və səyləri bu işlərə cəmləməkdir. ABC konspesiyasında yer alan üsullar dəyərin aydınlaşdırılması və tapşırıqların ardıcıllığıdır. ABC konsepsiyası iddia edir ki, nəyə nail olmaq istənildiyi bilindikdə və səylər əvvəlcə bu işlərə yönəldikdə, o işdə uğurlu olunacaqdır. Aşağıda ifadə edilən sadələşdirmələr təqdim edir:

a. Hər gün səmərəli şəkildə planlanır,

b. İtkilər minimuma endirilir,

c. Görüşlərdə daim hazır olmağı təmin edir,

d. İşin əhəmiyyətindən asılı olaraq ona vaxt ayrır,

e. Həddindən artıq iş yükünü rədd edir.

ABC konsepsiyası görüləcək işlərdə nizam və ardıcıllığı təmin edir. Bu yanaşma fərdə görüləcək işlərlə prioritet işlər arasındakı fərqi anlamağa kömək edir (Covey, Merril və Merril, 1998).

*Texnologiya konsepsiyası:* Bu konsepsiya "yaxşı iş yaxşı alətlərlə edilir" prinsipini özünə istinad kimi qəbul edir. Bu konsepsiya hədəflərə çatmaq üçün seçilən düzgün alətin fərdə həyat keyfiyyətini yaxşılaşdırmaq üçün güc verəcəyi fərziyyəsinə əsaslanır. Texnologiya və ya sehrli alət prinspi bildirir ki, istifadə olunacaq aləti seçərkən diqqətli olmaq lazımdır. Seçilmiş alətlərin arzu olunan xüsusiyyətlərə sahib olması halında, bunun vaxtın idarə edilməsinə və səmərəliliyinə sehrli bir töhfə verəcəyi fərziyyəsinin nəzərə alınması vacib bir detal olduğunu

ortaya qoyur. Bu vasitələrin əsas xüsusiyyətləri fərdə prioritetləri izləməkdə, işləri planlaşdırmaqda və əsas məlumatlara asanlıqla daxil olmaqda kömək edir (Tutar, 2011, s. 66).

*Bacarıq konsepsiyası:* Bu konsepsiya mühasibat uçotu və ya kəlimə formalaşdırma kimi sahələrdə olduğu kimi, vaxtın idarə edilməsinin əsasən bacarıq olduğu paradiqmasına əsaslanır. Konsepsiya müasir rəqabətli dünyada effektiv olmaq üçün ixtisaslaşmanın vacib olduğunu vurğulamqdadır:

a. Planlayıcı və ya randevu kitabından istifadə,
b. "Görüləcək işlər" siyahısının yaradılması,
c. Məqsəd müəyyənləşdirmək,
d. Səlahiyyət bölüşdürmək,
e. Planlamaq,
f. Prioritetləri sıralamaq.

Məqsədlərin qoyulması planlaşdırma və nəticələr arasında körpü rolunu oynayır. Məqsəd və missiyanın aydın tərifi nail olmaq istənilən məqsədin aydınlığını ortaya qoyur. Məqsəd müəyyən edildikdən sonra atılacaq ilk addım planlaşdırmadır (Fritz, 1994, s. 69).

Bu gün uğur qazanmaq üçün çox çalışmaq tək başına kifayət deyildir. Hətta çox vaxt lazım deyildir. Əksinə, səmərəli işləmək daha vacibdir. Səmərəli işləmək bilik və bacarıqlarla mümkündür. Bacarıq, daha az enerji və vaxt sərf etməklə işləri yerinə yetirən mühüm güc mənbəyidir. Vaxtın idarə edilməsi "vaxt idarə etmə bacarığı"ndan başqa bir şey də deyildir.

*Məqsəd müəyyənləşdirmək:* Bu konsepsiya "nə istədiyinizi bilin və nail olmaq üçün səy göstərin" ideyasına əsaslanır. Konspesiyaya uzun, orta və qısamüddətli planlaşdırma, məqsəd qoyma, vizuallaşdırma və özünü motivasiya kimi üsullar daxildir. Qısamüddətli planlaşdırma, fərdin gündəlik və həftəlik işləri təşkil etməsi, planlaşdırması və prioritetləşdirməsi deməkdir (Covey, Merril və Merril, 1998).

*Təkmilləşdirmək konsepsiyası:* Vaxtın idarə edilməsində təkmilləşdirmək konsepsiyası vaxtın idarə edilməsində yaranan problemlərin əksəriyyəti insanın yerləşdiyi mühitdən və fərdin ətraf mühiti qavrayışındakı dəyişiklikdən qaynaqlandığını müdafiə edir. Başqa sözlə, ekoloji, sosial, mədəni və ya psixoloji səbəblərə görə problemlərin yarana biləcəyi fərziyyəsinə əsaslanır. Təkmilləşdirmək konsepsiyasına görə, məqsədə zidd və ya qeyri-funksional vaxt idarəetmə davranışlarının ortaya çıxmasının səbəbi, ətraf mühit və digər fəaliyyətlər nəticəsində mənəvi çatışmazlıqlardır. Bu konsepsiyaya görə, izləniləcək ən mühüm həll yolu, vaxtın idarə edilməsində problemlər yaradan mədəni və psixoloji amilləri müəyyən etmək və onları təkmilləşdirməkdir. (Tutar, 2011, s. 69).

*Özünü axına buraxmaq konsepsiyası:* Bu konsepsiyanın əsas arqumenti axınla getməyi öyrənmək, həyatın təbii harmoniyasını tutmaq, həyatın təbiətindəki kortəbiiliyə və gözlənilməz imkanlara açmaqdır. Bu konsepsiya vaxtın idarə oluna biləcəyi iddiasına qarşı

çıxır. Bu konsepsiyaya görə, vacib olan vaxtı idarə etmək deyil, vaxtla fərd özünü təbii axınla inteqrasiya etməsidir. Bəyəndiyimiz şeylərlə məşğul olanda, sevdiyimiz insanlarla vaxt keçirəndə özümüzü zamanın axışına buraxırıq. Bu yanaşma bizi o anların dəyərinə həssaslıqla yanaşır, həm də bu anları həyatımızda təkrarlamağa kömək edir. İnsanları təcili işlərin təzyiqindən uzaqlaşdıraraq daxili və zahiri harmoniya yaradır. Yaratdığı harmoniyanın davam etdirilməsinə dəstək verir. Bu konsepsiya həyatımızda mühüm yer tutan tələsiklik aludəçiliyinə qarşı reaksiyanı təmsil edir. Müasir rəqabət şəraitində fərdlərə həyat keyfiyyətini yüksəltmək üçün kömək etməsi gözlənilən vaxt idarəetmə konsepsiyalarının əksinə olaraq, bu konsepsiya qaçışa səbəb olmaqdadır. Bu, çox vaxt təşkilat üçün vizyon, məqsəd və tarazlıq kimi həyati elementlərin itirilməsi ilə nəticələnə bilər (Covey, Merril və Merril, 1998, s. 364-365).

Bütün bu konsepsiyaların nəticəsi olaraq, fərdi və təşkilati baxımdan vaxtdan təsirli və səmərəli istifadə üçün vahid bir konsepsiyanın mənimsənilməsi düzgün deyildir. Edilməli olan, bütün konsepsiyalardan istifadə edərək birgə bir metod seçməkdir.

**Sinifdə vaxtın idarə olunması**

Sinifdə vaxtın idarə edilməsinin məqsədi təhsil məqsədlərinə çatmaq üçün dərs vaxtından səmərəli və təsirli istifadə etməkdir. Effektiv vaxt idarəetməsi təhsilalanları nizamlı və balanslı öyrənməyə istiqamətləndirir. Beləliklə, təhsilalanlar sinif mühitində olmaq üçün motivasiya olarlar. Eynilə, müəllimlər effektiv vaxt idarəçiliyi ilə təhsilalanların yaradıcılıq və istedadlarını üzə çıxarmağa daha çox vaxt tapırlar. Vaxtın səmərəli idarə edilməsi təhsilalanlara, müəllimlərə və məktəb rəhbərliyinə qənaətlilik verir (Erkılıç, 2020). Sinifdə vaxtın idarə edilməsi təlim-tədrisə hazırlıq, təlim-tədris prosesi və təlim-tədris prosesinin qiymətləndirilməsi olmaq üzrə üç mərhələli olaraq dəyərləndirilə bilər. Müəllimin sinfə gəlməmişdən əvvəl və sonra nə edəcəyini bilmək ona dərs vaxtından səmərəli istifadə etməyə kömək edəcəkdir. Dərs vaxtından səmərəli istifadə edən müəllimin sinif "iqlimi" müsbət olacaqdır. Sinif mühitinin yaxşılaşdırılması həm də tədrisin keyfiyyətini yüksəltməyə imkan verəcəkdir. (Shortt və Thayer, 1998). Burada da sinifdə vaxtın idarə olunması dərsdən əvvəl, dərsdə və dərsdən sonra olmaq üzrə üç başlıq altında təqdim edilir.

**Dərsdən əvvəl vaxtın idarə olunması**

Dərsdən əvvəl görülən işlər dərsin məqsədlərinə uyğun olaraq sinifdə öyrənmə vaxtının keçirilməsini hədəfləyir. Bu işlər əsasən dərsə hazırlıq işləridir. Dərsə yaxşı hazırlıq sinifdə yarana biləcək hər hansı maneələri qabaqcadan görməyə kömək edir. Bu, müəllimdən fəal olmağı tələb edir. Plansızlıq və hazırlıqsızlıq ortaya çıxa biləcək hər cür mənfiliyin mənbəyidir. Bu vəziyyət müəllimdən dərsqabağı dərslə əlaqəli işlərin böyük bir qismini dərsin əvvəlində yerinə yetirməsini tələb edir. Bunlar planlaşdırma və hazırlıq, dərs materiallarının və resurslarının hazırlanması və sinif qaydalarının təşkilidir. (Erkılıç, 2020, s. 132 ).

*Planlaşdırma və hazırlıq*: Sinifdə təhsil məqsədləri üçün vaxtdan düzgün istifadə planlaşdırma və vaxtdan səmərəli istifadədən asılıdır (Başar, 2010, s. 81). Planlaşdırma və

hazırlıq effektiv dərs üçün vacibdir. Plan qurarkən prioritetləri dəqiq müəyyən edən, işi şaxələndirməyən, zehnində mövzu bütövlüyünü və bədii tərtibatı quran müəllim zamandan səmərəli istifadə edir (Aksüt, 2003, s. 158).

Təhsilalanların dərsə hazır gəlməsini təmin etmək də burada mühüm elementdir. Təhsilalanlara əvvəlcədən hazırlanmış dərs cədvəlinin verilməsi və dərslərin hər həftə cədvələ uyğun keçirilməsi onların dərsliklərdən başqa müxtəlif mənbələrdən də hazırlaşmasına şərait yaradacaqdır. Dərsdən əvvəl görüləcək bu hazırlıq dərsin daha yaxşı mənimsənilməsi, təhsilalanın inkişafı və həyata hazırlanması üçün mühüm əhəmiyyət kəsb edir (Livatyalı, 2004). Dərsdən əvvəl dərslə əlaqəli məlumatlı olaraq dərsə gələn təhsilalan dərsin hər mərhələsində istədiyi davranışları həyata keçirə biləcəkdir. Məsələn, müəllimin vaxtını itirəcək lazımsız suallar verməyəcək, dərsə töhfə verərək öyrənməyə dəstək olacaq, sinif yoldaşları ilə münasibətdə problem yaşamayacaqdır (Taş, 2010).

Bundan başqa, müəllimin dərsə emosional və fiziki hazırlığı da vaxt baxımından önəmlidir. Müəllim dərsdən əvvəl yaranan problemləri sinif otağına gətirməməli, onları sinifdən kənarda qoymağı bacarmalıdır. Peşəsini və təhsilalanlarını sevməyən müəllimlərin sinfə emosional hazırlıqla daxil olması mümkün deyildir. Müəllimin dərsə emosional hazırlığı dərsin səmərəli keçməsinə, iştirakın artırılmasına, bununla da vaxtın səmərəli idarə olunmasına şərait yaradacaqdır. (Erkılıç, 2020, s. 132).

*Sinif qaydalarını müəyyən etmək və izah etmək*: Sinif eyni vaxtda və ani davranışların inkişaf etdiyi çoxölçülü bir mühitdir. Bu səbəbdən sinifdə arzuolunmaz, gözlənilməz hadisələrin və davranışların olma ehtimalı var. Bu səbəbdən sinifdə qarşılıqlı əlaqə və təlim-tədris prosesinin öz məqsədinə yönəldilməsi üçün sinif idarəsi müəyyən qaydalara əsaslanmalıdır. Dərsdə riayət olunacaq qaydalar təhsilalanlarla birlikdə müəyyən edilməli, bütün təhsilalanlara izah edilməli və riayət olunmasına diqqət yetirilməlidir (Edwards, 1997, s. 384). Qaydalar hamıya bərabər tətbiq edilməli və ardıcıl olmalıdır. Dərsdə tətbiq olunacaq qaydaların əvvəlcədən müəyyən edilməsi həm arzuolunmaz davranışların azaldılmasını, həm də vaxtdan düzgün istifadəni təmin etməklə müəllimin və təhsilalanların işini asanlaşdırır

*Dərs materiallarının və resurslarının hazırlanması*: Dərsin təsirli olması üçün planın və qaydaların müəyyən edilməsi kifayət deyildir. Dərsdə vaxtdan səmərəli istifadə etmək üçün müəllimin dərs zamanı istifadə edəcəyi alətləri və resursları əvvəlcədən hazırlaması lazımdır. Dərsin effektiv olmasında alət və materialların yerində olması, asanlıqla tapılması və rasional istifadə olunması mühüm rol oynayır (Evertson, Emmer və Worsham, 1997, s. 4). Sinifdə bu planlı hərəkət fənnin tədrisində məqsəd və tətbiqin vəhdətini təmin edir, vaxt itkisini azaldır və dərsin səmərəliliyini artırır. Bu effektivlik dərsin hər mərhələsində mühüm yer tutur (Erkılıç, 2020, s. 133).

Müəllimlər dərsdən əvvəl hazırlığın vacibliyini bilsələr də, onları lazımi səviyyədə yerinə yetirə bilmirlər. Nəticədə müəllim, dərsdə vaxt itkiləri ilə qarşılaşır və vaxt itkilərinin

əhəmiyyətli hissəsi dərsin giriş mərhələsinə təsadüf edir. Məsələn, müəllim sinfə gələndə təhsilalanların dərsə hazır olmaması, tənəffüs vaxtlarından daha çox istifadə olunması, müəllimin fənnə keçiddə gecikməsi, kompüter, proyeksiya kimi tədris vasitələrinin işlək vəziyyətdə olmaması , davamiyyət və elanlar daha çox dərsin əvvəlində verilir. Müəllimlər bu vəziyyəti bilməli və dərsin giriş mərhələsində vaxt itkisini azaltmalı, vaxt istehsal edərək sərf etməlidirlər.

**Dərsdə vaxtın idarə olunması**

Sinfin idarə olunmasında vaxtdan səmərəli istifadənin ən vacib elementi dərs zamanı vaxtın istifadəsidir. Çünki dərsdən əvvəl və sonrakı hazırlıqların məqsədi dərsin təsirli və səmərəli keçməsidir. Dərsdən əvvəl hazırlıq nə qədər yaxşı aparılsa da, təlim-tədris zamanı vaxtdan rasional istifadə olunmasa, dərs məhsuldar olmayacaqdır. Effektiv və məhsuldar bir dərs, arzu olunan davranışları istənilən vaxtda əldə etməkdir. Bu kontekstdə ən mühüm problemlərdən biri də dərsdə vaxtdan səmərəli istifadə etməkdir (Erkılıç, 2020, s133).

Sinif daxili tədrisdə zaman anlayışı dərsin müddəti ilə ifadə edilir. Təhsildə vaxt anlayışı dörd fərqli səviyyədə müəyyən edilir: *ayrılmış vaxt, tədris vaxtı, məşğul vaxt və akademik öyrənmə vaxtı*. *Ayrılmış vaxt* müəllimin müəyyən bir mövzu üzrə məzmun və ya fəaliyyətə ayırdığı ümumi vaxtdır. *Ayrılmış vaxtdan* səmərəli istifadə etmək üçün müəllimlər tədris fəaliyyətində nəyi, nə vaxt və necə etməli olduqlarını bilmələri, məqsədlərindən kənara çıxmamalıdırlar. *Tədris vaxtı* gündəlik iş bitdikdən sonra tədris üçün qalan vaxtdır. Gündəlik işlərə nümunə olaraq davamiyyət yoxlanışı, arzuolunmaz davranışların qarşısının alınması və aradan qaldırılması kimi fəaliyyətlər verilə bilər. *Məşğul olan vaxt* təhsilalanın həqiqətən fəal iştirak etdiyi və dərsə diqqət yetirdiyi vaxtdır. Müvəffəqiyyətli və uğursuz təhsilalanlar öyrənmə vaxtlarından istifadə baxımından müqayisə edildikdə, müvəffəqiyyətli təhsilalanlar öyrənmə vaxtının 85%-ni, uğursuz təhsilalanlar isə öyrənmə vaxtının 40%-ni istifadə edirlər. *Akademik öyrənmə vaxtı* təhsilalanın öyrənmə fəaliyyəti və ya özinkişafla məşğul olduğu, yəni öyrənmənin baş verdiyi vaxtdır. Uğurlu təhsil yüksək *akademik öyrənmə vaxtına* bərabərdir. Bu nöqtədə təhsilalanların *akademik öyrənmə vaxtını* artırmaq üçün strategiyalar iki başlıq altında təqdim olunur (Taş, 2010):

a. Öyrənmə fəaliyyətinin davamlılığını təmin etmək;

Sinif daxilində dərs davam edərkən öyrənmə fəaliyyətinin səmərəli təşkili üçün dərsə uyğun fəaliyyət bir bütün olaraq davamlılıq prinsipi ilə yerinə yetirilməlidir. Dərsin izah sürəti, mövzuların ardıcıllığı və keçişlərdə təhsilalanlara müəyyən işıqlar verilməlidir. Öyrənmə fəaliyyətinin davamlılığını təmin etmək üçün aşağıdakı cədvəldə müəllimlərə bəzi strategiyalar təqdim edilmişdir.

| Məqsəd | Bacarıq | Tərif | Nümunə |
|---|---|---|---|
| Neqativ davranışların qarşısının alınması | Məlumatlılıq | Neqativ davranışların şiddətlənmədən və sinif daxilində yayılmadan qarşısının alınması | Müəllim, sinif yoldaşına bir şey atmaq istəyən şagirdlə göz təması quraraq bu davranışını əngəlləyər. Eyni zamanda bunu etmək istəyən digər şagird müəllimin davranışını görərək etməz. |
| | Üst-üstə gətirmək | Müəllim eyni vaxta iki və ya daha çox fəaliyyəti həyata keçirməsi | Müəllim sinifdə bir mövzunu anlatarkən, bir şagird sinfə gec daxil olur. Müəllim dərsin izahına ara vermədən işarət dili ilə şagirdə yerinə keçməsini göstərər. |
| Hərəkətlərə nəzarət və idarə etmək | Canlılıq | Dərsin interaktiv formada gedişatını təmin etmək, yavaşlamaların qarşısını almaq üçün diqqətli planlama etmək | Müəllim, bir mövzunu şagirdlərə çatdırarkən, bütünlüyə nisbətdə vacibliyi az olan bir tərifin ifadəsinin çox vaxt aldığını və şagirdlərin diqqətini yayındırdığını görür. Müəllim bu tərifin dərinləməsinə öyrənilməsini başqa bir dərs saatına buraxaraq mövzuya davam edər. |
| | Axıcılıq | Dərsin planını və bütünlüyünü izləmək, qarışıqlıq yaradacaq ifadələrdən və yavaşlamalardan qacınmaq | Şagirdlərin maraqlarına uyğun suallarına cavab verərkən, müəllim diqqəti dərsin vacibli nöqtələrindən uzaqlaşdıracaq ifadələrdən çəkinər. |
| Qrup dinamikasını canlı tutmaq | Qrup dinamikası | Şagirdlər fərdi olaraq dərsdə aktiv olarkən bütün sinfin diqqətini çəkmək üçün fəaliyyət göstərmək | Müəllim, bəzi şagirdlərin suallara cavab verərkən, növbəti sualı sinifdən təsadüfi olaraq seçdiyi şagirdə ünvanlayaraq, sıradakı sualları üçün sinifdə hər kəsin sayıq olmasını təmin edər. |
| | Məsuliyyət almağa təşviq | Şagirdlərə dərsə aktiv qatılmalarının izlənildiyini və qiymətləndiriləcəyini bildirmək | Yeni bir mövzunun çatdırılmasından sonra müəllim şagirdlərinə parta yoldaşlarına dönərək mövzuyla əlaqəli öyrəndiklərini onlara demələrini istəyər. |

Qaynaq: Emmer və Evertson, 2009.

Cədvəldə verilmiş strategiyalar sinif daxilində təhsilalanların akademik öyrənmə vaxtlarının səmərəli istifadəsi üçün müəllimlə yanaşı, müəllim tərəfindən təhsilalanlara məsuliyyət yükləməyin vacib olduğunu göstərməkdədir. Belə ki, əsas məqsəd təhsilalanın diqqətini mövzunun öyrənilməsinə və aktiv şəkildə öyrənmə fəaliyyətinə qatılmasını təmin etməkdir.

*b. Öyrənmə fəaliyyətində keçidləri idarə etmək;*

Dərsdə mövzuların izahı zamanı keçidlərin sürətli olması və ya keçidlər haqqında əvvəlcədən təhsilalanlara məlumat verilməməsi müəyyən problemlər yarada bilir. Bu problem daha çox hiperaktiv və fokuslanma problemi olan şagirdlərdə müşahidə olunur. Bu mövzuda aparılan tədqiqatlar müəllimlərin birinci fəaliyyəti dayandıraraq keçidi elan etməsi, sonra ikinci fəaliyyətə başlaması öyrənmə fəaliyyətini daha səmərəli edə bilir. Keçidlərin idarə edilməsi ilə əlaqədar cədvəl 2-də müəllimlərə bəzi strategiyalar təqdim edilmişdir.

Cədvəl 2. Öyrənmə fəaliyyətində keçidlərin idarə edilməsi

| **Keçid problemi** | **Təklif** |
|---|---|
| Dərsin başında şagirdlər yüksək səslə danışırlar. Müəllim davamiyyəti yoxlayarkən də bu vəziyyət davam edər və dərslə əlaqəli fəaliyyətə keçmək gecikir. | Şagirdlərin nələr etməli olduğunu açıq bir formada bildikləri başlanğıc rutini təşkil edin. Şagirdlərin dərhal başlayacaqları bir dərs fəaliyyəti müəyyən edin. |
| Şagirdlər dərslə əlaqəli fəaliyyət keçidlərində çox danışarlar. Xüsusi ilə bir fəaliyyət tapşırıldığı vaxt o fəaliyyətə başlayana qədər vaxt itkisinə səbəb olurlar. | Şagirdlərin fəaliyyətin nə olduğunu dəqiq bir şəkildə bilmələrini təmin edin. Bütün şagirdlərin eyni anda və tam şəkildə fəaliyyətə başlaması üçün ilk bir neçə dəqiqəyi və ya bir neçə məşqi bütün siniflə birlikdə edərək fəaliyyətə başlayın. Daha sonra sinifdə gəzərək, şagirdlərin fəaliyyətini izləyin, kömək edin və feedback verin. |
| Şagirdlər dərsin bitməsi ilə əlaqəli zil çalmamış dərsi buraxırlar və danışmağa və neqativ davranışlar sərgiləməyə başlayarlar. | Dərsin bitimi ilə əlaqəli olaraq bir rutin müəyyənləşdirin. Şagirdlər müəllimin işarət edənə qədər fəal olurlar, fəaliyyətini bitirənlər partalarını təmizləyirlər və əşyalarını toplayırlar. |
| Müəllim dərslə əlaqəli olaraq bir mövzudan digərinə keçmək istədiyi vaxt bəzi şagirdlər bu keçidi etməzlər və bir əvvəlki mövzu ilə əlaqəli | Müəllim, dərslə əlaqəli mövzunun bitməsini planladığı vaxtdan bir neçə dəqiqə əvvəl sinfə məlumat verir. Mövzu bitdikdə şagirdlər o mövzu ilə ilə əlaqəli ləvzimatları buraxmalı və digəri ilə əlaqəli |

| | |
|---|---|
| fəaliyyətə davam edərlər. Bu da bir sonrakı mövzunun başlamasını gecikdirir və qarışıqlığa səbəb olur. | ləvazimatları çıxarmalıdır. Müəllim bu keçidin bütün şagirdlər tərəfindən edildiyini izləməlidir. |
| Şagirdlər keçidlər vaxtı tez-tez partalarını tərk edə, sinif daxilində hərəkət edə, sual vermək üçün müəllim yanına gedə bilərlər. | Keçid vaxtı uyğun davranışların nə olduğunu açıqlayın və şagirdləri izləyin. Partalarını tərk etmələrini önləyərək qaydaları tətbiq edin. |
| Müəllim dərslə əlaqəli mövzuya başlamaq, mövzu ilə əlaqəli maddi-texniki ləvazimatları hazırlamaq, davamiyyəti yoxlamaq və ya fərdi olaraq bəzi şagirdlərlə danışmaq üçün gecikmələrə səbəbiyyət verə bilər. | Müəllim dərslə əlaqəli bütün materialları əvvəlcədən hazırlamalı və bir mövzudan digərinə keçərkən şagirdləri izləmə və idarə etmə bacarıqlarını əngəlləyəcək vəziyyətlərdən qaçınmalıdır. |

Qaynaq: Emmer və Evertson, 2009.

Sinfin idarə olunmasında dərsin mərhələləri arasında keçidlərin düzgün həyata keçirilməsi çox əhəmiyyətlidir. Əgər bu keçidlər düzgün və planlı olmazsa, öyrənmə fəaliyyətinə ayrılan vaxt səmərəsiz olacaqdır. Cədvəl 2-də vaxtın səmərəli idarə edilməsi və eyni zamanda təhsilalanların öyrənmələrində mövzu qarışıqlığının qarşısının alınması üçün mühüm strategiyalar təqdim edilmişdir.

Həm dərsin səmərəli keçməsi, həm də təhsilalanların akademik öyrənmə vaxtlarının təmin edilməsi məqsədi ilə müəllimlər dərsi vaxtında başlamaq və tez bitirməməyə diqqət yetirməlidirlər. Eyni zamanda müəllimlər şəxsi problemləri ilə dərsə gəlməmələri dərs üçün vaxt israfını əngəlləmiş olacaqdır. Müəllimin dərsə başlamazdan əvvəl həmin gün öyrəniləcək mövzu ilə əlaqəli məlumat verməsi və aktuallığını ifadə etməsi təhsilalanların öyrənmələrinə müsbət təsir edəcəyini nəzərdə saxlamalıdır (Erkılıç, 2020, s. 134).

**Dərsin sonunda vaxtın idarə olunması**

Bu mərhələ dərsin nəticələndirildiyi və qiymətləndirmənin aparıldığı vaxtdır. Dərsin sonunda mövzu mümkün olduğu qədər ümumiləşdirilməli və qısa təkrarların edilməsinə istiqamətlənən suallar verilməlidir. Dərsin təsirli və vaxt itkisi olmadan bitirilə bilməsi və bir sonrakı dərsin də eyni şəkildə başlaya bilməsi üçün aşağıdakılara diqqət edilməlidir (Burke, 2008):

1. Dərs sonunda sinif otağının ilkin formaya gətirilməsi;
   a. Bütün sıra və partalar əsas vəziyyətə gətirilir,
   b. Dərs materialları yerlərinə qoyulur.
2. Dərsi sonlandırılması üçün təxmin edilə biləcək prosedurların təşkil edilməsi;
   a. Dərsi zəng vurulduqda bitirin. Beləliklə təhsilalanların digər dərsə keçmələri üçün yetəri qədər vaxtları olar.

b. Dərsin sonunda etməli olduğunuz bütün işləri görə biləcəyiniz vaxt qalacaq şəkildə planlayın.

c. Mövzuların zəng vurulmadan bitəcəyi günlər üçün bir “B” planı hazırlayın. Bir oxuma mətni verilməsi, yazı tapşırığı və s.

3. Ev tapşırıqlarının verilməsi və izahı;

a. Ev tapşırıqlarını lövhəyə yazın, açıq və anlaşıqlı olması üçün maddələr halında izah edin.

b. Şagirdlərin ev tapşırıqlarını dəftərlərinə yazmalarını tələb edin.

c. Ev tapşırığının detallarını və tarixi ilə bağlı əsas məlumatları açıqlayın.

Müəllim dərsin sonuna doğru vaxtdan daha səmərəli istifadə etməlidir. Vaxtdan düzgün istifadə edilmədikdə, təhsilalanın tənəffüs vaxtı və ya dərsi tez bitirməsi kimi hallar yarana bilər. Ümumilikdə sinifdə dərs vaxtının təsirli və səmərəli istifadəsinə mane olan hadisələrin tezliyini və dərsin hansı mərhələsində olduğunu bilmək lazımdır. Dərsin əvvəlində, dərs zamanı və sonunda tətbiqlərin hansı vaxt itkisinə səbəb olduğunu bilmək, qarşı tədbirlərin görülməsini və dərs vaxtının tədrisin məqsədlərinə uyğun istifadəsini təmin edəcəkdir. Beləliklə, bu, təhsilin keyfiyyətinin yüksəldilməsinə öz töhfəsini verəcəkdir.

**Sinifdə vaxtın idarə olunması ilə bağlı təkliflər**

- Dərsə planlı və hazırlıqlı başlamaq.
- Planın ana xətlərini müəyyən edərək qeydlər aparmaq.
- Planın tətbiq ediləbilənliyini təmin etmək üçün hər dərs sonrası plana yenidən nəzər salmaq.
- Dərsə vaxtında başlayıb, tez qurtarmamaq.
- Dərsə vaxtın böyük bir qismini akademik öyrənməyə sərf etmək.
- Sinifdaxili qaydaları təhsilalanların iştirakı ilə müəyyən etmək.
- Sinifdə müsbət iqlimin formalaşmasını təmin etmək.
- Dərslə əlaqəli maddi-texniki ləvazimatları əvvəlcədən istifadəyə hazır vəziyyətə gətirmək.
- Dərsin məqsəd və mövzusuna uyğun öyrənmə fəaliyyəti və metodu müəyyənləşdirmək.
- Dərsin işlənməsi vaxtı dəyişik öyrənmə metodlarından istifadə edərək, canlılıq və axıcılıq təmin etmək.
- Təhsilalanları mümkün olduğu qədər qısa vaxtda tanımağa çalışmaq.
- Məlumatların çatdırılması, digər tapşırıqlar və s. mövzuları dərsin sonunda yerinə yetirmək.
- Dərsi müsbət mesajlarla bitirmək. Beləliklə gələcək dərsə müsbət iqlimi təmin etmək (Erkılıç, 2020, s. 136).

# ŞAGİRDLƏRLƏ ÜNSİYYƏT QAYDALARI

- Cəfər Mənsimi -

*Eyni dili danışanlar yox, eyni duyğuları paylaşanlar anlaşa bilərlər.*

*Mevlana*

Kommunikasiyanın ən çox baş verdiyi yerlərdən biri təhsil müəssisələri sayılır. Bəs müəllimlər şagirdləri ilə necə daha səmərəli ünsiyyət qura bilərlər? Şagirdlərlə ünsiyyət zamanı hansı qaydalara əməl etmək effektivliyi artırır? Müəllimlərin şagirdlər ilə ünsiyyətini effektiv edən hansı amillər var? Ümumiyyətlə, kommunikasiyada tez-tez edilən səhvlər hansılardır? Bu yazıda bu və digər sualların cavabına toxunulacaq. Beləcə, effektiv ünsiyyət texnikaları ilə tanışlıq şagirdlərinizin qabiliyyətlərinin üzə çıxarılmasına, onların özlərini kəşf etməsinə daha çox dəstək ola, onların fərdi ehtiyaclarının qarşılanmasında müstəsna rol oynaya, bir sözlə, şagirdlərin səmərəli öyrənmə prosesinin təminatçısı ola bilərsiniz.

Gəlin, effektiv ünsiyyət texnikaları ilə tanış olmadan öncə kommunikasiyanın nə olduğuna toxunaq.

**Kommunikasiya nədir?**

Kommunikasiya məlumat, düşüncə və duyğuların müxtəlif vasitələrlə (söz, yazı, görüntü, hərəkət və s.) qarşılıqlı olaraq çatdırılmasıdır. Kommunikasiya harmonik rəqsə də bənzədilir. Çünki ünsiyyət harmoniyaya əsaslanmalıdır. Kommunikasiya həmçinin ortaq məna yaratmaq prosesidir.

Kommunikasiyanın müxtəlif məqsədləri var. Bu məqsədlər aşağıdakı kimi sıralana bilər:

- Anlaşmaq, başa düşülmək, ortaq nöqtəni tapmaq
- Məlumat vermək
- İdarə etmək
- Motivasiya vermək, ruhlandırmaq
- Ortaq məna yaratmaq
- Hərəkətə gətirmək, təsir etmək və s.

Deməli, kommunikasiyada əsas açar sözlərdən biri qarşılıqlı əlaqə və ortaq mənanın yaradılmasıdır. Həmçinin əsas məsələ niyyətin və məqsədin doğru müəyyənləşdirilməsidir. Həqiqətənmi ünsiyyət qurmaq istəyirik? Niyyətimiz nədir?

**Təhsildə kommunikasiya prosesi**

Təhsildə kommunikasiya prosesi 5 mərhələdən ibarətdir. Göndərən, mesaj, kanal, alıcı, əks-əlaqə. (Ankara Universiteti). Gəlin, bunları bir-bir araşdıraq.




1. ***Göndərən.***

Təhsildə kommunikasiya prosesinin birinci mərhələsi göndərəndir. Çünki kommunikasının başlaması üçün mesajı göndərən şəxsə ehtiyac var. Göndərən şəxs, qrup və ya qurumdur. Təhsil prosesində göndərən adətən müəllim sayılır. Göndərənin əsas xüssusiyyətləri aşağıdakı kimi sadalana bilər:

- Göndərən çatdırmaq istədiyi mesaj barədə məlumatlı olmalıdır.
- Alıcı tərəfindən rəğbətlə qarşılanmalı, sevilməlidir. Əks halda mesaj qarşı tərəfə təsirsiz bir formada çatır.

2. ***Mesaj.***

Təhsildə kommunikasiya prosesinin ikinci mərhələsi mesaj sayılır. Mesaj isə məzmundur. Göndərən tərəfindən verilən mesaja orijinal, alıcının başa düşdüyü mesaja isə

qavranılan mesaj deyilir. Burada əsas məsələ orijinal mesaj ilə qavranılan mesaj arasında fərqin azaldılmasıdır. Bunun üçün göndərilən mesaj anlaşılan və açıq olmalı, doğru zamanda qarşıdakı şəxsə çatdırılmalıdır. Mesajdan danışmışkən unudulmamalıdır ki, göndərilən mesaj qarşı tərəfə olduğu kimi çatmır. Çünki alıcı mesajı öz dəyər, təcrübə, baxış bucağından keçirir. Eləcə də mesaj çatdırılarkən müxtəlif gurultular baş verə bilər. Məsələn, sinifdə səs-küy, distant təhsildə internetin kəsilməsi və s.

Mesajın çatdırılması zamanı Mevlananın "Nə söyləyiriksə, qarşmızdakının başa düşdüyü qədərdir" fikri nəzərə alınmalıdır. Bu fikri bir tapşırıqla izah etmək yerinə düşər. Bunun üçün sizə auditoriyadan seçdiyiniz 7 şagird lazımdır. Həmin 7 şagirdin biri sinifdə digərləri isə çöldə gözləməlidir. Siz sinifdəki şağirdə bir hekayə və ya real hadisə danışmalısınız. Bundan sonra çöldə gözləyən bir şagirdi dəvət etməlisiniz. Hekayəni danışdığınız şagird yadında qalanları sinif yoldaşına danışmalıdır. Eyni qaydada proses davam etməli, hekayəni dinləyən digər şagirdlərə yadında qalanlar ötürməlidir. Özünüz də şahidi olacaqsınız ki, hekayə bir şəxsdən digərinə çatdırılarkən qırılır, hətta bir çox hallarda tamamilə başqa bir səmtə yönəlir.

Şagirdləriniz ilə bu tapşırığı sınaqdan keçirərkən ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəlliminə göndərdiyi məktubu istifadə edə bilərsiniz:

> Hörmətli müəllim! Oğlumu sizə əmanət edəcəyimə görə bu məktubu sizə yazmağı vacib bildim. Ona öyrədin ki, hamı dürüst və ədalətli deyil. Ona öyrədin ki, qazanılan bir dollar tapılan beş dollardan daha dəyərlidir. İtirməyi, həm də qazanmaqdan həzz almağı öyrədin ona. Onu qısqanclıqdan uzağa yönəldin. Ona səssiz gülüşün sirlərini öyrədin. Əgər bacara bilsəniz, ona kitabların möcüzəli bir nemət olduğunu öyrədin. Ona səssizlikdə göydəki quşların, günəşdəki arıların, çəmənlikdəki güllərin daxili sehrinə enməyi öyrədin. Öyrənsin ki, məktəbdə səhv etmək hiylə gəlməkdən daha şərəflidir. Hamı onun səhv olduğunu desə də, öz fikirlərinə inanmağı, nəzakətli insanlara qarşı nəzakətli, kobudlara qarşı kobud olmağı öyrədin. Hamı bir-birinə yapışıb gedəndə kütləyə qoşulmayıb öz yolu ilə getmə gücü verin oğluma. Bütün insanlara qulaq asmağı, qulaq asdıqlarını həqiqət ələyindən keçirib ancaq yaxşıları özünə götürməyi öyrədin. Bacarsanız, kədərləndiyi zaman belə, necə gülə biləcəyini öyrədin ona. Ağlamağın utandırıcı bir şey olmadığını, gücünü və beynini ən yüksək qiymət təklif edənə satmağı, ancaq ürəyinə və ruhuna qiymət etiketi qoymamağı, əgər özünün haqlı olduğuna inanırsa, dimdik ayaqda qalıb mübarizə aparmağı öyrədin ona. Ona qarşı mehriban olun, amma qucaqlamayın, çünki ancaq odun qığılcımı poladı saflaşdırır. Qoyun səbrsiz olacaq qədər cəsarətə sahib olsun və qoyun cəsur olacaq qədər səbrli olsun. Ona həmişə özünə inanmağı öyrədin, bu yolla onun bəşəriyyətə inamı daimi olacaq. Bütün bu sadaladıqlarım bəlkə də çox böyük tələbdir. Lakin özünüz baxın, nə qədərini bacarırsınız.

***3. Kanal.***

Kanal təhsildə kommunikasiya prosesinin növbəti mərhələsidir. Kanal mesajı qaynaqdan alıcıya çatdıran vasitədir və hansı yolla sualına cavab verir. Bu, müəllimin strategiya və vasitələri hesab edilir. Rəsmi və qeyri-rəsmi kanallar mövcuddur. Rəsmi kanallar iclas və s. sayılır. Qeyri-rəsmi kanallar isə sinifdənxaric fəaliyyətlər, gəzintilər və s. Rəsmi və qeyri-rəsmi kanalların harmoniyası ünsiyyətdə effektivliyi artıra bilər. Məsələn, iclasların təbiət qoynunda, qeyri-standart formada keçirilməsi kimi.

***4. Alıcı***

Göndərən tərəfindən mesajı qəbul edən şəxsə alıcı deyilir. Alıcı hədəfdir. Təhsil prosesində alıcı adətən şagirdlər olur. Hədəf kütlənin mesajı qavraması və hərəkətə keçməsi gözlənilir. Alıcı yaxşı dinləyici olmalıdır. Bir az irəlidə yaxşı dinləyicinin xüsusiyyətlərinə toxunulacaq.

***5. Əks-əlaqə***

Göndərən və alıcı arasındakı ünsiyyətdə alıcının cavabına əks əlaqə deyilir. Əks-əlaqə təsirin nə olduğunu ölçür. Əgər əks-əlaqə baş verməsə, bu birtərəfli ünsiyyət adlanır və belə ünsiyyət effektiv hesab edilmir. Çünki mesajın başa düşülüb düşülmədiyi əks-əlaqə sayəsində məlum olur. Buna görə göndərən əks-əlaqənin qurulmasına maraqlı olmalıdır. Əks-əlaqədən danışmışkən, gəlin, bu yerdə yada salaq: Ən çox xatırladığınız müəlliminiz kim olub? Həmin müəllimi hansı xüsusiyyətlərinə görə xatırlayırsınız?

> Şagirdlərinizin gözündə necə bir müəllim olduğunuzu və ya onların necə bir müəllim arzuladığını müyyənləşdirmək üçün isə sinifdə anonim bir sorğu keçirə bilərsiniz. Belə bir sorğu şagirdlərinizə onların fikirinin sizin üçün nə qədər əhəmiyyətli olduğunu ötürməklə birlikdə həm də sizin inkişafa maraqlı olduğunuz mesajını da çatdırır.

**Ünsiyyətdə tez-tez edilən səhvlər**

Müxtəlif tədqiqatlar göstərir ki, adətən ünsiyyət qurulmur, sadəcə danışılır, hansısa məlumat birtərəfli olaraq çatdırılır. Bu, ünsiyyət zamanı edilən əsas səhv olaraq göstərilir. Aşağıdakı məqamlar effektiv olmayan ünsiyyətin digər göstəriciləridir.

- Əsas mesaj və mövzudan kənara çıxmaq
- Davamlı danışmaq, qarşıdakına söz haqqı verməmək
- “Bəs sizcə?” sualından qaçmaq

- Əmr vermək
- Həmsöhbətdən üstün olmağı göstərmək, öz marağını daha üstün tutmaq
- Önmühakiməli davranmaq
- Hədələmək
- Lağlağı yanaşmaq
- Mesajı neqativin üzərində qurmaq
- Empatiya göstərməmək
- Ad ilə xitab etməmək
- Söz kəsmək
- Təbəssüm etməmək
- Emosiyanı nəzarətdə saxlamamaq, hirsli vaxtda cavab vermək
- Müşahidə etməmək
- Səmimi olmamaq
- Anlamaq üçün dinləmək yerinə danışmaq üçün cəhd etmək
- Qarşıdakına inanmamaq.

Bütün bunların əksi effektiv ünsiyyətin əsas sirlərindən hesab edilir və siz bunların əksini şagirdlərlə ünsiyyət zamanı tətbiq etsəniz ünsiyyətinizə bal qata bilərsiniz.

Yeri gəlmişkən, təcrübə göstərir ki, insanlar ünsiyyətdə olarkən anlamaq üçün dinləmir, cavab vermək üçün dinləyirlər. Halbuki ünsiyyətdə ən önəmli məqamlardan biri yaxşı dinləyici olmaqdır. Bəs yaxşı dinləyici olmağın xüsusiyyətləri nələrdir?

**Yaxşı dinləyicinin xüsusiyyətləri**

- Dinləməyi yaxşı bacaranlar "Danışaraq bildiklərini təkrarlayırsan, dinləyərkən isə yeni məlumatlar öyrənirsən" fikrini əsas tezis kimi mənimsəyiblər.
- Göz təması qururlar.
- Anlamaq üçün dinləyirlər.
- Duyğuları başa düşməyə çalışırlar.
- Sözə diqqət etdikləri qədər jestlərə də diqqət edirlər.
- Dinlədiklərini göstərən təsdiqləyici ifadələrdən istifadə edirlər.
- Qeydlər götürür, suallar verirlər.

**Effektiv sual üçün bəzi ipucları**

Ən yaxşı söhbət yaxşı bir sualla başlayır, deyirlər. Bəs effektiv sual vermək üçün hansı məqamlar önənmlidir?

- Nəzarətə yox, kəşfə söykənərək sual vermək (Məsələn, bəs sizcə, necə, niyə və s.)
- Bəli, xeyr cavabı olan suallardan qaçmaq
- Bəs sizcə, niyə və necə suallarına üstünlük vermək.

Sual verərkən bəzi sualların birləşdirici, bəzi sualların isə ayırıcı funksiyası unudulmamalıdır. Çünki təhdidedici suallar münasibəti korlayır, kəşfə, qarşıdakını tanımağa, prosesi daha yaxşı başa düşməyə çalışan suallar isə münasibətlərə istilik qatır. Məsələn, "Bunu kim edib?" yerinə "Məsələnin həlli üçün nə təklif edirsiniz?" sualı daha effektlidir.

Yeri gəlmişkən, gəlin, aşağıdakı iki sualın fərqinə baxaq.

- Sizcə, sinfimizdə hansı boşluqlar var?
- Sizcə, sinfimizdə hansı istiqamətlərin inkişafına ehtiyac var?

Bu iki sualın məqsədi əslində eynidir. Amma ikinci sual birinci sualı özündə ehtiva edir. Həmçinin birinci sual sadəcə problemə, ikinci isə təklifə və təkmilləşməyə söykənir. Deməli, sual verədən öncə həmin sualı daha fərqli formada necə vermək olar barəsində düşünmək ünsiyyətdə səmərəliliyi artıra bilər.

Bir sözlə, ünsiyyəti effektiv edən, ünsiyyətə bal qatan bəzi məqamları heç vaxt unutmayın:

- Effektiv sual vermək
- Önəmlisən mesajı, təşəkkür etmək
- Həmsöhbətini söhbətin bir parçasına çevirmək
- Açıq və anlaşılan mesajlar vermək
- Başa düşülüb düşülmədiyinə nəzarət etmək
- Aktiv dinləyici olmağa köməklik etmək
- Töhfə vermək, ruhlandırmaq, pozitiv mesaj vermək

Ünsiyyətə bal qatanlardan olun.

# SİNFİN İDARƏ OLUNMASINDA SİNİF OTAĞININ STRUKTURU

- Qoşqar Məhərrəmov –




Müəllimin effektiv fəaliyyətinin zəmanətlərindən biri də sinif otağının dizaynıdır. Sinif otağının düzgün təşkili şagirdlərin öyrənməsinə birbaşa təsir edir.

Sinif otağının tərtibatı sadəcə stulların yenidən yerləşdirilməsi məsələsi deyil, istədiyiniz nəticələrə nail olmaq üçün sinif otağını qəsdən yenidən təşkil etmək məsələsidir. Müəllimin sinif otağını necə yenidən təşkil etməsi onun şəxsi fəlsəfəsindən, nail olmağa çalışdığı məqsədlərdən və tədqiqatlarla isbat olunmuş bəzi ən yaxşı təcrübələrdən asılı olmalıdır. Hər bir halda hansı elementlərin sinif dizaynına təsir etdiyinə dair biliklərə malik olmaq vacibdir.

**Sinif planının əsasları**

Tədqiqatlar göstərir ki, sinif otağının necə təşkil olunduğu şagirdin öyrənməsinə 16% təsir edir. Sinif otağı təşkil edərkən müəllimlər bir sıra ətraf mühit amillərini, o cümlədən işıqlandırma, temperatur, hətta havanın keyfiyyəti və sinifdə istifadə olunan rəngləri nəzərə almalıdırlar. Bir çox müəllimlər üçün bu amillərin hər birini nəzərə almaq qeyri-mümkün ola bilər. Lakin, nəzərə almaq lazımdır ki, sinif otağının dizaynı şagirdlər arasında akademik nəticələrin artırılması üçün vacibdir.

Onlayn dərslərdə müəllimlərin ən çox şikayət etdiyi məqamlardan biri də şagirdlərin diqqətini dərsə cəlb etməyin çətinliyi ilə bağlıdır. Əlbəttə, əyani dərslərdə şagirdin diqqətini dərsə yönəltməsinə nail olmaq o qədər də çətin deyil, lakin ekranın o biri üzündə, fiziki cəhətdən yaxınlaşa bilmədiyiniz, ayrı-ayrı məkanlarda yerləşən şagirdlərin diqqətini eyni bir yerə yönləndirmək o qədər də asan deyil.

Kamera qarşısında əyləşən şagirdin dərsə qulaq asıb-asmadığını necə müəyyən etmək olar? Əvvəla, öz kameranızı həmişə açıq saxlayın və bunu şagirdlərdən də tələb edin. Əgər şagirdin baxışları həmişə aşağı yönəlirsə (çox güman ki, şagird yazır, planşet və ya telefonda nə isə başqa bir iş görür), kompüterin ekranından şagirdin üzünə sizin nümayiş etdirdiyiniz təqdimatın rəngindən fərqli işıq düşürsə (kompüterdə başqa iş görür və ya oyun oynayır), sinfə ünvanladığınız suallara cavab vermirsə, çox böyük ehtimalla şagirdin fikri dərsə yönəlməyib, kompüter arxasında oturmasına baxmayaraq, başqa bir iş görür və ya oyun oynayır.

Dərsin mövzusuna aid qısa video nümayiş etdirib sonra videoya qulaq asıb-asmadıqlarını müəyyən etmək üçün şagirdlərə videoda bəhs olunan mövzuya aid suallar verin. Təbii ki, qulaq asmayan şagird videoda nədən bəhs edildiyini bilməyəcək. Eyni işi izah etdiyiniz mövzu haqqında asan suallar verib, aldığınız cavablara görə müəyyən edə bilərsiniz.

Açıq və tünd rəngli slaydların növbələşdiyi təqdimatlardan istifadə etsəniz, kompüterin ekranından şagirdin üzünə düşən işığın slaydın parlaqlıq dərəcəsi ilə uyğun olub-olmamasını müəyyənləşdirə bilərsiniz. Əgər şagird Sizin paylaşımınıza baxırsa, açıq və tünd rəngli slaydlar növbələşdikcə, ekrandan şagirdin üzünə düşən işıq da dəyişəcək. Şagird ekranda Sizin paylaşdığınız slaydı yığışdırıb başqa bir işlə məşğul olursa, (oyun oynayır və ya digər iş görür) Sizin slaydları dəyişmənizə baxmayaraq, ekrandan şagirdin üzünə düşən işığın parlaqlığında fərq hiss olunmayacaq. Bu, günün qaranlıq vaxtlarında daha aydın hiss olunur.

Müasir dövrdə uşaqların kompüteri idarə etmək bacarığı pis deyil, lakin ilk dərslərdə şagirdlərə proqramın iş prinsipini öyrətmək lazımdır ki, sonradan texniki problemlər onun vaxtını çox almasın. Valideynlər uşağın istifadə etdiyi kompüterdə digər proqramların bağlı olmasına diqqət yetirməlidirlər.

Dərsin əvvəlində müəllim dərsin planını elan etməli, nəyi öyrənəcəklərini deməli, hansı tapşırıqları həll edəcəklərini bildirməlidir.

Müəllim hər bir hərəkətini, xüsusilə də ekranda görünməyən hərəkətlərini şərh etməlidir. Məsələn, "mən indi sizə slayd nümayiş etdirəcəm", "kamera ilə bağlı problemi həll edirəm" və s.

Distant dərslərdə intonasiya xüsusi rol oynayır. Səs tonunu yüksəldib-azaltmaq diqqəti cəlb etməyin bir üsuludur.

Müəllimlərdən biri hərdənbir şagirdlərə astaca "əlləri qaldırın" deyə müraciət edərək, əl qaldırmayan şagirdlərin dərsə qulaq asmadığını müəyyən etdiyini bildirmişdi.

Onlayn dərsdə şagirdlərin diqqətini dərsə yönəltmək üçün onları dərs prosesinə maraqlandırmaq lazımdır. Şagirdlərin mühazirə şəklində keçilən dərsə maraqla qulaq asmasını gözləmək sadəcə sadəlövhlükdür. Dərsdə aktivliyi sabit saxlaya bilmək üçün qısamüddətli fasilələr verib maraqlı məlumatlar müzakirə edin, kiçik yaşlı uşaqlar üçün oyunlar, yuxarı sinif şagirdləri üçün isə musiqi fasiləsi təşkil etməklə şagirdləri darıxmağa qoymayın.

Əks-əlaqəni təmin edin. "Düzdür, yoxsa səhv", "bu fikirlə razısınız, yoxsa yox?" tipli suallar verib "chat" hissəsində "+" və ya "–" işarələri qoymaqla cavablandırmalarını istəyin.

Arxa fonda pərdəsiz pəncərə, kitab və ya digər əşyalar yığılmış şkaf, hərəkətli, rəngarəng əşyalar (məsələn kəfkirli saat), rəsm əsərləri, ümumiyyətlə, şagirdin fikrini cəlb edəcək heç bir şeyin olması (dərsin mövzusuna uyğun fonlar istisna olmaqla) məqsədəuyğun deyil. Birrəngli fon qarşısında əyləşin və ya dərsin mövzusuna uyğun virtual fondan (Virtual Backgrounds) istifadə edin.

Slaydlardan istifadə edin. İnsan eşitdiklərinin 15%-ni, gördüyü və eyni zamanda eşitdiyinin 65%-ni yadda saxlayır. Nümayiş etdirdiyiniz slaydların rəngarəng olması şagirdlərin diqqətini dərsə cəlb etməyə kömək edəcək.

Distant təhsilin imkan verdiyi üsullardan yararlanmağa çalışın. Veb 2, Veb 3 alətlərindən mümkün qədər çox istifadə edin. Onlayn dərslər sizə əyani dərslərdə olmayan imkanlar verir. Belə ki, internet resurslarından mövzuya uyğun materiallar tapıb nümayiş etdirmək əyani dərslərdə olduğundan daha asandır.

Kənar səslərin (əks-səda, telefona/kompüterə gələn bildirişlər) qarşısını alın. Bunun üçün özünüzə ev heyvanlarının, digər otaqdakı televizorun səsinin, evdəkilərin danışığının eşidilməyəcəyi sakit məkan seçin. Kompüterinizdə WhatsApp, Facebook Messenger kimi səsli bildirişlər gələ biləcək proqramları bağlayın. Əgər bu proqramların Sizə şagirdlərlə əlaqə saxlamaq üçün lazım ola biləcəyini düşünürsünüzsə, onları səssiz rejimə qoyun.

Ekran paylaşımı etdikdə bütün ekranı deyil, nümayiş etdirəcəyiniz slaydları paylaşın. Çünki, dərs zamanı elektron resurslar arasında keçid edərkən, kompüterinizdə olan kontaktlar, yazışmalar kimi şəxsi məlumatlarınız şagirdlərin ekranında görünə bilər. Təsəvvür edin ki,

kompüterin bütün ekranını paylaşmısınız, bu zaman hər hansı saytdan ekrana xoşagəlməz məzmunlu bildiriş çıxır və ya tanışınızdan başqasının bilməsini istəmədiyiniz mesaj gəlir. Bu bildiriş və mesajlar bütün şagirdlərin kompüterlərinin ekranında paylaşılmış olarsa, ən yaxşı halda şagirdlərin diqqətini dərsdən yayındıracaq. Pis halda isə...

Dərsin vedeoyazısını aparın. Bu, dərs zamanı qoşula bilməyən və dərsi tam mənimsəməyən şagirdlərə dərsi sonradan izləmək imkanı verəcək.

Sinfə suallar verərkən, onu çat bölməsinə yazsanız yaxşı olar.

Qaydalara əməl etməyən şagirdləri hamının qarşısında danlamayın, "çat" hissəsində özünə yazmaqla xəbərdarlıq edin.

Şagirdlərin mikrofonları lazım olduqda açıb-bağlamalarına xüsusi diqqət yetirin. Ekran paylaşmaq funksiyası yalnız sizdə olmalıdır. Hər bir şagirdə ekran paylaşmağı lazım olduğu zaman verin. Əks halda, şagirdlər səhvən öz kompüterinin ekranını paylaşa bilər. Onların səhvən paylaşdığı məzmun bütün dərsinizi korlaya bilər.

Şagirdlərə çatdırmaq lazımdır ki, onlayn dərslərdə davranış qaydaları məktəblərdəki qaydalardan o qədər də fərqlənmir. Nəzakətli olmalı, özünüzə və başqalarına hörmət etməli, həmsöhbətlərinizi incitməməli, xoş ünsiyyət qurmalısınız. Bu sadə qaydalara riayət etməyin onlara dərslərin materialını daha yaxşı mənimsəməyə və distant təhsil prosesini daha səmərəli etməyə imkan verəcəyini bildirin. Şagirdlərə izah edin ki, bu qaydalara riayət etmək cəmiyyətdəki davranış qaydalarına riayət etmək qədər zəruridir.

İlk onlayn dərslərə başlayan zaman qaydalar tərtib edin və onu şagirdlərlə müzakirə edin. Qaydaların tərtibində şagirdlərin fikirlərini də mütləq nəzərə alın. Qaydaları tərtib edərkən aşağıdakı nümunələrdən istifadə edə bilərsiniz.

**Onlayn dərslərdə şagirdlər üçün qaydalar:**

– Nəzakətli olun. Dərsə başlamazdan əvvəl salamlaşmaq, sonda isə sinif yoldaşları və müəllimlərlə sağollaşmaq lazımdır.

– Hər hansı səbəbdən dərsi daha tez tərk etmək məcburiyyətində qalırsınızsa, digər şagirdlərin diqqətini yayındırmadan bu barədə çat bölməsində müəllimə yazmaq lazımdır.

– Dərsdə aktiv iştirak edin. Dərs zamanı mövzu ilə bağlı suallar verə, məlumatı dəqiqləşdirə bilərsiniz. Bunun üçün "əl" işarəsini vurmaqla sual vermək istədiyinizi müəllimə bildirin. Müəllimin icazəsindən sonra sualınızı verin və dərhal "əl" işarəsini söndürün. Əl işarəsini söndürməsəniz, müəllim elə düşünəcək ki, Sizin yeni bir sualınız var.

– Müəllimin Sizə ünvanlandığı suallara cavab verməlisiniz.

– Dərs başlamazdan əvvəl və fasilələrdə öz aranızda sərbəst ünsiyyətdə olub söhbət edə bilərsiniz, lakin yadda saxlayın ki, söhbətinizi sinif yoldaşlarınızın ailə üzvləri, valideynləri də eşidə bilərlər. Müəllim dərsə daxil olan kimi, hətta dərs başlamayıbsa belə, bütün söhbətlər dərhal dayandırılmalıdır.

– Düzgün yazmaq lazımdır. Ədəbiyyat və ya fizika dərsində olmasından asılı olmayaraq hər zaman orfoqrafiya və durğu işarələrinə əməl edilməlidir.

– Mesajlarda Caps Lock düyməsini istifadə etmək tövsiyə edilmir. Böyük hərflə yazılmış mətn qışqırıq kimi qəbul edilir və siz sinifdə qışqırmamalısınız. Eyni qayda "emoji"lərdən istifadəyə də aiddir.

– Çat bölməsinə bir sualı bir neçə dəfə yazmaq "daşqın" effekti yaradır.

– Başqalarını təhqir etmək olmaz. İnsanların şərəf və ləyaqətini alçaldan (o cümlədən irqi, etnik və dini zəmində) ifadələr işlətmək qəti olaraq yolverilməzdir.

– Səhvən olsa belə, təhqiredici söz və ifadələrdən istifadə etmək Sizi məsuliyyətdən azad etmir.

– Mübahisələrə girmək olmaz. Müəllimə, moderatora və digər şagirdlərə qarşı kobud davranış yolverilməzdir.

– Kənar mövzularda ünsiyyət qurmayın, dərsin mövzusu ilə bağlı olmayan mesajlar yazmayın.

– Müəllimin göstərişlərinə qeyd-şərtsiz əməl edin. Nə vaxt və kimin cavab verəcəyini və ya kimin ekran görüntüsünü paylaşacağını müəllim müəyyən edir.

– Özünüzə rahat və sakit dərs mühiti yaradın, təhsil prosesindən yayındıra biləcək bütün obyektləri, həmçinin kiçik qardaş və ya bacılarınızı, ev heyvanlarını otaqdan çıxarın.

– Səssizliyi təmin edin. Telefon və ya kompüterinizdə digər proqramları, messencerləri və saytları bağlayın ki, həm fikriniz dərsdən yayınmasın, həm də, Sizə gələn bildirişlərin səsi digərlərinin diqqətini dağıtmasın.

– Dərsdən əvvəl iş masanızı, yazı materiallarını, dərslik və s. hazırlayın.

– Diqqətinizi kənar məsələlərlə yayındırmayın,

– Kameranı açıq saxlayın, müstəsna hallarda, kameranı açmaq mümkün olmadıqda, müəllimə əvvəlcədən məlumat verin;

– Mikrofonu yalnız müəllim danışmağa icazə verdikdə aça bilərsiniz

– Uyğun olmayan profil şəkillərindən istifadə etməyin.

– Digər şagirdlərin fikrini yayındıra biləcək hərəkətlər etməyin

– Dərs başlamazdan əvvəl mikrofon və kameranın işləməsini yoxlayın

– Dərs zamanı texniki problemlər yarandıqda – səs, görüntü itdikdə, əlaqə qırıldıqda səs-küy salmayın, əlaqənin bərpasını gözləyin. Əlaqə bərpa olunmursa, proqramı yenidən işə salın, əgər qoşulmaq mümkün olmursa, müəllimə yazaraq problemi bildirmək və ya sinif rəhbəri ilə əlaqə saxlamaq tövsiyə olunur (SMS, WhatsApp və s. vasitəsilə).

– Əgər hər hansı səbəbdən onlayn dərsdə iştirak edə bilməmisinizsə, dərsin videoyazısına baxın. Ev tapşırıqlarını "çat" bölməsindən və ya sinif yoldaşlarınızdan öyrənə bilərsiniz.

– Dərsə gecikməyin, dərs vaxtı məhduddur!

– Dərs zamanı mobil telefondan qoşulmursunuzsa, onun, ümumiyyətlə dərs zamanı səs-küy yarada bilən bütün cihazların səsini söndürün.

– Dərs zamanı yemək və ya saqqız çeynəmək olmaz.

– Dərsin mövzusuna aid olmayan suallar verməyin.

– Üzrlü səbəbdən dərslərdə iştirak edə bilmirsinizsə, bu barədə dərs başlamazdan əvvəl məlumat verin.

– Dərs zamanı dərsi pozmağa yönəlmiş manipulyasiyalar (ekranda rəsm çəkmək, bir-birinin sözünü kəsmək, qışqırmaq və s.) olmaz.

– Çat fikir mübadiləsi, sürətli suallar və cavablar üçün bir vasitədir. Lakin yadda saxlamaq lazımdır ki, bura hər kəsin sizin söhbətinizi görə biləcəyi ümumi məkandır, ona görə də ümumi qəbul edilmiş ünsiyyət qaydalarına riayət etmək lazımdır.

Şagirdlər üçün qaydaları ilk bir neçə dərsinizdə dərsin əvvəlində ekranda paylaşın ki, şagirdlər bu qaydaları öyrənsinlər və unutmasınlar. Sonralar hər dərsdə buna ehtiyac olmasa da vaxtaşırı olaraq xatırlatmağı unutmayın. Öz fənninizin xüsusiyyətlərinə, şagird kontingentinə, şagirdlərin yaş xüsusiyyətlərinə uyğun olaraq qaydalara əlavə və dəyişikliklər edə bilərsiniz.

**Onlayn dərslərdə Web 2.0 texnologiyalarının tətbiqi**

Qloballaşma proseslərinin inkişafı təhsilin məzmununda və təşkilində müəyyən dəyişikliklər tələb edir. Dəyişikliyin əsasını sürətlə artan informasiya axını təşkil edir. Bu artım elə sürətlə baş verir ki, köhnə üsullara əsaslanan təhsil sistemi artıq bunun öhdəsindən gələ bilmir. Mənimsənilən biliklərin həcminin artırılması tədris yükünün həddindən artıq çoxalmasına gətirib çıxarır, şagirdin sağlamlığına mənfi təsir göstərir, lakin istənilən nəticəni vermir. Buna görə də bir çox ekspertlər hesab edirlər ki, dünyada baş verən proseslərlə əlaqədar informasiya texnologiyalarının hazırkı inkişaf səviyyəsini nəzərə almaqla təhsili kökündən transformasiya etmək lazımdır. Təhsilin əsasını insanlar - müəllimlər və şagirdlər, eləcə də şagirdlərin özləri arasında qarşılıqlı əlaqə təşkil edir. İnformasiya texnologiyaları məhz bu ünsiyyəti son dərəcə effektiv edə bilən vasitədir. İnformasiya texnologiyaları insan ünsiyyətini əvəz etmir – o, müəyyən texniki problemləri həll etməklə, diqqəti konseptual fikirlərə cəmləməyə imkan verir. Bu cür texnologiyaların istifadəsi geniş imkanlara malikdir.

Son illərdə İnternetin inkişafının əsas ideyalarından biri Web 2.0 konsepsiyası olmuşdur. Veb 2.0 termini 2004-cü ilin oktyabrında təşkil edilmiş Web 2.0 konfransında (http://www.web2con.com) yaranmışdır. Veb 2.0 konsepsiyasının nə olduğunu izah etməyə çalışaq: İnternet şəbəkəsinə çıxışı olan istənilən şəxs internetdən hər hansı məlumatı əldə edə, onunla tanış ola, endirə – başqa sözlə, internet resurslarında olan materiallardan istifadə edə bilər. Onları yaratmaq üçün isə vebmasterlərə müraciət etmək lazım gələcək. Bu, veb 1.0 deməkdir. Veb 2.0 isə interaktivlik, internetdə fərdi və ya kollektiv şəkildə öz məhsulunu yaratma imkanı deməkdir. Veb 2.0, daha çox insan istifadə etdikcə daha da təkmilləşən sistemlərin layihələndirilməsi üçün bir texnikadır. Veb 2.0 istifadəçinin harada olmasından asılı

olmayaraq məlumatı ona ən yaxşı şəkildə çatdırmağa imkan verən xidmətlərin aktiv istifadəsi deməkdir. Bu cür xidmətlər real vaxt rejimində dialoq aparmağa imkan verir ki, bu da istifadəçi ünsiyyətinin intensivliyini xeyli artırır. Eyni zamanda bu xidmətlər geniş istifadəçi kütləsini nəzərə alaraq, minimal bacarıqları olan istifadəçilər üçün optimallaşdırılmışdır. Veb 2.0 xidmətləri pulsuz açıq sosial xidmətlərdə böyük miqdarda materiallara çıxış, müəllim və şagirdlərə öz tədris materiallarını yaratmaq və redaktə etmək (mətnlər, şəkillər, səs yazıları, videolar, ...), mətn sənədləri, təqdimatlar, onlayn lövhələr yaratmaq, elmi icmalarda, tədqiqat layihələrində iştirak və birgə fəaliyyət imkanları yaradır.

Tədrisdə Web 2.0 ilk növbədə brauzer vasitəsilə öyrənmə alətlərinə daxil olmaqdan ibarətdir. Bu alətlərdən istifadə etməklə, tədrisin keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıra, dərsi fərqli səviyyədə tərtib edə, onu daha maraqlı, interaktiv, şagirdyönümlü, məhsuldar edə bilərik.

Təhsildə istifadə olunan Web 2.0 alətlərinin sayı hər gün artır. Bəzən elə gəlir ki, bu artımı izləmək belə mümkün deyil, çünki daim yeni alətlər yaranır, mövcudları təkmilləşdirilir. Aşağıda tədris prosesində ən çox istifadə oluna bilən veb alətlərinin keçidləri verilmişdir. Keçidlərə daxil olaraq sizi maraqlandıran veb alətdən istifadə edə bilərsiniz.

**https://www.google.com/maps**

GoogleMaps veb xəritədir. Bu xəritədən təbiətşünaslıq, tarix, coğrafiya dərslərində istifadə etmək olar. Tarix dərsində tarixi abidələri, coğrafiya dərslərində ölkələr arasında məsafəni, ekoloji cəhətdən çirkli olan ölkələri və s. göstərmək olar.

**https://picasaweb.google.com/**

Picasa onlayn veb albomdur. Şəkilləri kateqoriyalar üzrə sistemləşdirib albom yaratmaq imkanı var. Eyni zamanda şəxsi və digər internet istifadəçilərinin də izləyə biləcəkləri açıq albom yaratmaq mümkündür. Şəkillərə slayd şou rejimində də baxmaq olar. Eyni zamanda Google xəritəsində şəkillərin yerləşmə məkanını göstərmək mümkündür. Servisdə işləmək çox rahatdır. Naviqasiya çox sadədir.

https://www.matific.com/

Matific – Uşaqlar üçün riyazi oyunlar yaratmaq üçün istifadə oluna bilər.

https://bookcreator.com/

Book Creator – çox sadə üsulla elektron kitab yaratmaq mümkündür.

Banner, afişa, bülleten, təqdimat, logo, infoqrafiya, sertifikat və s. vizual məzmun hazırlamaq üçün istifadə olunan alətlər:

https://www.canva.com/

https://www.emaze.com/

**İnteraktiv testlər, viktorinalar yaratmaq üçün istifadə oluna bilən veb alətlər:**

https://kahoot.com/

https://www.socrative.com/

http://simpoll.ru/

https://testmoz.com/

https://quizizz.com/

http://www.triventy.com/

https://www.quizalize.com/

https://plickers.com/

**Veb səhifə və e-Portfel yaradılması üçün alətlər**

https://wordpress.com/

https://www.blogger.com/about/

https://www.wix.com/

https://sites.google.com/new

**Microsoft Teams platformasına inteqrasiya olunmuş təhsillə bağlı Veb alətlər:**

https://kahoot.it/

https://learningapps.org/

https://quizizz.com/

https://quizlet.com/latest

https://www.peardeck.com/join

https://padlet.com/dashboard

https://nearpod.com/

https://info.flipgrid.com/

https://jamboard.google.com/

https://www.mindmeister.com/ru

Veb alətlər hər gün yeniləndiyindən onlar haqqında məlumatları kitablardan deyil, internet resurslarından əldə etmək daha məqsədəuyğundur. Aşağıdakı keçidlərə daxil olmaqla müxtəlif veb alətlər haqqında məlumat əldə edə, həmçinin onlardan istifadə edə bilərsiniz.

https://oedb.org/ilibrarian/101-web-20-teaching-tools/

https://www.techlearning.com/tl-advisor-blog/3936

https://pdst.ie/sites/default/files/The100BestWeb2.0Tools.pdf

https://sites.google.com/a/eastholmesschools.org/what-you-need-to-know-about-web-2-0/

https://larryferlazzo.edublogs.org/2020/06/14/the-best-web-2-0-applications-for-education-in-2020-part-one/

https://www.edutopia.org/blog/five-free-web-2.0-tools-lisa-dabbs

# PRAKTİKADA SİNİF İDARƏ EDİLMƏSİ ÜSULLARI

- Fəttah Fəttayev -

Hər bir sinfin, hər bir şagirdin özünəməxsus xüsusiyyətləri var. Bütün halları ümumiləşdirib ideal idarəetmə forması hazırlamaq nə qədər çətin olsa da, mümkünsüz deyil. Sinfin, şagirdlərin xüsusiyyətlərinə uyğun olaraq tətbiq edə biləcəyiniz sadə və təsirli sinif idarəetmə yanaşmaları var. Bu yanaşmalar nizamlı bir təhsil mühiti quraraq, peşəkar şagird davranışını və akademik əlaqəni artıra bilər. Sinfin düzgün idarə edilməsi sinifdə nizamlı təhsil mühiti yaradır, akademik öyrənməni yaxşılaşdırır və sosial-emosional inkişafa kömək edir, şagirdlərin akademik fəallığını artırır və sinifdəki mənfi davranışları azaldır.

Sinfin idarə olunmasında dörd komponenti əvvəlcədən nəzərə alsanız, bu Sizə və şagirdlərinizə bütün il boyu uğur qazanmaqda yardımçı olacaq. Bunlar:

• **Sinif otağının dizaynı –** partaların necə düzülməsi, müəllim stolunun harada qoyulması, stolun üzərində nəyin olması, lövhənin ölçüsü və necə asılması, elan lövhələrinin, plakatların, əyani vəsaitlərin yerləşdirilməsi ilk baxışda əhəmiyyətli görünməsə də, böyük əhəmiyyətə malikdir. Düzgün tərtib olunmuş sinif dizaynı, rahat tədris şəraiti yaratmaq üçün əsas amillərdəndir.

• **Qaydalar və nizam-intizam –** normal tədris mühiti yaratmaq üçün hamı tərəfindən qəbul olunan qaydalar sistemi olmalı, bütün şagirdlər bu qaydalara hörmətlə yanaşmalı və ona əməl etməlidirlər. Qaydalara əməl etməməyin hansı nəticələr verəcəyini və buna görə hansı ölçü götürüləcəyini şagirdlərə əvvəlcədən bildirin.

• **Planlaşdırma/təşkilatlanma –** Vacib olan hər şeyin əvvəlcədən planlaşdırılması, hər bir işin vaxtında görülməsi və mütəşəkkil olmaq dərslərinizin düzgün qurulmasına və şagirdlərinizin uğur qazanmasına gətirib çıxaracaq.

• **Öyrətmə texnikası -** məzmun və tədris planına hər hansı dəyişilik edə bilməsəniz də, öyrətmə texnikalarını seçməkdə sərbəstsiniz. Məsələn, 10-cu sinifdə dərsi mühazirə

formasında izah etmək effekt verə bildiyi halda, 5-ci sinifdə əyləncəli və əyani metodlardan istifadə etmək daha məntiqli görünür. Sinfin ümumi vəziyyəti və şagirdlərin xarakterinə görə hansı öyrətmə metodlarından istifadə edəcəyinizi, dərsi necə quracağınızı düzgün müəyyənləşdirsəniz, uğurlu nəticəni təmin edə biləcəksiniz.

Ümumi orta təhsil səviyyəsində sinif idarəçiliyinin şagird davranışları ilə bağlı komponentləri daha aktual olur. Bu dövrdə müəllimlərinin həll etməli olduğu bəzi çətinliklərə aşağıdakılar daxildir:

**Akademik təzyiq**

5-ci sinifdən başlayaraq tədris olunan fənlərin və buna müvafiq olaraq fənləri tədris edən müəllimlərin sayının artması bəzi əlavə problemlər yaradır. Şagirdlər bu rejimə adaptasiya olunmaqda bir müddət çətinlik çəkir. Şagirdlərin yiyələnməli olduqları biliklərin həcminin çoxalması onlara qarşı akademik təzyiqin çoxalmasına səbəb olur. Təsadüfi deyil ki, verilən biliklərin bir-biri ilə zəncirvari bağlı olduğu riyaziyyat kimi fənlərdə şagirdlərin hər hansı bir neçə mövzunu mənimsəməməsi nəticəsində zəncirin halqasının qırılması və şagirdin bu fənn üzrə “təhsil ömrü”nün başa çatması adətən 5-6-cı siniflərdə daha çox müşahidə olunur. Şagird hər hansı mövzunu mənimsəmədikdə, bu biliklərə istinad olunan sonrakı mövzularda çətinlik çəkir. Bu proses bir neçə mövzuda təkrar olunduqdan sonra şagirdin həmin fənni mənimsəməsi adətən mümkün olmur, şagird keçilən dərslərdən heç bir şey öyrənə bilmir və bu fənn üzrə “təhsil ömrü”nü erkən başa vurmuş olur. Buna görə də müəllimin təqvim planında çətin qavranıla bilən mürəkkəb mövzuların tədrisinə daha çox vaxt ayırması məqsədəuyğundur.

**Mənfi emosiyaların başlanğıcı**

İbtidai sinif müəllimləri bir sinifdə dərs aparır və il boyu eyni (eyni yaşda) şagirdlərlə ünsiyyətdə olur, öz fəaliyyətini bir növ həmin yaş qrupunun fizioloji-psixoloji xüsusiyyətlərinə uyğunlaşdırır. Yuxarı siniflərdə isə müəllim eyni zamanda 5-11-ci siniflərdə tədris aparır. V-VI və X-XI siniflərdə oxuyan şagirdlərin yaş xüsusiyyətləri tamamilə fərqli olduğuna görə onlara qarşı tələblər və yanaşma da fərqli olmalıdır. Lakin bəzən müəllim müxtəlif yaş qruplarına daxil olan siniflərin şagirdlərinə qarşı tələbləri və yanaşmanı çevik şəkildə dəyişməkdə çətinlik çəkir. Praktikada bu tip problem daha çox V siniflərdə rast gəlinir. Akademik təzyiqin artdığı biz dönəmdə həm də yaş xüsusiyyətlərinə uyğun olmayan tələblər şagirdlərdə məyusluq, özünəinam hissinin aşağı düşməsi kimi mənfi emosiyalar yaranmağa başlayır. Bir müəllim kimi onlara başa salmalısınız ki, bir uğur və ya bir uğursuzluq hər şeyi həll etmir. Əgər bunu edə bilməsəniz, sinfiniz yarısı eyforiyaya qapılan, digər yarısı isə özünəinam hissini itirmiş küskün şagirdlərdən ibarət bir sinfə çevrilə bilər. Şagirdlərinizlə bu emosional problemlər haqqında danışmaq üçün planınızda yer ayırın.

**Zorakılıq halları**

Məktəbəqədər təhsildən sonra hər sinifdə yeni "xuliqan"lar meydana çıxır. Emosional zəiflik səbəbindən bəzi şagirdlər zorakılığa boyun əyməyə, bəzilərini isə zorakılıqdan zövq almağa meyilli olur. Bu kimi halların qarşısı dərhal alınmasa, sonra bu kimi hərəkətlərin qarşısını almaq mümkünsüz vəziyyətə gələ bilər. Şagirdlərin mənfi davranışlarının qarşısının alınması ilə bağlı fəsildə bu barədə ətraflı məlumat verilmişdir.

Əksər pedaqoqlar hesab edirlər ki, tədrisin keyfiyyəti 60% müəllimin biliyindən, 40% isə sinif idarəçiliyi bacarıqlarından asılıdır. Sinfinizi yaxşı idarə edə bilsəniz, tələbələrin, həmkarların və məktəb rəhbərliyinin nəzərində yaxşı müəllim olacaqsınız. Sinif idarəçiliyi bacarıqlarınız yüksək səviyyədə olarsa:

- Proqram materialını vaxtında bitirə biləcəksiniz
- Şagirdlərinizə intizamlı olmağı aşılaya biləcəksiniz
- Şagirdləriniz daim müsbət davranışlar sərgiləyəcəklər
- Şagirdlərinizlə daha yaxşı münasibət qıracaqsınız

Təqdim edəcəyimiz sinfin idarə olunması metodları sinifdə şagirdlərin davranışını yaxşılaşdırmaq, sinifdə həmrəylik yaratmaq səylərini tənzimləmək, öyrənmənin bir nömrəli kollektiv məqsəd olduğu müsbət sinif mühitini yaratmaqda inkişaf etdirmək üçün Sizə yardımçı olacaq. "Uğurlu müəllim" ola bilmək üçün təqdim etdiyimiz metodları sınayın.

**Hər bir şagirdin yüksək nəticələr əldə edə bilməsinə inanın!**

Rozental və Yakobson (1968) öz eksperimentləri zamanı məktəbəqədər hazırlıq sinfində təhsil alan 5 yaşlı uşaqlar arasında test keçirmiş və müəllimləri həmin uşaqların bəzilərinin xüsusi istedada malik olmalarına inandırmışdılar (həqiqətdə isə onlar orta səviyyəli uşaqlar idi). İlin sonunda onlar uşaqları testlə təkrar yoxlayarkən seçilmiş şagirdlərin topladıqları bal digərlərindən daha yüksək olub.

**Səbəb:** Müəllimin şagirdlərə fərqli yanaşması. Müəllim həmin şagirdlərin xüsusi istedada malik olmasını düşündüyündən onlara xüsusi diqqət yetirir və ya onlara qarşı münasibəti müsbət istiqamətə dəyişir.

**Nəticə:** Böyüklərin şəxsi mövqeyinin uşağa təsiri.

Yanaşmamız necə olmalıdır?

– Öz mövqeyinizə görə uşaqlarla fərqli davranmayın.
– Əgər uşağa "nadinc" adı qoysaq, bu onun davranışına mənfi təsir göstərəcək.
– Çalışmalıyıq ki, şagirdlər özləri haqqında müsbət fikirlərə malik olsunlar.

**Dərsin məzmunu və planına maraq yaradın**

Bu metod yaş səviyyəsindən asılı olmayaraq bütün təhsil səviyyələrində uğurlu nəticə verir. Dərsə, həmin gün öyrənəcəyiniz mövzunun şagirdləri maraqlandıra biləcək hissələrini vurğulamaqla başlayın. Elə edin ki, dərsin əvvəlində şagirdlərdə mövzunu öyrənməyə xüsusi maraq yaransın, sizin qoyduğunuz sualın cavabını öyrənməyə səbirsizlənsinlər. Bunun üçün, dərsə başlayarkən öyrədiləcək dərsin mövzusuna aid maraqlı suallar qoyun. Məsələn, bu gün dərsimizdə aşağıdakıları öyrənəcəksiniz:

- Müəllim kimi danışa bilmək üçün nə lazımdır?
- Bilirsinizmi, kosmosda insanlar niyə havada sərbəst qala bilirlər? (cazibə qüvvəsi)
- Niyə lotoreyada udan heç kəsi şəxsən tanımırsınız? (ehtimal)
- Niyə ay Günəşdən minlərlə dəfə kiçik olmasına baxmayaraq Günəş boyda görünür?
- Niyə tonlarla ağırlığı olan gəmi suda batmır?

Bu metodun tətbiqi şagirdləri dərsin mövzusu ilə dərhal maraqlandıracaq və bütün diqqətlərini dərsə yönəltməklə, verdiyiniz sualın cavabını öyrənmək istəyi yaradacaq.

**Müəllimin düzgün və ehtiyatlı davranışı sinifdə gərginliyi azaldır**

**Situasiya 1.** İngilis dili dərsində müəllim dərs izah edir, şagirdlər diqqətlə qulaq asırlar. Bu zaman Vüsalın partasının altından səs gəlir və vüsalın çantasında nə isə tərpənir. Birdən çantadan bir pişik balası çıxır. Hamı dönüb həmin tərəfə baxır. Vüsal müəllimin onu sərt danlayacağını düşünür və çox qorxur. O, qıpqırmızı qızarıb və qorxuğu gözlərindən açıq-aşkar hiss olunur. Müəllim pişik balasını görüb: "Uşaqlar, baxın görün nə qəşəng qonağımız var" – deyə onu qucağına götürüb əzizləməyə başlayır. Uşaqların üzündə təbəssüm yaranır. Vüsal da gülümsəməyə başlayır və hər şey qaydasına düşür.

**Situasiya 2.** Zəng vurulur. Fizika müəllimi sinfə daxil olduqda sinifdə sərçənin uçduğunu, şagirdlərin isə onu tutmağa çalışdığını görür. Müəllim şagirdləri sakitləşdirir, sərçəyə baxaraq deyir: "Uşaqlar səni çox qorxutdular? Yəqin acmısan, eləmi?" Sonra üzünü uşaqlara tutub: "Bəs niyə ona yemək, su vermirsiniz?". Həmin anda uşaqlar sərçəni çörək, bulka qırıntıları, bir qab suya qonaq edirlər. Uşaqlar sakitləşir, sərçə də həmçinin. Dərs öz axarında davam edir. Sərçə hərdən o tərəf, bu tərəfə uçur, amma dərsin gedişinə o qədər də mane olmur. Növbəti dərs digər müəllim sinfə daxil olan kimi: "bunu kim buraxıb sinfə?" deyə şagirdlərə acıqlanır, "pəncərəni kim açmışdı, boynuna alsın" deyə günahkarı axtarır, günahkarı tapa bilmədikdə: "onu sinfə necə buraxmısınızsa, eləcə də çıxarın bayıra!" deyə şagirdlərə əsəbiləşir. Şagirdlər bir-birinə qarışır, müəllim isə uşaqları onların valideynlərinə şikayət edəcəyi ilə hədələyir. Artıq dərsin bir hissəsi keçmiş və dərs pozulmuşdu. Sərçə isə hələ də otaqdan çıxa bilməmişdi....

**Təşəbbüskarlığı dəyərləndirin**

Şagirdlərinizi təşəbbüskar olmağa sövq edin, onları daim irəli baxmağa, qabağa getməyə həvəsləndirin. Sinfin aktiv şagirdlərindən hansısa biri və ya bir neçəsi mütləq bu yanaşmaya reaksiya verəcək. Məsələn, şagirdlərinizə növbəti dərs üçün və ya artıq bitirdiyiniz bölmə üzrə təqdimat hazırlamaqda kömək lazım olduğunu deyin. Aktiv şagirdlər bu işi Sizin əvəzinizdə etməyə həvəslə razı olacaqlar, hətta bu işi onlara tapşırdığınıza görə özlərini xoşbəxt hiss edəcəklər. Sonralar digər şagirdlər də onlar kimi hərəkət etməyə çalışacaqlar. Bu da şagirdlərin aktivləşməsinə, dərsə münasibətinə müsbət təsirini göstərəcək.

**Dərslərdə şifahi nitqdən daha çox əyani vasitələrdən istifadəyə üstünlük verin**

Məzmunun şagirdlərə çatdırılmasını yaxşılaşdırmaq üçün sözləri hərəkətlərlə və əyani vasitələrlə tamamlayın**.** Bu, şagirdlərin diqqətini cəmləmələrinə və dərsləri daha yaxşı mənimsəmələrinə kömək edəcək. Bir çox fərqli təlim strategiyaları bu metodlardan istifadəyə əsaslanır. Əyaniliyin təmin edilməsi – təqdimatlar, videolar, əyani vəsaitlərdən istifadə mənimsəməyə güclü təsir göstərir.

**Şagirdlərinizi mükafatlandırın**

Hər bir dərsin sonunda motivasiya və müsbət fəaliyyəti dəyərləndirmə məqsədilə yaxşı nümunə göstərmiş bir və ya neçə şagirdi mükafatlandırın **.**

Tutaq ki, bir neçə şagird bütün dərs boyunca fəal şəkildə dinləyir, sualları cavablandırır və öz suallarını verir. Dərsin sonunu gözləmədən, elə dərs zamanı onlara yaxınlaşın və onlara əvvəlcədən hazırladığınız mükafatla mükafatlandırın. Mükafat olaraq ulduz, əvvəlcədən hazırladığınız bilet və ya kartoçkadan istifadə edə bilərsiniz. Bu, digər şagirdləri də mükafat əldə etməyə həvəsləndirəcək. Mükafatları təkcə biliyə görə deyil, davranışa, çalışqanlığa və digər meyarlar üzrə vermək daha məqsədəuyğundur. Bununla, hər dəfə ən yaxşı oxuyan eyni şagirdləri deyil, öyrənmək üçün cəhd edən, müsbət davranışı ilə fərqlənən şagirdləri də mükafatlandırmaqla həvəsləndirəcəksiniz. Həftənin sonunda ən çox mükafat qazanmış şagirdi həftənin qalibi elan edə, növbəti həftə üçün ona hər hansı imtiyaz – məsələn, müəllimin köməkçisi vəzifəsini verə bilərsiniz. Qazanılmış müəyyən sayda mükafatı hər hansı xüsusi təşəkkürnamə, açıqca, kitab, konfet, dəftər, qələm və s. qiyməti baha olmayan hədiyyələrlə dəyişsəniz (məsələn, 10 ulduz və ya bilet = 1 qələm), hədiyyə qazanmış şagird özünü çox xoşbəxt hiss edər və daim mükafat əldə etmək üçün çalışar. Siz bu metodu öz ideyalarınızı da əlavə etməklə, sinfin ruhuna uyğun müxtəlif formalarda həyata keçirə bilərsiniz.

**Valideynlərə təşəkkür məktubları göndərin**

Siz şagirdlərin müsbət fəaliyyətini (davranışı, fəallığı, təlim nəticələri və s.) dəyərləndirdiyinizi göstərmək məqsədi ilə valideynlərə məktub göndərsəniz, valideynləri yaxşı mənada təəccübləndirə bilərsiniz. Məktub göndərmək çətin olduğu halda, təşəkkürünüzü zəng edərək də bildirə bilərsiniz. Bununla həm şagirdlərə qarşı diqqətli olduğunuzu, onların istənilən müsbət fəaliyyətini dəyərləndirdiyinizi nümayiş etdirəcək, həm də şagirdlərdə ruh yüksəkliyi, motivasiya yaratmaqla onların özlərini bir növ xoşbəxt hiss etməsinə səbəb olacaqsınız.

Övladı haqqında xoş rəylər alan valideyn, şübhəsiz ki, onu təbrik edib tərifləyəcək, şagirdlər də çox güman ki, daha çox müsbət rəy qazanmaq üçün daha səylə çalışacaqlar. Digər tərəfdən, övladının xoş sorağını eşidən valideyn, onun dərsləri ilə daha çox maraqlanacaq, öyrənməsinə daha yaxşı şərait yaratmağa cəhd edəcək.

**Şagirdlərin bir-birini öyrətməsinə çalışın**

Yaxşı oxuyan şagirdləri sinif yoldaşlarına kömək etməyə həvəsləndirin. Onlara izah edin ki, hər bir şagird bildiklərini sinif yoldaşlarına öyrətdikdə özü daha yaxşı öyrənmiş olacaq və öyrəndikləri daha yaxşı yadda qalacaq. “Öyrədərək öyrənirik” devizi altında şagirdləri bir-birinə öyrətməyə çağırın. Dərsləri gec mənisəyən şagirdlərin hər birinə bir yaxşı oxuyan şagird təhkim edin və “oxuyan dostlar” cütləri yaradın. Daha yaxşı olar ki, bu seçim könüllü olsun. Öyrənən şagirdin hər bir uğuruna görə təkcə həmin şagirdi deyil, həm də öyrədən şagirdi tərifləyin.

Bu metod xüsusiə ünsiyyət problemi səbəbindən geri qalan şagirdlər üçün daha effektli vasitə hesab olunur. Belə şagirdlər başa düşmədiklərini bütün sinif qarşısında soruşmağa çəkinirlər, mövzunu başa düşməsələr də, müəllimin “başa düşdünüzmü?” sualına “bəli” deyə cavab verirlər. Sinfinizdə belə bir şəraiti yaratmağa, şagirdləri buna uyğunlaşdırmağa bir az vaxt sərf etməli olacaqsınız, lakin bir müddət sonra yaxşı oxuyan şagirdlər Sizin köməkçilərinizə çevriləcək, Sizin təkcə görməli olduğunuz iş artıq bir neçə nəfər arasında paylanmış olacaq. Bununla da sinifdə şagirdlər arasında dostluq yaranacaq, zəif oxuyan şagirdlərdə irəliləyişlər hiss edəcəksiniz, yaxşı oxuyan şagirdlər isə özlərini müəllim köməkçisi kimi hiss edib daha da həvəslənəcəklər.

**Oyun tipli qiymətləndirmə tətbiq edin**

Cənubi Koreya mütəxəssislərinin tədqiqatları göstərir ki, dərsləri oyunlara bənzətməklə şagirdlərdə motivasiya yaratmaq və öyrənməyə həvəsləndirmək şagirdlərin təlim nəticələrinə müsbət təsir edir.

Əvvəlcə bal sistemi yaradın. Bunun üçün hər bir şagirdə məktəbdaxili qiymətləndirmə ballarından əlavə ballar (oyunlarda olduğu kimi, məsələn XP) verin. Sonra hər bir mövzuya, formativ və summativ qiymətləndirməyə, apardığınız testlərə uyğun uyğun əlavə ballar təyin edin. Məsələn, summativ qiymətləndirmədə 60 bal toplamış şagirdə 6000 XP verin. Siz bu balları əlavə həll olunmuş tapşırıqlara görə, fəallığa görə və s. verə bilərsiniz.

Bölmələri və mövzuları oyunun səviyyələri və mərhələləri kimi dəyərləndirin. İl ərzində tədris olunacaq mövzuların ümümi strukturunu bilmədikləri üçün şagirdər bunu başa düşməyəcəklər. Hər bir mərhələ və səviyyə üçün şagirdin (oyunçunun) toplaya biləcəyi maksimum XP balını müəyyən edin. Növbəti mərhələyə keçmək üçün minimum XP balı müəyyən edin və onlar qarşısında bu balı toplamaq məqsədini qoyun. Şagirdlər özlərini oyunçu kimi hiss etdikdə, hər mərhələdə toplaya biləcəkləri maksimum balı və növbəti mərhələyə keçə bilmək üçün ən azı nə qədər bal toplamalı olduqlarını biləcəklər. Növbəti mərhələyə (bölməyə) keçə bilmək üçün şagirdlər ən azı minimum XP balı toplamağa cəhd göstərəcəklər. Siz bu üsulu düzgün tətbiq edə bilsəniz, ayrı-ayrı şagirdlər həmin balları toplamağa cəhd etdikləri üçün bütün sinifdə təlim nəticələrinin yüksəlməsini şahidi olacaqsınız.

**Şagirdləri qapının ağzında qarşılayın**

Şagirdlərinizi sinif otağının qapısında qarşılayın, onlarla görüşün, onlara xoş sözlər deyin. Son illərdə sosial şəbəkələrdə şagirdlərin sinif otağına daxil olması zamanı müəllimlərin (çox təəssüf ki, yalnız ibtidai siniflərdə) onlarla əl-ələ vurması, qucaqlaşması kimi elementlərin yer aldığı “qarşılama mərasimi”nin görüntüləri ilə yəqin ki rastlaşmısınız. Gözünüzü yumun, özünüzü şagirdin yerində təsəvvür edin və müəlliminizin Sizi səmimiyyətlə salamlayaraq qarşıladığını təsəvvür edin. Nə hiss etdiniz? Eyni hərəkəti etsəniz, şagirdləriniz Sizin təsəvvür etdiyinizdən daha artıq sevinəcək, özlərini xoşbəxt hiss edəcəklər.

Tədqiqatçı pedaqoq-psixoloqların fikrinə görə belə qarşılanma sinfə bütün günə bəs edəcək qədər pozitiv enerji verir, akademik nailiyyətlərin 20 faiz artmasına, neqativ davranışların 9 faiz azalmasına gətirib çıxarır.

Bu cür qarşılama həm də sinfin, ayrı-ayrı şagirdlərin ümumi əhvalını hiss etməyinizə yardımçı olacaq. Bu hərəkəti, həkimin pasiyentin nəbzini yoxlaması ilə müqayisə etmək olar. Belə qarşılama ilə Siz həm də dərsə başlamadan öncə sinfin “nəbz”ini yoxlamış olursunuz.

**Müxtəlif üsullarla şagirdlərin diqqətini toplamağa çalışın**

Müəllim dərs izah edir, şagirdlər diqqətini müəllimə yönəldərək sakitcə ona qulaq asırlar. Bu, psixologiyada ixtiyari diqqət adlanır. İxtiyari diqqət – qarşıya qoyulmuş şüurlu məqsədlə

əmələ gələn və müəyyən iradi səy tələb edən diqqətdir. Onun yaranması insanın xüsusi niyyəti və məqsədilə bağlıdır.

Birdən qapı açılır. Bu zaman hamı başını çevirib qapıya tərəf baxır. Bu isə qeyri-ixtiyari diqqətdir. Qeyri-ixtiyari diqqət heç bir xüsusi məqsədlə, niyyətlə bağlı olmayan və iradi cəhd tələb etməyən diqqətdir. Qeyri-ixtiyari diqqətin əmələ gəlməsi üçün qıcıqlandırıcı təsirin olması lazımdır. Qüvvətli səs, güclü işıq, kəskin iy diqqəti qeyri-ixtiyari cəlb edən qıcıqlandırıcı amillərə misal ola bilər.

Yeniliklər – yeni əyani vəsait, sinifdə yeni şagirdin olması dərhal bələdləşmə refleksi əmələ gətirərək, qeyri-ixtiyari diqqətin yaranmasına səbəb olur. Ətrafda baş verən və adi hallarda olduğundan fərqli hadisələr – səs tonunun dəyişməsi, hərəkətlilik (xüsusilə gözlənilməyən qəfil hərəkətlər, hərəkətin başlanması və qurtarması anları) da diqqəti qeyri-ixtiyari olaraq cəlb edir.

Asta templə danışan müəllimin səsini ani olaraq ucaltması və ya birdən susması, barmağını və ya qələmi stolun üstünə vuraraq taqqıldatması, əlini summativ tapşırıqlarını yazıb qurtaran kimi ayağa qalxan şagirdə tərəf uzadıb əyləşməsini işarə etməsi şagirdlərin diqqətinin qeyri-ixtiyari olaraq müəllimə tərəf yönəlməsinə səbəb olur. Qeyd edək ki, bunlar müəllimlərimizin ən çox istifadə etdiyi üsullardandır.

Şagirdlərin diqqətini cəlb etmək üçün bu üsulların istifadəsi həddini aşmamaq şərtilə məqbul sayılır. Müəllimin şagirdə yüksək səslə qışqırması, əlini var gücü ilə stolun üstünə çırpması kimi hallar diqqəti cəlb etməkdən daha çox, müəllimin sinfi idarə edə bilməməsindən yaranan çarəsizliyi ifadə edir.

**Şagirdlərin hansı partada əyləşməsini özünüz müəyyən edin**

Əgər şagirdlər öz istədikləri yerdə əyləşirlərsə, demək, onlar özləri üçün əlverişli olan yeri seçirlər. Adətən, dərs zamanı söhbət edən, telefonla oynayan şagirdlər arxa sıralarda və bir partada oturmağa üstünlük verirlər. Bu cür dərsdən yayınan şagirdlərin hansı partada oturmasını özünüz müəyyən etməklə, onların dərsə mane olmaları üçün əlverişli mövqe seçmələrinə mane olun.

**Dərslərə ciddi hazırlaşın**

Dərslərə ciddi hazırlaşın, fənninizi mükəmməl öyrənin, daim mütaliə edin ki, şagirdlər qarşısında pis vəziyyətdə qalmayasınız. Şagird tədris etdiyiniz fənnə aid internetdə rast gəldiyi hər hansı məsələ ilə bağlı sual verir, lakin məlum olur ki, Sizin verdiyiniz cavab düzgün deyil. Bu halda şagirdlərdə Sizin haqqınızda hansı düşüncə formalaşacağını yəqin ki, təsəvvür edirsiniz.

Digər bir nümunə: Müəllim şagirdlə birlikdə lövhədə çalışma həll edir, lakin sonda düzgün cavab alınmır. Müəllim çalışmanın həllində hansı səhvi buraxdığını axtaran zaman şagirdlər səs-küy salır. Müəllim şagirdlərə tərəf çevrilib: "uşaqlar, sakit olun!" deməsinə baxmayaraq, nəticə olmur. Hətta öz aralarında "orta məktəb çalışmasını belə həll edə bilmir!" deyə müəllimi lağa qoyurlar.

**Kollektiv fəaliyyət insanları bir-birinə yaxınlaşdırır**

Sosial psixoloqlar təşkilatlanmanın ən effektiv forması kimi mümkün olduğu qədər kollektiv fəaliyyətə üstünlük verilməsini tövsiyyə edirlər. Kollektiv fəaliyyət insanları bir-birinə yaxınlaşdırır və onlara hörmət qazandırır. Dərslərinizdə mümkün olduqca qrup işlərinə üstünlük verin, bu, şagirdlər arasında kollektivçilik ruhunun formalaşmasına kömək edəcək.

**Qoyduğunuz qaydalara ciddi əməl edin, fərdlərə görə istisnalara yol verməyin**

Qoyduğunuz qaydalara əməl etməkdə ciddi və ardıcıl olun, fərdlərə görə istisnalara yol verməyin. Əgər bir gün icazə vermədiyiniz hər hansı hərəkətə başqa bir gün əhəmiyyət verməsəniz, qoyduğunuz qaydalar şagirdlərə məlum olmayacaq, onlardan hansı davranışların tələb olunduğunu bilməyəcəklər. Həmçinin, şagirdlər arasında ayrıseçkilik etməyin, bununla Siz "ədalətsiz müəllim" imici qazanmış olursunuz ki, bu da sinifdə hörmətinizin, avtoritetinizin aşağı düşməsinə səbəb olacaq.

**"Sevimli şagird"lərinizə əlavə imtiyazlar verməyin**

Müəllimin vəzifəsi fənni bütün şagirdlərə mənimsətməkdir. Təbii ki, dərslərə daim hazır gələn şagirdlər müəllimlərin sevimlisinə çevrilir. Lakin dərs yalnız müəllimin "sevimli", əlaçı şagirdləri üçün deyil. Müəllimin bu şagirdlərə xüsusi münasibəti digər şagirdlərə qarşı diqqətsizliklə müşaiyət olunmamalıdır. Müəllim hər zaman obyektivliyi qorumalı, bütün şagirdlərə eyni münasibət göstərməlidir. Hər bir şagirdə qarşı diqqətli olsanız, əmin olun ki, ən "çətin" şagirdlərlə belə dil tapa biləcək, onları öyrənməyə həvəsləndirə biləcəksiniz. Bu, gələcəkdə Sizin əsil peşəkar müəllim olmanıza çox kömək edəcək.

## Təhsilalanların, təhsilverənlərin, valideyn və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri

*Təhsilalanların, təhsilverənlərin, valideyn və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu", "Ümumi təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda təsbit olunmuşdur.*

## Ümumi təhsil haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**Maddə 22. Ümumi təhsil sahəsində təhsilalanların hüquq və vəzifələri**

22.1. Ümumi təhsil sahəsində təhsilalanların hüquqları Azərbaycan Respublikasının Konstitusiyasına, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, bu Qanuna, həmçinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq müəyyən edilir.

22.2. Ümumi təhsil sahəsində təhsilalanların aşağıdakı hüquqları vardır:

22.2.1. həyat və sağlamlıq üçün təhlükəsiz şəraitdə, mənəvi-psixoloji cəhətdən sağlam pedaqoji mühitdə dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;

22.2.2. təhsil müəssisəsini, tədris dilini, xarici dili, tam orta təhsil səviyyəsində təhsilin təmayülünü, tədris olunan dərsdənkənar məşğələləri (fakültativ kursları) sərbəst seçmək;

22.2.3. dövlət və bələdiyyə ümumi təhsil müəssisələrində dərsliklərlə pulsuz təmin olunmaq;

22.2.4. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;

22.2.5. təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;

22.2.6. şərəf və ləyaqəti aşağılayan, fiziki, mənəvi və psixoloji zorakılıq hallarından, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;

*22.2.6-1. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;* [18]

22.2.7. ümumi təhsil müəssisəsinin mövcud infrastrukturundan (tədris, informasiya, mədəni-məişət, idman, sağlamlıq mərkəzlərindən, laboratoriyalardan, kitabxanalardan və s.) istifadə etmək;

22.2.8. bilik və bacarıqlarını təkmilləşdirmək üçün məktəbdənkənar təhsil müəssisələrinin imkanlarından istifadə etmək;

22.2.9. ümumi təhsil müəssisəsinin ictimai, sosial və mədəni həyatında iştirak etmək;

22.2.10. təhsillə bağlı inkişafyönlü tədbirlərdə (olimpiada, bilik yarışları, fənn müsabiqələri, konfrans, seminar, proqram və layihələr) iştirak etmək;

22.2.11. qanunda nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

22.3. Ümumi təhsil müəssisələri şagirdlərinin təhsil prosesi ilə bağlı olmayan işlərə və tədbirlərə cəlb edilməsinə yol verilmir.

22.4. Ümumi təhsil sahəsində təhsilalanların vəzifələri aşağıdakılardır:

22.4.1. dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;

22.4.2. üzrsüz səbəblərdən dərsdənyayınma hallarına yol verməmək, verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirmək;

22.4.3. təhsil müəssisəsinin nizamnaməsinin tələblərinə, daxili intizam qaydalarına əməl etmək;

22.4.4. pedaqoji işçilərə, pedaqoji prosesin digər iştirakçılarına, bütün insanlara hörmət və ehtiramla yanaşmaq;

22.4.5. dövlət, cəmiyyət, ailə və özü qarşısında öz məsuliyyətini dərk etmək;

22.4.6. öz məktəb yoldaşları ilə təhsildə əməkdaşlıq etmək;

22.4.7. sağlam həyat tərzi keçirmək;

22.4.8. qanunda nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**Maddə 23. Ümumi təhsil sahəsində təhsilverənlərin hüquq və vəzifələri**

23.1. Ümumi təhsil sahəsində təhsilverənlərin hüquq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyası, bu Qanun və digər normativ hüquqi aktlar, Azərbaycan

Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, təhsil müəssisəsinin nizamnaməsi və daxili intizam qaydaları, eləcə də işəgötürənlə təhsilverən arasında bağlanılan əmək müqaviləsi ilə tənzimlənir.

23.2. Ümumi təhsil sahəsində təhsilverənlərin hüquqları aşağıdakılardır:

23.2.1. təhlükəsiz iş və normal təhsil şəraiti ilə təmin olunmaq;

23.2.2. təhsil müəssisəsinin nizamnaməsinə uyğun olaraq təhsil prosesinin təşkilində və idarə olunmasında iştirak etmək, təkliflər irəli sürmək;

23.2.3. şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək;

23.2.4. tədrisin forma, metod və vasitələrini sərbəst seçmək, tədris-metodik vəsaitlərlə təmin olunmaq;

23.2.5. yeni ixtisas almaq, staj keçmək, *ixtisas və elmi dərəcəsini* yüksəltmək; [19]

23.2.6. mükafatlandırılmaq və təltif olunmaq;

23.2.7. təhsil müəssisəsində vəzifə tutmaq, seçkili vəzifələrə seçmək və seçilmək;

23.2.8. qanunda nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

23.3. Ümumi təhsil sahəsində təhsilverənlərin vəzifələri aşağıdakılardır:

23.3.1. ümumi təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

23.3.2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada sertifikatlaşdırılmadan keçmək;

23.3.3. təhsil proqramlarının (kurikulumların) mənimsənilməsini təmin etmək, keyfiyyətli təhsil vermək;

23.3.4. ixtisasını artırmaq, qabaqcıl pedaqoji təcrübələri, müasir interaktiv təlim metodlarını, innovasiyaları öyrənmək və tətbiq etmək;

23.3.5. ümumi təhsil müəssisəsinin daxili intizam qaydalarına əməl etmək və əmək müqaviləsi ilə müəyyənləşdirilmiş əmək funksiyalarını yerinə yetirmək;

23.3.6. təhsilalanlarda Azərbaycan Respublikasının müstəqilliyinə, Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, Azərbaycan xalqının dəyərlərinə və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamaq;

23.3.7. təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq;

23.3.8. etik davranış qaydalarına, pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək, təhsilalanların şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

23.3.9. təhsilalanları fiziki və psixi zorakılığın bütün formalarından qorumaq və zərərli vərdişlərdən çəkindirmək, təhsilalanların təhlükəsizliyinin və sağlamlığının mühafizəsində iştirak etmək;

23.3.10. əlavə məşğələlər, sinifdənxaric və məktəbdənkənar tədbirlər keçirmək;

23.3.11. valideynlərlə əməkdaşlıq etmək, təhsilalanların təlim nailiyyətləri barədə valideynləri məlumatlandırmaq;

23.3.12. məktəb rəhbərliyi, məktəb psixoloqu və həmkarları ilə əməkdaşlıq etmək, təhsilalanların təlimi və inkişafı ilə bağlı məsləhətləşmələr aparmaq;

23.3.13. qanunda nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**Maddə 24. Ümumi təhsil sahəsində valideynlərin və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri**

24.1. Ümumi təhsil sahəsində valideynlərin və ya digər qanuni nümayəndələrin hüquqları aşağıdakılardır:

24.1.1. yetkinlik yaşına çatmayan övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) üçün təlim-tərbiyə müəssisəsini seçmək;

24.1.2. təhsil prosesinin təşkili, tədrisin keyfiyyəti, övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) dərsə davamiyyəti, təhsilə marağı və davranışı haqqında məlumat almaq;

24.1.3. təhsilalanların hüquqlarını müdafiə etmək, təhsil müəssisəsinin idarə olunmasında iştirak etmək;

